

**"Bizim yolumuz açıqdır. Biz bundan sonra da inkişaf və tərəqqi yolu ilə gedəcəyik."**

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının Baş Prokurorluğu

*Elmi-praktiki jurnal*
*Oktyabr - Dekabr (2016-cı il)*



**REDAKSİYA HEYƏTİ**

**Baş redakor:**
Namiq Əsgərov

**Baş redaktorun müavini:**
Nazir Bayramov
(nazirbairamov@mail.ru)

**Redaksiya heyətinin üzvləri:**
Müqəddəs Sultanov
Nazim Rəcəbov
İlqar Cəfərov
Nazim Abbasov
Natiq Hüseynov

**Məsul katib:**
Günay Əyyubova



**Redaksiyanın ünvanı:**
AZ 1001, Azərbaycan Respublikası,
Bakı şəhəri, S.Tağızadə küçəsi, 78 A.
**Tel.:** 492 25 17 **Faks:** 492 25 17
**www.genprosecutor.gov.az**



"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən, rübdə bir dəfə dövrilikdə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 1 iyun 2010-cu il tarixli, 10/53 nömrəli "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibinin təsdiq edilməsi haqqında əmrinə əsasən, Azərbaycan Respublikası Prokurorluğunun elmi-praktiki mətbu orqanı olan "Azərbaycan Prokurorluğu" jurnalının fəaliyyəti üçün məsul qurum kimi Baş Prokurorluğun Elm-Tədris Mərkəzi müəyyənləşdirilmişdir.

Materiallardakı faktların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Materiallarımızdan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 18.01.2017
60x84 1/8 formatda 128 səhifə həcmdə çap olunmuşdur.
Tiraj: 770 nüsxə



© "Azərbaycan Prokurorluğu", 2016

# MÜNDƏRİCAT


## İCTİMAİ-SİYASİ TƏDBİRLƏR

**4** Prezident İlham Əliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda iştirak edib

**10** Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib

**22** Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

**26** Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilə münasibətilə Azərbaycan xalqına təbriki

## RƏSMİ TƏDBİRLƏR

**28** Azərbaycan Prokurorluğu orqanlarının yaradılmasının 98-ci ildönümünü Baş Prokurorluqda qeyd olunmuşdur

**32** Prokurorluq işçiləri həvəsləndirilmişlər

**38** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq orqanlarının yaradılmasının 98 illiyinə həsr olunmuş tədbir keçirilmişdir

**40** Baş Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir

**44** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir

**46** Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

**47** Türkiyənin Azərbaycandakı səfiri Baş Prokurorluqda olmuşdur

**48** Rusiya Federasiyasının İnsan hüquqları üzrə müvəkkili Azərbaycan Respublikasının Baş Prokurorluğunda olmuşdur

## TƏBRİKLƏR

**49** 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibəti ilə Azərbaycan Respublikasının Baş prokuroru I dərəcəli dövlət ədliyyə müşaviri cənab Zakir Qaralovun ünvanına daxil olan təbrik məktubları

## TƏHLİLLƏR, TƏKLİFLƏR

**67** Nazir Bayramov – İnzibati xəta haqqında işə baxan məhkəmədə prokurorun iştirakı mühakimənin ədalətli olmasının zəruri şərtidir

**72** Rəhman Əhmədov – Cinayətdə iştirakçılığın tövsifinin bəzi məsələləri

## İCTİMAİYYƏTƏ HESABAT

**76** Baş Prokurorluqda Azərbaycanın dövlət müstəqilliyinin iyirmi beşinci ildönümünə həsr olunmuş konfrans keçirilmişdir

**78** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 25 illiyi münasibətilə dəyirmi masa keçirilmişdir

**79** Baş Prokurorluğun Elm-Tədris Mərkəzində "İnzibati xəta haqqında iş üzrə icraat zamanı prokuror nəzarətinin həyata keçirilməsinin taktiki və metodiki məsələləri" mövzusunda ixtisasartırma kursu keçirilmişdir

**80** "Aktivlərin bərpası sahəsində qarşılıqlı hüquqi yardım" mövzusunda təlim keçirilmişdir

**81** Masallı və Göygöl rayon prokurorluqlarında insan hüquqlarının müdafiəsinə aid seminar keçirilmişdir

**81** Şərur rayon prokurorluğunda "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda seminar keçirilmişdir

## BEYNƏLXALQ ƏLAQƏLƏR

**82** Beynəlxalq Antikorrupsiya Akademiyası ilə əməkdaşlıq uğurla davam etdirilir

**83** Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı çərçivəsində regional əməkdaşlıq uğurla davam etdirilir

**84** Beynəlxalq sənədin qəbulunda ölkəmizin müsbət təcrübəsi nəzərə alınmışdır

**85** "İnternetdən terrorçuluq məqsədləri üçün istifadə edilməsinin qarşısının alınması və mübarizə sahəsində təcrübə mübadiləsi" mövzusunda beynəlxalq konfrans keçirilmişdir

**86** Portuqaliya Respublikasının Ədliyyə Tədris Mərkəzi və Baş Prokurorluğu ilə (Dövlət ittihamı Nazirliyi) tədris sahəsində təcrübə mübadiləsi aparılmışdır

**87** Azərbaycanlı məzunlara Beynəlxalq Antikorrupsiya Akademiyasının diplomları təqdim olunmuşdur

**88** "Cinayətkarlığın qarşısının alınmasında psixoloji dəyərləndirmənin rolu" mövzusunda beynəlxalq tədbir keçirilmişdir

## HÜQUQİ AKTLAR

**89** Prokurorluq üzrə hüquqi aktlar

**101** Qanunvericiliyə dəyişikliklər

# Prezident İlham Əliyev Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbulda iştirak edib

**Azərbaycanın dövlət müstəqilliyi bərpasının 25-ci ildönümü qeyd olunub**

Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr olunmuş rəsmi qəbul təşkil edilib.

Prezident İlham Əliyev rəsmi qəbulda iştirak edib.

Azərbaycanın dövlət himni səslənib.

Prezident İlham Əliyev rəsmi qəbulda nitq söyləyib.

## Prezident İlham Əliyevin nitqi

– Hörmətli xanımlar və cənablar.



İyirmi beş il bundan əvvəl – 1991-ci il oktyabrın 18-də Azərbaycan Ali Soveti Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etmişdir. Beləliklə, Azərbaycan XX əsrdə ikinci dəfə müstəqilliyə qovuşurdu. 1918-ci ildə müsəlman aləmində ilk demokratik respublika Azərbaycanda qurulmuşdur. Haqlı olaraq fəxr edirik ki, biz müsəlman aləmində birinci idik. Bu dəfə – 1991-ci ildə isə Azərbaycan öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında birincilər sırasında deyildi. Öz dövlət müstəqilliyini elan edən müttəfiq respublikalar arasında Azərbaycan sayca 13-cü idi. Bu, tarixdir. Biz tarixi bilməliyik, yaddan çıxarmamalıyıq. Hesab edirəm ki, Azərbaycan o vaxt öz dövlət müstəqilliyini daha əvvəl elan edə bilərdi. Bu qədər gözləmək lazım deyildi. Xüsusilə onu da yaddan çıxarmamalıyıq ki, Sovet İttifaqının özəyini təşkil edən Rusiya öz dövlət müstəqilliyini avqust ayında, bizdən iki ay əvvəl elan etmişdi.

Onu da qeyd etməliyəm ki, hələ 1990-cı ildə ulu öndər Heydər Əliyev müstəqillik yolunda çox önəmli və ciddi addımlar atmışdır. 20 Yanvar faciəsindən sonra o, birinci şəxs idi ki, sovet rəhbərliyini pislədi, Qanlı Yanvar faciəsini törədənlərə qarşı öz iradlarını irəli sürdü, onları ittiham etdi, sovet hökumətini, onun rəhbərinin fəaliyyətini pislədi. Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi və bu, müstəqillik uğrunda birinci addımlar idi. Ondan sonra, artıq Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi 1990-cı ilin noyabr ayında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək, "Sovet Sosialist" sözlərini oradan çıxardı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı o



vaxt Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi elan edilmişdir və Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, burada da bu addım atılsın. Əfsuslar olsun ki, bunu etmədilər. 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir. Bütün bu addımlar müstəqillik yolunda atılan addımlardır. Digər tərəfdən bütün bu addımlar onu göstərir ki, ulu öndər Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin təşəbbüskarıdır, onun banisidir.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı, biz böyük itkilərlə üzləşməzdik. Müstəqilliyimizin birinci dövrü faciəvi dövr idi. 1991-1993-cü illərdə Azərbaycan çox böyük problemlərlə, itkilərlə üzləşmişdir. Bu dövrü iki mərhələyə bölmək olar. Birinci mərhələ 1991-ci ilin oktyabr ayından 1992-ci ilin yay aylarına qədər olan dövrdür. Bu dövr itirilmiş imkanlar, itkilər dövrü idi. Ermənistan Azərbaycana qarşı təcavüzə başlamışdı, azərbaycanlılar Dağlıq Qarabağdan qovulurdular. 1992-ci ilin may ayında Şuşanın və Laçın rayonunun işğal altına düşməsi böyük itki, böyük faciə idi.

O illərdə dövlətçiliyin əsasları qurulmamışdı, ekstremist elementlərə qarşı ciddi mübarizə aparılmamışdı, nizami ordu yaradılmamışdı, cəmiyyətdə milli həmrəylik, milli birlik yox idi. Bütün bu amillərdən, xüsusilə Şuşanın və Laçın rayonunun işğal altına düşməsindən istifadə edərək, – halbuki bu rayonların işğal altına düşməsində bilavasitə AXC-Müsavat qruplaşmasının rolu vardı, – bu qruplaşma hakimiyyəti qanunsuz olaraq zəbt etmişdi və birinci dövrün ikinci dəhşətli mərhələsi başlamışdı.

1992-ci ilin yay aylarından 1993-cü ilin iyun ayına qədərki dövr biabırçılıq, rüsvayçılıq, fəlakət dövrü idi. Hakimiyyəti qanunsuz olaraq zəbt etmiş AXC-Müsavat qruplaşması ölkəmizi uçuruma aparırdı. Kəlbəcər rayonunun 1993-cü ilin aprel ayında işğal altına düşməsindən sonra Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yaradıldı. Azərbaycanın daxilində gedən proseslər ölkəmizi çökdürürdü. İqtisadi böhran yaşanırdı, sənaye demək olar ki, iflic vəziyyətə düşmüşdü. O vaxtkı hakimiyyət ancaq öz maraqlarını təmin etmək üçün çalışırdı. O vaxt korrupsiya, rüşvətxorluq son həddə çatmışdı. Ölkəmizdə qanunsuz silahlı birləşmələr meydan oxuyurdu, Bakının küçələrində əlisilahlı adamlar dəstə-dəstə gəzirdi,



insanları incidirdi. Baxmayaraq ki, Ermənistan ilə qanlı döyüşlər gedirdi AXC-Müsavat qruplaşması Azərbaycanda öz hakimiyyətini saxlamaq üçün vətəndaş müharibəsinə başlamışdı. Gəncə şəhəri onlar tərəfindən bombalanmışdı, qardaş qanı axıdılmışdı və bunun nəticəsində biz daha da böyük itkilərlə üzləşdik.

Cəmi bir il ərzində AXC-Müsavat qruplaşmasının yarıtmaz, xəyanətkar fəaliyyəti nəticəsində Azərbaycan öz dövlət müstəqilliyini itirmək ərəfəsində idi və tarix sanki təkrarlanırdı. 1918-ci ildə əldə edilmiş müstəqilliyi 1920-ci ildə itirdik - 2 il ərzində. Bu dəfə də 2 ildən sonra artıq buna çox yaxın idik. Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevi Naxçıvanda devirmək, o cümlədən silahlı desant göndərmək istəyən AXC-Müsavat qruplaşması özü də ağır vəziyyətə düşəndən sonra Heydər Əliyevə müraciət etdi, onu Bakıya dəvət etdi ki, onların canlarını qurtarsın. Naxçıvana üç dəfə təyyarə göndərmişdilər. Heydər Əliyev Bakıya gəlməklə, ilk növbədə, Azərbaycan xalqının iradəsinə öz hörmətini göstərdi. O, böyük dövlət adamı, vətənpərvər insan kimi o ağır anlarda Bakıya gəldi və ondan sonra Azərbaycanda inkişaf dövrü başlamışdır. 1993-cü il dönüş ili idi. İyun ayında Heydər Əliev Ali Sovetin sədri seçilmişdir və vəziyyət yavaş-yavaş inkişafa doğru getməyə başlamışdır. İlk növbədə, qanunsuz silahlı birləşmələr tərk-silah edildi, ordu quruculuğunda ciddi addımlar atıldı, dövlətçiliyin əsasları qoyuldu, sabitlik təmin edildi. 1995-ci ildə müstəqil Azərbaycanın Konstitusiyası qəbul olundu. Ölkəmizdə çox ciddi siyasi islahatlar aparılmağa başlanmışdır. Onu da qeyd etməliyəm ki, əslində, müasir Azərbaycanda siyasi sistemin formalaşmasında Yeni Azərbaycan Partiyasının xüsusi yeri vardır.

1992-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası müxalifət partiyası kimi yaradılmışdır və siyasi mübarizə nümunəsini göstərmişdir. Azərbaycanda Heydər Əliyevin rəhbərliyi ilə aparılmış siyasi islahatlar demokratiyanın inkişafına, insan haqlarının qorunmasına hesablanmışdır. Azərbaycan o illərdə beynəlxalq təcriddən çıxa bilmişdir. Çünki ölkəmiz haqqında dünyada informasiya yox idi. Ermənistan erməni lobbisinin imkanlarından istifadə edərək bizə qarşı qarayaxma kampaniyası aparırdı. Bizim isə

cavab vermək, reallığı dünya birliyinə çatdırmaq üçün imkanlarımız yox idi. Yəni, beynəlxalq təcridə, informasiya mühasirəsinə son qoyuldu.

Azərbaycanda iqtisadi islahatlara start verildi və bazar iqtisadiyyatı prinsipləri bərqərar oldu. Xarici siyasət prioritetləri məhz o illərdə müəyyən edildi. Azərbaycan müasir dünyəvi dövlət kimi öz inkişafına başladı. Yəni, məhz o illərdə ölkəmizin gələcəyi ilə bağlı strateji addımlar atılmışdır. Bu gün tarix göstərir ki, bu, yeganə düzgün yol idi.

Azərbaycan o vaxt çətin iqtisadi vəziyyətlə üzləşmişdi. Bizim sənayemiz demək olar ki, dağılmışdı, inflyasiya minlərlə faizlə ölçülürdü. Əlbəttə, belə vəziyyətdə xarici sərmayə olmadan ölkə iqtisadiyyatı inkişaf edə bilməzdi. İqtisadiyyat inkişaf edə bilməsə, təbii ki, ölkə müstəqil həyat sürə bilməzdi. Ona görə 1994-cü ildə Heydər Əliyevin təşəbbüsü ilə "Əsrin kontraktı" imzalanmışdır ki, artıq o vaxtdan 22 il ötür. Amma bu gün də "Əsrin kontraktı" ölkəmizin inkişafında, güclənməsində öz rolunu oynayır. Azərbaycan tarixdə ilk dəfə olaraq Xəzər dənizini xarici investorlara təqdim etdi. Azərbaycana milyardlarla dollar həcmində investisiya qoyuldu və ölkəmiz inkişaf etməyə başladı. 1996-cı ildə "Şahdəniz" qaz yatağının işlənilməsi üzrə kontrakt imzalanmışdır. Bu gün həm Azərbaycanın, həm regionun və müəyyən dərəcədə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında "Şahdəniz" yatağının xüsusi yeri var.

Azərbaycan 1993-2003-cü illərdə öz inkişaf və sabitlik dövrünü yaşayırdı. Bu, müstəqilliyimizin ikinci dövrü idi. Bir daha qayıdıram müstəqilliyimizin ilk illərinə. Əgər o vaxt Heydər Əliyev kimi dahi şəxsiyyət – millətə canı, qanı ilə bağlı olan insan hakimiyyətdə olsaydı, biz o bəlalarla üzləşməyəcəkdik. Ancaq tarix tarixdir. Biz tarixi dəyişdirə bilmərik. Bizim əsas vəzifəmiz ondan ibarətdir ki, ölkəmizi irəliyə aparaq, gücləndirək və müsbət meyillər əsasında inkişafı təmin edək.

Bu baxımdan 2003-cü il, hesab edirəm ki, müstəqil tariximiz üçün də xüsusi əhəmiyyət daşıyır. Çünki 2003-cü ildə ölkənin bundan sonra hansı yolla gedəcəyi haqqında Azərbaycan xalqı öz qərarını verdi: Heydər Əliyev siyasətimi davam edəcək, yoxsa ki, yenə Azərbaycan bəlalarla, fəlakətlərlə üzləşəcək?! Azərbaycan xalqı həmişə olduğu kimi, müdrikliyini göstərərək Heydər Əliyev siyasətinə öz səsini verdi. Onu da qeyd etməliyəm ki, 1993-cü ildə AXC-Müsavat qruplaşmasının iflasının əsas mənbəyi Azərbaycan xalqının iradəsi olmuşdur. Cəmi bir il xalq bunların yarıtmaz fəaliyyətinə dözə bilmişdir və Azərbaycan xalqı bu ləkəni tariximizdən yumaq üçün o hakimiyyətə son qoydu. O vaxtdan bu günə qədər o hakimiyyət tarixin zibilxanasındadır.

Qeyd etdiyim kimi, 2003-cü il seçim ili idi. Bugünkü Azərbaycan reallıqları onu göstərir ki, yenə də Azərbaycan xalqı düzgün seçim etmişdir. 2003-cü ildən bu günə qədər Azərbaycanda sürətli inkişaf dövrü yaşanır, Heydər Əliyev siyasəti davam etdirilir. Bu, müstəqilliyimizin üçüncü dövrüdür. Bu üçüncü dövr ikinci dövrün məntiqi davamıdır.

Bu illər ərzində Azərbaycan bütün istiqamətlər üzrə çox böyük uğurlara imza atdı. Bizim beynəlxalq əlaqələrimiz genişləndi. Azərbaycan dünya miqyasında böyük rəğbətə malik olan bir ölkədir. İkitərəfli əlaqələr inkişaf edir, biz dünyada daha çox dostlar qazanırıq. Üzv olduğumuz bütün təşkilatlarda bizim sözümüzün böyük çəkisi var. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolunda bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Bu mövqe daha çox beynəlxalq dəstək qazanır. Artıq dünya ictimaiyyəti bilir ki, reallıq nədən ibarətdir. Yəni, bizim torpaqlarımız işğal altındadır. BMT Təhlükəsizlik Şurasının, digər təşkilatların qətnamələri icra edilmir. Dağlıq Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq hüquq əsasında həll edilməsi bizim prinsipial mövqeyimizdir. Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dəstəkləyir.

Beynəlxalq münasibətlər istiqamətində bizim hörmətimizi əks etdirən tarixi hadisə bir neçə il bundan əvvəl baş vermişdir. Biz BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Bu hadisə təkcə ona görə önəmli deyil ki, biz dünyanın ali orqanına seçildik və orada iki dəfə sədrlik etdik. Ona görə önəmlidir ki, dünyanın 155 ölkəsi bizə səs verdi, özü də çox ağır mübarizə şəraitində. Bəzi qüvvələr bizə qarşı birləşmişdi və imkan vermək istəmirdilər ki, Azərbaycan seçilsin. Yəni, biz o yerə böyük çətinliklə sahib olduq. Bu, da daha bir göstəricidir.

Yəni, dünya birliyi deyəndə biz bütün ölkələri nəzərdə tuturuq. Dünya birliyi bu gün bizi dəstəkləyir.

Biz 2003-cü ildən bu günə qədər iqtisadi sahədə analoqu olmayan inkişaf dövrünü keçmişik və yaşayırıq. İqtisadiyyat üç dəfə artmışdır. Heç bir başqa ölkədə bu qısa müddət ərzində iqtisadiyyat üç dəfə artmayıb. Sənaye istehsalı da üç dəfə artmışdır. Biz yoxsulluğa son qoyduq. Təxminən 50 faiz səviyyəsində olan yoxsulluq 5 faizə düşüb. İşsizlik ilə çox ciddi mübarizə aparılır. İşsizlik çox aşağı səviyyədədir. Azərbaycan regionlarının inkişafına start verildi. Dövlət proqramları icra edilməyə başlamışdır və bunun nəticəsində bölgələrdə 1 milyon 300 mindən çox iş yeri yaradılmışdır. Bölgələr canlandı, şəhərlərimiz abadlaşdı, müasir infrastruktur layihələri icra edildi. Biz elektrik enerjisini, qazı idxal edən ölkədən ixrac edən ölkəyə çevrildik. Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilirdi və göstərilir. Maaşlar, pensiyalar son 13 il ərzində dəfələrlə artmışdır. Sosial infrastruktur layihələri icra edilir. Üç mindən çox məktəb, 600-dən çox tibb ocağı, bölgələrdə 40-dan çox İdman Olimpiya Mərkəzi tikilmişdir. Bütün bunlar son illər ərzində əldə edilmiş nailiyyətlərdir.

Biz texnoloji inkişafa doğru gedirik. Bu gün Azərbaycan kosmik klubun məhdud sayda üzvlərindən biridir. İki peykimiz var, üçüncü peyk də yaxın zamanlarda istifadəyə veriləcək.

Regional əməkdaşlıq məsələlərinin həllində Azərbaycan çox önəmli bir ölkəyə çevrilibdir. Bizim təşəbbüsümüzlə icra edilən böyük enerji layihələri son illər ərzində daha da geniş miqyasa çıxıb. Artıq bu, qitələrarası enerji layihələridir. Xüsusilə “Cənub” qaz dəhlizini qeyd etməliyəm.

Onu da qeyd etməliyəm ki, bu dəhliz 2006-cı ildə və 2007-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin əsasında yaradılır. Əgər o kəmərlər yaradılmasaydı, “Cənub” qaz dəhlizi də yaradılmazdı. Bu gün dünyanın ən böyük enerji layihələrindən biri olan “Cənub” qaz dəhlizi uğurla icra edilir. Biz “Şahdəniz-2” layihəsinin icrasında artıq son mərhələyə yaxınlaşırıq. Layihənin icrası artıq 83 faiz təşkil edir. TANAP layihəsinin icrası təqribən 40 faizə yaxındır. Biz bu nəhəng enerji, iqtisadi layihəni uğurla icra edirik. Bu, bizə gələcəkdə çox böyük əlavə iqtisadi dividendlər gətirəcək. Biz zəngin qaz ehtiyatlarımızı etibarlı yollarla dünyanın ən böyük, bizim üçün ən yaxın bazarlarından biri olan Avropa bazarına çıxarırıq. Bizim enerji siyasətimiz dünya tərəfindən yüksək qiymətləndirilir. Biz beynəlxalq əməkdaşlıq formatını yaratmışıq və bu formatı genişləndiririk.

“Cənub” qaz dəhlizi tarixi layihədir. Bu, bizim uğurlu gələcək inkişafımızı müəyyən edəcək. Bununla bərabər, biz iqtisadiyyatımızın digər sektorlarının inkişafı ilə bağlı çox ciddi addımlar atırıq. Xüsusilə son müddət ərzində Azərbaycanda sənayenin, kənd təsərrüfatının inkişafı artır. Baxmayaraq ki, dünyanın iqtisadi böhranı davam edir, biz bu istiqamətdə də çox ciddi addımlar atmışıq. Əminəm ki, yaxın illərdə qeyri-neft sektorunun inkişafı daha da sürətlə gedəcək. Bu gün iqtisadiyyatımızın təxminən 70 faizi qeyri-neft sektorunda formalaşır. Biz indi ixracın şaxələndirilməsi ilə ciddi məşğuluq. Elə etməliyik ki, neftdən, qazdan asılılıq minimum səviyyəyə endirilsin.

Azərbaycanda idarəçilikdə ciddi islahatlar, xoşagəlməz hallara qarşı mübarizə aparılır. Korrupsiya, rüşvətxorluq bizim uğurlu inkişafımızı əngəlləyən əsas bəlalardır. Bu istiqamətdə də institusional tədbirlərin görülməsi öz gözəl nəticəsini verməkdədir. Biz artıq dünyaya intellektual məhsul təqdim edirik, hətta ixrac edirik. “ASAN xidmət” bizim məhsulumuzdur. Artıq bu xidmətə 12 milyon müraciət olmuşdur, 4 milyona yaxın insan bu imkanlardan istifadə edir və indi başqa ölkələrdə bu təcrübə öyrənilir. Biz gələcəkdə də dünya bazarlarına şaxələndirilmiş ixrac imkanlarımızı təqdim etməliyik. O cümlədən intellektual məhsulun ixracı xüsusi əhəmiyyət daşıyır.

Azərbaycan bu gün dünyada çox etibarlı tərəfdaş kimi tanınır. Çünki bizim iştirak etdiyimiz bütün layihələr əməkdaşlığa hesablanıb. Biz hesab edirik və həyat göstərir, düz hesab edirik ki, ölkələr arasındakı əməkdaşlıq bəzi problemləri aradan götürə bilər. Enerji siyasətimiz xoşniyyətlidir. Bundan heç vaxt hansısa başqa məqsəd üçün istifadə etməmişik. Bütün digər regional təşəbbüslər də əməkdaşlığa hesablanır, o cümlədən nəqliyyat sahəsində. Biz bu gün “Şərq-Qərb”

dəhlizinin yaradılmasında fəal rol oynayırıq. Bakı-Tbilisi-Qars dəmir yolu yaxın aylarda istismara veriləcək. Beləliklə, biz özümüzü daha da gözəl imkanlarla təmin etmək üçün Avropanı Asiya ilə birləşdiririk. Çünki bu dəhliz bizə çox böyük iqtisadi mənfəət gətirəcək. Bu dəhlizdən keçən yüklərin həcmi on milyonlarla ton səviyyəsində olacaq. Bununla bərabər, biz "Şimal-Cənub" dəhlizini də yaradırıq. Yenə də təşəbbüs göstərmişik, yenə də regional əməkdaşlıq formatını təqdim etmişik və bu, artıq yaradılıb. Bu da bizə əlavə on milyonlarla ton yük daşımaq imkanları verəcək.

Bax, budur neft amilindən asılılığı azaltmaq, qeyri-neft sektorunun inkişafı. Coğrafi vəziyyətimizdən istifadə edərək biz bu layihələri ortaya qoyuruq və onları icra edirik.

Qonşularla münasibətlər ən yüksək səviyyədədir. Heç bir problemimiz yoxdur. Belə də olmalıdır. Əgər hər bir ölkə bizim kimi qonşularla münasibətləri qura bilsəydi, dünyada heç bir müharibə baş verməzdi. Müharibələrin əsas səbəbi ondan ibarətdir ki, qonşular bir-biri ilə yola getmir. Yenə də deyirəm, əgər 1990-cı illərin əvvəllərində ulu öndər Heydər Əliyev hakimiyyətdə olsaydı, heç vaxt Ermənistan-Azərbaycan müharibəsi başlamazdı. Biz heç vaxt buna imkan verməzdik. Ancaq bu gün biz bu problemi həll etməliyik. Bunun həm diplomatik yolları var, həm digər yolları. Biz ordu quruculuğu istiqamətində çox böyük addımlar atmışıq. Bu gün beynəlxalq ekspertlər də qeyd edirlər ki, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Biz bunu bilirdik, ancaq bu gün bunu bütün dünya bilir. Bu ilin aprelində təmas xəttində baş vermiş hadisələr Azərbaycan Ordusunun gücünü bir daha göstərdi. Bizim ordumuz əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etdi. Orada indi Azərbaycan bayrağı dalğalanır. Bu, bizim gücümüzü göstərir. Biz gücümüzü bilirik, gücümüzə əminik və düşmənin istənilən hədəfini məhv edə bilərik. Sadəcə olaraq çalışırıq ki, məsələ sülh yolu ilə həll edilsin.

Azərbaycan son illər ərzində dünya miqyasında multikulturalizm mərkəzinə çevrilib. Ölkəmizdə keçirilən beynəlxalq tədbirlər, dünya forumları, sivilizasiyalararası, humanitar, mədəniyyətlərarası dialoq forumları bunu göstərir. Biz nəinki ölkə daxilində bu məsələləri lazımi səviyyədə tənzimləyirik, eyni zamanda, bir çox ölkələr üçün yol göstəririk. Biz istəyirik ki, bu nümunədən istifadə etsinlər. Əgər etsələr yenə də gərginlik azalar. Çünki bir çox hallarda müharibələr dini və məzhəb zəminində aparılır. İndi yan-yörə, hər tərəf alovlanır, yanır. Azərbaycanda sabitlik hökm sürür, inkişaf dinamikası güclənir. Bizim ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri özlərini rahat hiss edirlər. Onlar hamısı bizim qardaşlarımızdır, dəyərli vətəndaşlarımızdır. Bu da bir nümunədir. Bu, böyük bir sərvətdir. Biz bu sərvəti qoruyuruq. Ümumiyyətlə, ölkəmizi bütün bəlalardan qoruyuruq. Heç kimin işinə qarışmırıq və qoymuruq ki, kimsə bizim işimizə qarışsın. Ancaq xoş niyyət göstəririk. Ancaq hər bir məsələ ilə, xüsusilə bizi maraqlandıran məsələ ilə bağlı prinsipial mövqeyimiz həmişə ifadə olunur. Bizim siyasətimiz güzəştsiz siyasətdir. Biz prinsipial məsələlərlə bağlı keç kimə güzəştə getməmişik və getməyəcəyik. Müstəqil, ləyaqətli siyasət aparırıq, öz gücümüzə, xalqın dəstəyinə güvənirik. Xalq da bizim siyasətimizə öz dəstəyini göstərir. Bu yaxınlarda – ötən ay keçirilmiş referendumda Azərbaycan xalqı bizim siyasətimizə öz dəstəyini bir daha ifadə etdi. Referendumun nəticələrinin əsas mahiyyəti bundan ibarətdir. Biz düzgün yoldayıq. Bu yol inkişaf yoludur, müstəqillik yoludur. Ötən 25 ilin 23 ili şanlı tarix illəridir. Bu gün Azərbaycan dünya miqyasında müasir, sürətlə inkişaf edən, gözəl, qonaqpərvər, ləyaqətli ölkə kimi tanınır.

İyirmi beş il böyük tarixdir. Biz artıq bütün dünyaya sübut etmişik ki, müstəqil həyat yaşaya bilərik, uğurla yaşaya bilərik. Bizim gözəlləşən şəhərlər, abadlaşan regionlar və dünyanın ən gözəl şəhərlərindən biri olan Bakı bunun əyani sübutudur.

Biz gələcəkdə bu yolla gedəcəyik, müstəqil siyasət aparacağıq. Xalqın iradəsi əsasında irəli gedəcəyik. Müstəqilliyimiz dönməzdir, əbədidir. Müstəqilliyimizin möhkəmlənməsində bütün Azərbaycan xalqına yeni uğurlar arzulayıram.

Yaşasın müstəqil Azərbaycan Respublikası!

***

Rəsmi qəbul konsert proqramı ilə davam edib.

# Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib

**Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib**

Dövlət başçısı iclası giriş nitqi ilə açdı.

**Prezident İlham Əliyevin giriş nitqi**



– Bu gün biz ənənəvi olaraq doqquz ayın yekunlarını müzakirə edəcəyik və ilin sonuna qədər görüləcək işlər haqqında, gələn il görüləcək işlər haqqında danışacağıq.

2016-cı il dünya iqtisadiyyatı üçün çox ağır il olmuşdur. Tarixdə bəlkə də ən ağır illərdən biridir. Dünya iqtisadiyyatında böhranlı vəziyyət davam edir. Bu böhrandan həm təbii resurslarla zəngin olan ölkələr, eyni zamanda, istehlakçı ölkələr əziyyət çəkir. Təbii ki, neftin qiymətinin kəskin şəkildə düşməsi neftlə zəngin olan ölkələrin iqtisadiyyatına mənfi təsir göstərmişdir. Eyni zamanda, neft ölkələrində öz kontraktlarını icra edən digər ölkələr də əziyyət çəkir. Çünki o ölkələrin şirkətləri kontraktları daha az həcmdə icra edir və beləliklə, bu böhran o ölkələrə də mənfi təsir göstərir.

2016-cı ildə dünyada siyasi və hərbi böhran yaşanır. Dünyanın müxtəlif bölgələrində qanlı toqquşmalar, müharibələr alovlanır, risklər, təhdidlər artır. Yaxın Şərqdə vəziyyət deyə bilərəm ki, kritik həddə çatmışdır. Yaxın Şərqdə müşahidə olunan qarşıdurma çox böyük fəlakətə gətirib çıxara bilər. Çünki hamımız yaxşı görürük ki, vəziyyət getdikcə kəskinləşir.

Avropanın miqrant böhranı. Demək olar ki, o da bütün dünyada müşahidə olunur. Mən miqrant böhranı haqqında dəfələrlə öz fikirlərimi bildir-

mişdim. Bir daha demək istəyirəm ki, öz canlarını qurtarmaq istəyən o insanların heç bir günahı yoxdur. Onların ölkələri xarici müdaxilə nəticəsində dağıdılıb. Onların şəhərləri yerlə-yeksan edilib, yaxınları, qohumları, yüz minlərlə insan həlak olub. Onlar öz canlarını qurtarmaq üçün Avropaya pənah aparırlar. Ancaq Avropada bəzi hallarda onları tikanlı məftil, qəfəs gözləyir. Bu da, əlbəttə ki, əgər belə demək mümkündürsə bu ilin əlamətidir və bu, sivilizasiyalararası münasibətlərə çox böyük zərbə vurur. Biz artıq neçə ildir çalışırıq ki, mədəniyyətlərarası dialoqu gücləndirək. Bizim fəaliyyətimiz dünyada böyük rəğbət qazanıb. Ancaq əfsuslar olsun ki, dünyanın müxtəlif ölkələrində tendensiya əks istiqamətdə gedir.

Miqrant böhranı öz növbəsində Qərb ölkələrində radikal partiyaların xeyrinə işləyir, onlar daha çox səs toplayırlar. Bu, ilk növbədə, onu göstərir ki, cəmiyyət artıq onlara daha böyük dəstək verir, eyni zamanda, əgər gələcəkdə bu meyil davam etsə bu partiyalar hakimiyyətə gələcəklər, – ondan sonra onların siyasətinin nədən ibarət olacağı heç kəs üçün sirr deyil, – beləliklə, sivilizasiyalararası qarşıdurma dərinləşəcək. Bizim cəmiyyətimiz bütün bu reallıqları bilməlidir. Artıq həm yaşadığımız bölgə, həm dünya dəyişib. Biz də öz siyasətimizi buna uyğun şəkildə aparmalıyıq.

Bizim üstünlüyümüz ondan ibarətdir ki, həmişə öz yolumuzla gedirik, öz siyasətimizi aparırıq, heç kimin sözü ilə oturub-durmuruq. Ona görə bu gün Azərbaycanda inkişaf və sabitlik var. Bəzi insanlar bu gün də belə deməkdə davam edirlər ki, biz harasa inteqrasiya etməliyik. Bəlkə özləri də dərk etmirlər ki, bu, nə deməkdir. Biz hara lazımdırsa, artıq ora inteqrasiya etmişik. Bu gün Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarda çox böyük rol oynayır və böyük rəğbət qazanıbdır. Ancaq biz hara inteqrasiya etməliyik? Bəziləri deyirlər ki, kiminsə xoşuna gəlmək üçün, yaxud da ki, donor pullarını əsaslandırmaq üçün biz Avropaya inteqrasiya etməliyik. Sual olunur, biz hansı Avropaya inteqrasiya etməliyik? Bax, bugünkü Avropa göz qabağındadır. Özləri etiraf edirlər, Avropa İttifaqının ən böyük rəhbərləri etiraf edirlər ki, indi Avropa məkanında dərin böhran yaşanır. Biz oramı inteqrasiya etməliyik, böhranamı inteqrasiya etməliyik?! "Müsəlmanlara stop" deyənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlman qaçqınlara ikili standartlar tətbiq edənlərəmi inteqrasiya etməliyik?! Biz müsəlmanları qəfəsdə saxlayanlaramı inteqrasiya etməliyik?! Bax, sual bundan ibarətdir və biz bunların hamısını deyirik. Ona görə də bəzi hallarda bizə qarşı təzyiqlər də olur, kampaniyalar da aparılır, müxtəlif iftiralar da uydurulur. Bax, biz bu reallığı bilməliyik.

Biz öz yolumuzla gedirik və Avropa ilə çox sıx əlaqələr qura bilmişik. Həm Avropa İttifaqı ilə bizim müxtəlif sənədlərimiz imzalanıb, eyni zamanda, növbəti sənəd üzərində iş aparılır. Bizim təşəbbüsümüzlə Avropa Komissiyasına göndərdiyimiz təklif indi müzakirə olunur, biz tərəfdaşlıq formatı haqqında danışırıq. Avropa İttifaqına üzv olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədlərimiz var. Biz 15 ildir ki, Avropa Şurasında çalışırıq və orada da bizim mövqelərimiz gündən-günə möhkəmlənir. Biz hətta o təşkilatda da dönüş yarada bilmişik. Avropa Şurası Parlament Assambleyasındakı deputatların əksəriyyəti artıq görür ki, bizə qarşı ədalətsizliklər, ikili standartlar olub və bu gün vəziyyət tam normaldır. Ona görə əməkdaşlıqla bağlı bizim heç bir problemimiz yoxdur. Biz bu əməkdaşlığa meyilliyik. Amma biri var əməkdaşlıq, biri də var inteqrasiya. Bax, bu iki sözün arasında fərqi bilməyənlər bu gün bir daha eşitsinlər və yersiz, özlərini təbliğ etmək, kiminsə xoşuna gəlmək üçün söz-söhbətlərə son qoysunlar.

Belə bir beynəlxalq mənzərə fonunda Azərbaycan uğurla inkişaf edir. Biz mötəbər beynəlxalq tədbirlər keçiririk. Bu yaxınlarda V Bakı Beynəlxalq Humanitar Forumu öz işini yekunlaşdırdı. Forumda 80-ə yaxın ölkədən 400-dən çox tanınmış xadim iştirak etmişdir. Forumda bir daha bizim gördüyümüz işlər, xüsusilə multikulturalizmlə bağlı gördüyümüz işlər yüksək qiymətləndirildi. Bu il ölkəmizdə digər beynəlxalq tədbirlər də keçirilmişdir. Onların arasında BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu xüsusilə qeyd etmək istəyirəm. Bu Forumun Azərbaycanda keçirilməsi bu sahədə gördüyümüz işlərə dünya tərəfindən verilən böyük qiymət idi.

Biz Azərbaycanda böyük idman yarışları keçirmişik. 500 milyon auditoriyası olan "Formula-1" yarışını keçirmişik. Özü də "Formula-1" qrupunun

rəhbərləri də qeyd etmişlər ki, ən gözəl yarış Azərbaycanda keçirildi. İlk dəfə olaraq Azərbaycanda ən yaxşı təşkil edilən Ümumdünya Şahmat Olimpiadası keçirildi. Bu olimpiadaya bütün dünyadan – 200-ə yaxın ölkədən nümayəndələr gəlmişdi.

Böyük mötəbər tədbirlər arasında Roma Papası Fransiskin Azərbaycana rəsmi səfərini xüsusilə qeyd etmək istəyirəm. Bu, tarixi bir səfər idi və Roma Papası Bakıdan bütün dünyaya çox açıq mesajlar göndərdi. O cümlədən Azərbaycanda multikulturalizmin vəziyyəti ilə bağlı onun dəyərli fikirləri həm həqiqəti əks etdirir, həm də dünya katoliklərinin rəhbərinin bu işlərə qiymətinin gözəl təzahürü idi.

Bax, biz bu işləri görürük. Amma ətraf yanır, yan-yörə alovlanır, risklər artır. Biz isə öz xoşbəxt həyatımızı və xoşbəxt gələcəyimizi qorumalıyıq və qoruyuruq. Azərbaycanda sülh, əmin-amanlıq, təhlükəsizlik hökm sürür, insanlar rahat yaşayır, quruculuq işləri aparılır. Şəhərlərimiz gözəlləşir, abadlaşır, bütün işlər çox yaxşı gedir.

Biz bu il ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan referendum keçirmişik. İlk növbədə onu deməliyəm ki, referendum demokratik, ədalətli, tam şəffaf şəkildə keçirilmişdir. Yüzdən çox xarici müşahidəçi referendumu izləmişdir. Bir neçə beynəlxalq rəy sorğusu agentliyi exit-poll keçirmişlər. Exit-pollun nəticələri və rəsmi nəticələr üst-üstə düşür. Bu da təbiidir. Çünki referendum tam şəffaf, ədalətli keçirildi. Mənə verilən son məlumata görə, Mərkəzi Seçki Komissiyasına təqribən cəmi 20, ya ondan bir qədər çox şikayət daxil olmuşdur. Bizim beş mindən çox seçki məntəqəmiz var. Cəmi 20, bəlkə də bir qədər çox şikayət olub. Bu, nəyi göstərir? Onu göstərir ki, insanlar, Azərbaycan xalqı referendumun nəticələrini dəstəkləyir. Onların iradəsi referendumun nəticələrində öz əksini tapmışdır.

Müşahidə aparan beynəlxalq qurumlar, xüsusilə Avropa Şurası Parlament Assambleyasının nümayəndələri referenduma çox yüksək qiymət vermişlər. Bunun da çox böyük əhəmiyyəti var. Çünki adətən Avropa strukturlarında bizi tənqid edirlər. Bir çox hallarda əsassız tənqid edirlər. Ancaq hətta bizi tənqid etməyə öyrəşən qurum da artıq heç bir irad tapa bilmir. Bu, referendumun bir nəticəsidir. Bu, onu göstərir ki, kim nə deyirsə-desin, hansı uydurma ortaya atırsa-atsın Azərbaycan demokratiya yolu ilə gedir. Bizdə azad seçki, şəffaf referendum keçirilir. Biz bir çox ölkələr, xüsusilə özlərini demokratiyanın beşiyi sayan ölkələr üçün nümunə ola bilərik. Gəlsinlər, bizim təcrübəmizi öyrənsinlər.

Referendumun ikinci əsas nəticəsi ondan ibarətdir ki, Azərbaycan xalqının mütləq əksəriyyəti təklif olunan dəyişikliklərə öz dəstəyini verdi. Bu da əslində bizim siyasətimizə növbəti dəfə xalq tərəfindən verilən böyük dəstəkdir. Mən şəxsən bunu belə qəbul edirəm. Çünki təklif olunan dəyişikliklər biz tərəfdən irəli sürüldü və Azərbaycan xalqı, onun böyük əksəriyyəti bu referenduma “hə” dedi. Bu, əlbəttə ki, bizə əlavə güc verir. Bu, bizim üçün böhranlı ildə növbəti bir test, sınaq idi.

Əlbəttə, onsuz da mən bilirəm ki, ölkəmizdə hansı ab-hava var, insanları hansı məsələlər düşündürür və onların ümumi işimizə münasibəti necədir. Bunu mən yaxşı bilirəm. Referendumun nəticələri bütün ölkəyə, bütün xalqımıza, dünyaya bunu bir daha əyani şəkildə təqdim etdi. Azərbaycan xalqı apardığımız siyasəti dəstəkləyir, bu dəstəyə sadiqdir və görür ki, bizim siyasətimizə alternativ siyasət yoxdur. Alternativ siyasət fəlakət ola bilər, yenə Azərbaycanı uçuruma apara bilər, yenə Azərbaycanı qırğın meydanına çevirə bilər. Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləyərək referendumda “hə” dedi. Azərbaycan xalqına göstərdiyi böyük etimada və dəstəyə görə bir daha minnətdarlığımı bildirmək istəyirəm. Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da bu yolla gedəcəyəm, Azərbaycanın inkişafını təmin edəcəyəm və heç bir kənar qüvvə bizi bu yoldan çəkindirə bilməz.

Bu il bizim beynəlxalq mövqelərimiz möhkəmlənib. Bir çox beynəlxalq təşkilatlarda Azərbaycana bir daha dəstək nümayiş etdirilib. Bu təşkilatlar arasında iki təşkilatı xüsusilə qeyd etmək istərdim. Biri İslam Əməkdaşlıq Təşkilatıdır ki, builki Zirvə görüşündə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kontakt qrupu yaratmışdır. Kontakt qrupu artıq öz işinə başlayır. Zirvə görüşündə Azərbaycanın ərazi bütövlüyünə bir daha dəstək ifadə olundu. Bu yaxınlarda Qoşulmama Hərəkatının – BMT-dən sonra ən çox üzvü olan bu təşkilatın Zirvə görüşündə də növbəti dəfə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü

çərçivəsində həll edilməsi haqqında qərar qəbul edildi. Bu, bizim böyük diplomatik və siyasi uğurumuzdur.

Biz digər təşkilatlarda da bu gözəl meyilləri görürük. Avropa Parlamenti. Bu yaxınlarda Avropa Parlamenti tərəfindən səslənən rəsmi bəyanat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox ədalətli mövqe nümayiş etdirdi. Azərbaycan ictimaiyyəti yaxşı bilir ki, bir il ərzində Azərbaycan Avropa Parlamenti ilə bütün əlaqələri kəsmişdir, Avronest qurumundan çıxmışdır. Bunun da səbəbi var, ictimaiyyət bunu bilir. Sadəcə olaraq, demək istəyirəm ki, bu, bizim günahımızdan olmayıb. Biz günahkar deyilik. Bizə qarşı ədalətsizlik nümayiş etdirildi. Biz təhqir olunduq. Bizə qarşı diplomatiyada qəbuledilməz sözlər işlədildi. Təbii olaraq, biz də öz sözümüzü dedik. Azərbaycan Milli Məclisi də çox əsaslı, arqumentli, kəskin, yəni, Avropa Parlamentinin o qətnaməsinə uyğun, elə o səviyyədə cavabını verdi. Bir il münasibətlərimiz dondurulmuşdu. Yəni, bunu Azərbaycan xalqı heç hiss etməyib. Mən də o vaxt demişdim, münasibətlər olsa yaxşıdır, olmasa da hər halda bunun bizim işimizə heç bir təsiri yoxdur. Nəticədə nə oldu? Münasibətləri bərpa etmək üçün özləri gəldilər. Gördülər ki, təhqir, təzyiq yolu ilə keçmir. Halbuki bunu çoxdan bilməli idilər ki, keçmir və keçməyəcək. Gəldilər ki, münasibətləri bərpa etsinlər. Bizim də bəzi təkliflərimiz olubdur. O təkliflər müsbət qəbul edildi və bu təkliflərin nəticəsində birgə bəyanat da səsləndi. O bəyanatda ifadə olundu ki, Avropa Parlamenti belə hərəkətlərə yol verdiyinə görə təəssüf edir. Orada göstərilir ki, gələcəkdə bu cür hərəkətlərin təkrar olunmaması üçün işlər aparılacaq. Biz də konstruktiv mövqe nümayiş etdirərək qərar qəbul etdik ki, artıq bu, bizi qane edir və münasibətlər indi bərpa olunur.

Mən nəyi demək istəyirəm? Mən özümüzü tərifləmək istəmirəm, heç vaxt da tərifləməmişəm, halbuki tərif üçün bir çox məqam var. Biz 25 ildir ki, müstəqil yaşayan ləyaqətli ölkəyik. Heç kimə imkan verməırik ki, bizi təhqir etsin. Qəbuledilməz hər bir hərəkətə cavabımızı veririk, sözümüzü deyirik, heç kimdən çəkinmirik, nəinki bizə aid olan məsələlərdə, bütün məsələlərdə prinsipial mövqe nümayiş etdiririk. Dünyada gedən işlərlə bağlı bizim mövqeyimiz var və biz bu mövqeyi çəkinmədən ifadə edirik.

Bu il iyirmidən çox dövlət, hökumət başçısı Azərbaycanda rəsmi və işgüzar səfərlərdə olub. Mən 14 xarici səfər etmişəm. Hələ ilin sonuna qədər həm Azərbaycana dövlət, hökumət başçıları gələcək, həm də mənim səfərlərim nəzərdə tutulur. Yəni, çox fəal xarici siyasət aparmışıq və bu siyasət Azərbaycanı bu gün dünyada nümunəvi ölkə kimi göstərir.

Bu il aprel ayında Azərbaycan böyük hərbi qələbə əldə etmişdir. Aprel döyüşləri tariximizin şanlı səhifəsidir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad edib, o torpaqlarda Azərbaycan bayrağını ucaldıb. İki min hektardan çox torpaq işğalçılardan təmizləndi, ondan bir neçə dəfə böyük olan ərazi tam bizim nəzarətimizə keçdi. Biz təmas xəttində tam üstünlük əldə etmişik və bu gün düşmənin istənilən hədəfini məhv edə bilərik.

Aprel döyüşlərindən sonra vasitəçilər bir qədər fəallaşdılar. Bilirsiniz ki, may-iyun aylarında görüşlər keçirildi. Amma artıq biz oktyabr ayında yaşayırıq. Ermənistan öz çirkin taktikasını işə salaraq və erməni lobbisinin dəstəyinə arxalanaraq yenə də istəyir ki, bu məsələ dünya gündəliyindən çıxsın. Biz buna imkan verməməliyik və məsələ tezliklə həllini tapmalıdır. Amma siz də, Azərbaycan ictimaiyyəti də yaxşı bilir ki, bu məsələnin həll olunmaması təkcə Ermənistana görə deyil. Ermənistanın böyük himayədarları var, biri ona pul, biri silah verir, biri lobbi yaradır, biri təbliğ edir. Bax, budur məsələnin həll olunmamasının səbəbi. Ona görə bu məsələyə aydınlıq gətirilməlidir. Biz yaxşı bilirik ki, ikili standartlarla üzləşmişik və bu məsələnin həll olunmaması BMT Təhlükəsizlik Şurasına da şərəf gətirmir. Çünki onlar dörd qətnamə qəbul ediblər. Bu qətnamələr 20 ildən çoxdur ki, icra edilmir. Heç olmasa öz qərarlarına hörmət etsinlər. Artıq biz yaxşı görürük ki, Ermənistan beynəlxalq hüququ necə pozur.

Biz həm iqtisadi, siyasi, həm də hərbi cəhətdən daha da güclü olmalıyıq və bu güc bizdə var. Sadəcə olaraq istəyirik ki, məsələ sülh yolu ilə həll edilsin və bu istiqamətdə ardıcıl siyasətimizi aparırıq.

Siz yəqin ki, Amerikadan səslənən son bəyanatı da eşitmisiniz, oxumusunuz, Azərbaycan ictimaiyyəti də bunu bilir. Bu, yumşaq desək, təəccüb doğuran bir bəyanatdır. Azərbaycanı münaqişənin həll olunmamasında günahlandırmaq ən azı in-

safsızlıqdır. Digər tərəfdən, bax, bu bəyanat o biri bəyanatlarla necə uzlaşır?! Axı, Amerika, Rusiya, Fransa prezidentlərinin dəfələrlə bəyan etdikləri bir tezis var: "Status-kvo qəbuledilməzdir". Biz bunu alqışlayırıq. Düzdür, bu sözdən sonra heç bir praktik iş aparılmır. Amma hər halda bu sözün artıq ortaya çıxması bizim böyük uğurumuzdur. Belə bir ciddi bəyanat ola-ola, "hər iki tərəf günahkardır, tərəflər buna hazır deyil, bu məsələ Fələstin-İsrail münaqişəsindən də mürəkkəbdir" demək sadəcə olaraq Ermənistanın işğalçı siyasətinə dəstək verməkdir. Bunun başqa izahı ola bilməz. Düzdür, indi müxtəlif bəyanatlar verilir ki, bu ifadələr kontekstdən çıxarılıb, düzgün başa düşülməyib. Biz hər şeyi yaxşı başa düşürük və bu gün internet dövründə yaşayırıq. Haradasa bir kəlmə deyilirsə, dərhal onun əks-sədası olur. Biz belə bəyanatları qəbul etmirik. Hesab edirik ki, tezliklə bu ifadələrə ən yüksək səviyyədə düzəliş edilməlidir. Əks təqdirdə, burada vasitəçilik missiyası şübhə altına düşə bilər. Bu, ancaq rəsmi qaydada səslənən bir tezis idi. Amma bağlı qapılar arxasında nə qədər söhbətlər gedir, bizə nə qədər təzyiqlər göstərilir ki, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyinə razılıq versin. Biz indi bunları açıqlamırıq. Çünki diplomatiyanın öz qaydaları var. Ancaq həm Qərb mediasında, həm qeyri-hökumət təşkilatları tərəfindən bizə qarşı aparılan qarayaxma, şər-böhtan, təhqir kampaniyasının, həm də burada "beşinci kolon"a göstəriş verərək bunlardan istifadə etməyin əsas səbəbi bizi məcbur etməkdir ki, Dağlıq Qarabağın müstəqilliyinə razılığımızı verək. Bu, heç vaxt, olmayacaq. Nə qədər ki, biz iqtidardayıq, – referendum göstərdi ki, inşallah, biz iqtidarda çox olacağıq, – heç vaxt Azərbaycan buna razılıq verməyəcək, Dağlıq Qarabağ bizim ayrılmaz tarixi torpağımızdır və biz ərazi bütövlüyümüzü bərpa etməliyik.

Bu il idmançılarımız da bizi çox sevindirib. Bizim komandamız Rio Yay Olimpiya Oyunlarında 18 medal qazanıb. Medalların sayına görə dünya miqyasında 14-cü, Avropada 7-ci, postsovet məkanında Rusiyadan sonra ikinci, müsəlman aləmində isə birinci yerdəyik. Bax, bu rəqəmləri şərh etməyə heç bir ehtiyac yoxdur.

İqtisadi sahədə. Qeyd etdiyim kimi, neftin qiyməti düşdü və bunun nəticəsində dövlət investisiyaları azaldı, tikinti sektoruna az sərmayə qoyuldu və bu, müəyyən qədər iqtisadi tənəzzülə gətirib çıxardı. Ancaq sevindirici hal ondan ibarətdir ki, bizim sənayemiz artır. Sənaye potensialımız baxmayaraq ki, az artır - 0,2 faiz, amma artır. İqtisadiyyatımızın, sənayemizin qeyri-neft sektoru artır, orada artım 3,6 faizdir, bu, yaxşıdır. Kənd təsərrüfatı 2,4 faiz artıbdır və əminəm ki, daha da artacaq. Çünki kənd təsərrüfatı sahəsində apardığımız işlər yaxın gələcəkdə daha da böyük həcmdə nəticə verəcəkdir.

Sosial layihələr icra edilib. İyirmi doqquz məktəb tikilib, 485 məktəbdə təmir işləri aparılıb, 33 səhiyyə obyekti inşa olunub, təmir edilib. Böyük yol layihələri, kənd yolları layihələri icra edilib. Bir neçə şəhərimizdə içməli su layihələri başa çatıb. İnfrastruktur layihələri icra edilir, 154 min iş yeri yaradılıbdır, onlardan 121 mini daimi iş yeridir. Doqquz ayda 36 min iş yeri bağlanıbdır. Əlbəttə, biz bağlanan iş yerləri ilə əlaqədar daim təhlil aparırıq – 121 min daimi iş yeri yaradılıb, 36 min iş yeri bağlanıb. Bu, çox gözəl göstəricidir. Hesab edirəm ki, böhranlı il üçün bu, xüsusi bir göstəricidir.

Digər istiqamətlərdə də bütün işlər plan üzrə gedir. "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir, Azərbaycan çox önəmli nəqliyyat mərkəzinə çevrilir. Artıq uzaq məsafədən göndərilən yük konteynerləri Azərbaycan ərazisindən keçir. Yəni, biz çox güclü nəqliyyat infrastrukturu yaratmaqla ölkəmizin uzunmüddətli siyasi, iqtisadi maraqlarını təmin edəcəyik.

İndi biz ilin sonuna qədər görüləcək işlər haqqında da danışacağıq. Mən hesab edirəm ki, 2016-cı ildə nəticələr bütövlükdə yaxşıdır, biz yaxşı işləmişik. Son illər ərzində 2016-cı il ölkə iq-tisadiyyatı üçün ən çətin, ağır ildir. Ancaq qeyd etdiyim kimi, biz yenə də inkişaf yolu ilə gedirik və gedəcəyik.

***

Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov, Səhiyyə naziri Oqtay Şirəliyev və Təhsil naziri Mikayıl Cabbarov çıxış etdilər.

***

Azərbaycan Prezidenti iclasda yekun nitqi söylədi.

## Prezident İlham Əliyevin yekun nitqi



– Biz bu ilin sonuna qədər qalan bütün vəzifələri icra etməliyik, xüsusilə investisiya layihələri ilə bağlı işlər getməlidir. Dövlət investisiya proqramı icra edilməlidir. Bəzi istiqamətlər üzrə ləngimələr var, bəzi infrastruktur layihələri tam həcmdə icra edilməyib. Ona görə, – ilin sonuna qədər az vaxt qalsa da, – bu məsələlərə çox ciddi diqqət göstərilməlidir.

Mən qeyd etdim ki, biz bu il çox ciddi iqtisadi islahatlar aparmışıq və bu islahatlar artıq öz nəticələrini verməkdədir. İdarəetmə istiqamətində, digər sahələrdə, ixracı stimullaşdırmaq, idxaldan asılılığı azaltmaq üçün bir çox önəmli qərar və sərəncamlar qəbul edildi, imzalandı. Beləliklə, əminəm ki, gələn il həm idxalın azalması, həm ixracın artırılması istiqamətində çox yaxşı nəticələr olacaq.

Apardığımız islahatlar dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirilir. Bu yaxınlarda dünyanın bir nömrəli iqtisadi forumu – Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtisadiyyatını rəqabət qabiliyyətliliyinə görə dünyada 37-ci yerə layiq görmüşdür. Keçən il biz 40-cı yerdə idik, o da çox gözəl göstəricidir. Baxmayaraq ki, bu il dünyada böhran yaşanır və bizdən də yan keçməyib, Azərbaycan iqtisadiyyatı daha da yüksək qiymət alıb. Otuz yeddinci yerdə olmaq dünya miqyasında çox böyük və hesab edirəm ki, tarixi göstəricidir. MDB məkanında biz həmişə olduğu kimi, birinciyik və bu liderliyi saxlayırıq.

Gələn ilin dövlət büdcəsi müzakirə olunur. Dövlət büdcəmizdə bütün sosial proqramlar öz əksini tapmalıdır. Ümumiyyətlə, gəlirlərimizin azaldılmasına baxmayaraq, biz sosial sahədə tam vəsaiti təmin edirik. Heç bir sosial təşəbbüs və layihə ixtisar olunmadı. 2017-ci ildə də büdcəmiz sosialyönümlü olmalıdır və əlbəttə ki, investisiyalar üçün də kifayət qədər vəsait nəzərdə tutulmalıdır. Biz əvvəlki illərdə dövlət investisiyalarına daha çox üstünlük verirdik. Bu da təbiidir, çünki biz bir çox layihələri, xüsusilə infrastruktur layihələrini icra etməli idik. Əgər biz onları icra etməsəydik, bu gün, ümumiyyətlə, inkişafdan söhbət belə gedə bilməzdi. Nə kənd təsərrüfatı, nə turizm, nə digər sahələr inkişaf edə bilməzdi. Ona görə, dövlət investisiya qoyuluşu xüsusi əhəmiyyət daşıyırdı və biz son illər ərzində bu

layihələrin bir çoxunu artıq icra etmişik. Təbii ki, 2017-ci ilin dövlət investisiya proqramı indi hazırlanır və yaxın vaxtlarda mənə təqdim ediləcək. Ancaq biz özəl sektorun investisiyalarını daha da böyük həcmdə cəlb etməliyik.

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində bu gün çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, sahibkarlar bu işlərə artıq böyük ruh yüksəkliyi ilə qoşulurlar. Ölkəmizdə böyük ruh yüksəkliyi var, xüsusilə kənd təsərrüfatı, emal və sənaye sektorlarında. Bakıda, böyük şəhərlərdə, bütün şəhər və rayonlarımızda çox böyük fəallıq müşahidə olunur. Bu da əlbəttə ki, həm bizim siyasətimizin təzahürüdür, – çünki özəl sektor sahibkarlığının inkişafı üçün çox ciddi addımlar atılıb, – eyni zamanda, bizim sahibkarlarımızın da məsuliyyətini göstərir. Sahibkar qazandığı vəsaiti ölkə iqtisadiyyatına qoymalıdır. Bu istiqamətdə 2017-ci ildə çox ciddi addımlar atılacaq.

O ki qaldı dövlət investisiya layihələrinə, onlar da nəzərdə tutulur və hesab edirəm ki, bu məqsədlər üçün kifayət qədər vəsait təmin edilməlidir. Yenə də qeyd etməliyəm ki, elektrik enerjisi, qazlaşdırma ilə bağlı əsas infrastruktur layihələri artıq icra edilib. Bir çox kənd yolları, içməli su və kanalizasiya layihələri icra edilib və edilir. Əlbəttə ki, biz həmişə olduğu kimi, sosial infrastruktur layihələrinə böyük diqqət göstərməliyik. 2017-ci ildə biz makroiqtisadi sabitliyə ciddi fikir verməliyik. İnflyasiya birrəqəmli olmalıdır. Hesab edirəm ki, biz bunu təmin edəcəyik.

Süni qiymət artımına yol verilməməlidir, çox ciddi nəzarət olmalıdır. Həm ictimai nəzarət, həm dövlət orqanları tərəfindən nəzarət daha da güclü olmalıdır. Çünki biz imkan verə bilmərik ki, hansısa natəmiz insanlar, möhtəkirlər qiymətləri süni şəkildə qaldırsınlar və beləliklə, insanlarımız bundan əziyyət çəksin. Əlbəttə ki, idxal olunan malların qiyməti dünya bazarlarında formalaşır. Əgər dünya bazarında Azərbaycanda istehsal olunmayan hansısa malın qiyməti artırsa təbii ki, bizdə də artacaq. Ona görə, biz çalışmalıyıq ki, idxaldan asılılığı maksimum səviyyədə azaldaq, yəni, minimum səviyyəyə endirək. Eyni zamanda, daxildə istehsal olunan ərzaq məhsullarının tərkibində xarici komponent də var. Biz o komponenti də azaltmalıyıq. Bu istiqamətdə işlər gedir.

Bank sektorunda islahatlar, konsolidasiya siyasəti davam etdirilməlidir. Bank sektorunda çox ciddi islahatlar aparılmalıdır. Bank sektoru şəffaf olmalıdır və ən yüksək dünya standartlarına cavab verməlidir.

Biz həmişə olduğu kimi, bu il də ölkəmizin sənaye potensialının inkişafına böyük diqqət göstərmişik və bir neçə sənaye parkının yaradılması istiqamətində işlər gedir. Onların içində Sumqayıt Kimya Sənaye Parkını xüsusilə qeyd etmək istəyirəm. Bu yaxınlarda Sumqayıtda keçirdiyim müşavirədə parkın fəaliyyəti ilə bağlı geniş məlumat verildi. Təkrar etmək istəmirəm, ancaq bir şey demək istəyirəm ki, bu parkın tam işə düşməsi nəticəsində minlərlə, bəlkə də on minlərlə yeni iş yeri açılacaq və bizim qeyri-neft sahəsində çox böyük ixrac potensialımız yaranacaq.

Bakıda Balaxanı və Pirallahı sənaye parklarının yaradılması prosesi gedir. Hər iki istiqamət üzrə konkret layihələr var. Pirallahıda dərman istehsalı planlaşdırılır. Ümid edirəm ki, yaxın aylarda artıq birinci dərman istehsalı fabrikinin təməli də qoyulmalıdır. Biz xarici dərmanlardan demək olar ki, 100 faiz səviyyədə asılıyıq. Bu, həm təhlükəsizlik baxımından narahatedici məsələdir, eyni zamanda, dərmanların alınmasına xaricə böyük valyuta gedir. Buna görə, qərar qəbul olundu və investorlar da buna qoşuldular, yaxşı şərait yaratdıq. Azərbaycanda birinci mərhələdə 100-dən çox adda dərman preparatı istehsal olunmalıdır.

Bölgələrdə sənaye zonalarının yaradılması prosesi gedir. Artıq Neftçalada İran tərəfi ilə avtomobil zavodunun tikintisi başlamışdır. Masallıda sənaye zonasının yaradılması işi gedir. Digər rayonlarda da bu istiqamətdə işlər getməlidir.

Biz inşaat materialları sektoruna böyük investisiyalar cəlb edə bilmişik. Bu sektorda dövlət investisiyaları olmayıb, ancaq həm yerli, həm xarici özəl qurumlar bu sahəyə böyük investisiyalar qoyublar. Bu investisiyalar nəticəsində biz özümüzü inşaat materialları ilə kifayət qədər böyük həcmdə təmin edirik, ancaq tam təmin etmirik. Ona görə, bizim aidiyyəti qurumlar, dövlət qurumları, İqtisadiyyat Nazirliyi, digər qurumlar baxmalıdırlar ki, Azərbaycana hansı inşaat materialları idxal olunur. Azərbaycanda həmin istehsal sahələri yaradılmalıdır və güzəştli kreditlər verilməlidir, sahibkarlar özləri də bu sahəyə daha böyük diqqət göstərməlidirlər.

Biz daxili bazarı qorumaq üçün gətirilən bəzi mallara rüsumları bu yaxınlarda artırdıq. Bu, çox düzgün addımdır. Biz öz daxili istehsalçımızı qorumalıyıq. Ancaq daxili istehsalçı bundan sui-is-

tifadə etməməlidir. Çünki insanlar üçün seçim olacaq, ya yerli məhsul alacaq, ya da xarici məhsul. Ola bilər ki, xarici məhsul insanın daha çox xoşuna gəlsin, amma qiyməti daha baha ola bilər. Yerli məhsul isə xarici məhsuldan əhəmiyyətli dərəcədə ucuz olmalıdır. Ona görə, istehlak bazarına çox ciddi nəzarət olmalıdır ki, bəzi natəmiz sahibkarlar bundan istifadə etməsinlər. Çünki idxal olunan ərzağın, yaxud hansısa digər məhsulun qiyməti artarsa onlar çalışa bilərlər ki, öz məhsulunun da qiymətini artırsınlar. Yəni, buna yol vermək olmaz. Həm yerli və həm də mərkəzi icra orqanları buna çox ciddi nəzarət etməlidir.

Daxili bazarımızı qorumaq üçün əlavə tədbirlər görülməlidir və burada çox çevik siyasət aparılmalıdır. Biz vaxt itirməməliyik. Bu məsələlər çox operativ şəkildə həll edilməlidir. Görəndə ki, biz hansısa məhsulla özümüzü tam 100 faiz təmin edirik, dərhal o məhsula rüsum qalxmalıdır. Nəinki bu sahədə, bütün sahələrdə çox operativ, çevik siyasət aparılmalıdır. Bəzi hallarda bürokratik əngəllər bizə böyük problemlər yaradır. Bir məsələ haradasa aylarla razılaşdırılır, rəylər yığılır, vaxt itiririk. Müasir iqtisadi şəraitdə vaxt itirmək pul itirmək deməkdir. Çox operativ iş prinsipi qurulmalıdır və qərarlar da əgər düzgün qərarlardırsa dərhal qəbul edilməlidir.

Bu yaxınlarda yaradılan Mənzil İnşaatı Dövlət Agentliyi öz işinə başlayıb. Yasamal rayonunda böyük tikinti layihəsi icra olunur və sosial mənzillərin tikilməsi prosesi artıq başlayır. Biz Nazirlər Kabinetinin toplantısında bu barədə danışmışıq. Artıq bu işlərə start veririk. Bunun çox böyük sosial mənası var və inşaat sektoruna, xüsusilə tikinti materialları sektoruna da böyük təsiri olacaq. Bizim sahibkarlar da buna hazır olsunlar. Elə etməliyik ki, o layihələrdə istifadə olunacaq bütün inşaat materialları Azərbaycan mənşəli olsun.

Yaxın gələcəkdə ölkəmizdə böyük metallurgiya kompleksinin tikintisi nəzərdə tutulur. Bunun üçün bizim Daşkəsən filiz yataqları kimi resurs bazamız var. Bu gün o yataqlardan çox səmərəsiz istifadə olunur, çıxarılan filiz sadəcə olaraq xammal kimi xaricə satılır. Yaxın aylarda biz o sahənin işini təmin edə bildik. Əfsuslar olsun ki, orada aylarla iş aparılmırdı. İnsanlar işsiz qalmışdılar, böyük borclar yaranmışdı. İndi orada sağlamlaşma prosesi gedir və biz bu böyük təbii resursdan çox səmərəli şəkildə istifadə etməliyik. Buna görə, bir neçə zavoddan ibarət olacaq yeni böyük metallurgiya kompleksinin tikintisi nəzərdə tutulur. Böyük vəsait qoyulacaq və biz elə etməliyik ki, xammaldan son ən keyfiyyətli məhsula qədər Azərbaycanda istehsal olunsun və əminəm ki, istehsal olunacaq.

Bu gün mən bir məsələyə də toxunmaq istəyirəm. Biz indi sənaye parklarında, digər sahələrdə, metallurgiya sahəsində bir çox böyük sənaye layihələrini icra edirik və bu istehsal olunacaq məhsulların demək olar ki, hamısı ixracyönümlüdür. Ona görə, biz nəqliyyat imkanlarımıza da baxmalıyıq və indidən planlaşdırmalıyıq ki, ixraca yönələcək məhsulları necə daşıyacağıq. Bizdə onları daşımaq üçün imkanlar varmı? Kifayət qədər infrastruktur varmı? Vaqonlar, sisternlər, quru yük infrastrukturu varmı? Ona biz indidən baxmalıyıq. Biz nəqliyyat sektoruna – dəmir yoluna, hava və dəniz nəqliyyatına böyük sərmayə qoymuşuq. İndi Bakıda böyük gəmiqayırma zavodu artıq böyük gəmilər istehsal edir. Ancaq buna bir daha kompleks şəklində baxmalıyıq. İxrac olunacaq məhsulun, o cümlədən indi ixracı kəskin artacaq kənd təsərrüfatı məhsullarının həcmi dəqiq proqnozlaşdırılmalıdır.

Bu il təkcə pambıq istehsalı üç dəfə artacaq. Gələn il bu ilə nisbətən on dəfə, ondan sonra iyirmi dəfə artacaq. Biz bunu nə ilə daşıyacağıq? Bizdə bunu daşımaq üçün kifayət qədər infrastruktur varmı? Bizim hazır məhsulumuz olacaq, ancaq daşıya bilməyəcəyik. Ona görə, bunlar indidən planlaşdırılmalıdır və dövlət investisiya proqramında nəzərdə tutulmalıdır ki, sonra biz gözlənilməz vəziyyətlə üzləşməyək.

Beləliklə, sənaye sahəsində icrada olan və planlaşdırılan layihələr bizə böyük xeyir gətirəcək. Minlərlə, on minlərlə yeni iş yeri yaradılacaq və biz qeyri-neft ixracımızı artıracağıq. Əsas məsələ bundan ibarətdir. Bu gün neftin qiyməti 50 dollardır. Keçən ay 40 dollar idi. İlin əvvəlində 30 dollara düşmüşdü. Yəni, biz buna baxıb öz gələcəyimizi planlaşdıra bilmərik. Ona görə, neft ixracının azaldılmasını biz qeyri-neft ixracı ilə əvəzləməliyik. Bu sahədə sənaye və kənd təsərrüfatı əsas istiqamətlərdir.

Kənd təsərrüfatı sahəsində artıq dönüş yaranıb. Müxtəlif sahələr üzrə konkret proqramlar, layihələr icra edilib, böyük vəsait, texnika ayrılıb. Subsidiyalarda düzəlişlər edilir. İndi subsidiyalar fermerləri stimullaşdıracaq. Bu il bu sahədə bir sınaq ili idi. Əminəm ki, yaxşı nəticələr olacaq.

Mən kənd təsərrüfatı sahələri üzrə bəzi məsələləri qaldırmaq istərdim. Pambıqçılıqla bağlı işlər uğurla gedir. Sabirabad rayonunda müşavirə keçirildi. İndi 24 rayonda pambıqçılığın inkişafı uğurla gedir. Bu il 100 min ton pambıq tədarük edilməlidir, gələn il 250-300 min ton, ondan sonrakı illərdə daha da çox. Biz çalışmalıyıq ki, sovet dövrünün ən yaxşı illərində istehsal etdiyimiz səviyyəyə yavaş-yavaş yaxınlaşaq. Bu, iş yerləri deməkdir. Təkcə bu il pambıqçılıqda 70 minə yaxın insan işləyir. Gələn il biz əkin sahələrimizi iki, yaxud 2,5 dəfə artırsaq bu sahədə 100 mindən çox, bəlkə də 150 min insan işlə təmin ediləcək. Burada da gələcək planlarımızı nəzərə alaraq indidən tədbirlər görməliyik. Mənə verilən məlumata görə, bizim pambıqtəmizləmə zavodlarımızın həcmi 300-350 min tondur. Biz bu rəqəmə ola bilər 2018-ci ildə, bəlkə də tez çatacağıq. Ona görə, bizdə yeni pambıqtəmizləmə zavodları tikilməlidir. Artıq İqtisadiyyat Nazirliyinə göstərişlər verilib, özəl sektor da, əlbəttə ki, bu işə qoşulmalıdır. Onların harada qurulması üçün yerlər müəyyən edilməlidir ki, biz sonra vaxt itirməyək.

Biz subsidiyaların verilməsində də ciddi addımlar atdıq. Bu yaxınlarda əlavə vəsait ayrıldı. Ondan əvvəl pambığın alış qiyməti 40 qəpikdən 50 qəpiyə qaldırıldı. Yəni, biz bunu ona görə edirik ki, o ağır sahədə işləyənlər daha yaxşı pul alsınlar. On qəpik artım artıq orada işləyənlərin gəlirini iki dəfə artıracaq. Eyni zamanda, biz indi elə bir mexanizm işləmişik ki, bu, kəndliləri, fermerləri stimullaşdıracaq və onlar özləri buna daha böyük maraq göstərəcəklər.

Bununla yanaşı, bizim kənd təsərrüfatında zəif yerimiz olan taxılçılıqdır. Biz özümüzü taxılla təqribən 65 faiz təmin edirik. Son vaxtlar böyük fermer təsərrüfatları yaradılıb və o təsərrüfatlarda məhsuldarlıq orta məhsuldarlıqdan təqribən iki dəfəyə yaxın çoxdur. Buna baxmayaraq, biz yenə də idxaldan asılıyıq. Azərbaycana hər il bir milyon tondan çox taxıl, buğda gətirilir. Ona görə, indi yeni layihələr işə düşür və çalışmalıyıq ki, biz özümüzü 100 faiz səviyyəsində taxılla təmin edək. Bu, mümkündür. Həm məhsuldarlığı intensiv yollarla artırmaqla, suvarma işlərini düzgün qurmaqla, həm də ki, yeni əkin sahələrini dövriyyəyə buraxmaqla biz buna nail ola və idxaldan asılılığı əhəmiyyətli dərəcədə azalda bilərik.

Bu il 24 rayonda baramaçılıq inkişaf edib və yaxşı nəticələr var, 70 ton barama tədarük olunub. Baramaçılığa subsidiyalar verilib. Şəki ipək kombinatı artıq işləyir, yüzlərlə insan orada işə cəlb edilib. Orada yenidənqurma işləri aparılmalıdır. Bu kombinat daha çox barama qəbul etməyə qadirdir. Ümidvaram ki, yaxın 2-3 ildə biz minlərlə ton barama tədarük edə bilərik. Hələlik bu işlər 24 rayonda gedir. Gələcəkdə daha çox rayonlarda gedəcək və insanlar 40-45 gün ərzində yaxşı pul alacaqlar. Minlərlə manat alanlar var və bu da insanların güzəranını yaxşılaşdırır. Biz çalışmalıyıq ki, burada da hazır məhsulu ixrac edək və əminəm ki, buna nail olacağıq. Bu işlərin səmərəli şəkildə qurulması üçün 3,5 milyon manat yardım göstərilib.

Bizim üçün ənənəvi sahələrdən biri də üzümçülükdür. Sovet vaxtında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə salınan bağların çoxu əfsuslar olsun ki, qırılıb. O vaxt bu, Qorbaçovun kampaniyası nəticəsində olmuşdur. O da nədənsə ancaq Azərbaycanda olmuşdur. Başqa respublikalarda isə üzüm bağlarını saxlayıblar. Bizdə isə o vaxt burada rəhbərlik edənlər dəridən-qabıqdan çıxırdılar ki, Qorbaçovun xoşuna gəlsinlər və bunun nəticəsində də üzüm bağlarımız ləğv olundu. Eyni zamanda, onu da qeyd etməliyik ki, əfsuslar olsun, ondan sonra da üzümçülüyə lazımi diqqət yetirilməmişdir. Mənə verilən məlumata görə, bu il təqribən 150-160 min ton üzüm yığılacaq. Halbuki sovet dövründə ən yaxşı vaxtlarda 1 milyon 700 min ton-2 milyon ton üzüm yığılırdı. Biz üzümçülüyü mütləq şərabçılıq ilə bağlamalıyıq. Əfsuslar olsun ki, biz dünyanın şərab bazarlarına çıxa bilməmişik. Baxmayaraq ki, bir neçə şərab zavodu tikilib və onlar görünür ya özləri maraq göstərmirlər, ya da imkanları yoxdur. Ancaq biz dünya bazarlarına öz şərabımızla çıxmalıyıq. Necə ki, vaxtilə Rusiya bazarına çıxmışıq. İndi biz, bildiyimə görə, heç Rusiya bazarına da əhəmiyyətli dərəcədə şərab ixrac etmirik. Amma bu, çox gəlir gətirən sahədir, xüsusilə kəndlilər üçün.

Yeni üzüm bağları salınır, dinamika müsbətdir. Ancaq burada dövlət dəstəyi daha da güclü olmalıdır, yerlər müəyyən edilməlidir. Bu, həm məşğulluqdur, həm də ki, valyuta gətirən bir sahədir. Şərabçılıq deyəndə, əlbəttə ki, mən ilk növbədə ixracı nəzərdə tuturam. Şərabçılığın inkişafı ölkədə alkoqollu içkilərin istehlakına səbəb olmamalıdır. Çünki bizim xalqımız sağlam həyat tərzi sürməlidir. Eyni sözlər tütünçülüyə də şamil edilir. Bizim əhali nə qədər az siqaret çəksə, o qədər yaxşıdır. Bunun onların sağlamlığına, ailə büdcələrinə ancaq xeyri olacaq. Ancaq tütünçü-

lüyün inkişafı bizə çox böyük imkanlar yaradacaq. Bu il keçən ilə nisbətən iki dəfə çox tütün istehsal ediləcək. Ancaq əlbəttə ki, bu rəqəm – 2500 ton bizi qane edə bilməz. Biz qısa müddət ərzində quru tütün istehsalını 10 min tona qaldırmalıyıq. Tütünçülüklə 14 rayonda məşğuldurlar. Bilirəm ki, bu yaxınlarda müəyyən edilən subsidiyalar rayon sakinlərini ruhlandırdı və dövlət də öz dəstəyini mütləq verməlidir. Quru tütünün ixracı ilə bağlı ciddi problemlər yoxdur. Ölkələr var ki, onu alırlar, gözləyirlər. Biz oraya daha da çox ixrac etməliyik və Azərbaycanda siqaretin istehsalını artırmalıyıq. Ona görə yox ki, bizim insanlar daha çox siqaret çəksinlər, ona görə ki, xaricdən az gəlsin. Ən çox valyuta xərclənən istiqamətlər taxıldır, siqaretdir, xam şəkərdir və kərə yağıdır. Ona görə biz yerli istehsalı artırmalıyıq və ixracı da təmin etməliyik.

Xam şəkər ölkəyə çox gətirilir. Bunu azaltmaq üçün şəkər çuğundurunun əkin sahələri mütləq genişləndirilməlidir. Artıq göstərişlər verilib, yeni əkin sahələri müəyyən edilib. Bizə təqribən 40-50 min hektar torpaq sahəsi lazımdır ki, şəkər çuğunduru əkilsin və xam şəkərin, qamış şəkərin idxalından asılılığı aradan qaldıraq. Bu sahədə də çox ciddi işlər aparılmalıdır. Bizdə fəaliyyət göstərən şəkər zavodu yerli şəkər çuğunduru əsasında işləməlidir. Qamış şəkərini, xam şəkəri idxal etmək üçün 100 milyondan çox valyuta xaricə gedir. Düzdür, əgər bu zavod olmasaydı, onda xam şəkərin hamısı xaricdən gətirilərdi. Zavodun fəaliyyəti yüzlərlə insan üçün iş yeri yaradıb. Biz, eyni zamanda, hazır şəkəri ixrac edirik. Yəni, zavodun fəaliyyəti, təbii ki, müsbət haldır. Ancaq çox yaxşı olar ki, bu, yerli xammal əsasında işləsin. Ona görə şəkər çuğundurunun əkilməsi xüsusi əhəmiyyət daşıyır. Bunun əkilməməsi 100 milyon dolları xaricə aparır, əkilməsi isə 100 milyon dolları Azərbaycanda saxlayacaq. Çox sadə bir məsələdir.

Çayçılığın inkişafı. Bu sahə ilə bağlı indi ciddi işlər aparılır. Yeni texnologiyalar var ki, məhsuldarlığı kəskin şəkildə artırır. Burada da fermerlərə şərait yaradılmalıdır. Onlara da stimullaşdırıcı təkliflər verilməlidir ki, maraqlı olsunlar, cənub zonasında çayçılıq inkişaf etsin. Biz çayı da ixrac edirik, ancaq idxal da edirik. Yəni, daxili tələbat çoxdur. Ona görə çayçılığın inkişafı ilk növbədə idxalı azaldacaq. Azərbaycan çayı keyfiyyətlidir və biz öz çayımızla xaricə daha çox çıxmalıyıq.

Son vaxtlar heyvandarlıqla bağlı aparılan işlər təqdirəlayiqdir. Bu yaxınlarda mən Yalama Aqroparkının açılışında olmuşam. Bu, birinci belə aqroparkdır. Orada 3 min baş iribuynuzlu malqaranın saxlanması nəzərdə tutulur və biz bu sahəni genişləndirməliyik. İndi Kənd Təsərrüfatı Nazirliyi bu işlərlə ciddi məşğuldur. Cins mal-qara alınıb. Ancaq indi əsas məsələ süni mayalanma sistemini tam qurmaqdır. Artıq bu istiqamətdə də işlər görülür. Mənə verilən məlumata görə, 3-4 il ərzində biz cinsi dəyişdirib yüksək keyfiyyətə malik olan mal-qaraya sahib olacağıq. Bu, öz növbəsində bizə əlavə böyük əkin sahələri verəcək. Çünki biz örüş torpaqlarımızdan çox səmərəsiz istifadə edirik. Bəziləri boşdur, bəzilərində isə normativdən qat-qat az heyvan saxlayırlar. Ona görə bizim heyvandarlığımız qapalı şəraitdə inkişaf etməlidir. Verilən məlumata görə, təqribən 500-600 min baş iribuynuzlu mal-qara bizə kifayətdir ki, südçülüyü, ətçiliyi inkişaf etdirək və bu sahədə ən müasir standartları təmin edək. Hazırda bizdə 2 milyondan çox iribuynuzlu malqara var. Ancaq onların cinsi o qədər də yaxşı deyil. İndi xaricdən gətirilən cins mal-qara ilə bunun fərqi yerlə-göy qədərdir. Ona görə bu sahədə ciddi addımlar atılır, istifadəsiz örüş torpaqlarında düşünülmüş, planlı şəkildə əkin işləri aparılmalıdır. Artıq İqtisadiyyat Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Prezident Administrasiyası bu işlərlə ciddi məşğuldurlar və beləliklə, biz özümüzü süd məhsulları və kərə yağı ilə təmin edəcəyik.

Mənə verilən son məlumata görə, özümüzü kərə yağı ilə tam təmin etmək üçün bizə əlavə 50-60 min cins mal-qara və əlbəttə, kərə yağı istehsal edən yeni müəssisələr lazımdır. Çünki süd və süd məhsullarının istehsalında biz özümüzü 80 faiz səviyyəsində təmin edirik, tezliklə 100 faizə çatmalıdır. Mövcud zavodlarda yeni xətlər qurulmalı, yeni müəssisələr tikilməli və Azərbaycanda süd məhsullarının bütün növləri 100 faiz istehsal olunmalıdır. Bax, qarşıya belə vəzifə qoyulur. Ona görə siz bir daha məsələni təhlil edin və mənə konkret son təklif verin ki, bunu tezliklə həll etmək üçün nə qədər vəsait, əkin sahələri, investisiya, kreditlər, dövlət investisiyaları lazımdır.

Mən artıq əvvəlki müşavirədə qeyd etmişəm və bir daha demək istəyirəm ki, bizə valyuta gətirən kənd təsərrüfatı sahələrinin inkişafı lazımdır.

Onların arasında fındıqçılığın çox böyük potensialı var. Bizə ən çox valyuta gətirən kənd təsərrüfatı məhsullarından biri fındıqdır. Yeni təkliflər hazırlanır. Qırx min hektarda yeni fındıq bağları salınmalıdır. Mövcud fındıq bağlarının həcmi ondan azdır. Ona görə, biz fındıq bağlarını 2 dəfədən çox artıracağıq. Fındığı yetişdirmək üçün 12 rayon seçilib. İqlimi və torpağı münbit olan bu 12 rayonda fındıqçılıq çox ciddi şəkildə inkişaf etməlidir. Bu, əlbəttə ki, vaxt tələb edir. Ancaq bu il biz artıq bu işlərə başlayırıq. Dövlət xətti ilə tinglər əldə edilir. Özəl sektor da bu işlərə qoşulsun. Bunun özəl sektor üçün də çox böyük faydası var. Burada biz bu işləri planlı şəkildə görməliyik.

Bakıda, Abşeron yarımadasında ənənəvi badam bağları əfsuslar olsun ki, azalır. Ancaq bu da çox valyuta gətirən bir sahədir. Mənə verilən məlumata görə, bizdə cəmi 500-600 hektar badam bağları var. Bu, çox azdır. Minlərlə hektar badam bağları salınmalıdır. İndi bu ərazilərdə boş torpaq sahələri çoxdur. Biz torpaqlardan səmərəli şəkildə istifadə etməliyik və xüsusilə, Bakının, Sumqayıtın ətrafında, Abşeronda böyük badam plantasiyaları salınmalıdır.

Biz zeytun idxal edirik. İndi bizim o qədər zeytun ağaclarımız, o qədər imkanlarımız var. Həm Bakıda, Abşeronda, həm də digər yerlərdə bizim çox böyük imkanlarımız var. Ancaq əfsuslar olsun ki, biz özümüzü təmin edə bilmirik və hazır zeytun istehsalı bizdə çox aşağı səviyyədədir. Ona görə, yeni zeytun bağları salınmalıdır. İndi yerlər müəyyən edilir – həm Abşeron yarımadasında, həm şimal zonasında, Xızı rayonunda. Bildiyimə görə, orada da işlər gedir ki, biz dünya bazarına zeytun çıxaraq. Bu da çox böyük gəlir gətirən sahədir, həm fermerlər üçün, həm dövlət üçün.

İndi kənd təsərrüfatının hər bir sahəsi bizim üçün vacibdir. Amma bir daha qeyd etmək istəyirəm, daxili tələbat 100 faiz təmin edilməlidir, ixrac maksimum olmalıdır. İxrac bazarları da müəyyən edilməlidir. Bizim ənənəvi ixrac bazarımız var, bu, Rusiyadadır. İndi Rusiyada böyük kənd təsərrüfatı layihələri icra edilir. Onlarda da idxaldan asılılıq azalır. Ona görə, biz yeni bazarlara baxmalıyıq. Bu, Yaxın Şərqdir, Körfəz ölkələridir, digər ölkələrdir, Asiyadır, Çindir. Biz ora çıxmalıyıq. Buna görə biz artıq “Made in Azerbaijan” brendini yaradırıq. İndi xüsusi işlər gedir, vəsait ayrılıb. Bizim heyətlər bütün ölkələrə getməlidirlər, gəzməlidirlər, təqdimatlar keçirməlidirlər. Yoxsa biz burada gözləyirik ki, kimsə gəlib bizdən nə isə alacaq. İndi bütün şirkətlər, ölkələr bazarlar uğrunda mübarizə aparırlar. Ona görə, bu, yeni bir yanaşma olmalıdır. Həm dövlət orqanları təşkil etməlidir, həm sahibkarlar özləri maraqlı olmalıdırlar və mütləq burada valyutanın hərəkətinə də diqqət yetirilməlidir. Çünki ixraca gedən məhsulun pulu bəzi hallarda ya 50 faiz, ya da 100 faiz qayıtmır. Ona görə, burada çox ciddi nəzarət olmalıdır. İndi ixracın təşviqi ilə bağlı yeni sistem qurulur və bu, orada da nəzərdə tutulur. Bu, 100 faiz şəffaf olmalıdır və heç bir pozuntuya yol verilməməlidir.

Bütün bunlar tələb edir ki, meliorasiyaya, suvarma işlərinə daha böyük diqqət göstərilsin. Son illər ərzində bu məqsədlər üçün böyük həcmdə vəsait ayrılıb. İki böyük su anbarı tikilib – Taxtakörpü, Şəmkirçay, digər layihələr icra edilib. Ancaq bizdə suvarılmayan torpaqların həcmi kifayət qədər çoxdur. Ona görə, göstəriş vermişəm, Prezident Administrasiyası məşğul olur, İqtisadiyyat, Kənd Təsərrüfatı nazirlikləri, “Meliorasiya və Su Təsərrüfatı” Açıq Səhmdar Cəmiyyəti birgə işləyirlər və gələn ilin tədbirləri haqqında mənə konkret məruzə edilməlidir. Prezident Administrasiyasından verilən məlumata görə, biz az vəsaitlə gələn il təqribən 80-90 min hektar torpağı su ilə təmin edə bilərik. İndi bütün rayonlarda təhlil aparılır. Rayon icra hakimiyyətləri bu işlərə qoşulub və bu, düzgün yanaşmadır. Onlar yerlərdə hər şeyi yaxşı bilirlər. Əlbəttə, mərkəzi icra orqanları, “Meliorasiya və Su Təsərrüfatı” qurumu plan tutmalıdırlar ki, hər il neçə on min hektar torpaq sahəsinə su verməliyik, bu torpaqlar haradadır və o torpaqlarda nə əkiləcək? O torpaqlarda əkin aparmaq üçün dövlət nə qədər dəstək verməlidir? Əmək resursları hesablanmalıdır. Beləliklə, biz suvarılan torpaqlarımızın həcmini böyük dərəcədə artıra bilərik. Belə torpaqlar kifayət qədər çoxdur.

Mən əvvəllər də demişəm, zəbt edilmiş torpaqlar da var, amma onların böyük bir hissəsi artıq qaytarılıb. Mənə verilən məlumata görə, 200 min hektardan çox zəbt edilmiş, istifadəsiz torpaq artıq qaytarılıb. Qanunsuz icarə müqavilələri bağlanılıb. Kim ki, o torpaqları əkib-becərir, biz buna ancaq şad olarıq. Amma kim bunu zəbt edib və möhtəkirliklə məşğuldur, əmanət kimi saxlayır və gözləyir ki, qiyməti qalxandan sonra satsın və ya bölsün, yaxud da ev tiksin buna yol vermək olmaz. Ona görə, bu göstərişlər verilib,

bu iş də davam etdirilməlidir. Qanunsuz zəbt edilmiş torpaqlar dövlət fonduna qaytarılmalıdır. Kim ki, istifadə edir, çox yaxşı, ona dövlət tərəfindən dəstək verilməlidir. Bütün bu işlərə əlbəttə ki, dövlət dəstəyi, o cümlədən maliyyə dəstəyi verilməlidir.

Sahibkarlığın inkişafına maliyyə dəstəyi göstərilir. Bu il artıq 120 milyon manat güzəştli kreditlər verilib. Ancaq ilin sonuna qədər fondda nəzərdə tutulan layihələrə tam həcmdə kreditlər verilməlidir və gələn il kifayət qədər böyük vəsait nəzərdə tutulmalıdır.

Biz bu il ailə biznesinə "ASAN dəstək" sistemini yaradırıq. Bu, artıq Masallı "ASAN xidmət" mərkəzində mənə təqdim olundu. Çox təqdirəlayiq bir təşəbbüsdür. Yəni, kiçik sahibkarlığın inkişafı üçün bunun çox böyük dəstəyi olacaq. Ona görə, dövlət qurumları da, aidiyyəti qurumlar da bu işlərlə məşğul olsunlar. İqtisadiyyat, Kənd Təsərrüfatı, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, "ASAN xidmət"lə bərabər yerli icra orqanları o kiçik konteynerlərdə nəzərdə tutulan istehsalat sahələrini insanlar arasında bölsünlər ki, bizdə ailə biznesi inkişaf etsin. İnkişaf etmiş ölkələrdə, xüsusilə kənd təsərrüfatı inkişaf etmiş ölkələrdə kənd təsərrüfatının əsas hissəsi kiçik fermer təsərrüfatlarında yaradılır və ailə biznesi orada çox inkişaf edir. Bu, bizdə də olmalıdır.

"ASAN xidmət" mərkəzlərinin sayı 11-ə çatıb. Bunun çox böyük faydası var. Mərkəzlərə 12 milyon müraciət olub. Növbəti bir-iki ildə 4 yeni "ASAN xidmət" mərkəzi yaradılmalıdır. Gələn ilin və 2018-ci ilin dövlət investisiya proqramında bu, nəzərdə tutulmalıdır. Qarşıdakı iki ildə ən azı 4 mərkəz yaradılmalıdır.

Biz gördük ki, həyata keçirilən tədbirlər və aparılan islahatlar bu il turizmin axınına çox böyük təkan verib. Xüsusilə ərəb ölkələrindən gələnlərin sayı 20-30 dəfə artıb. Yay aylarında bizim otellərin çoxunda boş yer yox idi. Yəni, bu, ölkəmizə böyük valyuta gətirir. Ola bilər bu, bizim üçün yenilikdir. Bəlkə insanlar da buna öyrəşməyiblər. Ancaq bütün inkişaf etmiş ölkələrdə böyük turizm axını müşahidə olunur. Turizm axını o ölkələrin inkişafı, təhlükəsizliyi, xalqlarının qonaqpərvərliyi deməkdir. Bizdə də bunların hamısı var. Xalqımız qonaqpərvərdir, təhlükəsizlik təmin edilir, gözəl tarixi, mənzərəli yerlərimiz və müasir infrastrukturumuz var. Vaxtilə bəziləri deyirdilər ki, Azərbaycanda, Bakıda bu qədər otel tikilir, kimə lazımdır? Artıq biz gördük ki, lazımdır və nə ediriksə düz edirik. Ancaq indiki şəraitdə biz gərək potensial turizm axınını hesablayaq. Çünki biz indi "ASAN viza" sisteminə keçirik. Cəmi 3 gün ərzində elektron vizalar veriləcək. Ona görə turizmin axını daha da güclü olacaq. Hamımız yaxşı görürük ki, "Formula-1" yarışlarının buna nə qədər böyük xeyri oldu. Ona görə, bizim otel infrastrukturu bu inkişafla ayaqlaşmalıdır. Sahibkarlar da bunu eşitsinlər, yerli icra orqanları, Mədəniyyət və Turizm Nazirliyi şərait yaratsın ki, həm Bakıda, həm bölgələrdə otellərin sayı çoxalsın.

Gələn il sosial infrastruktur layihələri icra ediləcək. Məktəblərin, xəstəxanaların, olimpiya mərkəzlərinin tikintisi nəzərdə tutulur. Modul tipli məktəblər tikilməlidir. Çünki bizdə hələ qəzalı şəraitdə kifayət qədər çox məktəb var. Məncə biz onları 2017-2018-ci illərdə tamamilə sökəcəyik və onların yerində yeni məktəblər tikiləcək. Beləliklə, bir dənə də qəzalı, təmirsiz məktəb qalmamalıdır.

Məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzindədir. Artıq burada məruzədə də səsləndi ki, bu işlərə nə qədər böyük vəsait ayrıldı, bölgələrdə 100-ə yaxın qəsəbə salındı, Bakı şəhərində evlər tikildi. Hesab edirəm ki, 2017-ci ildə bu məsələləri daha da sürətlə həll etmək üçün biz iki yolla getməliyik. Əlbəttə, yeni qəsəbələr salınmalıdır, salınır. Eyni zamanda, yeni binalar tikilməlidir, satılmayan mövcud mənzillər dövlət tərəfindən alınmalıdır və köçkünlərə verilməlidir. Beləliklə, biz ağır vəziyyətdə yaşayan soydaşlarımızın problemlərini daha da tez bir zamanda həll edə bilərik. Çünki binaların tikintisi vaxt tələb edir. Bir də ki, Bakı şəhərində, digər şəhərlərdə kifayət qədər çox mənzillər var ki, boşdur, dövlət onları ala bilər. Bu da öz növbəsində tikinti sektorunu canlandıra, vergiləri artıra bilər.

Bir sözlə, artıq 2016-cı il sona yaxınlaşır. Qeyd etdiyim kimi, bu il dünya iqtisadiyyatı üçün, dünya üçün ağır il olmuşdur. Ancaq əminəm ki, Azərbaycan son üç ay ərzində görüləcək işlər nəticəsində 2016-cı ili də uğurla başa vuracaq. 2017-ci il də uğurlu olacaq. Əminəm ki, qarşıya qoyulan bütün vəzifələri icra etmək üçün bizdə kifayət qədər iradə, güc var. Xalq bizim siyasətimizi dəstəkləyir, referendumun nəticələri bunu bir daha təsdiqləyir. Bizim yolumuz açıqdır. Biz bundan sonra da inkişaf və tərəqqi yolu ilə gedəcəyik. Sağ olun.

# Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 13 il keçir.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün ilboyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıtmış, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınmış böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 13-cü ildönümü günü – dekabrın 12-də də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirdilər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev











hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbriki

## İlham Əliyevin Azərbaycan xalqına təbriki



– Əziz həmvətənlər.

2016-cı il tarixdə qalır. 2016-cı il ölkə iqtisadiyyatı üçün ən ağır illərdən biri olmuşdur. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının bir parçasıdır. Dünyada isə iqtisadi böhran 2016-cı ildə davam etmişdir. Bundan əlavə, neftin qiymətinin dünya bazarlarında üç-dörd dəfə aşağı düşməsi nəticəsində gəlirlərimiz kəskin şəkildə aşağı düşmüşdür. Belə bir vəziyyətdə biz ancaq ciddi islahatlar apararaq vəziyyətdən çıxış yolunu tapa bilərdik və buna nail olduq.

Azərbaycan iqtisadiyyatı öz dayanıqlılığını saxlaya bilmişdir, iqtisadi sabitlik təmin edilmişdir və bu il aparılan ciddi və hərtərəfli iqtisadi islahatlar gələcək inkişafımız üçün çox gözəl üfüqlər, perspektivlər açır. Onu da qeyd etməliyəm ki, bütün çətinliklərə baxmayaraq, ölkəmizin qeyri-neft sənayesi bu il 5 faiz, kənd təsərrüfatı isə 2 faizdən çox artmışdır. Biz bu il valyuta ehtiyatlarımızı qoruya bilmişik. Bu da çox mühüm məsələdir. Çünki bizim iqtisadi potensialımız, maliyyə resurslarımız həm iqtisadi, həm siyasi müstəqilliyimizi müəyyən edir.

2016-cı ildə bütün sosial proqramlar artıqlaması ilə icra edilmişdir. Köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində yeni qəsəbələr, şəhərciklər salınmışdır. Əhalinin pul gəlirləri, – baxmayaraq ki, 2016-cı il böhranlı ildir, – 7 faiz artmışdır, orta əməkhaqqı isə 9 faiz artmışdır.

Bir sözlə, bütün çətinliklərə baxmayaraq Azərbaycan 2016-cı ildə də inamla inkişaf etmişdir. Bir daha qeyd etmək istəyirəm, bu il qəbul etdiyimiz qərarlar, xüsusilə ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar öz nəticəsini verəcəkdir. Eyni zamanda, biz ixracın şaxələndirilməsi istiqamətində çox önəmli addımlar atmışıq. Çünki neft gəlirlərinin aşağı düşməsi nəticəsində bizim valyuta gəlirlərimiz azalıb və biz qeyri-neft ixracının inkişafı ilə bu boşluğu bərpa edə bilərik.

2016-cı ildə bizim beynəlxalq mövqelərimiz daha da möhkəmlənib. Bizim dostlarımızın sayı artıb, bizi istəməyən qüvvələr, bizə qarşı vaxtaşırı kampaniyalar aparan qüvvələr isə siyasi səhnədən gedirlər. Azərbaycan beynəlxalq təşkilatlarda böyük uğurlar qazana bilmişdir. Xüsusilə İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox vacib sənədlər qəbul edilmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli xarici siyasətimizin əsas prioritetidir. Deyə bilərəm ki, bizim siyasi və diplomatik mövqelərimiz il ərzində daha da möhkəmlənmişdir. Qondarma "Dağlıq Qarabağ" qurumunu

heç bir ölkə tanımır və tanımayacaq. Münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Bunun başqa yolu yoxdur. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi icra edilməlidir. Status-kvonun qəbuledilməzliyi haqqında artıq həm bu məsələ ilə bağlı fəaliyyət göstərən həmsədr ölkələrin prezidentləri, eyni zamanda, ATƏT və digər qurumların rəhbərləri dəfələrlə bəyanatlar vermişdir.

2016-cı il bizim şanlı hərbi qələbə ili kimi tarixdə qalacaqdır. 1994-cü ildən bu günə qədər ilk dəfə idi ki, Azərbaycan işğal edilmiş torpaqların bir hissəsini işğalçılardan azad etmişdir. Aprel ayında erməni silahlı təxribatının qarşısını alaraq bizim ordumuz düşmənə sarsıdıcı zərbələr vurmuş və işğal edilmiş torpaqların bir hissəsini azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının minlərlə hektar torpağı işğalçılardan azad edilmişdir. On minlərlə hektar torpağa indi Azərbaycan Ordusu tam nəzarət edir.

Biz şəhidlər də vermişik. Allah şəhidlərimizə rəhmət eləsin. Azərbaycan xalqı, Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq göstərmişdir. Bizim bayrağımız bu gün Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında dalğalanır. Azad edilmiş torpaqlarda olarkən Azərbaycan bayrağı altında mən bir daha demişdim ki, Azərbaycan xalqı və Azərbaycan dövləti öz torpağında ikinci erməni dövlətinin yaranmasına heç vaxt icazə verməyəcəkdir. Aprel döyüşləri bizim şanlı tariximizdir. Aprel döyüşləri bizim tarixi qələbəmizdir. Bu qələbə münaqişənin həllini yaxınlaşdırır.

2016-cı ildə bizim böyük idman qələbəmiz də olmuşdur. Rio Olimpiya Oyunlarında idmançılarımız tarixi qələbə qazanmışdır. 18 medal qazanaraq Azərbaycan bir daha sübut etdi ki, Azərbaycan idman dövlətidir və Azərbaycan idmançıları güclülərin sırasındadır. Medalların sayına görə Azərbaycan dünya miqyasında 200 ölkə arasında 14-cü yerə layiq görülmüşdür. Azərbaycan Avropa ölkələri arasında 7-ci, postsovet məkanı ərazisində 2-ci, müsəlman aləmində isə 1-ci yerdədir. Bu, bizim böyük idman qələbəmizdir və eyni zamanda, bu qələbə xalqımızın, dövlətimizin gücünü göstərir.

Bu il biz müstəqilliyimizin 25 illiyini qeyd edirdik. Hərbçilərimiz, idmançılarımız bu bayram ilində bizə qələbə sevinci bəxş etmişlər.

2016-cı ildə enerji təhlükəsizliyi istiqamətində önəmli addımlar atılmışdır. "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bu ilin əvvəlində ölkəmizin təşəbbüsü ilə artıq ikinci dəfə idi ki, Cənub Qaz Dəhlizinin Məşvərət Şurası Bakıda keçirilmişdir və iştirak edən bütün ölkələr və beynəlxalq təşkilatlar qəbul edilmiş yekun qətnamədə Azərbaycanın liderlik rolunu bir daha vurğulamışlar. "Cənub Qaz Dəhlizi" Azərbaycanın təşəbbüsü və böyük maliyyə dəstəyi ilə icra edilən qlobal, beynəlxalq enerji layihəsidir. Bu, tarixi layihədir. Layihə icra olunandan, bütün işlər başa çatandan sonra Azərbaycan çox böyük mənfəət görəcəkdir. Beləliklə, bu il proqram üzrə bütün işlər yüksək səviyyədə aparılmışdır və əminəm ki, bu nəhəng transmilli layihə vaxtında istifadəyə veriləcəkdir. Eyni zamanda, bu il bizim yeni qaz yataqlarımızdan çıxarılacaq qazın həcmi də müəyyən edilmişdir və beləliklə, "Cənub" Qaz Dəhlizini qidalandıracaq layihələr arasında təkcə "Şahdəniz" layihəsi deyil, eyni zamanda, "Abşeron" qaz yatağı da olacaqdır.

Hesab edirəm ki, bu il biz nəqliyyat təhlükəsizliyi istiqamətində tarixi addımlar atmışıq. Bildiyiniz kimi, uzun illər davam edən Şərq-Qərb nəqliyyat dəhlizinin icrası artıq başa çatır və Şimal-Cənub nəqliyyat dəhlizinin istifadəyə verilməsi istiqamətində Azərbaycan çox önəmli addımlar atmışdır. Demək olar ki, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin Azərbaycan tərəfinə düşən payı üzrə görüləcək işlər artıq görülübdür. Biz qısa müddət ərzində bütün işləri başa çatdırdıq və beləliklə, gələcəkdə əlavə səylər qoyaraq çalışacağıq ki, bu iki önəmli magistral tezliklə işə düşsün.

2016-cı ildə Azərbaycanda referendum keçirilmişdir. Referendum azad, şəffaf şəkildə aparılmışdır. Bütün exit-pollar referendumun rəsmi nəticələrini təsdiqləmişdir. Beynəlxalq müşahidəçilər də qeyd etmişlər ki, referendum azad, şəffaf şəkildə həyata keçirilmişdir, heç bir pozuntu olmamışdır və Azərbaycan xalqının iradəsi referendumun nəticələrində öz əksini tapmışdır. Referendumun nəticələri bizim siyasətimizə xalq tərəfindən verilən böyük dəstəkdir. Mən bu dəstəyə, bu inama görə Azərbaycan xalqına bir daha öz minnətdarlığımı bildirmək istəyirəm. Bir daha Azərbaycan xalqını əmin etmək istəyirəm, bütün səylərimi qoyacağam ki, bundan sonra da dövlətimizin, xalqımızın maraqları layiqincə qorunsun.

2016-cı il Azərbaycanda "Multikulturalizm ili" elan edilmişdir. Bu il ölkəmizdə bir çox mötəbər beynəlxalq tədbirlər keçirilmişdir. Azərbaycan bir daha dünyaya sübut etmişdir ki, müxtəlif dinlərin, millətlərin, etnik qrupların nümayəndələri bir ölkədə, bir səma altında rahat, ləyaqətlə yaşaya bilərlər. Azərbaycan multikulturalizm ideyalarının dünyada təbliği işində müstəsna rol oynayan bir ölkədir.

Əziz həmvətənlər, bu gün Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür. Mən bütün dünya azərbaycanlılarını səmimi qəlbdən salamlayıram, onlara ən xoş arzularımı çatdırıram. Onlar bilirlər və bilməlidirlər ki, onların arxasında möhkəm, güclü Azərbaycan dövləti dayanır.

Əziz bacılar və qardaşlar, mən sizi Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

# Azərbaycan Prokurorluğu orqanlarının yaradılmasının 98-ci ildönümü Baş Prokurorluqda qeyd olunmuşdur

## Azərbaycan Prokurorluğunun kollektivi peşə bayramını qeyd etmişdir



Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyevin siyasi iradəsinə müvafiq olaraq 1998-ci ildən etibarən peşə bayramı gününü qeyd etmək imkanı əldə edən Azərbaycan Prokurorluğunun kollektivi oktyabrın 1-də prokurorluq orqanlarının yaradılmasının 98-ci ildönümünü və peşə bayramını təntənəli şəkildə qeyd etmişdir.

Bu münasibətlə Baş Prokurorluğun, Respublika Hərbi və Bakı şəhər prokurorluqları orqanlarının kollektivləri oktyabrın 1-də Fəxri Xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər Xiyabanını ziyarət etmiş, ümummilli liderimizin və Vətənimizin azadlığı uğurunda şəhid olmuş qəhrəmanlarımızın xatirəsini dərin ehtiramla yad etmişlər.

Sonra Baş Prokurorluqda "1 oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü" və milli prokurorluğun yaradılmasının 98-ci ildönümünə həsr olunmuş mərasim keçirilmişdir.

Azərbaycanın dövlət himni səsləndirildikdən sonra Baş prokuror Zakir Qaralov peşə bayramı münasibətilə prokurorluq orqanlarında çalışan bütün işçiləri, veteranları, onların ailə üzvlərini təbrik etmişdir.



Diqqətə çatdırılmışdır ki, xalqının təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin 1993-cü ilin ikinci yarısından başlayaraq həyata keçirdiyi müdrik dövlətçilik siyasətinin nəticəsi olaraq, digər qurumlarla yanaşı, Azərbaycan Prokurorluğu da demokratik məzmunlu dövlət təsisatı kimi tamamilə yenidən formalaşdırılmaqla, dövlətçiliyimizin mühüm sütunlarından birinə çevrilmiş, onun dövlətçiliyə sədaqəti ilə seçilən kadr korpusu yaradılmışdır. Azərbaycan Respublikasında reallaşdırılan mütərəqqi məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanları müasir məzmunda yeniləşdirilməklə, cəmiyyətdə statusuna uyğun yerini tutmuşdur.

Ümummilli liderin müəyyən etdiyi strateji inkişaf konsepsiyasını uğurla reallaşdıran və keyfiyyətcə yeni müstəviyə qaldıran dövlət başçısı cənab İlham Əliyevin Azərbaycanda hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna, insan hüquqlarının və azadlıqlarının qorunmasına, demokratik təsisatların yaradılmasına yönələn siyasətin artıq öz bəhrəsini verdiyini diqqətə çatdıran Baş prokuror bildirmişdir ki, Azərbaycan Respublikasında son dövrlərdə ardıcıl və sistemli şəkildə həyata keçirilən sosial-iqtisadi islahatların reallaşdırılması, hərtərəfli düşünülmüş dövlət siyasətinin həyata keçirilməsi, ictimai-siyasi sabitliyin təmin olunması nəticəsində Azərbaycan beynəlxalq birliyin tam hüquqlu üzvü kimi layiq olduğu yerini tutmuşdur. Müsbət hal kimi qeyd olunmuşdur ki, Azərbaycan Respublikası bu gün nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq edir, eyni zamanda, mötəbər beynəlxalq və idman tədbirlərinin, o cümlədən V Bakı Beynəlxalq Humanitar Forumunun ölkəmizdə keçirilməsi həyata keçirilən xarici siyasətin dünya dövlətləri tərəfindən yüksək dəyərləndirilməsinin bariz nümunəsi və müstəqillik illərində əldə etdiyi ən böyük nailiyyətlərdəndir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlam Əliyev prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı qarşıda duran vəzifələri müəyyənləşdirərək demişdir: “Əsas məqsədimiz–prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının yetişdirilməsidir. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir”.

Qeyd edilmişdir ki, dövlət başçısının siyasi iradəsinə və onun rəhbərliyi altında reallaşdırılan



dövlət gənclər siyasətinin tələblərinə müvafiq olaraq, şəffaf prosedurlar əsasında prokurorluğun kadr korpusunun yeniləşdirilməsi istiqamətində məqsədyönlü işlər eyni intensivliklə davam etdirilir.

2002-ci ildən başlayaraq keçirilən müsabiqələr yolu ilə qulluğa qəbulun yeni əsaslarla təşkili nəticəsində işə götürülən 780 gənc hüquqşünasın Azərbaycan Respublikası Prokurorluğunun kadr korpusunun 63 faizini təşkil etməsi, növbəti müsabiqədən müvəffəqiyyətlə keçmiş 117 gənc mütəxəssisin prokurorluq orqanlarına işə qəbul olunması ölkə həyatının bütün sahələrində gənclərin əməyindən geniş istifadə olunması barədə dövlət başçısının göstərişlərinin icrasının nəticəsidir. Alternativi olmayan bu kadr seçimi vasitəsinin tətbiqi bundan sonra da davam etdiriləcəkdir.

Bildirilmişdir ki, dövlət başçısının 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi milli prokurorluq orqanlarının hərtərəfli müasirləşməsi və işinin tam yeni müstəvidə qurulması baxımından müstəsna əhəmiyyətə malik bir addım olmuşdur. Üç illik müddət ərzində yeni təkmilləşmə və inkişafın, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyan bu proqram ölkənin hüquq sistemində prokurorluğun rolunun artırılması, digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəli fəaliyyətin təkmilləşdirilməsi, müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmaqla mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, bütün istiqamətlər üzrə işin səmərəliliyinin və əməkdaşların peşəkarlığının yüksəldilməsi, yeni nəsil prokurorluq işçilərinin formalaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində konkret tədbirlərin həyata keçirilməsi ilə nəticələnmişdir.

Azərbaycan Prokurorluğu orqanları ötən müddət ərzində Daxili İşlər Nazirliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahələrində zəruri tədbirlərin görülməsini təmin etmişdir. Düzgün qurulmuş qarşılıqlı əlaqə kriminogen duruma effektiv nəzarəti təmin




etməyə, onun səviyyəsini təhlükəsiz hədlərdə saxlamağa imkan vermişdir. Həyata keçirilmiş məqsədyönlü tədbirlərin nəticəsidir ki, Azərbaycan Respublikası təhlükəsiz və sabit ölkələrdən biri olaraq qalır.

Xüsusi vurğulanmışdır ki, prokurorluq orqanları tərəfindən bir çox ağır, mürəkkəb və çoxepizodlu, böyük ictimai rezonansa səbəb olan cinayət işlərinin ibtidai araşdırılması yüksək peşəkarlıqla aparılmaqla onlardan bəziləri üzrə istintaq tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində işin düzgün təşkilinə Prezident İlham Əliyev tərəfindən dövlət səviyyəsində göstərilən yüksək diqqətin nəticəsidir ki, ixtisaslaşdırılmış qurum kimi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti üçün əlverişli şərait yaradılmış, əməkdaşların sayı əhəmiyyətli dərəcədə artırılmaqla çevik fəaliyyəti təmin etməyə qadir yeni struktur formalaşdırılmış, MDB məkanında, habelə Azərbaycan tarixində ilk dəfə olaraq bu quruma əməliyyat-axtarış fəaliyyətinin həyata keçirilməsi səlahiyyəti verilmiş, işçilərin sosial müdafiəsinin gücləndirilməsi və sair tədbirlər korrupsiya hallarının qarşısının alınması və onları doğuran səbəblərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin səmərəliliyini daha da artırmış, profilaktiki fəaliyyət və preventiv təsir imkanları daha da gücləndirilmişdir.

Əminlik ifadə olunmuşdur ki, öz peşə bayramını qeyd edən prokurorluq orqanları həmişə ölkəmizdə həyata keçirilən yeni məzmunlu mütərəqqi islahatların reallaşdırılması istiqamətində xidmət göstərəcək, digər dövlət təsisatları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin, dövlətçiliyimizin maraqlarının cinayətkar qəsdlərdən qorunması, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi işində yaxından iştirak edəcəkdir.

Sonda Baş prokuror Zakir Qaralov xidmətdə fərqlənən bir qrup prokurorluq əməkdaşına "Prokurorluğun fəxri işçisi" döş nişanı, Fəxri fərmanlar və rütbə dərəcələri təqdim etmişdir.

Mərasimin sonunda Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından dövlət başçısı cənab İlham Əliyevə müraciət qəbul edilmişdir.

**Baş Prokurorluğun Mətbuat xidməti**

# Prokurorluq işçiləri həvəsləndirilmişlər

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**

**№11/379-k**

Bakı şəhəri                                                                    29 sentyabr 2016-cı il

**1 Oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının 98 illiyi münasibətilə bir qrup prokurorluq işçisinin həvəsləndirilməsi haqqında**

1 Oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının 98 illiyi münasibətilə, xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 32-ci və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 18.10-cu, 23-cü və 24-cü maddələrini rəhbər tutaraq,

**ƏMR EDİRƏM:**

**1. Aşağıda adları çəkilən prokurorluq işçiləri "Prokurorluğun fəxri işçisi" döş nişanı ilə təltif edilsinlər:**

ədliyyə müşaviri
**Səlimov Malik Dadaş oğlu** – Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin prokuroru

baş ədliyyə müşaviri
**Mirzəliyev Mövlüd Nuru oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru

**2. Aşağıda adları çəkilən prokurorluq işçiləri "Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanı" ilə təltif edilsinlər:**

kiçik ədliyyə müşaviri
**Əyyubova Günay Çingiz qızı** – Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini

baş ədliyyə müşaviri
**Surxayev Aslan Məhəmməd oğlu** – Ağstafa rayon prokuroru

baş ədliyyə müşaviri
**Süleymanov Elman Famil oğlu** – Daşkəsən rayon prokuroru

ədliyyə müşaviri
**Həsənov Binnət Rafiq oğlu** – Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin böyük prokuroru

ədliyyə müşaviri
**Mirzəyev Emil Ağakərim oğlu** – Baş Prokurorluğun Müraciətlərə baxılması idarəsinin Vətəndaşların qəbulu şöbəsinin böyük prokuroru

ədliyyə kapitanı
**Məmmədov Hümmət Baloğlan oğlu** – Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi

ədliyyə polkovnik-leytenantı
**Süleymanov Süleyman Paşa oğlu** – Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin prokuroru

ədliyyə müşaviri
**Səfərəliyeva Nailə Teymur qızı** – Bakı şəhər prokurorunun köməkçisi

baş ədliyyə müşaviri
**Vəliyev Tahir Həsən oğlu** – Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru

**3. Aşağıda adları çəkilən prokurorluq işçilərinə mükafatlandırma qaydasında növbəti xüsusi rütbələr verilsin:**

**baş ədliyyə müşaviri**

ədliyyə müşaviri
**Rəsulov Fuad Mirmehti oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat təminatı şöbəsinin rəisi

ədliyyə müşaviri
**Qubadov Səyyaf Mövsüm oğlu** – Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin böyük prokuroru

**ədliyyə müşaviri**

kiçik ədliyyə müşaviri
**Balayev Anar Abgül oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat təminatı şöbəsinin mühüm işlər üzrə əməliyyatçısı

kiçik ədliyyə müşaviri
**Məmmədov Anar Kazım oğlu** – Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuroru

**kiçik ədliyyə müşaviri**

I dərəcəli hüquqşünas
**Muxtarov Toğrul Novruz oğlu** – Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru

I dərəcəli hüquqşünas
**Vəliyev İldırım İmran oğlu** – Baş Prokurorluğun Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru

I dərəcəli hüquqşünas
**Əhmədov Orxan Elbrus oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin prokuroru

I dərəcəli hüquqşünas
**Səfərov Qabil Qurban oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi

I dərəcəli hüquqşünas
**Vəlibəyov Tural Mehman oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi

I dərəcəli hüquqşünas
**Hüseynova Pərvanə Salman qızı** – Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Müraciətlərə baxılması şöbəsinin prokuroru

I dərəcəli hüquqşünas
**Şabanov Balahüseyn Fərhad oğlu** – Mingəçevir şəhər prokurorunun müavini

I dərəcəli hüquqşünas
**Ədilov Ramil Fazil oğlu** – Sabirabad rayon prokurorunun müavini

I dərəcəli hüquqşünas
**Kərimov Tural Baris oğlu** – Şamaxı rayon prokurorunun müavini

I dərəcəli hüquqşünas
**Hümbətov Ceyhun Eldar oğlu** – Bakı şəhəri Sabunçu rayon prokurorluğunun böyük müstəntiqi

**I dərəcəli hüquqşünas**

II dərəcəli hüquqşünas
**Eyyubov Elmar Bayram oğlu** – Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru

II dərəcəli hüquqşünas
**Mirzəyeva Fərizə Fuad qızı** – Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru

II dərəcəli hüquqşünas
**Əhmədli Vüqar Ədalət oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru

II dərəcəli hüquqşünas
**Əyyubov Arif Vahid oğlu** – Tovuz rayon prokurorluğunun böyük müstəntiqi

II dərəcəli hüquqşünas
**İbrahimov Fariz Mübariz oğlu** – Bakı şəhəri Xətai rayon prokurorunun köməkçisi

**4. Aşağıda adları çəkilən prokurorluq işçilərinə təşəkkür elan edilsin:**

baş ədliyyə müşaviri
**Səfərov Qurban Naib oğlu** – Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi

baş ədliyyə müşaviri
**Məmmədov Elmar Əlikiram oğlu** – Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə böyük müstəntiqi

baş ədliyyə müşaviri
**Səmədov Salman Səməndər oğlu** – Ağcabədi rayon prokuroru

baş ədliyyə müşaviri
**Məmmədov Fəxrəddin Şamil oğlu** – Bərdə rayon prokuroru

baş ədliyyə müşaviri
**Əhmədov Kamran Möhsüm oğlu** – Saatlı rayon prokuroru

I dərəcəli hüquqşünas
**Nurəlibəyov Hidayət Əli oğlu** – Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi

ədliyyə müşaviri
**Tağıyev Azər Cəmil oğlu** – Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin Kriminalistika şöbəsinin prokuroru

ədliyyə müşaviri
**Əmrahov Abdulhəsən Qurban oğlu** – Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru

II dərəcəli hüquqşünas
**Əliyev Ramiz Kamal oğlu** – Baş Prokurorluğun Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru

III dərəcəli hüquqşünas
**Səmədov Orxan Emin oğlu** – Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Şirvan Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan Ağcabədi, Laçın və Zərdab rayon məhkəmələri üzrə) vəzifəsini icra edən

II dərəcəli hüquqşünas
**Əliyev Vüsal Azad oğlu** – Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Şirvan Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan Şirvan şəhər məhkəməsi üzrə)

III dərəcəli hüquqşunas
**Musayev Təbriz Elşən oğlu** – Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan Şəki və Oğuz rayon məhkəmələri üzrə) vəzifəsini icra edən

ədliyyə müşaviri
**Əliyev Əli Fətəli oğlu** – Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru (Bakı Ağır Cinayətlər Məhkəməsi üzrə)

II dərəcəli hüquqşünas
**Məmmədov Fəxri Vahid oğlu** – Baş Prokurorluğun Kadrlar idarəsinin prokuroru

II dərəcəli hüquqşünas
**Quliyev Ziyafət Əlifağa oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi

II dərəcəli hüquqşünas
**Süleymanov Vasif Səlim oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi vəzifəsini icra edən

ədliyyə kapitanı
**Seyidov Farid Cəlal oğlu** – Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Silahlı Qüvvələrin təhqiqat orqanlarında və əsgər dustaqxanalarında qanunların icrasına nəzarət şöbəsinin prokuroru

ədliyyə baş leytenantı
**Səfərov Emin Ələddin oğlu** – Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun İstintaq şöbəsinin mühüm işlər üzrə müstəntiqi

ədliyyə müşaviri
**Seyidov İlyaz Hacalı oğlu** – Bakı şəhər prokurorluğunun İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi

ədliyyə müşaviri
**Məmmədov Elxan Famil oğlu** – Masallı rayon prokurorunun müavini

kiçik ədliyyə müşaviri
**Məmmədov Elşən Vəli oğlu** – Bakı şəhər prokurorluğunun Təşkilat-analitik şöbəsinin prokuroru

II dərəcəli hüquqşünas
**İbrahimova Şəbnəm Xəzər qızı** – Bakı şəhəri Nəsimi rayon prokurorunun böyük köməkçisi

I dərəcəli hüquqşünas
**Paşayev Babək Elman oğlu** – Ağdam rayon prokurorunun böyük köməkçisi

II dərəcəli hüquqşünas
**Cəfərov Anar Novruz oğlu** – Ağstafa rayon prokurorunun böyük köməkçisi

III dərəcəli hüquqşünas
**Vəliyev Murad İsmayıl oğlu** – Astara rayon prokurorunun böyük köməkçisi vəzifəsini icra edən

III dərəcəli hüquqşünas
**Cəfərov Adil Yusif oğlu** – Balakən rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən

II dərəcəli hüquqşünas
**Paşayev Şamil Amil oğlu** – Bərdə rayon prokurorunun böyük köməkçisi

III dərəcəli hüquqşünas
**Quliyev Faiq Çingiz oğlu** – Kürdəmir rayon prokurorunun böyük köməkçisi vəzifəsini icra edən

III dərəcəli hüquqşünas
**Məmmədov Neymət Hüsən oğlu** – Saatlı rayon prokurorunun böyük köməkçisi vəzifəsini icra edən

II dərəcəli hüquqşünas
**Şahverdiyev Nicat Rasim oğlu** – Tərtər rayon prokurorluğunun böyük müstəntiqi

II dərəcəli hüquqşünas
**Novruzov Hikmət Şəmsəddin oğlu** – Ucar rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən

I dərəcəli hüquqşünas
**Şəkərəliyev Amin Qəhrəman oğlu** – Yardımlı rayon prokurorunun böyük köməkçisi

III dərəcəli hüquqşünas
**Əbilov Elnur Rəşid oğlu** – Yevlax rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən

III dərəcəli hüquqşünas
**Şabanov Valeh İxtiyar oğlu** – Zaqatala rayon prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən

ədliyyə kapitanı
**Verdiyev Amid Asif oğlu** – Füzuli hərbi prokurorluğunun böyük müstəntiqi

ədliyyə leytenantı
**Babayev Xanlar Çingiz oğlu** – Qarabağ hərbi prokurorluğunun böyük müstəntiqi vəzifəsini icra edən

ədliyyə baş leytenantı
**Ağayev Kənan Balabəy oğlu** – Qazax hərbi prokurorluğunun böyük müstəntiqi

III dərəcəli hüquqşünas
**Əliyev Namiq Qadir oğlu** – Bakı şəhəri Binəqədi rayon prokurorluğunun müstəntiqi

III dərəcəli hüquqşünas
**Qarayev Teymur Fəxrəddin oğlu** – Bakı şəhəri Xətai rayon prokurorluğunun müstəntiqi

II dərəcəli hüquqşunas
**Məmmədli Günay Hüseynxan qızı** – Bakı şəhəri Nizami rayon prokurorunun köməkçisi

kiçik ədliyyə müşaviri
**Bayramova Tamilla Şamil qızı** – Bakı şəhəri Sabunçu rayon prokurorunun köməkçisi

II dərəcəli hüquqşünas
**Qasımov Zaur Zahid oğlu** – Bakı şəhəri Sabunçu rayon prokurorluğunun müstəntiqi

III dərəcəli hüquqşünas
**Qafarov Əfqan Nizam oğlu** – Ağsu rayon prokurorunun köməkçisi

II dərəcəli hüquqşünas
**Musayev Aqil Əlisa oğlu** – Cəlilabad rayon prokurorunun köməkçisi

II dərəcəli hüquqşünas
**Mahmudov Elçin Vidadi oğlu** – Daşkəsən rayon prokurorunun köməkçisi

III dərəcəli hüquqşunas
**Mehrabov Haqverdi Dilbazi oğlu** – Gəncə şəhər prokurorunun köməkçisi

III dərəcəli hüquqşünas
**Əsədov Nəriman Sabir oğlu** – Qazax rayon prokurorunun köməkçisi

I dərəcəli hüquqşünas
**Əhmədov Eldəniz Fazil oğlu** – Qobustan rayon prokurorunun köməkçisi

kiçik ədliyyə müşaviri
**Nəbiyev Ramiz Rəcəb oğlu** – Quba rayon prokurorunun köməkçisi

III dərəcəli hüquqşünas
**Əhədov Ruslan Şamxal oğlu** – Quba rayon prokurorluğunun müstəntiqi

III dərəcəli hüquqşünas
**Səmədli Mətanət Natiq qızı** – Oğuz rayon prokurorluğunun müstəntiqi

III dərəcəli hüquqşunas
**Hacıyev Orxan Sərvan oğlu** – Sumqayıt şəhər prokurorunun köməkçisi

III dərəcəli hüquqşünas
**Məmmədova Təranə Yavər qızı** – Şabran rayon prokurorluğunun müstəntiqi

III dərəcəli hüquqşünas
**Həsənov Sənan Musa oğlu** – Şamaxı rayon prokurorluğunun müstəntiqi

III dərəcəli hüquqşünas
**Bayramov Rəşid Yusif oğlu** – Tərtər rayon prokurorunun köməkçisi

III dərəcəli hüquqşünas
**Həşimli Turqay Hüseyn oğlu** – Naxçıvan Muxtar Respublikası Naxçıvan şəhər prokurorluğunun müstəntiqi

**5.** Baş Prokurorluğun Kadrlar idarəsi (N.Rəcəbov), Təşkilat-analitik idarəsi (M.Sultanov) və Maddi-texniki təminat şöbəsi (N.Məmişov) tərəfindən bu əmrdən irəli gələn müvafiq təşkilati məsələlərin həlli təmin edilsin.

**6.** Əmr prokurorluq işçilərinə elan edilməsi üçün tabe prokurorluqlara göndərilsin.

***Əsas:*** təqdimatlar

**Zakir Qaralov,**
**Azərbaycan Respublikasının**
**Baş prokuroru,**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq orqanlarının yaradılmasının 98 illiyinə həsr olunmuş tədbir keçirilmişdir

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq işçilərinin peşə bayramı qeyd olunmuşdur**

Oktyabrın 1-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunda prokurorluq işçilərinin peşə bayramı və prokurorluq orqanlarının yaradılmasının 98 illiyi münasibətilə tədbir keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev çıxış edərək bildirmişdir ki, ölkəmizdə prokurorluq orqanlarının əsasının 1918-ci il oktyabrın 1-də qoyulmasına və uzunmüddətli inkişaf yolu keçməsinə baxmayaraq, onun müstəqil dövlət orqanı kimi fəaliyyəti və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycanda ictimai-siyasi sabitliyə tam nail olunmuş, qanunun aliliyi, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi milli dəyərlər və beynəlxalq prinsiplər əsasında təmin edilmişdir. Bu tədbirlərin tərkib hissəsi olaraq 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarına konstitusion status verilərək onun fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm zəmin yaratmışdır.

Həmin dövrdən başlayaraq ulu öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu konsepsiyasına uyğun olaraq, prokurorluq orqanlarında köklü islahatlara başlanılmışdır. *"Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz layiqli yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiq xidmət edir"* deyən ulu öndərin rəhbərliyi ilə prokurorluq orqanlarında aparılan islahatların əsas məqsədi qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. Qarşıda duran bu və digər məqsədlərin həyata keçirilməsində 7 dekabr 1999-cu il tarixdə qəbul olunmuş "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət daşıyır. Bu qanun prokurorluğun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılması üçün hüquqi zəmin formalaşdırmış, prokurorluğun fəaliyyət istiqamətlərini müəyyən etmişdir. Ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Qanunun, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin və digər normativ-hüquqi aktların dövlət başçısı tərəfindən təsdiq edilməsi isə prokurorluq orqanlarının fəaliyyətində hüquqi tənzimlənmə prosesini yeni mərhələyə yüksəltmişdir.

Qeyd olunmuşdur ki, bu gün ölkəmizdə həyata keçirilən ardıcıl məhkəmə-hüquq islahatları hüquq sisteminin demokratik standartlara cavab verən səviyyədə formalaşmasına, insan hüquq və azadlıqlarının daha mötəbər formada qorunmasına, o cümlədən prokurorluq orqanlarının tam yeniləşərək müasir məzmunlu sivil bir orqana çevrilməsinə zəmin yaratmışdır. Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarının fəaliyyətinin daha da müasirləşdirilməsi və təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Ölkə Prezidenti cənab İlham Əliyev prokurorluq orqanlarının yeniləşdirilməsi ilə əlaqədar qarşıda duran vəzifələri müəyyənləşdirərək demişdir: *"Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz – prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənaviyyata, geniş dünyagörüşə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir".*

Dövlət başçısı cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi nəticəsində

hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təşkili, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən istifadə edilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması sahəsində ciddi uğurlar əldə edilmişdir. Hazırda ölkəmizdə prokurorluq orqanları ilə ictimaiyyətin əlaqələri qarşılıqlı etimad prinsipi əsasında qurulmuş, vətəndaşların müraciətlərinin vaxtında araşdırılması və zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Qeyd olunmuşdur ki, Muxtar Respublika Prokurorluğunun fəaliyyəti Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının konstitusiyaları, eləcə də digər qanunvericilik aktları ilə tənzimlənir. Muxtar Respublika Prokurorluğunun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri isə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 46-cı maddəsində təsbit edilmiş, "Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanununa əsasən, Muxtar Respublika Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Məhkəmə-hüquq islahatları çərçivəsində qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilərək Muxtar Respublika Prokurorluğu orqanlarında kadrlarla aparılan işin daha da təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi, istintaq və təhqiqat, eləcə də cinayət mühakimə icraatı zamanı dövlət ittihamının müdafiəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mühüm səlahiyyətlər verilmişdir.

Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları yüksək dövlət qayğısını daim öz üzərində hiss etmişdir. Ötən dövrdə Muxtar Respublika Prokurorluğunun, eləcə də rayon (şəhər) prokurorluqlarının normal fəaliyyət göstərməsi üçün lazımi şərait yaradılmış, 2006-cı ildə Şahbuz və Culfa rayon prokurorluqları üçün müasir standartlara cavab verən yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir. Muxtar Respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Azərbaycan Respublikası Prezidentinin "Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında" 2 noyabr 2006-cı il tarixli Fərmanı Muxtar Respublikada hüquq-mühafizə orqanlarının fəaliyyəti üçün yeni mərhələnin başlanğıcını qoymuş, Ordubad, Kəngərli və Sədərək rayon prokurorluqları üçün yeni inzibati binalar tikilmiş, Şərur rayon prokurorluğunun inzibati binasında əsaslı təmir və yenidənqurma işləri aparılmışdır. Bundan əlavə, Muxtar Respublika Prokurorluğu mərkəzi aparatının inzibati binası əsaslı yenidənqurmadan sonra müasir texniki vasitə və kriminalistik avadanlıqlarla təmin edilərək istifadəyə verilmişdir. Prokurorluq orqanlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Naxçıvan şəhər və Babək rayon prokurorluqları üçün də yeni inzibati binalar tikilərək istifadəyə verilmişdir.

Cinayət hadisələrinin qarşısının vaxtında alınmasında qabaqlayıcı-profilaktik tədbirlərin həyata keçirilməsi mühüm amildir. Muxtar Respublikanın prokurorluq orqanları işçiləri qanunvericiliyin izahı, hüquqi maarifləndirmə və profilaktik tədbirlərin keçirilməsini diqqət mərkəzində saxlayaraq kütləvi informasiya vasitələrinin gücündən səmərəli istifadə etməyə çalışırlar. Bunun nəticəsidir ki, son illər Naxçıvan Muxtar Respublikasında cinayət hadisələrinin sayı dəfələrlə azalmışdır.

Prokurorluq orqanlarına işə qəbulun şəffaf şəraitdə, müsabiqə yolu ilə keçirilməsi prokurorluğun kadr tərkibinin savadlı hüquqşünaslar hesabına təkmilləşdirilməsinə səbəb olmuşdur. Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqələrin keçirilməsi qaydalarına uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Prokurorluğuna prokurorluq orqanlarına işə qəbul etmək səlahiyyəti verilmişdir. Bu səlahiyyətdən istifadə edilərək Muxtar Respublika Prokurorluğunda aşkarlıq və şəffaflıq şəraitində test imtahanları keçirilmiş və gənc hüquqşünaslar prokurorluq orqanlarına işə qəbul olunmuşlar. Həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində görülən tədbirlər nəticəsində prokurorluq orqanları struktur və mahiyyət baxımından tam yenidən qurularaq onun mütərəqqi normativ-hüquqi baza əsasında fəaliyyət göstərən çevik və işlək dövlət təsisatı kimi formalaşmasına nail olunmuşdur.

Sonda əminliklə ifadə olunmuşdur ki, prokurorluq orqanları bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olaraq ölkəmizin müstəqilliyinin daha da möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və respublikamızda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini layiqincə yerinə yetirəcəkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Məhərrəm Talıbov, rayon (şəhər) prokurorları çıxış edərək prokurorluq orqanlarına göstərilən dövlət qayğısından danışmışlar.

Sonda bir qrup prokurorluq əməkdaşı mükafatlandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun**
**Hüquqi təminat və informasiya şöbəsi**

# Baş Prokurorluqda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir

**Baş Prokurorluqda ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilmişdir**



Dekabrın 10-da Baş Prokurorluqda Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin Baş Prokurorluğun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Mərasimdə çıxış edən Baş prokuror Zakir Qaralov diqqətə çatdırmışdır ki, illər keçdikcə, zaman ötdükcə bütün Azərbaycan xalqı özünün xoşbəxtliyinin, əmin-amanlığının, yüksək rifahının, ölkəmizin düzgün strateji xətlə inkişafı nəticəsində sabitliyinin və təhlükəsizliyinin mənbəyinin, əsasının və təməlinin ulu öndər Heydər Əliyevlə bağlı olduğunu daha dərindən dərk edirik. Bu gün biz növbəti dəfə – hələ sağlığında öz quruculuq və xilaskarlıq missiyasını məharətlə yerinə yetirməklə canlı əfsanəyə çevrilmiş, xalqımızın əbədiyaşar ümummilli lideri zirvəsinə yüksəlmiş fenomenal şəxsiyyət, dünya miqyaslı siyasətçi Heydər Əliyevin anım gününü qeyd edərkən Azərbaycanın çoxəsrlik



tarixində öz mövqeyinə, nüfuzuna, xalqımızın tarixi taleyində, siyasi, ictimai və mənəvi həyatında, milli dövlətçiliyimizin qurulmasında və möhkəmləndirilməsində misilsiz xidmətləri olan ən böyük azərbaycanlının müqəddəs ruhu qarşısında baş əyir, tam məsuliyyət hissi ilə anlayırıq ki, məhz onun müdrikliyi və uzaqgörənliyi, fədakar əməyi və titanik fəaliyyəti müstəqil Azərbaycan Respublikasının mövcudluğunu və inkişafını reallığa çevirmişdir. Biz prokurorluq işçiləri də bütün Azərbaycan xalqı kimi, görkəmli dövlət xadimi Heydər Əliyevin anım mərasimini keçirərkən onun zəngin irsinə, nəsillərə örnək olan həyat yoluna nəzər salmaqla əziz və unudulmaz xatirəsini ehtiramla yad edir, gördüyü möhtəşəm işlərin, milli dövlətçilik və müstəqillik ideyalarının gerçəkləşməsində xidmətlərinin hədsiz əhəmiyyətini minnətdarlıq hissi ilə dərk edirik.

Azərbaycanlı olması ilə hər zaman fəxr edən, milli mənsubluğundan hədsiz iftixar hissi keçirən ulu öndər Heydər Əliyev öz fəaliyyəti və misilsiz xidmətləri sayəsində xalqın qəlbində və yaddaşında həmişəlik həkk olunmuş və elə bir iz qoymuşdur ki, ölkəmiz özünün bu dahi rəhbəri ilə daim fəxr edəcəkdir. O, hər zaman – həm sovetlər dönəmində, həm müstəqillik dövründə xalqımızın müdafiəsi və rifahı, milli dövlətimizin qurulması və möhkəmləndirilməsi üçün elə bir yorulmaz və əzmli fəaliyyət göstərmişdir ki, Azərbaycan xalqı onu özünün həmişəlik ümummilli lideri seçmiş, xalqla birdəfəlik bütövləşərək vətəndaşların ürəyində və qəlbində əbədi yer tutmuşdur.

Xalqımızın itirmiş olduğu və uzun müddət ərzində həsrətini çəkdiyi dövlət müstəqilliyinin bərpa edilərək qorunub saxlanması, milli dövlətçiliyimizin qurulması və inkişafı naminə ulu öndərin apardığı qətiyyətli mübarizə və qazandığı qələbələr danılmaz bir həqiqətdir. Azərbaycan dövlətçiliyi məhv olmaq təhlükəsi ilə üzləşdiyi bir vaxtda xilaskarlıq missiyasını fədakarlıqla öz üzərinə gö-

türən Heydər Əliyev həyata keçirdiyi böyük quruculuq işləri, strateji inkişafa zəmin yaradan dövlətçilik konsepsiyasının hazırlanması nəticəsində bütün dünya azərbaycanlılarının fəxri və ümid yeri, vətəndaşlarına layiqli həyat səviyyəsini təmin etməyə qadir olan hüquqi, dünyəvi dövlətin möhkəm təməlinin yaradılmasına, azərbaycançılıq ideologiyasının gücləndirilməsinə, milli-mənəvi dəyərlərin qorunub saxlanmasına nail ola bilmişdir.

Diqqətə çatdırılmışdır ki, ötən əsrin 60-cı illərindən başlamaqla ölkəmizin 30 ildən artıq bir dövrünü əhatə edən ən yeni tarixi, bu dövr ərzində müstəqil dövlət kimi formalaşan Azərbaycan Respublikasının və xalqımızın taleyi Heydər Əliyev kimi dahi şəxsiyyətin adı, onun müdrik dövlətçilik siyasəti ilə bağlı olmuşdur. Bu müddət ərzində ulu öndər tərəfindən həyata keçirilən möhtəşəm dövlətçilik tədbirlərinin nəticəsidir ki, azərbaycançılıq ideyası ətrafında birləşməklə, siyasi və iqtisadi müstəqilliyə nail olan xalqımız hüquqi bir dövlətdə, demokratik dəyərlərə əsaslanan vətəndaş cəmiyyətində layiqli yaşamaq imkanı əldə etmişdir. Müxtəlif siyasi quruluşların mövcudluğu şəraitində Azərbaycan Respublikasına rəhbərlik etmiş Heydər Əliyev şəxsiyyətinin böyüklüyü ondan ibarətdir ki, o, sovetlər dönəmində ölkəmizin gələcək müstəqilliyinin möhkəm iqtisadi əsaslarını yaratmaqla xalqımızı öz suverenliyi uğrunda mübarizəyə hazırlamağı bacarmış, dövlət müstəqilliyimizin itirilməsi və ölkəmizin parçalanması təhlükəsi yarandığı bir dövrdə xarici və daxili qüvvələrin məkrli cinayətkar hərəkətlərinin qarşısını almaqla sabitlik və əmin-amanlıq şəraiti yaratmış, daha sonra isə Azərbaycanın inkişaf etmiş bir ölkəyə çevrilməsini şərtləndirən misli görünməmiş quruculuq işlərini həyata keçirmişdir.

Bildirilmişdir ki, doğma xalqına və millətinə təmənnasız xidməti həyatının mənası və məqsədi kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin formalaşdırılması və daha da möhkəmləndirilməsi uğrunda mübarizə meydanında olmuş və millətinə rəhbərlik etmişdir. Bu yolda çox böyük maneələrlə rastlaşması, fiziki cəhətdən məhv edilmək təhlükəsi, çoxsaylı sui-qəsd və terror cəhdləri ilə üzləşməsinə baxmayaraq, Heydər Əliyev öz siyasi müdrikliyi, polad iradəsi və qətiyyətli hərəkətləri, ən əsası xalqının dəstəyi nəticəsində doğma Azərbaycanı bugünkü və gələcək nəsillər üçün qoruyub saxlamış və müstəqil inkişaf yoluna çıxarmışdır.

Azərbaycan Respublikasının tarixinə sabitlik və inkişaf dövrü kimi daxil olan 1993-2003-cü illər ərzində Heydər Əliyev tərəfindən müstəqil dövlətçiliyimizin ideoloji əsasları yaradılmış, o cümlədən azərbacançılıq məfkurəsi formalaşdırılmış, bazar iqtisadiyyatı prinsiplərinə əsaslanan yeni iqtisadi münasibətlər bərqərar olmuş, Azərbaycan Respublikasının yeni Konstitusiyası qəbul edilməklə hüquqi dövlət quruculuğu yolunda inamlı addımlar atılmış, demokratik və ümumbəşəri dəyərlərə əsaslanan vətəndaş cəmiyyətinin qurulması istiqamətində böyük işlər görülmüşdür.

Xüsusi qeyd edilmişdir ki, dövlət quruculuğu və idarəetmə prosesində bütün məsələlərə xüsusi diqqətlə yanaşaraq hər bir strukturun fəaliyyətinə və inkişafına diqqət göstərən ümummilli lider Heydər Əliyevin prokurorluq orqanlarının inkişafında müstəsna rolu olmuşdur. O, prokurorluq orqanlarının işinin təmin edilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması məsələlərinə diqqət və qayğısını əsirgəməmişdir. 2003-cü ildən etibarən Azərbaycan prokurorluğu orqanlarına dövlət səviyyəsində göstərilən etimad və diqqət Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və prokurorluğa hərtərəfli qayğı göstərilir. Azərbaycan Prokurorluğunun inkişaf tarixində hərtərəfli müasirləşdirmə və təkmilləşdirmə dövrünün əsasını qoyan Dövlət başçısı tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"na, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq həyata keçirilən tədbirlər insan hüquq və azadlıqlarının daha etibarlı müdafiəsi, digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqəli fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi üçün böyük imkanlar yaratmışdır.

Cənab İlham Əliyevin 2003-cü ildən etibarən Dövlət başçısı kimi fəaliyyəti Heydər Əliyev ide-

yalarının yaşaması və onların reallaşdırılması istiqamətində görülən işlər bu dahi şəxsiyyətin unudulmaz xatirəsinin əbədiləşdirilməsinin və doğma Azərbaycanımızın hərtərəfli tərəqqisinin bariz göstəricisidir. Bu gün bütövlükdə ölkəmizin, eyni zamanda hər bir bölgənin hərtərəfli sosial-iqtisadi inkişafına nail olunmuş, demokratik vətəndaş cəmiyyətinin daha da təkmilləşdirilməsi istiqamətində inamlı addımlar atılmış, dünya dövlətləri birliyinə inteqrasiya proseslərini sürətləndirən ölkəmiz regionun aparıcı dövləti statusunu özündə saxlamış, enerji layihələrinin reallaşdırılması istiqamətində böyük işlər görülmüşdür.

Orduya, silahlı qüvvələrə, ölkənin hərbi müdafiəsinə dövlət başçısı cənab İlham Əliyev tərəfindən göstərilən xüsusi qayğının nəticəsidir ki, Azərbaycan Ordusu dünya miqyasında ən güclü ordular sırasında inamlı yer tutaraq erməni silahlı qüvvələri ilə təmas xəttində - cəbhədə həyata keçirilən, ərazilərimizin bir hissəsinin qəsbkarlardan azad olunması, vətəndaşlarımızın düşmən təhdidlərindən qorunması üzrə cari ilin aprel ayında aparılmış müdafiə tədbirləri, ordumuzun irəliləyərək qazandığı zəfərlər, əsgərlərimizin göstərdiyi şücaət və qəhrəmanlıq xalqımızın və dövlətimizin, Ali Baş Komandanımızın tarixə qızıl hərflərlə həmişəlik həkk olunan böyük qələbəsi olmuşdur. Bu qələbə ordumuzun qüdrətini, gücünü və məharətini göstərməklə, onun istənilən zaman ərazilərimizi erməni qəsbkarlarından tam azad etməyə, vətənimizi istənilən düşmən həmləsindən müdafiə etməyə qadir olduğunu göstərmişdir.

Əsas etibarı ilə arxada qalmış 2016-cı il respublikamız üçün yeni mərhələ sosial-iqtisadi islahatların həyata keçirilməsi, ordumuzun şanlı zəfər və qələbələri, Bakının Avropa və dünya miqyaslı siyasi, iqtisadi və humanitar tədbirlərə, o cümlədən BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu, "Formula-1", 42-ci Ümumdünya Şahmat Olimpiadası kimi mötəbər beynəlxalq təşəbbüslərə, Dünya Xəbər Agentliklərinin V Konqresinə, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının XVI Baş Assambleyasına və MDB Dövlət İnformasiya Agentlikləri Rəhbərləri Şurasının XXII iclasına ev sahibliyi etməsi, idmançılarımızın Rio Yay Olimpiya Oyunlarında möhtəşəm qələbə qazanması ilə yanaşı ilk növbədə Konstitusiyaya dəyişikliklər edilməsi ilə bağlı sentyabrın 26-da keçirilmiş mühüm ictimai-siyasi tədbir, ümumxalq səsverməsi – referendumla əlamətdar olaraq tarixə düşmüşdür. Referenduma çıxarılmaqla Konstitusiyaya edilən dəyişikliklər zərurətdən irəli gələrək ölkədə ictimai münasibətlərin sürətli inkişafı nəticəsində yaranmış sosial tələbat olaraq meydana çıxmışdır. Bu dəyişikliklər respublikamızda demokratik məzmunlu yeni ictimai-siyasi, sosial-iqtisadi islahatların aparılmasını sürətləndirən mütərəqqi addım olmaqla ölkədə dövlətçiliyin və qanunçuluğun, təhlükəsizliyin və sabitliyin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının daha mükəmməl, hüquqi dövlət quruculuğu prosesinin daha yüksək səviyyədə təmin olunmasına xidmət edəcəkdir.

Referendumla Konstitusiyaya edilmiş dəyişikliklər nəticəsində dövlət idarəetmə mexanizminin təkmilləşdirilməsi, iqtisadi islahatların həyata keçirilməsi prosesləri daha da sürətlənərək ölkənin perspektiv inkişaf hədəflərinin və istiqamətlərinin müəyyənləşdirməsi, onların gerçəkləşdirilməsinin təmin edilməsi üzrə çox mühüm işlər görülür. Bunun bariz nümunəsi kimi dövlət başçısının 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə iqtisadiyyatın strateji yol xəritələri təsdiq edilmişdir. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəfi özündə ehtiva edir.

Anım mərasiminin iştirakçıları və Azərbaycan Respublikası Prokurorluğunun kollektivi adından Dövlət başçısı cənab İlham Əliyev əmin edilmişdir ki, ulu öndər Heydər Əliyevin ideyalarına və onun formalaşdırdığı siyasi kursa sadiq olan prokurorluğun kollektivi bütün səylərini dövlət müstəqilliyinin və milli maraqların, ölkəmizdə ictimai-siyasi sabitliyin hər cür cinayətkar qəsdlərdən qorunmasına səfərbər edəcəkdir.

Mərasimin sonunda ümummilli liderin xatirəsinə həsr olunmuş "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti tərəfindən hazırlanmış "Ömür. Tale. Epoxa" filmi nümayiş etdirilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunda ümummilli lider Heydər Əliyevin xatirəsi yad edilmişdir**

Dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın müdrik rəhbəri Heydər Əliyevin müasir Azərbaycanın tarixindəki rolu, demokratik və hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə ətraflı məlumat verərək vurğulamışdır ki, bu gün Azərbaycan dövlətçiliyini, xalqımızın müstəqilliyini əbədiyyətədək yaşatmaq üçün ulu öndər Heydər Əliyev irsi, onun dövlət idarəçiliyi təcrübəsi misilsiz mənəvi sərvətlər xəzinəsidir. Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Azərbaycanın tarixi taleyində, ictimai və siyasi həyatında, dövlət quruculuğunda xidmətlər göstərən Heydər Əliyev xalqımızın milli iftixarı, güvənc yerimiz, qürur duyduğumuz ən böyük Azərbaycanlıdır.

Müasir Azərbaycanın ötən əsrin son onilliyində kifayət qədər mürəkkəb ictimai-siyasi proseslər fonunda yenidən qazandığı dövlət müstəqilliyi və tarix baxımından elə də böyük olmayan zaman kəsiyində yüksək templər üzərində qurulmuş inkişafı da məhz dahi öndər Heydər Əliyevin adı ilə bağlıdır. Hadisələrin gedişini ən azı bir neçə il qabaqlamaq, onları böyük məharətlə idarə etmək və milli maraqlar çərçivəsində inkişafa uyğunlaşdırmaq, dövrün çağırışlarına adekvat reaksiya vermək və digər fenomenal qabiliyyətləri sayəsində ulu öndər həm də müasir Azərbaycanın dünya siyasətində layiqli yer tutması üçün fundamental əsaslar yaratmışdır. Ümummilli liderin əzmkar fəaliyyəti sayəsində Azərbaycanın hərtərəfli tərəqqisinin əsası qoyulmuş, ölkəmiz bütün sahələrdə inkişaf prosesinin yeni intibah mərhələsinə daxil olmuşdur. Azərbaycan xalqının yenidən öz hüquqlarını suveren şəkildə uğurla reallaşdırması məhz ümummilli liderin möhtəşəm fəaliyyəti sayəsində mümkün olmuş, ölkədə milli dövlətçiliyin əsası yaradılmışdır. 1990-cı illərin əvvəllərindən getdikcə gərginləşən iqtisadi və siyasi böhranların qarşısı alınmış, yenicə müstəqillik əldə etmiş respublikamız iqtisadi xaos və tənəzzül dövründən çıxaraq makroiqtisadi sabitlik, dinamik inkişaf yoluna qədəm qoymuşdur.

Qeyd olundu ki, XX əsr Azərbaycan tarixinin fenomen şəxsiyyəti olan Heydər Əliyev xalqımızın taleyində misilsiz rol oynamış, mütərəqqi tarixi ənənələr əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüşdür. Ulu öndər ölkəyə rəhbərlik etdiyi illər ərzində milli inkişaf yolunu dərin elmi əsaslarla müəyyənləşdirmiş, bütün zəngin və mənalı həyatı boyu daim xalqını, vətənini düşünmüş, Azərbaycanın ən mürəkkəb məqamlarında onu üzləşdiyi faciələrdən, çətinliklərdən xilas etmək

üçün misilsiz fədakarlıqlar göstərmiş, fitri istedadı sayəsində tarixi hadisələrin inkişaf məcrasını qabaqcadan müəyyənləşdirə bilmişdir. Hakimiyyətdə olduğu bütün dövrlərdə dahi öndər xalqının milli mənafeləri uğrunda əzmlə mübarizə aparmış, ictimai-siyasi proseslərdə real güc mərkəzi kimi özünü göstərmişdir. "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram"-deyən ulu öndər Heydər Əliyev həyatının mənasını yalnız xalqına xidmətdə görmüş, ömrünü onun xoş, firəvan gələcəyinə həsr etməkdən şərəf duymuşdur.

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi genişmiqyaslı milli dövlət quruculuğu proqramı ölkəmizin bütün sahələrdə qazandığı uğur və nailiyyətlərin konseptual əsası olmuşdur. Müstəqil Azərbaycan Respublikası Konstitusiyanın müəllifi kimi ulu öndər Heydər Əliyev dövlət hakimiyyətinin demokratik prinsplər əsasında bölünməsinə, beynəlxalq standartlara uyğun hüquq normalarının və qanunvericilik bazasının yaradılmasına, müasir idarəetmə üsullarının tətbiqinə nail olmuşdur. Qanunçuluğun qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən biri elan etmiş dahi lider Heydər Əliyev hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardım səviyyəsinin yaxşılaşdırılması təşəbbüsü ilə çıxış etmişdir.

Onun qətiyyətli rəhbərliyi altında dövlət–vətəndaş münasibətlərinin hüquq müstəvisində tənzimləndiyi, insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu, humanizm ideyalarının möhkəm təmələ çevrildiyi sivil cəmiyyət formalaşdırılmış, dövlət idarəçiliyi demokratikləşdirilmişdir. Özünəməxsus şərəfli tarixi keçmişi, qanunların icrasına ümumi nəzarət, cinayətkarlığa qarşı mübarizə, vətəndaşların hüquq və azadlıqlarının qorunması sahəsində zəngin ənənələri olan Azərbaycan prokurorluğunun fəaliyyəti də siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə ulu öndərimizin diqqət və qayğısı ilə əhatə olunmuşdur.

Qeyd olundu ki, bu gün ölkəmiz bu siyasətin uğurlarını hiss edir, onunla yaşayır və faydalanır. Azərbaycan dinamik inkişaf edən, dünya birliyində layiqli yer tutan, müstəqil siyasət yürüdən bir dövlətdir, imzalar içində millətimizin də imzası görünür. Məhz ümummilli liderimizin gərgin səyləri və yenilməz iradəsi nəticəsində Azərbaycan bu gün dünya birliyi tərəfindən tükənməz təbii sərvətləri, iqtisadi imkanları ilə yanaşı, mədəni, elmi, intellektual, yaradıcı potensiala malik ölkə kimi qəbul olunur. İndi dünyanın qüdrətli dövlətləri regionla bağlı bir çox məsələlərin həllində ölkəmizin dəstəyinə arxalanır, onunla etibarlı tərəfdaş kimi hesablaşırlar. Azərbaycan bu gün həm regional, həm də beynəlxalq təhlükəsizlik sisteminin qurulmasında fəal iştirak edir.

Vurğulandı ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və ciddi elmi əsaslara söykənən sosial-iqtisadi siyasət strategiyası sonrakı illərdə ulu öndərimizin layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, respublikamız bütün sahələrdə uğurlu inkişaf yoluna çıxmış və bu yolla inamla daha xoş sabahlara doğru irəliləyir.

Sonda əminliklə ifadə olundu ki, Naxçıvan Muxtar Respublikası Prokuroluğunun kollektivi bundan sonra da ulu öndər Heydər Əliyevin siyasi kursunun davam etdirilməsində, dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin qorunmasında bu kursun ən layiqli davamçısı Azərbaycan Respublikasının Prezidentı cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlətçilik tədbirlərində yaxından iştirak etməklə, bu uğurlu siyasəti daim dəstəkləyəcəkdir.

Məruzə ətrafındakı çıxışlarda ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının tərəqqisi naminə gürdüyü möhtəşəm işlərdən danışıldı.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Prokurorluq orqanlarında vətəndaşların müraciətlərinə baxılması işi daim diqqət mərkəzindədir

## Baş prokuror Yevlax şəhərində vətəndaşları qəbul etmişdir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür.

Baş prokuror Zakir Qaralov dekabrın 9-da Yevlax rayon prokurorluğunun inzibati binasında Mingəçevir şəhəri, Yevlax, Ağdaş, Ucar, Bərdə və Zərdab rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokuror və Yevlax rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul işçilərinin, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda bölgədə yaşayan 26 vətəndaşın müraciətində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilmişdir.

Vətəndaşların ərizə və şikayətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapmış, eyni zamanda prokurorluğun səlahiyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunmuşdur.

Yekunda tabe prokurorların iştirakı ilə müşavirə keçirilməklə bölgədə ictimai-siyasi sabitliyin daha da möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin səmərəliliyi və kəsərliliyinin artırılması üçün konkret tapşırıqlar verilmiş, vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşımaları diqqətə çatdırılmışdır.

***

## Baş prokurorun birinci müavini Şabran şəhərində vətəndaşları qəbul etmişdir

Baş prokurorun birinci müavini Rüstəm Usubov noyabrın 25-də Şabran rayon prokurorluğunun inzibati binasında Şabran, Quba, Qusar, Xaçmaz və Siyəzən rayonlarından olan vətəndaşları qəbul etmişdir.

Qəbuldan əvvəl Baş prokurorun birinci müavini və Şabran rayon İcra Hakimiyyətinin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzərək əziz xatirəsini ehtiramla yad etmişlər.

Baş Prokurorluğun məsul işçilərinin, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda bölgədə yaşayan 20 vətəndaşın müraciətində qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilmişdir.

Vətəndaşların ərizə və şikayətlərində qaldırılan məsələlərin bir qismi yerində həllini tapmış, eyni



zamanda prokurorluğun səlahiyyətinə aid olmayan digər məsələlərlə bağlı müraciətlərin araşdırılması üçün aidiyyəti üzrə göndərilməsi təmin olunmuşdur.

Yekunda tabe prokurorların iştirakı ilə müşavirə keçirilməklə vətəndaşların müraciətlərinə obyektiv baxılması və onların qəbulu işinin düzgün təşkili ilə bağlı tövsiyə və tapşırıqlar verilmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# Türkiyənin Azərbaycandakı səfiri Baş Prokurorluqda olmuşdur

Noyabrın 8-də Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov Baş Prokurorluqda Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Erkan Özoralla görüşmüşdür.

Qonağı səmimi salamlayan Baş prokuror tarixən xalqlarımızın milli köklərə söykənən münasibətlərinin siyasi, iqtisadi, mədəni və digər sahələrdə də dinamik inkişaf etdirildiyini bildirərək, bu əlaqələrin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət", Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, Azərbaycanın kədəri bizim kədərimizdir" kəlamları ilə ifadə edildiyi, hər iki dövlətin prezidentləri cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın ciddi səyləri, apardıqları uzaqgörən xarici siyasət nəticəsində Azərbaycan-Türkiyə əlaqələrinin etibarlı strateji əməkdaşlıq səviyyəsinə qalxmaqla dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını xüsusi vurğulamışdır.

Baş prokuror mövcud ikitərəfli hüquqi əməkdaşlıq əlaqələrini məmnunluqla vurğulayaraq, Türkiyədə baş vermiş 15 iyul hadisələri ilə bağlı başlanmış cinayət işi üzrə aparılan geniş istintaq-əməliyyat tədbirlərində Azərbaycanın hüquq-mühafizə orqanlarının aktiv fəaliyyətini qeyd etmişdir.

Türkiyədə dövlət çevrilişinə cəhd zamanı qardaş Azərbaycan dövləti və xalqının göstərdiyi dəstəyə görə təşəkkürünü ifadə edən səfir Erkan Özoral ikitərəfli əlaqələrin bütün sahələrdə bundan sonra da genişlənəcəyinə əminliyini bildirmişdir.

Görüşdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılmışdır.

**Baş Prokurorlğun Mətbuat Xidməti**

# Rusiya Federasiyasının İnsan hüquqları üzrə müvəkkili Azərbaycan Respublikasının Baş Prokurorluğunda olmuşdur



Dekabrın 29-da Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Rüstəm Usubov Rusiya Federasiyasının İnsan hüquqları üzrə müvəkkili Tatyana Moskalkovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ hüquqi bazanın yaradılması, prokurorluq orqanlarında köklü islahatların aparılması, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində digər hüquq-mühafizə orqanları, eyni zamanda ombudsman təsisatı ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması barədə ətraflı məlumat verilmişdir.

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafını vurğulayan Baş prokurorun birinci müavini insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, işgəncələrin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan davranış və ya cəzanın qarşısının alınmasında prokurorluğun rolu, iki ölkə arasında insan hüquqları sahəsində əməkdaşlığın inkişaf etdirilməsi baxımından dekabrın 28-də Azərbaycan və Rusiya ombudsmanları arasında imzalanmış ikitərəfli əməkdaşlıq sazişinin əhəmiyyətini xüsusi qeyd etmişdir.

Rusiya Federasiyasının İnsan hüquqları üzrə müvəkkili Tatyana Moskalkova səmimi qəbula görə minnətdarlığını bildirərək həmkarının insan hüquqları sahəsində uğurlu fəaliyyətini vurğulamış, eyni zamanda həmin təsisatla qarşılıqlı əməkdaşlıqda maraqlı olduğunu bir daha vurğulamışdır.

Görüşdə Rusiya Federasiyasının ölkəmizdəki Fövqəladə və Səlahiyyətli səfiri Vladimir Doroxin də iştirak etmişdir.

**Baş Prokurorluğun Mətbuat Xidməti**

# 1 oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü münasibəti ilə Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri cənab Zakir Qaralovun ünvanına daxil olan təbrik məktubları

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Sizi və rəhbərlik etdiyiniz peşəkar kollektivi ürəkdən təbrik edir, mühüm və şərəfli işinizdə müvəffəqiyyətlər diləyirəm.*

*Azərbaycan Respublikasının dövlətçilik maraqlarına xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması və inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır və prokurorluq orqanları qanunçuluğun, insan hüquq və azadlıqlarının etibarlı təmin olunması naminə daim qətiyyət və əzmkarlıq nümayiş etdirir.*

*Müstəqilliyimizin 25 illiyi ərəfəsində peşə bayramlarını qeyd edən prokurorluq orqanları möhtərəm Prezidentimiz cənab İlham Əliyevin yeni qlobal çağırışlara uyğun həyata keçirdiyi məqsədyönlü islahatlar çərçivəsində ölkədə demokratik mühitin və əmin-amanlığın möhkəmləndirilməsində, cinayətkarlığın bütün təzahürlərinə qarşı mübarizədə, dövlətçiliyimizin hər cür qəsdlərdən qorunmasında və cinayətkar dəstələrin ifşa olunmasında uğurla fəaliyyət göstərərək respublikamızın hərtərəfli inkişafına mühüm töhfələr verirlər.*

*Dövlət başçısının güclü siyasi iradəsi ilə korrupsiyaya qarşı aparılan qəti mübarizə tədbirlərində rəhbərlik etdiyiniz qurumun səmərəli fəaliyyəti, o cümlədən beynəlxalq antikorrupsiya mübarizəsində fəal iştirakı təqdirəlayiqdir.*

*Sevindirici haldır ki, bilavasitə rəhbərliyinizlə prokurorluğun fəaliyyəti daim təkmilləşdirilir, infrastrukturu və maddi-texniki bazası müasirləşdirilir, kadr potensialı yeni nəsil prokurorluq işçiləri ilə gücləndirilir.*

*Xüsusilə vurğulanmalıdır ki, Baş Prokurorluq Məhkəmə-Hüquq Şurasında və hakimlərin Seçki Komitəsində təmsil olunaraq ölkəmizdə aparılan genişmiqyaslı məhkəmə-hüquq islahatlarında yaxından iştirak edir, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, peşəkar hakim korpusunun formalaşdırılması işinə dəyərli töhfələr verir.*

*Dövlətçiliyə və qanunçuluğa sədaqətlə xidmət edən Azərbaycan Prokurorluğunun fəaliyyəti ölkə başçısı tərəfindən daim qiymətləndirilərək əməkdaşlarınızın yüksək dövlət təltiflərinə və ali xüsusi rütbələrə layiq bilinməsi prokurorluğa göstərilən böyük diqqət və qayğının bariz təzahürüdür.*

***Hörmətli Zakir müəllim!***

*Ədliyyə Nazirliyinin rəhbərliyi və çoxminli kollektivi adından Sizi peşə bayramınız münasibətilə bir daha ürəkdən təbrik edir, respublikamızın hərtərəfli tərəqqisi naminə gərəkli və məsuliyyətli fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayıram.*

***Hörmətlə,***

***Fikrət Məmmədov,***
***Azərbaycan Respublikasının ədliyyə naziri,***
***Məhkəmə-Hüquq Şurasının sədri,***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***1 oktyabr 2016-cı il***

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Sizi və rəhbərlik etdiyiniz kollektivi 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə səmimi təbrik edir, fəaliyyətinizdə uğurlar arzulayıram.*

*Azərbaycan Respublikasının Prokurorluğu ölkəmizdə insan hüquq və azadlıqlarının təminatı istiqamətində əldə etdiyi xidməti nailiyyətlər və həyata keçirdiyi uğurlu fəaliyyəti ilə cəmiyyətdə özünə qarşı yüksək etimad hissi formalaşdırmışdır.*

*Bu gün Sizin rəhbərliyinizlə prokurorluq orqanları öz fəaliyyətində ədalət və şəffafhq prinsiplərini əsas götürərək ölkəmizdə aparılan hüquqi islahatlar prosesində fəal iştirak edir, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.*

*Prokurorluq orqanlarının təkmilləşdirilməsi və yeniləşdirilməsi istiqamətində görülən işlərin müsbət nəticəsidir ki, rəhbərlik etdiyiniz orqan qanunla müəyyən edilmiş funksiyalarını yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının təmin edilməsində, bütövlükdə, hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayır.*

*İnanırıq ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə hüquq qaydasının və ədalətin qorunmasına yönəlmiş fəaliyyətinizi bundan sonra da uğurla davam etdirəcək, bu məsuliyyətli işdə öz təcrübənizi və səriştənizi əsirgəməyəcəksiniz.*

*Əlamətdar gün münasibətilə Sizi bir daha təbrik edir, möhkəm cansağlığı, işlərinizdə uğurlar və yeni nailiyyətlər arzulayıram.*

**Hörmətlə,**

**Fərhad Abdullayev,**
**Azərbaycan Respublikası**
**Konstitusiya Məhkəməsinin Sədri**
**1 oktyabr 2016-cı il**

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*Sizi və prokurorluq orqanlarında çalışan bütün əməkdaşları Prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə Ali Məhkəmənin kollektivi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edir, ən xoş arzularımı bildirirəm.*

*Bu bayramı ulu öndərimiz Heydər Əliyevin təsis etməsi prokurorluq orqanlarının fəaliyyətinə verdiyi yüksək qiymətin təcəssümüdür. Ümummilli liderimizin yolunu uğurla davam etdirən möhtərəm cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə hüquq sahəsində aparılan məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün Azərbaycan Prokurorluğu mütərəqqi normativ hüquqi bazası olan, demokratik məzmunlu prinsiplər və iş metodları əsasında fəaliyyət göstərən sivil dövlət təsisatına çevrilmişdir.*

*Milli dövlətçiliyə daim sədaqətlə xidmət edən, respublikada ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydalarının təminatında mühüm rol oynayan Azərbaycan prokurorluğunun əməkdaşları öz vəzifələrini şərəflə yerinə yetirməkdədirlər.*

*Dövlət həyatında əhəmiyyətli yer tutan prokurorluğun insan hüquq və azadlıqlarının təminində, demokratik inkişafa törədilən maneələrin aradan qaldırılmasında, ədalət mühakiməsinin beynəlxalq tələblərə cavab verən səviyyədə formalaşmasında, ictimai-siyasi həyatın bütün sahələrində dövlətin hüquqi bazasının möhkəm təməllər üzərində qurulmasında böyük rolu vardır.*

*Sizin rəhbərliyinizlə şəffaf və ədalətli kadr islahatları prokurorluğun uğurlarının əsasını təşkil edir.*

*Prokurorluq orqanlarında çalışan əməkdaşlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli xidmətlər göstərirlər.*

*Prokurorluq orqanlarında cinayətkarlığa qarşı mübarizə tədbirləri daha da gücləndirilir, dövlətçiliyimizin möhkəmləndirilməsi, insan hüquq və azadlıqlarının qorunması, sosial ədalətin bərpa olunması istiqamətində mühüm işlər görülür.*

*Əminik ki, prokurorluq orqanları öz fəaliyyətinin etimada layiq səviyyədə təşkili üçün bütün zəruri tədbirlərin görülməsini davam etdirəcək, xalqın mənafeyinin cinayətkar qəsdlərdən qorunmasında bundan sonra da yaxından iştirak edəcəklər.*

***Hörmətli Zakir müəllim!***

*Peşə bayramı günündə Sizi bir daha ürəkdən təbrik edil, şərəfli və məsuliyyətli vəzifələri yerinə yetirən prokurorluğun bütün kollektivinə möhkəm can sağlığı və işlərində uğurlar arzulayıram.*

***Hörmətlə,***

***Ramiz Rzayev,***
***Azərbaycan Respublikası***
***Ali Məhkəməsinin sədri***
***1 oktyabr 2016-cı il***

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir Bəkir oğlu!**

*Yarandığı gündən şərəfli bir xidmət yolu keçən prokurorluq orqanları Milli Lider Heydər Əliyevin rəhbərliyi altında hüquq sahəsində dövlət siyasətini həyata keçirən vahid mərkəzləşdirilmiş təsisat olaraq formalaşmış, demokratik dövlət quruculuğunda fəal iştirak etmiş, cəmiyyətdə böyük nüfuz qazanmışdır.*

*Prokurorluq sisteminin əməkdaşları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizin inkişafı və qüdrətlənməsi, insan və vətəndaş hüquqlarının etibarlı müdafiəsi naminə həyata keçirilən tədbirlərin, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına xidmət edən islahatların müvəffəqiyyətlə davam etməsinə bu gün də layiqli töhfələr verirlər. Respublikada konstitusion dövlət quruluşunun möhkəmlənməsi, ağır və xüsusilə ağır cinayətlərin, onların transmilli mütəşəkkil növlərinin qarşısının alınması, açılması, istintaqı kimi mühüm vəzifələrin yerinə yetirilməsində prinsipiallığı, xalqa, Vətənə və dövlətə sədaqəti ilə seçilirlər.*

*Möhtərəm Prezident tərəfindən prokurorluq işçilərinin səmərəli fəaliyyətinin həmişə yüksək dəyərləndirilək dövlət mükafatlarına və ali xüsusi rütbələrə layiq görülməsi Zati-alilərinin böyük etimadının, əvəzsiz diqqət və qayğısının əyani ifadəsidir.*

*Daim inkişafda olan əməkdaşlıq əlaqələrimiz milli maraqların, vətəndaşların qanuni mənafelərinin və ictimai asayişin etibarlı qorunmasına, cinayətkarlığa qarşı mübarizənin güclənməsinə, qanunçuluğun və hüquq qaydasının möhkəmlənməsinə xidmət etməkdədir.*

*Əlamətdar peşə bayramınız – prokurorluq orqanlarının yaranmasının 98-ci ildönümü münasibətilə Sizi və respublikanın bütün prokurorluq işçilərini ürəkdən təbrik edir, can sağlığı, ailə səadəti, xoşbəxtlik, məsul və şərəfli işinizdə yeni-yeni nailiyyətlər arzulayıram!*

**Dərin hörmətlə,**

**Ramil Usubov,**
**Azərbaycan Respublikasının**
**daxili işlər naziri,**
**general-polkovnik**
**1 oktyabr 2016-cı il**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir Bəkir oğlu!**

*Sizi və tabeliyinizdə olan kollektivi peşə bayramınız – Prokurorluq işçiləri günü münasibətilə səmimi–qəlbdən təbrik edir və ən xoş arzularımı bildirirəm.*

*Müasir Azərbaycan dövlətçiliyinin banisi Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında dövlətimizin iqtisadi dayaqları möhkəmlənmiş, müstəqil respublikamızda iqtisadiyyatın davamlı inkişafı təmin edilmiş, vətəndaşların maddi rifahı yaxşılaşmış, ölkəmiz dünyada söz və nüfuz sahibi kimi tanınmışdır.*

*Respublikamızda qanunların aliliyinin yüksək səviyyədə təmin edilməsində, qanunların icra və tətbiqinə ciddi nəzarətin həyata keçirilməsində, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında, cinayətkarlığa qarşı mübarizənin uğurla aparılmasında və qanunçuluğun bərqərar olunmasında Sizin və prokurorluq işçilərinin böyük əməyi vardır.*

*Sizə və kollektivinizin hər bir üzvünə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və işlərinizdə yeni müvəffəqiyyətlər arzulayıram.*

**Hörmətlə,**

**Zakir Həsənov,**
**Azərbaycan Respublikasının**
**müdafiə naziri,**
**general-polkovnik**
**1 oktyabr 2016-cı il**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Azərbaycan Prokurorluğunun yaradılmasının 98 ildönümü münasibətilə Sizi və rəhbərlik etdiyiniz kollektivi səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı, qanunun aliliyinin təmin edilməsi işində bundan sonra da uğurlar arzulayıram.*

*Danılmaz bir həqiqətdir ki, ölkəmizə rəhbərliyinin bütün dövrlərində ümummilli lider Heydər Əliyev respublikada qanunun aliliyinin təmin olunmasını, vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən elan etmiş, bu ali məqsədlərin gerçəkləşdirilməsinə yönəlmiş çoxşaxəli islahatların həyata keçirilməsini daim diqqətdə saxlamışdır. Prokurorluq orqanlarının qanunçuluğun və hüquq normalarının etibarlı təminatı sahəsində nüfuzlu təsisata çevrilməsi, yenidən təkmilləşdirilərək fəaliyyətini yeni dövrün tələbləri səviyyəsində qurması məhz ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında aparılmış mütərəqqi islahatlar nəticəsində mümkün olmuşdur. Ulu Öndərin dövlətçilik iradəsilə gerçəkləşən bu reallıq Azərbaycan Prokurorluğunun cəmiyyətdə və dövlət təsisatları sırasında tutduğu yeri müəyyənləşdirməklə, bu orqana göstərilən yüksək qayğının və hərtərəfli dəstəyin təzahürü kimi qiymətləndirilə bilər.*

*Təqdirəlayiq haldır ki, bu gün Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev cənablarının bilavasitə diqqət və qayğısı sayəsində vətəndaşlarımızın hüquq və azadlıqlarının qorunması, cinayətkarlığa qarşı mübarizə işinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində səmərəli tədbirlər həyata keçirilir. Bu qayğının nəticəsidir ki, Baş Prokurorluq ölkədə vətəndaş cəmiyyətinin formalaşmasında, hüquqi islahatların həyata keçirilməsində, demokratik dəyərlərin bərqərar olmasında, beynəlxalq münasibətlərin genişlənməsində öz sözünü qətiyyətlə deyir. Uğurların qazanılmasında fəxr edə bilərsiniz ki, Siz də öz layiqli töhfənizi verirsiniz. Əldə etdiyiniz nəticələr, vətəndaşlara göstərilən hüquqi xidmətlərin səmərəliliyinin artırılması, mütərəqqi yeniliklərin tətbiqi, idarəçilik mexanizmlərinin daim təkmilləşdirilməsi istiqamətində atılan addımlar cəmiyyət tərəfindən yüksək qiymətləndirilir.*

*Sizi bir daha peşə bayramınız münasibətilə ürəkdən təbrik edir, möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının rəhbərliyi altında həyata keçirilən hüquqi dövlət quruculuğu işində Sizə daha böyük müvəffəqiyyətlər arzu edirəm.*

***Ən səmimi arzularla,***

**Kəmalədin Heydərov,**
**Azərbaycan Respublikasının**
**fövqəladə hallar naziri,**
**general-polkovnik**
**1 oktyabr 2016-cı il**

**_Azərbaycan Respublikasının Baş prokuroru_**
**_I dərəcəli dövlət ədliyyə müşaviri_**
**_cənab Zakir Qaralova_**

**_Hörmətli Zakir müəllim!_**

*Sizi 1 oktyabr - Azərbaycan Respublikası prokurorluq işçilərinin peşə bayramı münasibətilə təbrik edirəm.*

*Azərbaycanın prokurorluq orqanlarının müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və təkmilləşdirilməsi, 1 oktyabr tarixinin Azərbaycan Respublikası Prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunması xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır.*

*Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və möhtərəm Prezidentimiz İlham Əliyevin Silahdaşı kimi, Sizin rəhbərliyiniz altında Azərbaycanda prokurorluq orqanlarının fəaliyyətinin zamanın çağırışlarına uyğunlaşdırılması, bu sahədə şəffaflığın təmin olunması, korrupsiyaya qarşı mübarizənin vahid strategiya çərçivəsində aparılması, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və cinayətkarlığa qarşı beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi sahələrində bir sıra ciddi nailiyyətlər əldə edilmişdir. Ölkə başçısının prokurorluq orqanlarının qarşısında qoyduğu tələblərin gerçəkləşdirilməsi, onun ideyalarının həyata keçirilməsi üçün əlinizdən gələni əsirgəmirsiniz.*

**_Hörmətli Zakir müəllim!_**

*Bir daha Sizi və rəhbərlik etdiyiniz prokurorluq orqanlarının işçilərini peşə bayramınız münasibətilə təbrik edir, ölkəmizdə ictimai-siyasi sabitliyin və dövlətçiliyin qorunması, vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsi naminə gördüyünüz bütün işlərdə Sizə yeni-yeni uğurlar arzulayıram.*

**_Fazil Məmmədov,_**
**_Azərbaycan Respublikasının vergilər naziri,_**
**_1-ci dərəcəli dövlət vergi xidməti müşaviri_**
**_1 oktyabr 2016-cı il_**

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Sizi və prokurorluq orqanları əməkdaşlarını Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı münasibətilə təbrik edirəm.*

*Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi sayəsində ölkəmiz iqtisadi uğurlarla yanaşı, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu sahəsində də böyük nailiyyətlərə imza atır. Ulu Öndərin "Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır" siyasi xəttinin uğurla reallaşdırılmasının nəticəsidir ki, Azərbaycan Respublikasının Prokurorluğu qanununu aliliyi, insan hüquq və azadlıqlarının təmin edilməsində, hüquqi norma və prinsiplərə əməl olunmasında, cinayətkarlıqla mübarizədə böyük xidmətləri olan mühüm dövlət təsisatına çevrilmişdir. Bu gün Azərbaycanda dövlətin və cəmiyyətin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirən, bütövlükdə hüquq sisteminin inkişafında xüsusi rol oynayan prokurorluq sistemi formalaşmışdır. Dövlətçiliyə sadiq, sağlam mənaviyyata, geniş dünyagörüşünə malik prokurorluq əməkdaşları güclü Azərbaycan naminə çətin və şərəfli missiyanı böyük əzmlə davam etdirir, ölkəmizin inkişafına öz töhfələrini verirlər.*

*Ölkə rəhbərliyi tərəfindən Azərbaycanın prokurorluq sisteminə böyük diqqət və qayğı göstərilir, prokurorluq orqanları əməkdaşlarının çətin və şərəfli əməyi daim yüksək qiymətləndirilir. Hər il oktyabrın 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi də prokurorluq orqanlarının Vətənimiz qarşısında xidmətlərinə və keçdiyi tarixi yola verilən yüksək qiymətin nümunəsidir.*

*Sizi və prokurorluq əməkdaşlarını bu əlamətdar gün münasibətilə bir daha təbrik edir, mühüm fəaliyyətinizdə böyük uğurlar arzulayıram.*

***Hörmətlə,***

***Şahin Mustafayev,***
***Azərbaycan Respublikasının***
***iqtisadiyyat naziri***
***1 oktyabr 2016-cı il***

**_Azərbaycan Respublikasının Baş prokuroru_**
**_I dərəcəli dövlət ədliyyə müşaviri_**
**_cənab Zakir Qaralova_**

**_Hörmətli Zakir müəllim!_**

*Sizi və Azərbaycan Respublikasının Baş Prokurorluğunun kollektivini "Prokurorluq işçilərinin peşə bayramı günü" münasibəti ilə təbrik edirəm.*

*Bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası Prokurorluğu qanunun aliliyi, ölkəmizdə formalaşmış dayanıqlı ictimai-siyasi sabitliyin və milli maraqlarımızın cinayətkar qəsdlərdən qorunması, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının müdafiəsini uğurla təmin edir.*

*Əminik ki, dövlətçiliyə sədaqətlə xidmət edən prokurorluğun kollektivi bundan sonra da digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin, qanunçuluğun və hüquq qaydasının qorunması işində daim dönməzlik və qətiyyət nümayiş etdirəcəkdir.*

*Sizi bu əlamətdar gün münasibəti ilə bir daha təbrik edir, şərəfli və məsuliyyətli işinizdə uğurlar arzulayıram.*

**_Hörmətlə,_**

**_Samir Şərifov,_**
**_Azərbaycan Respublikasının_**
**_maliyyə naziri_**
**_1 oktyabr 2016-cı il_**

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*Sizi 1 oktyabr – Prokurorluq Orqanı İşçilərinin Peşə bayramı günü münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə möhkəm can sağlığı, uzun ömür və Azərbaycanda qanunçuluğun təmin olunması naminə gərgin fəaliyyətinizdə yeni - yeni uğurlar arzulayıram.*

*Bu günün qeyd olunması tarixi zərurətdən yaranmışdır. Ümummilli liderimiz cənab Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq hər il oktyabr ayının 1-ni Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli Sərəncam imzalamışdır.*

*İctimai-siyasi həyatın bütün sahələri üzrə dövlətin hüquqi bazasının möhkəm təməllər üzərində qurulması, ictimai ədalət prinsiplərinə ciddi riayət olunması sabitliyin, vətəndaş həmrəyliyinin və dinamik iqtisadi inkişafın ən başlıca təminatlarından biridir. Azərbaycanda prokurorluq orqanlarının əməkdaşları da məhz müstəqil dövlətçiliyimizin əleyhinə olan cinayətlərin, görkəmli ictimai və dövlət xadimlərinə qarşı törədilən terror aktlarının, dövlət əmlakının mənimsənilməsi və bank-maliyyə sistemində baş vermiş ağır cinayət hadisələrini, o cümlədən sadə vətəndaşlarımızın əmanətlərinin talan edilməsi kimi ağır cinayət hadisələrini peşəkarcasına müəyyən etmiş, bəzən qarşısını almış, təqsirkar şəxsləri layiq olduqları formada cəzalandırmışlar. Azərbaycan Respublikasının Prezidenti, Möhtərəm Cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən mütərəqqi islahatlar nəticəsində bu gün Azərbaycanda prokurorluq orqanlarının insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində nüfuzlu təsisata çevrilməsi reallaşmışdır.*

*Zati-Aliləri Cənab İlham Əliyevin bu sahəyə, ümumilikdə hüquq-mühafizə sistemnə göstərdiyi böyük qayğıya və yüksək etimada cavab olaraq, respublikanın prokurorluq işçiləri də hüquqi islahatlar çərçivəsində tamamilə yeniləşmiş, demokratik və sivil bir təşkilata çevrilmiş prokurorluq sisteminin daha da təkmilləşdirilməsi üçün bütün zəruri tədbirlərin görülməsini təmin edirlər.*

***Hörmətli Zakir müəllim!***

*Sizi bir daha Peşə bayramı günü münasibətilə ürəkdən təbrik edir, Sizə və rəhbərlik etdiyiniz kollektivin hər bir üzvünə möhkəm can sağlığı, uzun ömür, hüquqi dövlət quruculuğunun təmin edilməsi və insan haqlarının qorunması naminə şərəfli işinizdə yeni-yeni uğurlar arzu edirəm.*

***Dərin hörmətlə,***

***Ziya Məmmədov,***
***Azərbaycan Respublikasının***
***nəqliyyat naziri***
***1 oktyabr 2016-cı il***

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*Müdafiə Sənayesi Nazirliyinin kollektivi Sizi və rəhbərlik etdiyiniz qurumun əməkdaşlarını Prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü münasibətilə səmimi qəlbdən təbrik edir, belə bir xoş gündə Sizlərə uzun ömür, möhkəm cansağlığı və respublikamızda təhlükəsizliyin, ədalətin qorunub saxlanması naminə həyata keçirdiyiniz işlədə uğurlar arzulayır.*

*Çoxillik tarixə malik olan Azərbaycan Respublikasının prokurorluq orqanları ötən illər ərzində böyük sınaqlardan çıxmışdır. Təhlükəsizliyin, ədalətin keşiyində duran prokurorluq orqanlarını bu sınaqlar daha da qüvvətləndirmişdir.*

*İkinci dəfə Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra respublikamız yeni dövrə qədəm qoymuşdur. Lakin müstəqilliyin ilk illərində ölkəni bürümüş daxili didişmələr, anarxiya və xaos dövlət quruculuğuna böyük zərbə vurmuşdur.*

*Xalqın israrlı tələbi ilə Ulu öndər Heydər Əliyevin hakimiyyətə xilasedici qayıdışından sonra Azərbaycandakı özbaşınalığa, siyasi hakimiyyətsizliyə birdəfəlik son qoyuldu, ölkədə sabitlik təmin edildi, qanunsuz silahlı birləşmələr tərksilah edildi, atəşkəsə nail olundu, güclü dövlətin möhkəm özülü qoyuldu.*

*Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının da fəaliyyətində yeni bir dövr başladı. Bu dövrdə müstəqil dövlətçiliyimizin əleyhinə olan cinayətlər, görkəmli ictimai və dövlət xadimlərinə qarşı törədilən terror aktları, dövlət əmlakının mənimsənilməsi, bank-maliyyə sistemində baş vermiş ağır cinayət hadisələri, o cümlədən sadə vətəndaşların əmanətlərinin talan edilməsi kimi ağır cinayət hadisələri məhz prokurorluq orqanlarının əməkdaşları tərəfindən peşəkarcasına araşdırıldı, təqsirkar şəxslər layiqli cəzalarını aldılar.*

*Hər zaman təhlükəsizliyin və ədalətin təminatçısı olan prokurorluq orqanları son illər Respublika Prezidenti İlham Əliyevin rəhbərliyi altında qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin olunması, cinayətkarlıqla mübarizə, qanunçuluğun və hüquq qaydasının qorunması istiqamətində daha da təkmilləşərək müstəqil dövlətimizin özülünün sarsılmazlığına xidmət edən müvafiq orqana çevrildi.*

***Hörmətli Zakir müəllim!***

*Bu əlamətdar gün münasibətilə Müdafiə Sənayesi Nazirliyinin kollektivinin səmimi təbriklərini bir daha Sizlərə çatdırır, üzərinizə götürdüyünüz şərəfli və məsuliyyətli işlərin bundan sonra da yerinə yetirilməsi naminə Ulu Tanrıdan öz şəfqət və mərhəmətini Sizlərdən əsirgəməməsini diləyirəm.*

***Hörmətlə,***

***Yavər Camalov,***
***Azərbaycan Respublikasının***
***müdafiə sənayesi naziri***
***1 oktyabr 2016-cı il***

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*Sizi və rəhbərlik etdiyiniz kollektivi 1 oktyabr – Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.*

*Qanunçuluğun və vətəndaşların qanun qarşısında hüquq bərabərliyinin təmin edilməsi dövlətçiliyin vacib prinsiplərindən biridir. Azərbaycan Respublikasının Prokurorluğu yarandığı vaxtdan bu mühüm prinsipə uyğun fəaliyyət göstərərək, öz vəzifələrini daim dövlətçiliyə sədaqət ruhunda yerinə yetirmişdir.*

*Ümummilli liderimiz Heydər Əliyevin respublikamızın rəhbərliyinə qayıdışından sonra müstəqil ölkəmizin prokurorluğunun da həyatında yeni bir inkişaf mərhələsi başlanmış, onun fəaliyyəti sivil və demokratik əsaslar üzərində formalaşmışdır. Son 13 ildə Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkədə hüquqi və demokratik cəmiyyət quruculuğunun inkişafı, qanunçuluğun möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi uğurlu islahatlar kursu hüquq-mühafizə sisteminin, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşərək müasir tələblər səviyyəsində qurulmasına şərait yaratmışdır.*

*Hazırda bütün sahələrdə tərəqqi proseslərinin yaşandığı Azərbaycan ictimai-siyasi sabitliyin daim möhkəmləndiyi, qanunların aliliyinin təmin olunduğu, vətəndaşların azad və təhlükəsiz şəraitdə yaşadığı bir ölkədir. Bu böyük nailiyyətin əldə olunmasında prokurorluğun da mühüm xidmətləri vardır. İnsan hüquq və azadlıqlarının təmin olunması, cinayətkarlıqla mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının qorunması istiqamətində uğurlu fəaliyyətiniz dövlətimizin inkişafına öz töhfələrini verir. Azərbaycan cəmiyyətində prokurorluq orqanlarına olan yüksək inam və etimad da vətəndaş təhlükəsizliyinin, ictimai əmin-amanlığın təminatında göstərdiyiniz xidmətlərin nəticəsidir.*

*Peşə bayramı gününüzdə Sizi bir daha ürəkdən təbrik edir, məsul və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.*

***Hörmətlə,***

***Səlim Müslümov,***
***Azərbaycan Respublikasının***
***əmək və əhalinin sosial müdafiəsi naziri***
***1 oktyabr 2016-cı il***

**Azərbaycan Respublikasının Baş prokuroru**
**I dərəcəli dövlət ədliyyə müşaviri**
**cənab Zakir Qaralova**

**Hörmətli Zakir müəllim!**

*1 oktyabr – Prokurorluq orqanları işçilərinin peşə bayramı münasibətilə Sizi və sizin simanızda bütün əməkdaşlarınızı səmimi qəlbdən təbrik edir, ən xoş arzularımı bildirirəm.*

*Hər bir ölkədə prokurorluq orqanları dövlətçiliyin və dövlət maraqlarının qorunması, qanunçuluğun təmin edilməsi kimi çox mühüm vəzifələri yerinə yetirir. Azərbaycan Respublikasında Sizin rəhbərlik etdiyiniz bu vacib dövlət qurumu Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik siyasətinin prinsiplərinə əsaslanaraq Prezident İlham Əliyev cənablarının düşünülmüş daxili siyasətini həyata keçirən önəmli hüquq-mühafizə orqanlarındandır. Hazırda ölkəmizdə hökm sürən sabitlik və əmin-amanlıqda, ümumi tərəqqidə Vətənimizin prokurorluq orqanlarının da əhəmiyyətli payı vardır. Bütün şəxsi heyəti ilə ölkəmizdə qanunçuluğun bərqərar olması, qanunun aliliyinin, insan hüquq və azadlıqlarının təmin edilməsi naminə var qüvvə ilə çalışan prokurorluq Azərbaycanın dinamik ictimai-siyasi və iqtisadi-sosial inkişafı üçün zəruri olan şərtləri yaradaraq, Vətənimizin çiçəklənməsinə dəyərli töhfələr verir.*

*Peşə bayramınız münasibətilə Sizi bir daha ürəkdən təbrik edir, Sizə uzun ömür, möhkəm sağlamlıq, ailənizə xoşbəxtlik və əmin-amanlıq, ölkəmizdə qanunçuluğun keşiyində dayanan hər kəsə bu fəaliyyətində uğurlar arzulayıram.*

**Hörmətlə,**

**Oqtay Şirəliyev,**
**Azərbaycan Respublikasının**
**səhiyyə naziri**
**1 oktyabr 2016-cı il**

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı münasibətilə Sizi və rəhbərlik etdiyiniz qurumun kollektivini səmimi qəlbdən təbrik edərək, müasir inkişaf tarixinin yeni yüksəliş mərhələsini yaşayan ölkəmizdə qanunçuluğun, insan hüquq və azadlıqlarının təminatlı müdafiəsi, cinayətkarlığın bütün təzahürlərinə qarşı mübarizənin daha da gücləndirilməsi naminə xidməti fəaliyyətinizdə daim uğurlar diləyirəm.*

*Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə müstəqil və suveren respublikamızda həyata keçirilən müasir dövlət və vətəndaş cəmiyyəti quruculuğu çərçivəsində ardıcıllıqla reallaşdırılan genişmiqyaslı məhkəmə-hüquq islahatları nəticəsində tamamilə yenidən qurulan ölkə prokurorluğu milli dövlətçilik tariximizdə ilk dəfə olaraq konstitusion statusa və qanunvericilik təşəbbüsünə malik olmaqla qabaqcıl dünya təcrübəsinə söykənən mütərəqqi ruhlu və demokratik məzmunlu dövlət təsisatı kimi formalaşdırılmış oldu. Prokurorluq peşəsini ağır və çətin olmaqla yanaşı, eyni zamanda olduqca şərəfli və hörmətli bir peşə kimi dəyərləndirən Ulu Öndərimizin təşəbbüsü ilə işlənib hazırlanaraq qəbul edilən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunu və digər müvafiq qanunvericilik aktları əsasında gerçəkləşdirilən məqsədyönlü kompleks tədbirlər, ölkəmizin inkişaf tempinə uyğun olaraq bu sistemdə aparılan zəruri struktur dəyişiklikləri və köklü kadr islahatları ilə hazırda ümumavropa meyarları səviyyəsinə yüksələn doğma Vətənin beynəlxalq hüquq məkanına inteqrasiyası əhəmiyyətli dərəcədə sürətlənmişdir.*

*Dahi Rəhbərin insan amilinə, ədalətə və digər yüksək bəşəri dəyərlərə əsaslanan hüquq-mühafizə siyasətini respublikamızda bərqərar olan demokratikləşmə və modernləşmə proseslərinə adekvat olaraq keyfiyyətcə yeni müstəvidə inamla davam etdirən ölkə Prezidenti möhtərəm İlham Əliyev cənablarının ali diqqət və qayğısı sayəsində normativ-hüquqi və maddi-texniki cəhətdən daha da təkmilləşərək ən müasir informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunan prokurorluq orqanları bu gün şəffaf prosedurlarla müsabiqə əsasında formalaşdırılan yeni nəsil kadr korpusuna malik olmaqla ölkə rəhbərinin qeyd etdiyi kimi, cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında, qanunçuluğun təmin edilməsində və bütövlükdə milli hüquq sisteminin inkişafında mühüm rol oynamaqdadır.*

*Peşə bayramınızla bağlı Dövlət Gömrük Komitəsinin şəxsi heyəti adından bir daha səmimi təbriklərimi çatdıraraq Sizə möhkəm cansağlığı və uzun ömür diləyir, möhtərəm Prezidentimizin alternativsiz rəhbərliyi altında müstəqil dövlətçiliyimizin və milli mənafelərimizin cinayətkar qəsdlərdən etibarlı müdafiəsində özünəməxsus yeri olan Azərbaycan Prokurorluğuna müvəffəqiyyətlər arzulayıram.*

***Hörmətlə,***

***Aydın Əliyev,***
***Azərbaycan Respublikası***
***Dövlət Gömrük Komitəsinin sədri,***
***gömrük xidməti general-leytenantı***
***1 oktyabr 2016-cı il***

**Уважаемый Закир Бекир оглу!**

*От имени Координационного совета генеральных прокуроров государств - участников Содружества Независимых Государств и Генеральной Прокуратуры Российской Федерации примите поздравления с профессиональным праздником – Днем работников прокуратуры Азербайджанской Республики.*

*От всей души желаю Вам, всем работникам и ветеранам прокуратуры крепкого здоровья, благополучия, успехов в работе по обеспечению законности и правопорядка в Азербайджанской Республики.*

***С уважением,***

***Ю.Я.Чайка,***
***Председатель Координационного совета***
***генеральных прокуроров государств - участников СНГ***
***Генеральный прокурор Российской Федерации***

**Уважаемый Закир Бекир оглы!**

*Свидетельствую Вам глубокое уважение и от имени коллектива Генеральной прокуратуры Республики Узбекистан и себя лично горячо поздравляю Вас, весь прокурорский корпус и ветеранов прокуратуры с профессиональным праздником – Днем работника прокуратуры!*

*Искренне желаю Вам и всем сотрудникам прокуратуры крепкого здоровья, добра и счастья, дальнейшей активной жизненной позиции и высоких достижений в профессиональной деятельности, а ветеранам – спокойного долголетия, хорошего настроения и благополучия!*

*Пользуясь случаем, выражаю уверенность, что сложившиеся между нашими ведомствами дружественные отношения и взаимовыгодное сотрудничество в правовой сфере будут и впредь развиваться и укрепляться.*

***С уважением,***

***И Абдуллаев,***
***Генеральный прокурор***
***Республики Узбекистан***

**_Уважаемый Закир Бекир оглу!_**

*От коллектива Генеральной прокуратуры Республики Беларусь и себя лично поздравляю Вас и Ваших коллег с профессиональным праздником – Днем работников прокуратуры Азербайджанской Республики!*

*Выражаю уверенность, что взаимопонимание и конструктивное сотрудничество, сложившиеся между прокуратурами наших государств, будут развиваться и в дальнейшем.*

*Желаю Вам, всем работникам органов прокуратуры Азербайджанской Республики крепкого здоровья, успехов в нелегком, но благородном деле борьбы с преступностью во имя благополучия и процветания Вашей страны и азербайджанского народа.*

**_С уважением,_**

**_А.В.Конюк,_**
**_Генеральный прокурор_**
**_Республики Беларусь_**

**_Уважаемый Закир Бекирович!_**

*Поздравляю лично Вас и сотрудников Вашего ведомства с профессиональным праздником – Днем работника прокуратуры Азербайджанской Республики!*

*Позвольте пожелать Вам и всем сотрудникам здоровья, благополучия, достижения намеченных целей и профессиональных успехов.*

*От имени Главной прокуратуры Грузии и от себя лично выражаю надежду на дальнейшее взаимное сотрудничество и укрепление дружбы между прокуратурами наших государств, и пользуясь случаем вновь выразить Вам свое уважение.*

**_С уважением,_**

**_Ираклий Шотадзе,_**
**_Главный прокурор Грузии_**

**Уважаемый Закир Бекир оглу!**

*Генеральная прокуратура Республики Таджикистан свидетельствует своё уважение Генеральной прокуратуре Азербайджанской Республики.*

*Поздравляем Вас и всех сотрудников органов прокуратуры с профессиональным праздником – Днём работников прокуратуры.*

*Искренне желаем Вам и всем работникам органов прокуратуры Азербайджанской Республики здоровья, благополучия, успехов в обеспечении верховенства закона, защите прав и свобод человека и гражданина, в борьбе с преступностью, укреплении законности и правопорядка.*

*Пользуясь  случаем, выражаем уверенность в тесном и плодотворном сотрудничестве.*

**С уважением,**

**Ю.А.Рахмон,**
**Генеральный прокурор**
**Республики Таджикистан**

**Уважаемый Закир Бекир оглу!**

*Свидетельствую Вам глубокое уважение и от имени Генеральной прокуратуры Республики Молдова, и от себя лично, поздравляю Вас и весь прокурорский корпус Республики Азербайджан с Днем работника прокуратуры.*

*Примите наши искренние пожелания мира, крепкого здоровья, благополучия, добра и счастья, успехов на ниве служения верховенству закона, защиты прав и свобод граждан, интересов общества и государства.*

*Пользуясь случаем, выражаю надежду на дальнейшее развитие и укрепление сотрудничества между генеральными прокуратурами наших стран в правовой сфере на благо процветания наших народов.*

**С искренним уважением,**

**Эдуард Харунжен,**
**И.О. Генерального прокурора**
**Республики Молдова**

**Уважаемый Закир Бекир оглу!**

*От имени Координационного совета генеральных прокуроров государств – участников Содружества Независимых Государств и от себя лично сердечно поздравляю Вас и весь коллектив Генеральной прокуратуры Азербайджанской Республики с профессиональным праздником – Днем работников прокуратуры Азербайджанской Республики.*

*Желаю Вам, всем работникам и ветеранам прокуратуры крепкого здоровья, счастья, благополучия, профессиональных успехов в деле обеспечения законности и правопорядка в Азербайджанской Республике.*

*Выражаю надежду на дальнейшее плодотворное сотрудничество и укрепление взаимодействия в рамках Координационного совета генеральных прокуроров государств – участников Содружества Независимых Государств.*

***С уважением,***

***Л.В.Ермолаев,***
***Исполнительный секретарь Координационного совета***
***генеральных прокуроров государств-участников СНГ***

***Azərbaycan Respublikasının Baş prokuroru***
***I dərəcəli dövlət ədliyyə müşaviri***
***cənab Zakir Qaralova***

***Hörmətli Zakir müəllim!***

*Sizi 1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə, öz adımdan və Azərbaycan Respublikasının Qazaxıstan Respublikasındakı Səfirliyinin əməkdaşları adından səmimi qəlbdən təbrik edirəm.*

*Əminik ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunmuş Prokurorluq işçiləri qoyulmuş tapşırıqları bundan sonra da tam yerinə yetirəcək, Azərbaycanımızın inkişafı yolunda nailiyyətlər əldə edəcəklər.*

*Fürsətdən istifadə edərək, Sizi və bütün Prokurorluq orqanları işçilərini bir daha təbrik edir, möhkəm cansağlığı, uzun ömür, Azərbaycanımızın inkişafı və möhkəmlənməsi yolunda yeni-yeni müvəffəqiyyətlər arzulayıram.*

***Hörmətlə,***

***R.Məmmədov,***
***Azərbaycan Respublikasının***
***Qazaxıstan Respublikasındakı səfiri***
***1 oktyabr 2016-cı il***

Hörmətli oxucular!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 23 dekabr 2016-cı il tarixli plenum iclasında Sumqayıt Apellyasiya Məhkəməsinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsində nəzərdə tutulan "prokurorun inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan protest vermək" hüququ ilə bağlı məsələyə şərh verilməsinə dair" müraciətinə baxılmışdır. Azərbaycan Respublikasının Baş prokuroru, 1 dərəcəli dövlət ədliyyə müşaviri cənab Zakir Qaralovun göstərişinə əsasən bu iclasda mütəxəssis qismində səlahiyyətli nümayəndə kimi mənimlə bərabər mübahisəyə səbəb olmuş protestin müəllifi – Sumqayıt şəhər prokuroru Sərdar İmanov da iştirak etmişdir. Məsələnin aktuallığını və Konstitusiya Məhkəməsi tərəfindən qəbul ediləcək qərarın prokurorun statusu, eləcə də bütövlükdə ölkənin hüquq sistemi üçün əhəmiyyətini, məsələ ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin aydın və birmənalı mövqeyinin "pilot qərar" formasında mövcud olmasını nəzərə alaraq çıxışımın mətnini jurnalda "İnzibati xəta haqqında işə baxan məhkəmədə prokurorun iştirakı mühakimənin ədalətli olmasının zəruri şərtidir" başlıqlı yazı formasında Sizə təqdim etmək qərarına gəldim.

*Hörmətlə,*

**Nazir Bayramov,**
*Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi*
*III dərəcəli dövlət ədliyyə müşaviri*

# İnzibati xəta haqqında işə baxan məhkəmədə prokurorun iştirakı mühakimənin ədalətli olmasının zəruri şərtidir

*Sumqayıt Apellyasiya Məhkəməsinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsində nəzərdə tutulan "prokurorun inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan protest vermək" hüququ ilə bağlı məsələyə şərh verilməsinə dair" müraciətinə baxılması üzrə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 23 dekabr 2016-cı il tarixli Plenum iclasında Azərbaycan Respublikası Baş Prokurorluğunun Elm-Tədris Mərkəzinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri Nazir Bayramovun çıxışının mətni*

Hörmətli Sədr!
Hörmətli hakimlər, hörmətli plenum iştirakçıları!

Sumqayıt Apellyasiya Məhkəməsinin müraciətinin məzmunu İnzibati Xətalar Məcəlləsinin 54.3-cü maddəsində nəzərdə tutulan prokurorun "inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək hüququ" barədə şərh vermək xahiş edilir. Müraciətin məzmununda sual doğuran əsas məsələ kimi "prokurorun iştirak etdiyi işlərlə yanaşı, digər hansı işlər üzrə qərardadlardan protest hüququnun olması", onun belə "işlərin baxılmasında iştirak etmiş hesab olunub-olunmaması" qeyd edilib. Buna görə, həm də prokurorluğu təmsil etdiyimə görə çıxışımı məhz bu məsələyə həsr etmək istərdim.

Qaldırılmış məsələnin həllinə, yəni normanın şərhinə yanaşmalar müxtəlif ola bilər. Onların sırasında prokurorluğun bu sahədə fəaliyyətinin daha səmərəli təşkili ilə bağlı tezisin irəli sürülməsi, onun hüquqi və

faktiki dəlillərlə əsaslandırılması daha təbii görünür. Çünki, qeyd etdiyim kimi, prokurorluğu təmsil edirəm və onun mənafeyinin müdafiəsi həm xidməti vəzifəm, həm də əxlaqi öhdəliyim hesab edilir.

Lakin mən mülahizələrimi tamamilə başqa bir müstəvi üzərində – fundamental insan hüquqlarının müdafiəsi müstəvisi üzərində qurmaq istəyirəm. Nəyə görə məsələyə bu prizmadan yanaşmağı düzgün hesab edirəm? İnsan hüquqları müasir dünyanın, proqressiv bəşəriyyətin ortaq mənəvi-siyasi dəyəridir. Bu dünyanın tərkib hissəsi kimi Azərbaycan dövləti və cəmiyyəti də bu dəyərləri qeyd-şərtsiz bölüşür. İnsan hüquqlarının qorunması, müdafiə edilməsi "konstitusion dəyər"dir. Ona görə də, hesab edirəm ki, məsələnin insan hüquqlarının müdafiəsi nöqteyi-nəzərindən təhlili və qiymətləndirilməsi yeganə düzgün seçimdir və bu yol mütləq "həqiqət"ə gətirib çıxaracaq.

Dövlət orqanlarının, o cümlədən prokurorluğun fəaliyyəti isə, əslində belə dəyər sayılmır. Məndən əvvəl çıxış edən həmkarlar prokurorluğun səlahiyyətlərinin onsuz da çox olduğunu, müzakirə olunan səlahiyyətin də təsbit edilməsi həmin səlahiyyətlərin "həddən artıq" səviyyəyə çatacağını, bunun "geriyə addım", yəni "sovet prokurorluğu"na qayıdış effekti verəcəyini bildirdilər. Özlüyündə belə mülahizələr qeyri-müəyyən, mücərrəd məzmuna malik olmaqla "həqiqət"in müəyyən edilməsində yararsız arqumentlərdir; onların hər birinin özünün sübuta ehtiyacı var. Nəyinsə artıq və ya əskik olması barədə fikir yürütmək üçün gərək əvvəlcə "norma"nı biləsən, yəni biləsən ki, prokurorluğun səlahiyyətlərinin həcmi, hüdudu dəqiq nə qədər olmalıdır, nələri əhatə etməlidir. Belə bir "norma" heç kim tərəfindən, nə qanunverici, nə təcrübə, nə də doktrina tərəfindən müəyyənləşdirilməyib. Prokurorluğun səlahiyyətləri birinə az görünə bilər, başqasına, əksinə, çox. Bütün bunları qoyuram kənara. Əsas məsələ ondadır ki, prokurorluğun səlahiyyətlərinin həcmi də "konstitusion dəyər" deyil və əslində bu icraat çərçivəsində əhəmiyyət kəsb etməyən müddəa kimi müzakirə olunmamalıdır.

Lakin fundamental insan hüquqları, qeyd etdiyim kimi, hamılıqla qəbul edilmiş əsas konstitusion dəyərlərdir, istənilən təklifin insan hüquqlarına hörmət, onların qorunması, müdafiəsi prizmasından dəyərləndirilməsi metodoloji baxımdan ən düzgün seçimdir.

Məlum olduğu kimi, insan hüquqlarının kataloqu kifayət qədər genişdir, lakin konkret olaraq müzakirə olunan məsələ üçün onların biri – "ədalətli məhkəmə araşdırması" hüququ əhəmiyyətlidir. Onun daha dolğun məzmunu "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsində verilib. Nəyə görə bu hüquq? Əvvəla, baxılan müraciət Sumqayıt Apellyasiya Məhkəməsində baxılan konkret məhkəmə işi ilə əlaqədardır. İkincisi, müraciətin məzmunu mühakimə icraatı, burada prokurorun iştirakı ilə bağlıdır. Ona görə, təqdim edəcəyim mülahizələr və arqumentlər bu hüquq üzrə olacaqdır.

İlk öncə aydınlaşdırılmalıdır, "inzibati xəta haqqında iş üzrə xətanı törədən və xətadan zərər çəkmiş şəxsin "ədalətli məhkəmə araşdırması" hüququ varmı? Cavab yalnız müsbət ola bilər. Bu, artıq sübuta yetirilmiş və ən azı Avropa hüquq məkanında hamılıqla qəbul edilmiş həqiqətdir. İkincisi, bu "hüquq"un təmin edilməsi vəzifəsi hansı subyektin üzərindədir? Cavab – milli məhkəmələrin. "Məhkəmə" dedikdə, biz hansı əlamətlərə malik orqanı nəzərdə tuturuq? Buna cavabı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (bundan sonra – Avropa Məhkəməsi) presedent təcrübəsində tapmaq olar. Karelin Rusiya Federasiyasına qarşı işdə[1] Avropa Məhkəməsi təsbit edib ki, inzibati xətalar haqqında işlərə baxan "məhkəmə" Konvensiyanın 6-cı maddəsinin tələblərinə (həm maddi, həm də prosessual tələblərinə) cavab verən "məhkəmə" olmalıdır. Həmin "məhkəmə" bərabər hüquqlu tərəflərin açıq məhkəmə iclasında çəkişməsini ehtiva edir və bir çox digər təminatları nəzərdə tutur. Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində göstərilib ki, "Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir". Göründüyü kimi, "məhkəmə" - "qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə" olmalıdır. Bu anlayışa maddənin digər bəndlərində (6.2, 6.3) nəzərdə tutulmuş prosessual aspektlər də daxildir. Avropa Məhkəməsinin presedent təcrübəsi bu anlayışı daha da zənginləşdirmişdir.

Qeyd edilməlidir ki, milli qanunvericilikdə və təcrübədə də bu məsələyə yanaşma eynidir. Azərbaycan Respublikasının Konstitusiyasında da ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri kimi işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxılması (127-ci maddənin II hissəsi), məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi (127-ci maddənin VII hissəsi) təsbit olunmuşdur.

Publik hüquq sahələri üzrə baxılan işlərdə tərəfin biri dövləti təmsil edən subyekt, daha çox "prokuror" çıxış edir. Qeyd edilən işlərdə ittiham hakimiyyətini təmsil edən subyekt kim olmalıdır, prokuror, yoxsa, digər vəzifəli şəxs? Avropa Məhkəməsi Karelinin

1 «Karelin Rusiya Federasiyasına qarşı" (ərizə N 926/08) iş üzrə 20.09.2016-cı il tarixli qərar.

işində Rusiya Federasiyasının inzibati xətalara dair qanunvericiliyini və məhkəmə təcrübəsini təhlil edərək belə bir nəticəyə gəlib ki, bu işlərdə ittiham tərəfi mütləq təmsil olunmalıdır və həmin tərəfin təmsilçisi qismində də yalnız "prokuror" çıxış edə bilər. Məhkəmə konkret mövqe bildirib ki, inzibati xəta haqqında protokol tərtib etmiş vəzifəli şəxs bu statusa malik ola bilməz. Nəzərə almaq lazımdır ki, Rusiyanın bu sahədə qanunvericiliyi Azərbaycanın qanunvericiliyi ilə oxşardır. Ona görə də, Avropa Məhkəməsinin bu nəticəsinin arqumentlərini tamlıqla Azərbaycana da aid etmək olar. Məsələn, Avropa Məhkəməsi vurğulayır ki, o, Karelinin işinə baxan Rusiya Federasiyası məhkəməsində "inzibati xəta haqqında protokolun tərtib edilməsinə gətirib çıxaran proseduranın müdafiə tərəfinin mövqeyini və etirazlarını nəzərə almağa imkan verən çəkişmə xarakterli olmasını müəyyən etməyib" (63-cü bənd). Daha sonra Məhkəmə qeyd edir ki, inzibati xəta haqqında protokolu tərtib etməyə cavabdeh polis əməkdaşı izahat vermək üçün məhkəməyə çağırıla bilər (64-cü bənd). Nəhayət, Məhkəmə hesab edib ki, "polis əməkdaşı rolu İnzibati Hüquqpozmalar Məcəlləsinə uyğun olaraq başlanmış işdə barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsə qarşı durmaq, məhkəmədə dövlətin adından ittihamı təmsil və müdafiə etmək olan vəzifəli şəxs mənasında "ittiham hakimiyyəti orqanı" və ya "prokuror" olmayıb" (65-ci bənd). Bu müddəaları Azərbaycanın da qanunvericiliyinə və praktikasına şamil etmək olar.

Avropa Məhkəməsinin qiymətləndirməsinə görə, "məhkəmədə prokurorun olması, bir qayda olaraq, məhkəmənin qərəzsizliyi haqqında ortaya çıxan haqlı şübhələrdən qaçmaq üçün zəruridir" (76-cı bənd). Çünki, tərəfin biri olmayanda onun funksiyalarının icrası avtomatik olaraq məhkəmənin üzərinə düşür, konkret bu halda məhkəmə ittiham tərəfinin vəzifələrini yerinə yetirməyə məcbur olmuşdu.

Karelin işində Rusiyanın ikinci instansiya məhkəməsində də prokuror iştirak etməmişdi və Avropa Məhkəməsi bunu birinci instansiya məhkəməsində ortaya çıxmış "məhkəmənin qərəzliliyinə dair sualın" ikinci instansiya məhkəməsində aradan qaldırılmaması kimi dəyərləndirmişdir. Və sonda Avropa Məhkəməsi Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin "qərəzsizlik tələbi", "tərəflərin bərabərliyi prinsipi" və "prosesin çəkişmə xarakteri" üzrə pozulması nəticəsinə gəlmişdi.

Sorğunun düz həlli üçün bu qərarın əhəmiyyəti nədən ibarət ola bilər?

Konkret işdə Sumqayıt şəhər məhkəməsində prokurorun iştirak etməməsi, Avropa Məhkəməsinin mövqeyinə görə, Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndinin pozulması ola bilər. Lakin bu pozuntu ikinci instansiya məhkəməsi – Sumqayıt Apellyasiya Məhkəməsində aradan qaldırıla bilər. Bunun üçün işin bu mərhələsində prosesdə prokuror iştirak etməlidir. Onun iştirakını təmin etməyin hüquqi mexanizmi birdir – yalnız onun tərəfindən protest verilməsi, başqa prosessual mexanizm mövcud deyildir. O cümlədən, apellyasiya instansiyası məhkəməsi öz təşəbbüsü ilə prokuroru belə işlərdə iştirak etmək üçün dəvət edə bilməz, çünki, müvafiq qanun norması yoxdur. Prokurorun iştirak etmədiyi işdə isə "məhkəmə" tərəflərin bərabər hüquqlar əsasında çəkişməsini təmin edən, yəni Avropa Konvensiyasının 6-cı maddəsinin tələblərinə cavab verən institut ola blməz

Qüvvədə olan qanunvericiliyə əsasən, prokuror özünün başladığı işlərin baxılmasında iştirak edə bilər. Belə xəta növlərinin sayı təxminən 28-dir. İnzibati Xətalar Məcəlləsində (bundan sonra – İXM) cəmi təxminən 452 xəta növü var. Deməli, prokuror onların yalnız 6,2%-nin baxılmasında iştirak edir, qalan işlərdə iştirak etmir, bununla Məcəllədəki xətaların 93,8% üzrə baxılan işlərdə məhkəmə Konvensiyanın 6-cı maddəsinin tələblərinə cavab verən "məhkəmə" olmur.

İXM-nə görə inzibati xətalar haqqında işlərə rayon (şəhər) məhkəmələri ilə yanaşı "yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar (kollegial orqan); "müvafiq icra hakimiyyəti orqanları, Mərkəzi Bank, müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurum (vəzifəli şəxslər)" baxırlar (Maddə 40. İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqanlar (vəzifəli şəxslər)). Konvensiyanın 6-cı maddəsi bu subyektlərin yalnız biri – rayon (şəhər) məhkəməsi tərəfindən təmin edilə bilər. Bununla belə, İXM digər subyektlər tərəfindən baxılan işlər üzrə də "ədalətli məhkəmə araşdırması" hüququnun təmin edilməsi imkanlarını nəzərdə tutan müddəalara malikdir. Məsələn, 126.1-ci maddəyə əsasən, barəsində inzibati xəta haqqında iş üzrə qərar qəbul edilmiş şəxs məhkəməyə şikayət edə bilər. İnzibati xəta haqqında iş üzrə qərara yenidən baxılma qaydasında isə "barəsində qərar çıxarılmış fiziki şəxs, yetkinlik yaşına çatmayanların qanuni nümayəndəsi, hüquqi şəxsin nümayəndəsi, zərər çəkmiş şəxs, müdafiəçi və nümayəndə, həmçinin bu Məcəllənin 43.2-ci maddəsində nəzərdə tutulan vəzifəli şəxs inzibati xəta haqqında iş üzrə qərardan şikayət" verə bilərlər. Bu zaman şikayət (və ya protest) "hakimin qərarından – apellyasiya instansiyası məhkəməsinə; kollegial orqanın qərarından – kollegial orqanın olduğu yerin məhkəməsinə; səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından – yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və ya məhkəməyə" verilir. Nəzərə alınmalıdır ki, Konstitusiya Məhkəməsinin "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 430.1, 430.2.1 və 430.2.3-

cü maddələrinin şərh edilməsinə dair" 15 iyul 2013-cü il tarixli Plenum qərarında dəqiqləşdirilib ki, "Konstitusiyanın 60-cı maddəsinə əsasən hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Bu müddəa məhkəmə müdafiəsinin yalnız birinci instansiya məhkəməsində deyil, həmçinin apellyasiya və kassasiya instansiyası məhkəmələrində də təmin olunmasını nəzərdə tutur. Hər hansı məhkəmə instansiyasına şikayət vermək hüququ məhkəmə müdafiəsi hüququndan irəli gəlir".

Göründüyü kimi, son nəticədə prosesə cəlb edilmiş şəxslər işin məhkəmədə (birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində) baxılmasına nail ola bilərlər. Lakin əsas tələblərdən biri – bu məhkəmə baxışlarında prokurorun mütləq qaydada iştirakının təmin edilməsidir. Yuxarıda qeyd edildiyi kimi, bunun hələlik yeganə hüquqi üsulu məhkəməyə qədərki (o cümlədən apellyasiya məhkəməsinə qədərki) baxış proseslərində iştirak edib-etməməsindən asılı olmayaraq prokurorun müvafiq qərarlardan protest vermək səlahiyyətinin həyata keçirilməsidir. Bu səlahiyyəti həyata keçirmədən şəxslərin Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş "ədalətli məhkəmə araşdırması" hüququnun təmin edilməsi mümkün deyil. Ümid edirəm ki, Konstitusiya Məhkəməsi öz qərarının məzmunu bu imkanı təsbit edən tərzdə olacaq.

Konkret sorğu ilə bağlı işdə hipotetik olaraq qəbul etsək ki, milli məhkəmələr tərəfindən baxışlarda prokuror iştirak etməyib və iş Avropa Məhkəməsi tərəfindən icraata götürülüb. İşə prokurorun iştirakı olmadan baxılmasına Məhkəmə hansı qiyməti verəcək? Heç bir şübhə yoxdur ki, bu qiymət Karelinin işi üzrə nəticədən elə də fərqli olmayacaq.

Qeyd edim ki, Karelin Rusiya Federasiyasına qarşı iş üzrə Avropa Məhkəməsinin qərarı pilot qərardır, yəni bu qərarda qanunvericiliyin sistemli qüsuru müəyyən edilib və cavabdeh dövlətin üzərinə onun aradan qaldırılması öhdəliyi qoyulub. Qərarın "Ümumi tədbirlər" başlıqlı bölməsində (95,96-cı bəndlərdə) göstərilib ki, Məhkəmə "ümumi yurisdiksiya məhkəmə tərəfindən baxılmış inzibati xəta haqqında işdə prokurorun iştirakı olmaması ucbatından Konvensiyanın 6-cı maddəsinin pozulmasını müəyyən edib. 96. Beləliklə, Məhkəmə hesab edir ki, cavabdeh dövlət hər şeydən əvvəl müvafiq hüquqi və digər tədbirlər görməli, özünün hüquq sistemində şifahi dinləmələr keçirilən müvafiq proseslərə ittiham hakimiyyəti orqanının (prokurorluğun və ya digər dövlət orqanının nümayəndəsini daxil etməklə və ya digər uyğun tədbirlərlə belə işlərə baxan məhkəmələrin qərəzsizliyini təmin edə biləcək kafi qarantiya mexanizmi yaratmalıdır".

Avropa Konvensiyasının, Avropa Məhkəməsinin presedent təcrübəsinin milli hüququn mənbələri olmasına dair fikri, düşünürəm, əsaslandırmağa ehtiyac yoxdur. Bircə onu qeyd etməyi vacib bilirəm ki, İXM-nin 1.2-ci maddəsində vurğulanıb ki, "Bu Məcəllə Azərbaycan Respublikasının Konstitusiyasına, hamılıqla qəbul edilmiş beynəlxalq hüququn normalarına və prinsiplərinə əsaslanır". "Hamılıqla qəbul edilmiş beynəlxalq hüququn normalarına və prinsiplərinə əsaslanır" ifadəsinin altından xətt çəkilməlidir.

Diqqətinizə daha bir arqumentə cəlb etmək istəyirəm. Konstitusiya Məhkəməsi Plenumunun "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 332.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 5 mart 2015-ci il tarixli qərarında deyilir ki, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 332.1-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta törədildiyi halda, inzibati xəta haqqında prokurorun qərarı olmadan həmin Məcəllənin 360-cı maddəsinin tələblərinə müvafiq olaraq birbaşa rayon (şəhər) məhkəməsinə şikayət verilə bilməz". Qərar bir xətaya həsr edilsə də, prinsipial bir mövqeni ifadə edir: məhkəmədə belə işlərə baxılması üçün inzibati ittiham mövcud olmalıdır və prokuror belə ittihamın subyektidir. Fikrimizcə, Konstitusiya Məhkəməsi bu mövqeyinin elementlərindən sözügedən müraciətin həll edilməsində istifadə etməlidir.

Normativ hüquqi aktlar "hamı üçün məcburi davranış qaydalarını əks etdirən" sənəddir, orada nəinki konkret işlərin, hətta tipik situasiyaların əlamətlərini əks etdirmək mümkün deyil. Bu, "məhdudiyyət" obyektiv xarakter daşıyır. Hüquq tətbiq etmə qaydasında bu "məhdudiyyət"lər aradan qaldırılır, "boşluqlar" ümumi və ya sahəvi hüquq prinsiplərindən, ideyalarından, ənənələrindən, presedentlərdən istifadə etməklə uyğun məzmunla tamamlanır. Konstitusiya Məhkəməsinin təcrübəsində belə nümunələrə kifayət qədər tez-tez rast gəlmək mümkündür. Nəinki təcrübənin, hətta qanunvericiliyin inkişafı da bunsuz mümkün deyildir. Baxılan müraciətin həllində nəzərə alına biləcək növbəti arqument normativ hüquqi aktlarda birbaşa göstərilməmiş qaydaların müəyyən edilməsi üzrə Konstitusiya Məhkəməsinin tətbiq etdiyi metodologiya ilə bağlıdır. İnzibati xətalar haqqında işlərin aidiyyət məsələləri artıq qüvvədən düşmüş İXM-nin yalnız bir fəslində (26-cı fəsil) tənzimlənirdi. Fəsil "inzibati xətalar haqqında işlərin aidiyyəti" adlansa da, yalnız "baxılma" aidiyyəti məsələlərinə həsr edilmişdi. Hansı xətaya dair işi başlamağa hansı subyektin, o cümlədən prokurorun səlahiyyətli olması Məcəllədə dəqiqləşdirilməmişdi. "İnzibati xəta haqqında iş üzrə icraata başlamaq səlahiyyəti olan vəzifəli şəxs"lərin səlahiyyət bölgüsü müvafiq fərmanla həll edilirdi. Lakin prokurorun səlahiyyətlərinə dair heç bir normativ qayda təsbit edilməmişdi. Bununla belə, Konstitusiya Məhkəməsi "Azərbaycan Respublikası İnzibati Xətalar

Məcəlləsinin 332.1-ci maddəsinin bəzi müddəalarının şərh edilməsinə dair" 5 mart 2015-ci il tarixli Plenum qərarında prokurorun üzərində belə bir prosessual vəzifənin olduğunu müəyyənləşdirdi. Məhkəmə bunu Məcəllənin 410.1-ci maddəsinə istinad etməklə əsaslandırdı, baxmayaraq ki, bu maddədə prokurorun səlahiyyətlərinə dair norma yox idi. Nəticə "istisna metodu" ilə çıxarılıb, yəni əgər xəta üzrə protokol tərtib edilməsi nəzərdə tutulmayıbsa, deməli, prokuror tərəfindən qərar qəbul edilməlidir, üçüncü variant yoxdur (tertium non datur). Qərarda yazılıb: "İXM-in 410.1-ci maddəsində birbaşa qeyd edilir ki, İXM-in 368-ci maddəsi istisna olmaqla, digər hallarda inzibati xətanın törədildiyi halda protokol tərtib edilir. Bu norma ilə inzibati xətalar haqqında qanunvericilik istisna hal kimi prokuror nəzarəti qaydasında prokurora ittiham tərəfi qismində inzibati xətalar haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul etmək səlahiyyətini verir. Belə ki, İXM-in 368.2-ci maddəsinə əsasən prokuror inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərar qəbul etmək, inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək hüququna malikdir".

Burada daha maraqlı məqam ondadır ki, Konstitusiya Məhkəməsi konkret xəta üzrə prokurorun iş başlamaq səlahiyyətlərinin olmasına dair tezisini prokurorun belə səlahiyyətinin "ümumiyyətlə" olması ilə əsaslandırıb. Avropa Məhkəməsi təcrübəsində konkret normanın "məqsədi, mənası və məzmununun aydınlaşdırılması" konstruksiyasından bacarıqla və çox səmərəli istifadə edir. Fikrimcə, Konstitusiya Məhkəməsi də buna oxşar bir yanaşma tətbiq edib. Bunu yalnız alqışlamaq lazımdır, çünki çevik və ağıllı yanaşmasız inkişaf mümkün deyil. Düşünürəm ki, Konstitusiya Məhkəməsi bu metodoloji prinsipini müraciətin həlli zamanı da tətbiq edəcək. Qüvvədə olan İXM-nin 54.3-cü maddəsində prokurorun qərardan və ya qərardaddan protest vermək hüququ onun işdə iştirakından asılı olmaması göstərilməsə də normanın "ruhu" bu qaydanın mövcudluğunu göstərir. Prokurorun "ümumiyyətlə" protest vermək hüququ varsa, bu hüququn onun iştirakı şərti ilə məhdudlaşdırılmayıbsa, deməli, hüquq bütün halları – prokurorun iştirak etdiyi və etmədiyi konkret halları ehtiva edir.

Yeri gəlmişkən, İXM-də təcrübədə tətbiq edilən bir çox qaydalara, prinsiplərə dair müddəalar nəzərdə tutulmayıb. Məsələn, bu Məcəllədə inzibati xətalar haqqında işlərin baxılmasında tərəflərin iştirakı, çəkişməsi, "ittiham hakimiyyəti", "inzibati xətaya dair ittiham" kimi məsələlərə dair heç bir müddəa yoxdur. Baxmayaraq ki, bunlar artıq təcrübədə, o cümlədən KM-nin təcrübəsində işlənir.

Nəzərə almaq lazımdır ki, bəzi ölkələrin qanunvericiliyində bu və ya digər normalarda yuridik faktların dairəsi bir qədər geniş, başqalarında bir qədər dar görünə bilər. Bu, ölkənin hüquq ənənələri, təcrübəsi, mədəniyyəti ilə bağlı olan məsələdir. Məsələn, Rusiya Federasiyasının İnzibati Hüquqpozmalar Məcəlləsinin 25.11-ci maddəsinin 1-ci hissəsinin 3-cü bəndində təsbit edilib ki, prokurorun qeyd edilən işlər üzrə qərarlardan və qərardadlardan protest vermək hüququ onun iştirak etməsindən asılı deyildir.

Mənə qədər çıxış edən həmkarlar narahatlıqlarını ifadə etdilər ki, prokurora iştirak etmədiyi işdə protest vermək səlahiyyəti prokurorluğun yaxın keçmişində mövcud olmuş "prokurorun məhkəmələr üzərində nəzarəti"ni bərpa edəcək. Bunun yanlış fikir olmasına əmin olmaq üçün bu səlahiyyətlərin məzmumuna diqqət yetirmək lazımdır. Onlar mahiyyətcə fərqli prosessual institutlardır. Prosesdə iştirak etməyən şəxsin protest vermək səlahiyyətinin olması milli qanunvericilik üçün xarakterikdir. Məsələn, Məsələn, CPM (383.2, 409.9, 422.2-ci maddələr) Baş prokurora və ya onun müavininə, habelə Naxçıvan MR prokuroruna baxılmasında iştirak etmədiyi işlər üzrə apellyasiya, kassasiya protestləri vermək səlahiyyətləri təsbit edib. Məhkəmə təcrübəsi göstərir ki, bu qanunvericilik özlüyündə, eləcə də onun tətbiqi hüquq və ədalət prinsiplərinə zidd deyil. Bunu təsdiqləyən məhkəmə qərarı yoxdur. Və heç kim bu səlahiyyətləri "prokurorun məhkəmə üzərində nəzarəti"nin təzahürü hesab etmir. İndiyə kimi, Azərbaycana qarşı Avropa Məhkəməsində təxminən 376 işə baxılıb, onların heç birində belə dəyərləndirmə mövcud deyildir. Ola bilər ki, belə müraciətlər olmayıb. Lakin Rusiya Federasiyasına qarşı Avropa Məhkəməsi buna oxşar ərizələrə baxıb və həmin işlər üzrə qərarlarda da qeyd edilən səlahiyyət "prokurorun məhkəmə üzərində nəzarəti" kimi dəyərləndirilməyib. Avropa Məhkəməsi faktlara tamamilə başqa prizmadan – məhkəmə qərarlarının qətiliyi (res judicata), qanunların müəyyənliyi və s. meyarlar baxımından qiymət verib.

Çıxışıma yekun vuraraq, ümid edirəm ki, Konstitusiya Məhkəməsi İXM-nin 54.3-cü maddəsində prokurorun qərar və qərardaddan protest vermək hüququnun onun iştirakı ilə bağlı olmamasını təsbit edəcək, eyni zamanda Milli Məclisə qanunvericiliyə Karelin işindəki "Ümumi tədbirlər"in məzmununa uyğun dəyişikliklər edilməsi barədə tövsiyə göndərəcək. Parlament, çox güman ki, gec-tez bu məsələnin üstünə gələcək, lakin biz istərdik ki, Konstitusiya Məhkəməsi öz nüfuzu ilə bu prosesi tezləşdirsin.

Diqqətə görə çox sağ olun.

# Cinayətdə iştirakçılığın tövsifinin bəzi məsələləri

İştirakçılıqla törədilən cinayətlər üzrə cinayətin iştirakçılarının cinayətin icraçısına, təşkilatçısına, təhrikçisinə və ya köməkçisinə aid edilməsində yol verilən səhvlərin əhəmiyyətli hissəsi elementar tövsif qaydalarına əməl edilməməsi ilə bağlıdır. .

Cinayətin iştirakçılarının cinayətin törədilməsində rollarının düzgün müəyyən edilməsi onların əməllərinin düzgün tövsif edilməsini və onlara ədalətli cəzalar təyin edilməsini təmin edir.

Təcrübədə şəxsin əməlinin icraçı və ya cinayətin digər iştirakçısı kimi qiymətləndirilməsində mübahisə doğuran məsələlərdən biri birgə icraçılıqdır. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (bundan sonra – CM-nin) 32.1-ci maddəsinə əsasən cinayətin icraçısı ilə birlikdə, təşkilatçısı, təhrikçisi və köməkçisi cinayətin iştirakçıları sayılırlar. CM-nin 32.2-ci maddəsinə əsasən cinayəti bilavasitə törətmiş və ya başqa şəxslərlə birlikdə onun törədilməsində bilavasitə iştirak etmiş şəxs (birgə icraçılıq), eləcə də bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərdən istifadə etməklə cinayəti törətmiş şəxs icraçı hesab edilir.

Göründüyü kimi, cinayətin icraçısı dedikdə, cinayət qanunvericiliyində nəzərdə tutulmuş cinayət əməlinin obyektiv cəhətinə daxil olan hər hansı hərəkəti (hərəkətsizliyi) etmiş şəxs başa düşülür. Burada istisna, yalnız cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərdən istifadə edilməsi halları təşkil edir. Həmin hallarda şəxs cinayət əməlinin obyektiv cəhətinə daxil olan əməli bilavasitə törətməsə belə, cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərdən cinayətin törədilməsində vasitə kimi istifadə etdiyi üçün cinayətin icraçısı kimi qiymətləndirilməlidir.

Cinayətkar qəsdin icrasının obyektiv cəhəti CM-nin xüsusi hissəsində nəzərdə tutulmuş əməlin tam və ya qismən törədilməsini nəzərdə tutur. Bununla əlaqədar nəzərə alınmalıdır ki, icra prosesi müəyyən obyektiv sərhədlərə malikdir və bu sərhədlər əməlin normativ-hüquqi xarakteristikası ilə müəyyən edilir. Buna görə də hərəkətlərin icraçılıq, o cümlədən birgə icraçılıq kimi tövsif edildiyi hər bir halda şəxsin faktiki hərəkətləri ilə cinayət əməlinin cinayət qanununda nəzərdə tutulmuş obyektiv cəhətinin əlamətləri müqayisə olunmalıdır.

### *Cinayətin iştirakçılarının bilavasitə hadisə yerində olması halları zamanı onların əməllərinin tövsifi məsələləri*

Bir çox hallarda cinayət törədilən anda hadisə yerində olsa da, cinayətin obyektiv cəhətinə daxil olan hər hansı hərəkəti etməmiş, cinayətin törədilməsində rolu təşkilatçı, təhrikçi və ya köməkçilikdən ibarət olan şəxslər də cinayətin birgə icraçısı kimi cinayət məsuliyyətinə cəlb edilirlər. Məsələn, Ş. və onun yetkinlik yaşına çatmamış oğlu Ə. tərəfindən sonuncunun atası, Ş.-nin əri F.-nin öldürülməsi barədə prokurorluqda aparılmış cinayət işi üzrə müəyyən edilmişdir ki, Ş. oğlu Ə.-ni alkoqollu içkilər qəbul edərək ailə üzvlərini incidən, onları özü üçün spirtli içkilər almağa təhrik edən atası F-ni öldürməyə təhrik etmiş, bu məqsədlə ona atasını öldürərsə, daha yaxşı yaşayacaqları barədə vədlər vermişdir. Ş. oğluna həyat yoldaşını öldürtdürüb evlərinin həyətində basdırmaq və qonşulara və qohumlara guya onun işləmək üçün Rusiya Federasiyasına getdiyini demək barədə plan hazırlamış və bu barədə oğluna bildirməklə meyiti basdırmaqda ona kömək edəcəyinə söz vermişdir. 25.01.2014-cü il tarixdə o, oğluna atasını yatarkən bıçaqla zərbələr vurmaqla öldürməyi təklif etmiş, lakin oğlu atasının yuxudan oyanaraq müqavimət göstərə biləcəyinə görə həmin vaxt cinayəti bıçaqla törətməkdən imtina etmişdir. 26.01.2014-cü il tarixdə günorta radələrində F. ovdan qayıdıb ov tüfəngini aynabəndin divarına söykəyərək yatdığı zaman Ş. oğlu Ə-ni küçədən çağıraraq yatmış vəziyyətdə olan F-ni həmin tüfənglə atəş açıb öldürməsini bildirmiş, sonuncu da silahdan atasına bir dəfə atəş açmaqla öldürmüş, daha sonra isə onlar F.-

nin meyitini evlərinin həyətində olan ayaqyolunda basdırmışlar. Göründüyü kimi, cinayətin icraçısı Ə. olmuş, Ş. həmin vaxt hadisə yerində olsa da, cinayətin obyektiv cəhətinin icra edilməsində iştirak etməmiş, cinayətin törədilməsini yalnız istiqamətləndirmişdir. Buna baxmayaraq istintaq orqanı tərəfindən Ş. və Ə.-nin əməlləri birgə icraçılıq kimi qiymətləndirilmişdir.

CM-nin 33.4-cü maddəsinə əsasən isə bu Məcəllənin xüsusi hissəsinin müvafiq maddəsi ilə cinayətin xüsusi subyekti olmayan və həmin maddə ilə nəzərdə tutulmuş cinayətin törədilməsində iştirak edən şəxs, həmin cinayətə görə onun təşkilatçısı, təhrikçisi və köməkçisi qismində məsuliyyətə cəlb edilir. Qanunun bu müddəası icraçının yalnız xüsusi subyekt ola biləcəyi hallara şamil edilir. Xüsusi subyekt tərəfindən cinayətin ümumi subyektindən fiziki icraçı kimi istifadə edilməsi bilavasitə icra hesab edilir və bu halda xüsusi subyekt CM-nin 32.2-ci maddəsinin müddəalarına müvafiq olaraq (cinayət məsuliyyətinə cəlb edilə bilməyən şəxslərdən istifadə etməklə cinayəti törətmiş şəxs icraçı sayılır) cinayətin icraçısı kimi çıxış edəcəkdir, digər icraçılar isə təşkilatçı, təhrikçi və ya köməkçi qismində cinayət məsuliyyətinə cəlb edilməlidirlər.

### *Cinayətdə iştirakçının hərəkətlərində eyni zamanda təşkilatçılıq, təhrikçilik və ya köməkçilik əlamətlərinin olması*

İştirakçılıqla törədilən cinayətlər zamanı elə hallar ola bilər ki, şəxsin əməlində həm təşkilatçılıq, həm təhrikçilik, həm də köməkçilik elementləri olsun. Bu halda şəxsin təşkilatçı, təhrikçi və ya köməkçi hesab edilməsində fikir ayrılıqları yarana bilər. Belə halda şəxsin statusunun düzgün müəyyən edilməsi təşkilatçılıq, təhrikçilik və köməkçilik elementlərinin düzgün şərh edilməsini tələb edir.

CM-nin 32.3-cü maddəsinə əsasən cinayətin törədilməsini təşkil etmiş və ya həmin cinayətin törədilməsinə rəhbərlik etmiş, eləcə də mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) yaratmış və ya bunlara rəhbərlik etmiş şəxs **cinayətin təşkilatçısı** sayılır.

Cinayətin təşkilatçısı kriminoloji baxımdan cinayətin iştirakçıları arasında ən təhlükəli fiqurdur və o cinayət həlqəsinin başında dayanır. Təşkilatçının əməlinin obyektiv cəhəti aşağıdakılarda ifadə olunur:[1]

1. *Cinayətin təşkili ilə əlaqədar:* cinayətin iştirakçılarının seçilməsi və hazırlanması, onlara müvafiq alət və vasitələrin verilməsi, cinayətin törədilmə planının hazırlanması, cinayətin ayrı-ayrı iştirakçılarının fəaliyyətinin vahid məqsədə nail olmaq naminə istiqamətləndirilməsi;

2. *Cinayətin törədilməsinə rəhbərlik olunması ilə əlaqədar:* iştirakçıların funksional vəzifələrinin müəyyən edilməsi, onların cinayət əməlinin törədilməsi ilə əlaqədar müəyyən yerlərdə yerləşdirilməsi, təlimatlandırılması, bilavasitə cinayətin törədilməsi prosesində cinayət iştirakçılarının fəaliyyətinin istiqamətləndirilməsi;

3. *Mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) yaratma və ya ona rəhbərlik etmə ilə əlaqədar:* iştirakçılar arasında əlaqə vasitələrinin, formalarının, onların fəaliyyət metodlarının işlənib hazırlanması, dəstə və ya təşkilat üzvlərinin gələcək cinayətkar fəaliyyətinin məqsədləri ilə tanış edilməsi, rolların bölgüsü və s.

Yuxarıda qeyd edilənlərdən göründüyü kimi, təşkilatçının hərəkətlərinin obyektiv cəhətinin anlayışı onu ifadə edir ki, o, rəhbər olaraq digər iştirakçıların səylərini birləşdirir və effektiv cinayətkar nəticəyə nail olmaq üçün onların birgə fəaliyyətini istiqamətləndirir. Bu halda onun fəaliyyətinin bütün mərhələlərini cəmləşdirməyə ehtiyac yoxdur. Onlardan biri kifayətdir ki, şəxsin əməlləri cinayətin təşkilatçısı kimi tövsif olunsun. Təşkilatçı bəzi hallarda təhrikçinin, köməkçinin funksiyalarını da həyata keçirə bilər. Məsələn, planlaşdırdığı cinayətin icrası üçün iştirakçıları seçərkən o, ələ alma və ya digər yolla şəxsləri cinayət törətməyə sövq etmiş olur, daha sonra, cinayətin icrasını həyata keçirmək üçün onlara hər hansı alət və ya vasitələr, habelə göstərişlər də verə bilər. Belə hallarda təşkilatçı həm də köməkçiyə aid əlamətlərə də malik olur. Bu zaman şəxsin əməlinin təşkilatçı kimi qiymətləndirilməsi üçün meyar qismində onun cinayətin nəticələri baş verənədək aktiv fəaliyyətini davam

[1] Azərbaycan Respublikası Cinayət Məcəlləsinin Kommentariyası/hüquq elmləri doktoru, prof. F.Səməndərovun redaktəsi ilə. “Digesta” nəşriyyatı, Bakı, 2011-ci il, səh. 72.

etdirməsi çıxış edir. Təhrikçinin cinayət törədilməsində rolu isə hər hansı şəxsi cinayət törətməyə sövq edilməsi ilə məhdudlaşır. Bundan fərqli olaraq təşkilatçı cinayətkar nəticəyə nail olmaq üçün əvvəldən axıradək hər şeyi təşkil etməlidir.

Bəzi hallarda təşkilatçı yalnız cinayətin törədilməsini təşkil etməklə kifayətlənmir, eyni zamanda cinayətin obyektiv cəhətinə daxil olan hərəkətlərin edilməsində aktiv iştirak edir, yəni cinayətin birgə icraçısı kimi çıxış edir. Bəzi nəzəriyyəçilər hesab edirlər ki, təşkilatçı daha təhlükəli fiqur olduğundan, onun cinayətin törədilməsində rolunun vurğulanması məqsədilə əməl həm də CM-nin 32-ci maddəsinə istinad edilməklə tövsif edilməlidir[2]. Digərləri hesab edir ki, bu halda CM-nin 32-ci maddəsinə istinad edilməsinə ehtiyac yoxdur[3] və şəxsin əməli *birgə icraçılıq* kimi tövsif edilməlidir. Bu mövqe, cinayət qanununun mövqeyinə uyğun olsa da, cinayət qanunu da, cinayətin hər bir iştirakçısının cinayətin törədilməsində iştirakının dərəcəsinin və xarakterinin, habelə cinayətin törədilməsində fəallıq səviyyəsinin müəyyən edilməsini tələb edir. Yəni, şəxsin birgə icraçı ilə yanaşı həm də cinayətin təşkilatçısı olması təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarda, ittiham aktında və məhkəmə hökmündə qeyd edilməlidir.

Təcrübədə cinayətin təşkilatçısının, yəni cinayətin obyektiv cəhətinin icra edilməsində bilavasitə iştirak etməyən şəxslərin əməlinin *birgə icraçılıq* kimi qiymətləndirilməsi hallarına rast gəlinir. Məsələn, xanım M.-in yaşadığı mənzildə çoxsaylı bıçaq xəsarətləri yetirilməklə öldürülməsinə dair cinayət işi üzrə müəyyən edilmişdir ki, M.-nin qızı G. anasının var-dövlətini ələ keçirmək məqsədilə onun öldürülməsini təşkil etmişdir. Bu məqsədlə cinayətin icraçısını tapmaq üçün yetkinlik yaşına çatmayan xalası oğlu N.-ə müraciət etmiş, sonuncu onu C. ilə tanış etmiş və C. müəyyən pul müqabilində M.-i öldürməyə razı olmuşdur. 05.01.2015-ci il tarixdə saat 07 radələrində G. C.-ni gizlicə öz mənzillərinə buraxmış, sonra özü çıxıb oradan getmiş, bundan sonra C. planlaşdırılmış cinayəti icra edərək M.-ni öldürmüşdür.

Qeyd olunan iş üzrə G. anası M.-in qəsdən öldürülməsində bilavasitə iştirak etməmiş, onun rolu cinayətin təşkil edilməsindən ibarət olmuşdur. Anasını öldürmək planının həyata keçirilməsi üçün o, xalası oğlunu cinayətkar fəaliyyətə cəlb edərək onun vasitəsilə cinayəti icra edə biləcək şəxsi tapmış, onu pulla ələ alaraq cinayəti törətmək üçün *sövq etmiş,* bu məqsədlə cinayətin planını hazırlamış, həmin planın həyata keçirilməsi üçün hətta maneələri aradan qaldırmaq, cinayətin törədilməsinə kömək etməklə köməkçi funksiyalarını da icra etmiş və cinayətkar nəticəyə nail olunması üçün planın həyata keçirilməsinə sonadək *rəhbərlik* etmişdir. Göründüyü kimi, G.-nin əməlləri cinayətin *təşkil olunmasına* dair klassik nümunədir. Buna baxmayaraq, G.-nin əməli istintaq orqanı tərəfindən *birgə icraçılıq* kimi qiymətləndirilmişdir.

## *İcraçını, təhrikçini və köməkçini fərqləndirən əlamətlər*

CM-nin 32.4-cü maddəsinə əsasən ələ alma, sövdələşmə, hədə-qorxu gəlmə və ya digər üsullarla başqa şəxsi cinayət törətməyə sövq edən şəxs **təhrikçi** sayılır. Təhrikçiliyin obyektiv cəhətini başqa şəxsdə cinayətin tamamilə və ya qismən həyata keçirilməsinə qətiyyət yaratmış aktiv hərəkətlər təşkil edir. Cinayəti törətməyə istiqamətləndirmənin CM-nin 32.4-cü maddəsində göstərilmiş üsulları tam deyil və təhrikçiliyin başqa üsulları da mövcud ola bilər. Bunlara həsəd, qisas, qısqanclıq hissi yaratma, əmr vermə, fiziki zorakılıq, xidməti vəziyyətdən sui-istifadə və s. digər üsullar aid ola bilər.

Şəxsin əməlinin təhrikçilik kimi qiymətləndirilməsi zamanı nəzərə alınmalıdır ki, təhrikçi başqa şəxsi cinayəti törətməyə sövq edərkən onun iradəsinə sahib olmur, yalnız onda cinayətin törədilməsinə qətiyyət yaradır. Nəticədə təhrik olunan müstəqil qərar qəbul edir. Əgər təhrikçi şəxsin iradəsini sındırır və onun səhvindən və ya psixofizioloji xüsusiyyətlərindən istifadə edirsə, bu halda, o cinayətin təhrikçisi yox, **icraçısı** hesab olunmalıdır.

Yalnız konkret cinayət əməlinin törədilməsinə sövq etmə təhrikçilik hesab edilir. İcraçını konkret

[2] Cinayət hüququ. Ümumi hissə. F.Səməndərov. Bakı 2007. səh. 367

[3] Полный курс уголовного права: В 5 т. /под ред. докт. Юрид. Наук, заслуженного деятеля науки проф. А.И.Коробеева Изд-во Р.Асланова «Юридический центр Пресс, 2008. Cild 1 səh. 585.

cinayət əməlinin törədilməsinə təhrik etdikdən sonra təhrikçi bu əməlin törədilməsində iştirak etmir. Onun hərəkətləri icraçıda cinayətin törədilməsi üçün formalaşmış qətiyyətin möhkəmləndiyi və onun qarşıya qoyulan məqsədin icrasına hazır olduğu vaxtdan başa çatır. Bu da, təhrikçiliyi digər iştirak növlərindən fərqləndirir. Əgər təhrikçi bundan sonra da öz hərəkətlərini davam etdirərək ictimai təhlükəli əməlin obyektiv cəhətinin icrasında iştirak edirsə, onun əməli birgə icraçılıq kimi tövsif olunmalıdır.

Təhrikçilik yalnız aktiv hərəkətlərlə edilə bilər. Cinayətin qarşısını almağa borclu olan şəxs tərəfindən baş verən cinayətin passiv müşahidə olunması, fəaliyyətsizlik köməkçiliyə aiddir. Köməkçiliyin əlamətlərindən olan cinayətin izlərini, yaxud cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini və ya digər əmlakı gizlətməyi, belə pul vəsaitlərini və ya digər əmlakı əldə etməyi, onlara sahiblik və ya onlardan istifadə etməyi, yaxud sərəncam verməyi qabaqcadan vəd etmə zahiri cəhətdən təhrikçiliyin vəd vermə üsuluna bənzəsə də, burada nəzərə alınmalıdır ki, köməkçilik zamanı belə vədlər artıq cinayəti törətmək qətiyyəti yaranmış və niyyətini həyata keçirməyə hazır olan şəxsə verilir və cinayətin törədilməsini yüngülləşdirmək məqsədi daşıyır. ***Əgər şəxs cinayəti törətmək niyyətində olmayan şəxsə onu cinayətə sövq etmək məqsədilə belə vədlər verirsə, burada köməkçilik yox, təhrikçilik yaranır.*** Köməkçi icraçıda cinayətin törədilməsi niyyətinin yaranması prosesində iştirak etmir, o, yalnız cinayətin həyata keçirilməsi prosesinin yüngülləşdirilməsinə kömək edir.

### *İcraçının ekstsessinin tövsif zamanı əhəmiyyəti*

İştirakçıların məsuliyyətinin müəyyən edilməsi ilə bağlı təcrübədə rast gəlinən problemlərdən biri də icraçının ekstsessi məsələsidir. CM-nin 35.1-ci maddəsinə əsasən icraçı tərəfindən razılaşdırılmış ümumi niyyətdən kənara çıxmaqla, yəni cinayətin digər iştirakçılarının qəsdi ilə əhatə olunmayan başqa cinayətin törədilməsi, icraçının ekstsessi hesab edilir. CM-nin 35.2-ci maddəsinə əsasən icraçının ekstsessinə görə cinayətin digər iştirakçıları cinayət məsuliyyətinə cəlb edilə bilməzlər.

A.q. və A.k.-nın yaşadıqları evdə öldürülmələri faktına görə başlanmış cinayət işi üzrə müəyyən edilmişdir ki, P. bacanağı Ə. və onun tanışı N.-ə A.q.-nin evinə quldurluqla bağlı basqın etməyi təklif etmiş, sonuncular bununla razılaşdıqda P. evin yerini və evə qonşunun həyətindən rahat daxil olma yolunu onlara göstərmiş, onlar evə basqın məqsədi ilə naşatır spirti, pambıq kimi vasitələr almış, tanınmamaları üçün papaqdan maskalar düzəltmiş və 01.03.2015-ci il tarixdə evə basqın etmişlər. Aralarında olan vəzifə bölgüsünə əsasən həmin vaxt P. evin yaxınlığında olan mağazanın gözətçisini danışdırmaqla onun diqqətini yayındırmış, Ə. və N. isə mənzilə daxil olmuş, bu zaman ev sahibi A.q. və onun arvadı A.k. oyanaraq onlara müqavimət göstərərkən, Ə. və N. onların hər ikisini öldürmüşlər. İstintaq orqanı Ə., N. və P.-nin əməllərini *birgə icraçılıq* kimi qiymətləndirərək onlara CM-nin 120.2.1, 120.2.4, 120.2.7, 120.2.9, 120.2.11, 181.3.2, 181.3.3-cü maddələri ilə ittiham elan etmişdir.

İcraat materiallarından isə görünür ki, P., Ə. və N. ev sahiblərinin öldürülməsini planlaşdırmamışlar. P. *quldurluq* cinayətinin təşkilatçısı qismində çıxış etmiş, o, quldurluğun törədilməsini planlaşdırıb bunun üçün iştirakçılar seçmiş, basqın ediləcək evi onlara göstərmiş, evə daxil olmaq üçün asan yolu müəyyən edib qrupun üzvlərini təlimatlandırmış və özünə də bu planda gözətçinin diqqətini yayındırmaq kimi vəzifə müəyyən etmişdir. Cinayətin obyektiv cəhətini, basqını isə bilavasitə Ə. və N. həyata keçirmişlər. Bu zaman onlar ümumi niyyətdən kənara çıxaraq ev sahiblərini öldürmüşlər. Bu əsasa görə də məhkəmə tərəfindən P.-ə CM-nin 120.2.1, 120.2.4, 120.2.7, 120.2.9, 120.2.11-ci maddələri ilə haqlı olaraq bəraət verilmiş və o, yalnız CM-nin 181.3.2, 181.3.3-cü maddələri ilə təqsirli bilinmişdir.

Göründüyü kimi, istintaq orqanı tərəfindən cinayətin faktiki halları düzgün müəyyən edilsə də, cinayətin iştirakçılarının rolları düzgün qiymətləndirilməmiş, nəticədə onların əməlləri düzgün tövsif olunmamışdır.

**Rəhman Əhmədov,**
*Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, Cinayət hüququ, cinayət prosesi və kriminologiya kafedrasının müəllimi-prokuroru, kiçik ədliyyə müşaviri*

# Baş Prokurorluqda Azərbaycanın dövlət müstəqilliyinin iyirmi beşinci ildönümünə həsr olunmuş konfrans keçirilmişdir



Noyabrın 18-də Baş Prokurorluqda Azərbaycan Respublikasının dövlət müstəqilliyinin iyirmi beşinci ildönümünə həsr olunmuş "Müstəqillik dövründə Azərbaycan Prokurorluğunun inkişafı" mövzusunda konfrans keçirilmişdir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında" imzaladığı 11 oktyabr 2016-cı il tarixli Sərəncamın icrası məqsədilə Baş Prokurorluq üzrə təsdiq olunmuş Tədbirlər Planına uyğun təşkil olunmuş tədbirdə Prezident Administrasiyasının, Milli Məclisin, Ədliyyə Nazirliyinin, Ali Məhkəmənin, qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etmişlər.

Konfransı giriş sözü ilə açan Baş prokurorun müavini Namiq Əsgərov dövlət müstəqilliyinin əldə edilməsinin Azərbaycan xalqının ən böyük sərvəti olduğunu bildirmiş və müstəqilliyin hər bir Azərbaycan vətəndaşı üçün müstəsna əhəmiyyət daşıyan ictimai-siyasi hadisə olduğunu qeyd etmişdir. Bildirilmişdir ki, 1993-cü ildə müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə dövlətçiliyin məhv olmaq təhlükəsi aradan qalxmış, ümummilli liderimizin rəhbərliyi altında müstəqil dövlət quruculuğu istiqamətində məqsədyönlü gərgin və ardıcıl işlər görülmüşdür. Azərbaycan Respublikasının müstəqil, demokratik, hüquqi, dünyəvi, qanunun aliliyinə və vətəndaş cəmiyyətinə əsaslanan dövlətə çevrilməsi məqsədilə milli dövlət quruculuğu prosesinin həyata keçirilməsi üçün zəruri işlər görülmüş, ölkə həyatının bütün sahələrini əhatə edən köklü islahatlara başlanılmışdır.

Xüsusi vurğulanmışdır ki, ötən illər ərzində, o cümlədən 2000-ci il aprelin 26-da ümummilli lider



Heydər Əliyevin rəhbərliyi ilə Baş Prokurorluqda keçirilən müşavirədən sonra həyata keçirilən məhkəmə-hüquq islahatları nəticəsində prokurorluğun səmərəli fəaliyyəti üçün qanunvericilik və normativ hüquqi baza yaradılmışdır. Prokurorluğun strukturunun təkmilləşdirilməsi, fəaliyyətində müasir informasiya texnologiyalarının tətbiqi, vətəndaşların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi, kadr korpusunun formalaşdırılmasında beynəlxalq standartlara uyğun yeni prosedurlardan geniş istifadə olunması, işə qəbulun müsabiqə yolu ilə və şəffaflıq əsasında həyata keçirilməsi, məhkəmələrdə dövlət ittihamının müdafiəsi işinin yenidən təşkili, istintaq işinin səmərəliliyinin artırılması, beynəlxalq əlaqələrin dairəsinin genişləndirilməsi, nüfuzlu beynəlxalq təşkilatlar və dünya ölkələrinin prokurorluqları ilə əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi, işdə mövcud olmuş neqativ təzahür və çatışmazlıqların aradan qaldırılması təmin edilmiş, prokurorluq orqanlarının ittiham mövqeyində dayanan təsisatdan əsas məqsədi insan hüquq və azadlıqlarının təmin edilməsi olan orqana çevrilmişdir.

Baş prokurorun müavini müstəqillik illərində prokurorluq orqanlarının müasir dövrün yüksək tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsində Prezident cənab İlham Əliyevin 2008-ci il 27 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı”nın xüsusi əhəmiyyətə malik olduğunu qeyd etmişdir. Bildirilmişdir ki, Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyan dövlət proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün hərtərəfli zəmin yaradılmışdır.

Tədbirdə Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov, Müraciətlərə baxılması idarəsinin rəis müavini Aynur Osmanova, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilari və informasiya təminatı idarəsinin rəisi Orxan İsayev çıxış edərək müstəqillik illərində prokurorluq orqanlarında həyata keçirilmiş tədbirlər, prokurorluğun fəaliyyətinin konkret sahələri üzrə məlumatlar vermişlər.

Konfransda Baş Prokurorluğun nəfis şəkildə hazırladığı “Müstəqil dövlətin müasir prokurorluğu” adlı kitabın təqdimatı olmuş, Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin rəisi Natiq Hüseynov özündə prokurorluq orqanlarının fəaliyyətinin bütün istiqamətlərinə və sahələrinə dair geniş informasiyaları əks etdirən kitab barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri çıxış edərək ölkəmizin dövlət müstəqilliyi illərində əldə etdiyi nailiyyətlərdən, o cümlədən bu illər ərzində prokurorluq orqanlarında həyata keçirilən islahatlardan danışmışlar.

**Baş Prokurorluğun**
**Təşkilat-analitik idarəsi**

# Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 25 illiyi münasibətilə dəyirmi masa keçirilmişdir

Noyabrın 12-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsinin 25 illiyi münasibətilə dəyirmi masa keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan Elm-Tədris Mərkəzinin rəisi Nazir Bayramov Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 11 oktyabr 2378 nömrəli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü ilə bağlı Tədbirlər Planı"nın icrası ilə əlaqədar Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Prokurorluq üzrə 18 oktyabr 2016-cı il tarixli Tədbirlər Planının təsdiq edildiyini toplantı iştrakçılarının diqqətinə çatdırdı.

Bildirildi ki, hər il 18 oktyabrda qeyd edilən Azərbaycanın Dövlət Müstəqilliyi günü – Azərbaycan tarixinin ən mühüm günlərindən biridir. XX əsrin sonlarında SSRİ-nin dağılması ilə yaranan tarixi şərait nəticəsində Azərbaycan dövlət müstəqilliyini bərpa etmişdir. 1991-ci il oktyabrın 8-də Azərbaycan Ali Sovetinin işə başlanan növbədənkənar sessiyası oktyabrın 18-də tarixi sənəd - Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edilmişdir. Konstitusiya Aktında göstərilib ki, müstəqil Azərbaycan dövləti 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisidir. Bu yolda daha bir vacib hüquqi addım 1991-ci il dekabrın 29-da keçirilmiş ümumxalq referendumu olmuşdur. Əhalinin 95%-i səsvermədə iştirak edərək ölkənin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs verdi. Azərbaycanın müstəqilliyi bərpa olunandan sonra dövlət bayrağı, himni və gerbi haqqında da qanunlar qəbul edildi. Azərbaycan Xalq Cümhuriyyəti və ya Azərbaycan Demokratik Respublikası türk və islam dünyasında ilk parlament respublikası, demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi olmuşdur. Məlum olduğu kimi, ADR 27 may 1918-ci ildə Tiflis şəhərində Azərbaycan Milli Şurası tərəfindən bəyan edilmişdir.

Vurğulandı ki, elan etməklə müstəqillik əldə edilmir, bu bir formadır, əsl müstəqillik onun mahiyyətini, məzmununu təşkil edən elementləri yaratmaqdır. Bunu isə ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı, prezident İlham Əliyev etmişlər. Özü də bu işlərin təməlini Heydər Əliyev hələ sovet dönəmində, SSRİ-nin təhlükəsizlik, partiya və dövlət orqanlarında işləyərkən qoymuş, xalqımızın dövlətçilik ənənələrinin yaşaması, inkişaf etdirilməsi üçün şəxsi nüfuzu və xarizması hesabına əldə etdiyi geniş imkanlardan məharətlə istifadə etmişdir. Bu gün Azərbaycan yerləşdiyi bölgədə baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir ölkəyə çevrilmişdir.

Tədbirdə Elm-Tədris Mərkəzinin rəis müavini Günay Əyyubova "Müstəqillik dövründə Azərbaycanın elmi və təhsili" mövzusunda çıxış edərək məlumat verdi ki, müasir dövrdə hər bir dövlətin, xalqın gələcəyi və inkişaf səviyyəsi onun malik olduğu elmin potensialından asılıdır. Danılmaz faktdır ki, Azərbaycan elmi XXI əsrdə böyük inkişaf yolu keçib. Ölkəmizin beynəlxalq aləmdə söz sahibi olmasını əsas istiqamət seçən ümummilli lider Heydər Əliyev təhsil islahatlarının aparılmasının önəmini daim vurğulayıb, hər bir cəmiyyətin inkişafının elm və təhsildən asılı olduğunu qeyd edib. Dövlət müstəqilliyimizin bərpasından sonra bu sahəyə olan xüsusi diqqət və qayğı müvafiq istiqamətdə müsbət nəticələr əldə etməyə imkan verib. Belə ki, ulu öndərin təhsil və elm sahəsində apardığı məqsədyönlü siyasət artıq ölkəmizdə bəhrəsini verməkdədir. Elm və təhsil cəmiyyətin xüsusi intellektual cəhətini əks etdirən sahələrdir. Hazırda müdrik rəhbər Heydər Əliyevin bu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan Respublikasında elm və təhsil haqqında müvafiq qanunvericilik bazasının formalaşdırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər ölkəmizdə elmi fəaliyyətin düzgün təşkilinə və istiqamətləndirilməsinə, dünya təcrübəsi ilə məqsədyönlü şəkildə əlaqələndirilməsinə geniş imkanlar açır.

Bu sahədə 24 oktyabr 2013-cü il tarixli 13 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq olunduğu, "Təhsil haqqında", "Elm haqqında"

Azərbaycan Respublikası qanunlarının və digər normativ aktların qəbul edildiyi, onların əhatə etdiyi starteji istiqamətləri, əhəmiyyəti barədə danışıldı.

Növbəti məruzəçi Elm-Tədris Mərkəzinin prokuroru Akif Rzayev “Azərbaycan Prokurorluğu müstəqillik illərində” mövzusunda çıxış edərək Azərbaycan Prokurorluğunun son 25 il ərzində keçdiyi yol, əldə etdiyi uğurlar və qazandığı nailiyyətlər barədə məlumat verdi. Bildirildi ki, 2000-ci ilin aprel ayında Zakir Qaralov Azərbaycan Respublikasının Baş prokuroru təyin edildikdən sonra Azərbaycan Prokurorluğunda hərtərəfli və bütün sahələri əhatə edən islahatlar aparılmaqla fəaliyyətimiz üçün zəruri normativ-hüquqi bazanın yaradılması, "Prokurorluq haqqında" qanunda nəzərdə tutulmuş istiqamətlər üzrə işin səmərəli təşkili, yüksək tələblər səviyyəsində işləmək bacarığı olan kadr korpusunun formalaşdırılması, bütün mənfi hallara, vəzifədən sui-istifadə, istintaq zamanı ədalətsiz qərarların qəbul edilməsi, qanunsuz yoxlamaların keçirilməsinə qarşı prinsipial və qətiyyətli mübarizə aparılmaqla ciddi nəzarət mexanizminin yaradılması, prokurorluğun maddi-texniki təminat və işçilərin sosial müdafiəsi məsələlərinin beynəlxalq standartlara uyğunlaşdırılması və digər məsələlərin həlli təmin olunmuşdur.

Toplantı iştirakçıları respublikanın dövlət müstəqilliyi illərində qazandığı uğurları barədə təəssüratları ilə bölüşmüşlər.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

## Baş Prokurorluğun Elm-Tədris Mərkəzində “İnzibati xəta haqqında iş üzrə icraat zamanı prokuror nəzarətinin həyata keçirilməsinin taktiki və metodiki məsələləri” mövzusunda ixtisasartırma kursu keçirilmişdir

Noyabrın 23–24-də Baş Prokurorluğun Elm-Tədris Mərkəzində rayon (şəhər) prokurorlarının köməkçiləri üçün “İnzibati xəta haqqında iş üzrə icraat zamanı prokuror nəzarətinin həyata keçirilməsinin taktiki və metodiki məsələləri” mövzusunda ixtisasartırma kursu keçirilmişdir.

Kurs çərçivəsində dinləyicilərə “İnzibati xəta haqqında iş üzrə icraat zamanı prokuror nəzarətinə dair qanunvericilik”, “İnzibati xəta haqqında iş üzrə icraat zamanı insan hüquq və azadlıqlarının təmin olunması”, “İnzibati xəta haqqında iş üzrə icraata başlamağa səbəblər”, “İnzibati xəta haqqında işin başlanmasının faktiki və hüquqi əsasları”, “İnzibati xəta haqqında protokolun, inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında prokurorun qərarının, inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərardadın forması və məzmunu, hazırlanması metodikası”, “İnzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında əsaslandırılmış qərardadın forması və məzmunu, hazırlanması metodikası”, “İnzibati xəta haqqında iş üzrə icraat zamanı prokuror nəzarətinin prosessual təminatları, onların həyata keçirilməsi metodikası”, “İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması əsasları və qaydası, inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında qərarın düzgünlüyünün qiymətləndirilməsi meyarları, ləğv edilməsi əsasları”, “İcraatın başlanması haqqında qərarın prokuror tərəfindən qəbul edildiyi inzibati xətaların əlamətləri, hüquqi xarakteristikası, bu işlər üzrə sübut edilməli olan hallar və icraatın aparılmasının xüsusiyyətləri”, “İnzibati araşdırma aparılmasının faktiki və hüquqi əsasları, qaydası və icra metodikası”, “İnzibati xəta haqqında işlərə baxılmasında prokurorun iştirakının faktiki və hüquqi əsasları, qaydası və metodikası”, “İbtidai istintaq, ona prosessual rəhbərliyin həyata keçirilməsi zamanı prokuror tərəfindən inzibati xəta əlamətlərinin aşkar edilməsi və sənədləşdirilməsi metodikası”, “İnzibati xəta haqqında iş üzrə qərardan protest verilməsi üçün faktiki və hüquqi əsaslar, protestin hazırlanması, baxılmasında iştirakın metodikası”, “Təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət həyata keçirilərkən prokuror tərəfindən inzibati xəta əlamətlərinin aşkar edilməsi və sənədləşdirilməsi metodikası”, “Məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi, məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında və ya mülki işlərdə mülki iddiaçı kimi iştirak edərkən prokuror tərəfindən inzibati xəta əlamətlərinin aşkar edilməsi və sənədləşdirilməsi metodikası” sahələri tədris olunmuşdur.

Kursun yekunu üzrə noyabrın 25-də iki mərhələdə – elektron test və şifahi sorğu-sual etmə üsulu ilə imtahan təşkil olunmuş, İmtahan Komissiyası tərəfindən dinləyicilərin biliyi 5 ballı sistem əsasında – iki üsul üzrə əldə edilmiş nəticələrinin orta göstəricisi hesabına qiymətləndirilmişdir. İmtahanın nəticələri qənaətbəxş olmuşdur.

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# "Aktivlərin bərpası sahəsində qarşılıqlı hüquqi yardım" mövzusunda təlim keçirilmişdir




Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən uğurlu institusional və qanunvericilik islahatlarının və kompleks, hərtərəfli və ardıcıl dövlət siyasətinin məntiqi nəticəsidir ki, Azərbaycan Respublikasının prokurorluq orqanları bu gün korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış mötəbər beynəlxalq qurumlarla səmərəli qarşılıqlı əməkdaşlığını uğurla davam etdirir.

31 oktyabr-1 noyabr tarixlərdə Bakı şəhərində Avropa Şurasının Bakıdakı ofisi və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin birgə təşkilatçılığı ilə Avropa Şurası və Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələrində həyata keçirilən Proqramlar üzrə Əməkdaşlıq çərçivəsində "Aktivlərin bərpası sahəsində qarşılıqlı hüquqi yardım" mövzusunda təlim keçirilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun müvafiq idarələri, Hərbi Prokurorluğun, Xarici İşlər və Ədliyyə nazirlikləri, habelə Məhkəmə-Hüquq Şurası, Ədliyyə Akademiyası və Maliyyə Bazarlarına Nəzarət Palatası Maliyyə Monitorinqi Xidməti nümayəndələrinin iştirak etdiyi iki günlük tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi Orxan İsayev çıxış edərək korrupsiyaya qarşı mübarizənin Azərbaycanda dövlət siyasətinin prioritet istiqaməti olmasını vurğulamaqla bu mübarizənin möhkəm siyasi iradəyə əsaslandığını qeyd etmiş, bu sahədə ölkə daxilində, eyni zamanda beynəlxalq səviyyədə əməkdaşlığın böyük əhəmiyyət kəsb etdiyini bildirmiş, təlim kursunun iştirakçılar üçün faydalı olacağından əminliyini ifadə etmişdir.

Daha sonra Avropa Şurasının eksperti Arvinder Sambei tərəfindən aktivlərin bərpası sahəsində qarşılıqlı hüquqi yardımın əsasları və tətbiqi, bu sahədə instusional çərçivə və qabaqlayıcı tədbirlər, əmlakın müəyyən edilməsi və izlənilməsi, habelə qarşılıqlı hüquqi yardımın hüquqi və praktiki tərəfləri barədə təqdimatlar edilmişdir.

Qarşılıqlı müzakirə formatında baş tutan tədbirdə mövzu ilə əlaqədar tədris tapşırıqları iştirakçılar tərəfindən müvəffəqiyyətlə icra edilmiş, iştirakçıları maraqlandıran suallar ətraflı müzakirə edilmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

## Masallı və Göygöl rayon prokurorluqlarında insan hüquqlarının müdafiəsinə aid seminar keçirilmişdir

Masallı və Göygöl rayon prokurorluqlarında bölgə prokurorluqları əməkdaşlarının iştirakı ilə «İbtidai araşdırma məlumatlarının yayılması və aşkarlanması hədləri: İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ və milli qanunvericiliyin tələbləri» mövzusunda seminar təşkil edilmişdir.

Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsinin işçiləri tərəfindən dekabrın 16-da Masallı rayon prokurorluğunda Masallı, Biləsuvar, Cəlilabad, Salyan, Neftçala, Lənkəran, Astara, Lerik, Yardımlı rayon və Lənkəran hərbi prokurorluqları, dekabrın 28-də Göygöl rayon prokurorluğunda Gəncə şəhər, Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Goranboy, Göygöl, Samux, Yevlax, Xocalı və Kəlbəcər rayon prokurorluqları işçilərinin iştirakı ilə seminar keçirilmişdir.

Tədbirdə ibtidai araşdırma məlumatları yayılmasının yolverilməzliyi, təqsirsizlik prezumpsiyası ilə bağlı milli, beynəlxalq normaların tələbləri və bundan irəli gələrək İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququndan nümunələr şərh edilmiş, o cümlədən Prokurorluq üzrə «Cinayət təqibi zamanı prokurorluq orqanlarında təqsirsizlik prezumpsiyasının təmin olunması haqqında» əmrin tələbləri, cinayət prosessual qanunvericiliyə edilmiş son dəyişiklər barədə məlumat verilmişdir.

Mövzu ilə əlaqədar müzakirə və fikir mübadiləsi aparılmış, tövsiyələr səsləndirilmişdir.

**Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi**

## Şərur rayon prokurorluğunda "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda seminar keçirilmişdir

Noyabrın 25-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin təşkilatçılığı ilə "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" mövzusunda Şərur rayon prokurorluğunda Şərur, Kəngərli və Sədərək rayon prokurorluqları əməkdaşlarının iştirakı ilə növbəti seminar keçirilmişdir.

Tədbirdə qeyd olunmuşdur ki, prokuror inzibati xətalar haqqında işlər üzrə icraat zamanı baş vermiş qanun pozuntusunu aradan qaldırmaq üçün vaxtında tədbirlər görür və inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirir. 2016-cı il martın 1-dən qüvvəyə minmiş Azərbaycan Respublikasının yeni İnzibati Xətalar Məcəlləsi prokuror nəzarətinin daha səmərəli təşliki üçün zəruri hüquqi vasitələr təsbit etmiş, bir sıra inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərarın yalnız prokuror tərəfindən qəbul edilməsi müəyyənləşdirilmişdir. Müvafiq əsaslar yarandıqda prokror digər inzibati xətalar haqqında işlər üzrə də icraatın başlanması haqqında qərar qəbul edir. Prokuror, həmçinin inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, işin baxılması zamanı baş verən məsələlər üzrə rəy və ya vəsatət vermək, inzibati xəta haqqında iş üzrə qəbul edilən qərardan və ya qərardaddan protest vermək hüququna malikdir. Yetkinlik yaşına çatmayanlar barəsində inzibati xətalar haqqında, habelə öz təşəbbüsü ilə başlanmış inzibati xətalar haqqında işlərin baxılmasının yeri və vaxtı prokurora bildirilir. Həmin işə prokurorun iştirakı olmadan yalnız o hallarda baxıla bilər ki, işə baxılmasının yeri və müddətinin ona vaxtında bildirilməsi barədə məlumat olsun və ya işə baxılmasını təxirə salmaq haqqında ondan vəsatət daxil olmasın.

Seminar iştirakçılarının nəzərinə çatdırılmışdır ki, inzibati xətalara dair icraatda prokuror nəzarəti qarşısında qoyulmuş vəzifələrin səmərəli icrası məqsədilə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin təşkili barədə" 3 mart 2016-cı ildə müvafiq əmr imzalanmış və bu sahədə prokurorluğun üzərinə düşən vəzifələr əmrdə konkret göstərilmişdir.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılmışdır.

**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsi**

# Beynəlxalq Antikorrupsiya Akademiyası ilə əməkdaşlıq uğurla davam etdirilir




Noyabrın 10-11-də Avstriya Respublikasının paytaxtı Vyana şəhərində Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) üzv dövlətlərin və Tərəflərin Assambleyasının 5-ci illik sessiyası keçirilmişdir. Tədbirdə ölkəmizi Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Akademiyaya tərəf olan 70 dövlət və beynəlxalq təşkilatdan 250 nəfər nümayəndənin iştirak etdiyi Assambleyanın açılışında IACA-nın İdarə Heyətinin sədri Eduardo Vetere və Akademiyanın dekanı və icraçı direktoru Martin Kreutner çıxış edərək Akademiyanın inkişafı ilə bağlı görülən işlər, əldə edilmiş uğurlar və gələcək planlar barədə ətraflı məlumat vermişlər.

Sessiyada çıxış edən nümayəndə heyətinin rəhbəri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə istiqamətində ölkəmizdə həyata keçirilən qanunvericilik və institusional islahatlar, əldə edilmiş nailiyyətlər, o cümlədən cinayət təqibi tədbirləri, habelə korrupsiyanın qarşısının alınması sahəsində ən unikal institusional təşəbbüslərdən biri kimi Azərbaycan brendi olan “ASAN Xidmət” mərkəzlərinin fəaliyyəti barədə ətraflı məlumat vermişdir. Azərbaycan Respublikasının Akademiya ilə qarşılıqlı əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini vurğulayan nümayəndə heyətinin rəhbəri qurumun Assambleyasının 3-cü sessiyasının Bakı şəhərində keçirilməklə Azərbaycan Respublikası Baş prokurorunun Assambleyanın sədri vəzifəsinə seçilməsinin, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Vüsal Hüseynovun hazırda Akademiyanın İdarə Heyətinin üzvü olmasının, habelə Azərbaycan Respublikasının nümayəndələrinin Akademiyanın magistr kursları və yay məktəbi proqramlarından mütəmadi olaraq faydalanmasının qarşılıqlı əlaqələrin inkişafına ciddi təkan verdiyini qeyd etmişdir.

Tədbirdə təşkilati məsələlər müzakirə edilmiş, qurumun rəhbər orqanlarına seçkilər həyata keçirilmişdir.

İclasda Argentina Respublikasının Avstriyadakı fövqəladə və səlahiyyətli səfiri Mariano Qrosso Beynəlxalq Antikorrupsiya Akademiyasının Tərəflərin Assambleyasının 5-ci sessiyasının sədri seçilmişdir.




Azərbaycan Respublikası ilə Akademiya arasında qarşılıqlı münasibətlər, habelə ölkəmizin qurumun fəaliyyətinə verdiyi töhfələr nəzərə alınmaqla Azərbaycan Respublikasının nümayəndə heyətinin rəhbəri Assambleyanın 5-ci sessiyasının sədrin müavini vəzifəsinə seçilmiş, habelə sessiyanın aparılması ona həvalə olunmuşdur.

Akademiyanın Assambleyasının növbəti 6-cı illik sessiyasının 2017-ci ildə Misir Ərəb Respublikasında keçirilməsi qərara alınmışdır.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Akademiyanın rəhbərliyi, habelə bir sıra ölkələrin nümayəndə heyətləri ilə ikitərəfli görüşlər keçirilmiş və qarşılıqlı əməkdaşlıq imkanları barədə ətraflı fikir mübadiləsi aparılmışdır. Akademiyanın rəhbər vəzifəli şəxsləri ilə görüş zamanı IACA-nın magistr kursu üzrə modullardan birinin növbəti sessiyasının Bakı şəhərində keçirilməsi ilə bağlı müzakirələr aparılmışdır.

Sessiya çərçivəsində Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirləri özündə əks etdirən jurnallar, bukletlər və statistik məlumatlar tədbir iştirakçılarına təqdim edilmişdir.

Tədbirdə Azərbaycanın Avstriyadakı fövqəladə və səlahiyyətli səfiri Qalib İsrafilov da iştirak etmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsi**

# Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı çərçivəsində regional əməkdaşlıq uğurla davam etdirilir

Noyabrın 15-17-də Latviya Respublikasının paytaxtı Riqa şəhərində Korrupsiyaya qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsinin (EACN) 16-cı illik Peşəkar Konfransı və Baş Assambleyasının iclası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasını Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir.

Assambleyanın açılışında Avropa Komissiyasının Dələduzluqla Mübarizə İdarəsinin (OLAF) baş direktoru Covanni Kessler və Latviya Respublikasının Baş prokuroru Eriks Kalnmeiers çıxış edərək təşkilatın inkişafı ilə bağlı görülən işlər, əldə edilmiş uğurlar, korrupsiyaya qarşı mübarizə sahəsində dünyada həyata keçirilmiş mütərəqqi islahatlar, həmçinin gələcək planlar barədə ətraflı məlumat vermişlər.

Sessiyada çıxış edən nümayəndə heyətinin rəhbəri Azərbaycan Respublikasının Prezidenti cənab

İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları, korrupsiyaya qarşı mübarizə sahəsində institusional və cinayət təqibi tədbirləri, o cümlədən Beynəlxalq Prokurorlar Assosiasiyasının Antikorrupsiya Şəbəkəsinin Baş idarə tərəfindən idarə edilən internet saytı və onun fəaliyyəti haqqında ətraflı məlumat vermişdir.

Tədbirdə, təşkilata üzv ölkələr tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində əldə olunmuş müsbət təcrübələr, o cümlədən korrupsiya hüquqpozmalarının araşdırılması üsulları və onunla mübarizə mexanizmləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

Bundan başqa, mayın 23-24-də Buxarest şəhərində EPAC və EACN-in İşçi Qrupunun "Səhiyyə sistemində korrupsiya – preventiv tədbirlər və istintaq, ən yaxşı təcrübələr və qarşıda duran vəzifələr" mövzusunda keçirilmiş konfransı çərçivəsində əldə olunmuş təcrübələrlə bağlı müvafiq hesabat təqdim edilmişdir.

Tədbir çərçivəsində Latviya Respublikasının Baş prokuroru və Korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizə üzrə Bürosunun rəhbəri, habelə OLAF-ın baş direktoru və bir sıra beynəlxalq təşkilatların nümayəndələri ilə ikitərəfli görüşlər keçirilməklə qarşılıqlı əməkdaşlıq perspektivləri müzakirə olunmuşdur.

Tədbirin sonunda Gürcüstan Respublikasının quruma üzv qəbul edilməsi və  Regional Antikorrupsiya Təşəbbüsü təşkilatının EPAC-ın fəaliyyətinə və görülən işlərə nəzarətçi qismində seçilməsi ilə əlaqədar səsvermə keçirilmiş və hər iki təklif qəbul edilmişdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş idarəsi**

# Beynəlxalq sənədin qəbulunda ölkəmizin müsbət təcrübəsi nəzərə alınmışdır

Noyabrın 17-18-də Fransanın Strasburq şəhərində Avropa Şurası nəzdində fəaliyyət göstərən Avropa Prokurorlarının Məşvərətçi Şurasının 11-ci plenar iclası keçirilmişdir.

İclasda 2015-ci ilin noyabr ayından ötən bir il ərzində müxtəlif beynəlxalq tədbirlərdə qurumun fəaliyyətinin işıqlandırılmasına nəzər yetirilmişdir.

2006-cı ildən bugünədək Məşvərət Şuranın qəbul etdiyi 10 rəyin Avropa Şurasına üzv dövlətlərin rəsmi dillərinə tərcümə edilməsi məsələsi müzakirə edilmişdir.

Plenar iclasda Şuranın  sayca 11-ci Rəyi müzakirə olunaraq bəzi müddəalar üzrə ölkəmizin müsbət təcrübəsi nəzərə alınmaqla qəbul edilmişdir.

"Xüsusilə terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizə çağırışlarında prokurorların işinin keyfiyyəti və səmərəliliyi" adlanan sənəddə prokurorların ümumi fəaliyyəti, hüquqi çərçivə və milli təcrübə, insan qaynaqlarının idarəolunması, o cümlədən prokurorların işə qəbulu, vəzifədə irəli çəkilmə və ixtisasartırma məsələləri, prokurorluq orqanlarında işin təşkili, vəzifə bölgüsü, prokurorların fəaliyyətinin qiymətləndirilməsi, etik qaydalar, obyektivlik və qərəzsizlik, məlumat mübadiləsi və əməkdaşlıq, terrorizm və mütəşəkkil cinayətkarlıqla mübarizədə prokurorların fəaliyyətinin keyfiyyəti və səmərəliliyi və sair məsələlər öz əksini tapmışdır.

Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi, ölkəmizin Məşvərətçi Şuradakı nümayəndəsi Erkin Əlixanov sənədin müzakirəsi zamanı Azərbaycanın prokurorluq orqanlarında aparılmış geniş institusional islahatlar, o cümlədən beynəlxalq əməkdaşlıq, kadr siyasəti, qəbul edilmiş normativ hüquqi aktlar, Baş Prokurorluq üzrə müxtəlif sahəvi əmrlər, prokurorluq işçilərinin etik davranış kodeksi barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

Şuranın prezidenti Sedrik de Bokarmenin səlahiyyət müddəti bitdiyindən Piter MakKormik (İrlandiya) növbəti 1 il müddətinə Məşvərətçi Şuranın prezidenti, Xose Manuel Santos Pais (Portuqaliya) isə vitse-prezidenti seçilmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# “İnternetdən terrorçuluq məqsədləri üçün istifadə edilməsinin qarşısının alınması və mübarizə sahəsində təcrübə mübadiləsi” mövzusunda beynəxlaq konfrans keçirilmişdir




Noyabrın 28-30-da Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində Birləşmiş Millətlər Təşkilatının Narkotiklər və Cinayətkarlıq İdarəsinin təşkilatçılığı ilə “İnternetdən terrorçuluq məqsədləri üçün istifadə edilməsinin qarşısının alınması və mübarizə sahəsində təcrübə mübadiləsi” mövzusunda konfrans keçirilmişdir.

ABŞ, Rusiya, Qazaxıstan, Niderland, Gürcüstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Qırğızıstan və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin nümayəndələrinin iştirak etdiyi tədbirdə Azərbaycan Prokurorluğunu Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəis müavini Anar Məmmədov və Baş Prokurorluğun idarə prokuroru Alim Cəbrayılov təmsil etmişlər.

Konfransın keçirilməsində məqsəd transmilli cinayətlərin istintaqı zamanı mərkəzi orqanlar arasında beynəlxalq və regional əməkdaşlığın inkişaf etdirilməsi olmuşdur.

Tədbir çərçivəsində terrorçuluq məqsədilə internetdən istifadə edilməsi ilə bağlı cinayət işləri, həmin cinayətlərin istintaqı zamanı əməliyyat məlumatlarının və sübutların toplanılması, xarici ölkələrdən elektron sübutların alınması və internetdən terrorçuluq məqsədilə istifadə edilməsinin qarşısının alınması mövzuları ətrafında fikir mübadiləsi aparılmışdır.

Azərbaycanın nümayəndə heyəti tərəfindən qarşılıqlı hüquqi yardım haqqında vəsatətlərin icrası zamanı xarici dövlətlərdən alınan və digər ölkələrə göndərilən sübutlar, eyni zamanda müzakirə edilən digər məsələlər ətrafında geniş məlumat verilmişdir.

Tədbir çərçivəsində maraq doğuran suallar müzakirə edilmişdir.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

# Portuqaliya Respublikasının Ədliyyə Tədris Mərkəzi və Baş Prokurorluğu ilə (Dövlət ittihamı Nazirliyi) tədris sahəsində təcrübə mübadiləsi aparılmışdır

Avropa Şurası və Avropa İttifaqı tərəfindən Şərq tərəfdaşlığı ölkələrində həyata keçirilən "Proqramlar üzrə əməkdaşlıq çərçivəsi"nin "Azərbaycanda məhkəmələrin səmərəliliyinin artırılmasına, hakimlərin təliminin təkmilləşdirilməsinə və məhkəmələrdə özünü-idarəetməyə dəstək" layihəsi çərçivəsində Portuqaliya Respublikasının Məhkəmə Təhqiqatları Mərkəzi ilə əməkdaşlıqda noyabrın 28-30-da Lissabon şəhərinə təcrübə mübadiləsi üzrə təlim səfəri təşkil olunmuşdur.

Görüşdə Baş prokurorun müavini, Ədliyyə Tədris Mərkəzinin direktor müavini Luis Silva Pereira nümayəndə heyətini salamlayaraq, Mərkəzin fəaliyyəti, Portuqaliyanın təlim keçən hakim və ittihamçıların seçilməsi sisteminin (elanın verilməsi; qəbul edilmə mərhələ ilə bağlı prosedurlar (yazılı, şifahi və psixoloji imtahanlar); tədris ilə bağlı prosedurlar; təlim keçənlər tərəfindən tədris şərtlərinin pozulması halları ilə bağlı daxili nizam-intizam qaydaları) mərhələləri, digər Avropa dövlətlərinin tədris müəs-



*Portuqaliya Respublikasının Baş Prokurorluğunda*

sisələri ilə əməkdaşlıqları barədə məlumat vermişdir. Baş prokurorun müavini, Ədliyyə Nazirliyinin Baş katibi Carlos Sousa Mendes Ədliyyə Nazirliyi, hakimlər, dövlət ittihamçıları, vəkillər, məhkəmə kaitbləri, polis və həbsxana işçiləri üçün təlim mərkəzləri arasında əlaqələr barədə danışmış, sonra Baş Prokurorluğun (Dövlət ittihamı Nazirliyinin) fəaliyyəti ilə yerində tanışlıq həyata keçirilmişdir.

Azərbaycanın Ədliyyə Nazirliyi, Ali Məhkəmə, Baş Prokurorluq, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası və Vəkillər Kollegiyasından təmsil olunan işçilərdən ibarət nümayəndə heyəti komplektləşdirilmişdir. Tədbirdə Baş Prokurorluqdan Elm-Tədris Mərkəzinin rəis müavini Günay Əyyubova təmsil olunurdu.

Tanışlıq çərçivəsində Portuqaliya Respublikasının Ədliyyə Tədris Mərkəzi, Ali Məhkəmə, Apellyasiya Məhkəməsi, Məhkəmələrin Ali Şurası, Baş Prokurorluq (Dövlət ittihamı Nazirliyi), Vəkillər Assosiyasiyası, Vəkillər Assosiasiyasının Lissabon Regional Şurası, Məhkəmə Katiblərinin Təlim Mərkəzi və Penitensiar Xidmətin inzibati, rəhbər nümayəndələri ilə görüşlər keçirilmişdir.

Məhkəmələrin Ali Şurasının fəaliyyəti ilə tanışlıqda Ali Şuranın və Ədliyyə Tədris Mərkəzi arasında əlaqələr barədə məlumatlar verilmiş, Portuqaliyanın hakimlər və ittihamçılar üçün təlim sisteminin ((ilkin və davamlı təlim; təlim metodologiyaları; təlim materialları; elektron təhsil platforması; e-kitablar),

məhkəmədə staj keçmə prosedurunun (staj keçmənin mərhələsi; staj keçmənin yeri; staj keçmə zamanı həyata keçirilmiş fəaliyyətlər üzrə hesabatın məzmunu və bu kimi hesabatların təqdim edilmə şərtləri və dövrilliyi; staj keçmənin qiymətləndirilməsi proseduru) təqdimatı keçirilmişdir. Təlimçilərin seçilməsi, universitet professorları və digər hüquq peşə sahibləri ilə əməkdaşlıq (Ədliyyə Tədris Mərkəzinin təlimçilərinin dairəsi; seçilməsi; ezamiyyə prosedurları; tam və yarım ştat təlimçilər; universitetlər, hüquq və ədliyyə sahəsində digər peşə sahibləri üçün təlim mərkəzləri ilə əlaqələr) barədə müvafiq məlumatlar verilmişdir.

Sonda Portuqaliyanın Vəkillər Assosiasiyasının Lissabon Regional Şurası, Məhkəmə Katiblərinin Təlim Mərkəzi və Penitensiar Xidmətin nümayəndələri ilə dəyirmi masa keçirilmiş, danışıqlarda Portuqaliyada vəkillərin, məhkəmə katiblərinin və həbsxana işçilərinin təlimi, eləcə də Azərbaycan təcrübəsi barədə qarşılıqlı məlumat mübadiləsi aparılmışdır.



*Portuqaliya Respublikası Baş prokurorunun müavini, Ədliyyə Tədris Mərkəzinin direktor müavini Luis Silva Pereira ilə*

**Baş Prokurorluğun Elm-Tədris Mərkəzi**

# Azərbaycanlı məzunlara Beynəlxalq Antikorrupsiya Akademiyasının diplomları təqdim olunmuşdur

Dekabrın 9-da – Beynəlxalq korrupsiyaya qarşı mübarizə günündə Beynəlxalq Antikorrupsiya Akademiyasının Avstriyada yerləşən mənzil qərargahında magistr proqramını başa vurmuş məzunların növbəti buraxılış mərasimi keçirilmişdir. Akademiya korrupsiyaya qarşı mübarizə üzrə biliklərin artırılması və peşəkarların təkmilləşdirilməsi sahəsində dünyada ilk təhsil ocağı olmaqla, həmçinin beynəlxalq təşkilat statusunda fəaliyyət göstərir.

Mərasimdə BMT-nin Narkotiklər və Cinayətkarlıq Ofisinin, digər beynəlxalq təşkilatların, diplomatik nümayəndəliklərin təmsilçiləri, Avstriya hökumətinin yüksək vəzifəli şəxsləri iştirak etmişdir.

Dünyanın 17 ölkəsindən olan 26 tələbə arasında 5 azərbaycanlı – Milli Məclisin Beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı Vüqar Məmmədov, Xarici İşlər Nazirliyinin əməkdaşı Süleyman Rüstəmov, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının əməkdaşı Məftun Abbasov, eləcə də proqramı fərqlənmə ilə bitirmiş Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Elnur Musayev Akademiyanının magistr proqramının məzunu olublar.

Buraxılış mərasimində bütün məzunlar adından maqistr qrupunun rəhbəri Elnur Musayev internet vasitəsilə dünyaya yayımlanan çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə korrupsiyaya qarşı mübarizə sahəsində ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, institusional və cinayət təqibi tədbirləri haqqında ətraflı məlumat vermiş, eyni zamanda dünya ictimaiyyətinin Akademiyanın inkişafına dəstək verməsi barədə müraciət etmişdir.

Akademiyanı bitirən məzunlara “Korrupsiyaya qarşı mübarizə üzrə mütəxəssis” adı verilməklə diplomlar təqdim olunmuşur.

Bundan başqa, dekabrın 5-də Çirkli Pulların Yu-



yulmasına Qarşı Mübarizə üzrə Sertifikatlaşdırılmış Ekspertlər Assosiasiyasının müvafiq imtahanını uğurla keçmiş Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov çirkli pulların yuyulmasına qarşı mübarizə üzrə ekspert sertifikatına layiq görülmüşdür.

Azərbaycan Respublikası bundan sonra da korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış ekspertlərin hazırlanması istiqamətində səylərini davam etdirəcəkdir.

**Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi**

# "Cinayətkarlığın qarşısının alınmasında psixoloji dəyərləndirmənin rolu" mövzusunda beynəlxalq tədbir keçirilmişdir

Oktyabrın 20-21-də Tbilisidə Avropa İttifaqının TAİEX texniki yardım aləti çərçivəsində Gürcüstanın Daxili İşlər Nazirliyi Akademiyasının təşəbbüsü ilə "Cinayətkarlığın qarşısının alınmasında psixoloji dəyərləndirmənin rolu" mövzusunda seminar keçirilmişdir.

Böyük Britaniya, Norveç, İsveç və digər ölkələrin ekspertlərinin qatıldığı tədbirdə Gürcüstanın Daxili İşlər Nazirliyi Akademiyasının rektoru, Avropa İttifaqının Gürcüstandakı nümayəndəsi və digər şəxslər ətraflı çıxış etmiş, həmin ölkələrdən olan mütəxəssislərin tədqiqatlarının nəticələri təqdim edilmişdir.

Seminar çərçivəsində psixoloqların Gürcüstanın hüquq-mühafizə sistemindəki rolu, qəsdən adam öldürmə cinayəti törətmiş şəxslərin psixi xüsusiyyətləri və tətbiq olunan preventiv tədbirlər, azyaşlıların cinayət törətməsinə təsir edən psixi və sosial amillər geniş müzakirə olunmuşdur.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq əlaqələr idarəsinin prokuroru Kamran Həsənov "Azyaşlıların cinayət törətməsinə təsir edən psixi və sosial amillər" mövzusunda çıxış edərək, Azərbaycan Respublikasının qanunvericiliyində azyaşlıların ibtidai istintaq və məhkəmə baxışı zamanı hüquqlarının etibarlı şəkildə qorunmasını təmin edən normaların olmasını, ölkəmizdə yuvenal ədliyyənin inkişafının diqqət mərkəzində saxlanıldığını və bu sahədə beynəlxalq əməkdaşlığa önəm verildiyini xüsusi vurğulamışdır.

Seminar iştirakçıları Gürcüstan Daxili İşlər Nazirliyinin Akademiyasının tədris prosesi ilə yaxından tanış olmuşlar.

**Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsi**

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**ƏMR**

**№ 10/14**

Bakı şəhəri 3 mart 2016-cı il

## "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin təşkili barədə"

*(08.11.2016-cı il tarixli 10/68 nömrəli əmrlə edilmiş əlavə və dəyişikliklərlə)*

İnzibati xətalara dair icraatda prokuror nəzarəti qarşısında qoyulmuş vəzifələrin səmərəli icrası məqsədi ilə, "Prokurorluq haqqında" Qanunun 10-cu maddəsini rəhbər tutaraq, **əmr edirəm:**

**1.** Prokurorların inzibati xətalara dair işlər üzrə icraatda iştirakı prokurorluğun Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsi ilə müəyyən edilmiş "qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət" səlahiyyətlərinin həyata keçirilməsi ilə qanunçuluğun möhkəmləndirilməsinin təsirli vasitəsi kimi nəzərdən keçirilsin.

**1.1.** Qanunvericiliyin təsbit etdiyi səlahiyyətlərindən prokurorlar inzibati xəta haqqında iş üzrə icraat başlamaq, inzibati araşdırma aparmaq, inzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək, inzibati xəta haqqında iş üzrə qərardan protest vermək, inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında qərarı ləğv etmək yolu ilə səmərəli istifadə etsinlər.

**1.2.** Nəzərə alınsın ki, Azərbaycan Respublikasının prokurorluq işçilərinin inzibati qaydada həbs edilməsi, gətirilməsi, tutulması, mənzilində, nəqliyyat vasitəsində, iş yerində axtarış və şəxsi axtarış aparılması "Prokurorluq haqqında" Qanunun 33-cü maddəsi, Azərbaycan Respublikasının Baş nazirinin, səlahiyyət müddəti ərzində Azərbaycan Respublikası Milli Məclisi deputatının barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirləri tətbiq edilməsi, axtarışa məruz qalması, şəxsi müayinə edilməsi Azərbaycan Respublikası Konstitusiyasının 90-cı və 23-cü maddələri ilə müəyyən edilmiş xüsusiyyətlərlə həyata keçirilir.

**2.** Prokurorlar, onların müavinləri və köməkçiləri aşkar edilmiş qanun pozuntusunun xarakterini və mövcud olan sübutları nəzərə alaraq inzibati xəta haqqında iş üzrə icraat başlamağa, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İXM) 102.1-ci maddəsində göstərilən hallarda isə inzibati xəta haqqında iş üzrə icraatın başlanması və inzibati araşdırma aparılmasına dair əsaslandırılmış qərarlar qəbul etsinlər. Nəzərə alınsın ki, İXM-nin 191.1, 195.1, 197.3, 197.4, 197.5, 205, 249, 284.2, 339.2 - 339.5, 340.2, 341, 376, 399, 410.3, 531, 558.2, 558.3, 559, 563.2, 567, 568, 569, 573, 594-1, 595.2, 596, 601 və 606.1-ci maddələrində nəzərdə tutulan inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması barədə qərar yalnız prokuror, digər xətalar haqqında işlər üzrə icraatın başlanması isə İXM-nın 54.2-ci maddəsinin ikinci cümləsinə və 99.3-cü maddəsinə əsasən həmçinin prokuror tərəfindən qəbul edilir.

**2.1.** Nəzərə alınsın ki, prokuror tərəfindən inzibati xəta haqqında iş üzrə icraata başlamağa səbəblər dövlət orqanlarından və təşkilatlarından və ya bələdiyyələrdən daxil olmuş (İXM-nin 99.1.2-ci maddəsi), fiziki və ya hüquqi şəxslər tərəfindən təqdim edilmiş, yaxud kütləvi informasiya vasitələrində dərc olunmuş materiallarda (İXM-nin 99.1.3-cü maddəsi) inzibati xəta hadisəsinin mövcudluğunu göstərən məlumatlardır.

**2.2.** İnzibati xəta haqqında məlumatların baxılması müvafiq inzibati xətalar haqqında işlərə baxan məhkəmənin, kollegial orqanın və ya vəzifəli şəxsin fəaliyyət göstərdiyi ərazi üzrə rayon (şəhər) və ərazi hərbi prokurorluqlarında həyata keçirilsin. Baxılması digər prokurorun səlahiyyətinə aid inzibati xəta haqqında Baş Prokurorluğa, yuxarı prokurorluqlara, eləcə də digər tabe prokurorluqlara daxil olmuş məlumatların, bununla bağlı ərizə, şikayət və təkliflərin bu prinsipə əsasən aidiyyəti üzrə göndərilməsi təmin edilsin.

**2.3.** Cinayət haqqında məlumatların araşdırılması, cinayət işi üzrə ibtidai istintaq aparılması, ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi, korrupsiya ilə bağlı cinayətlər üzrə əməliyyat-axtarış fəaliyyəti həyata keçirilməsi, təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edilməsi, məhkəmədə dövlət ittihamının müdafiə olunması, prokurorun iddiaçı kimi iştirak etdiyi mülki işlərin baxılması, hökm və məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat, vətəndaşların müraciətlərinə baxılması zamanı inzibati xəta hadisəsinin mövcudluğunu göstərən kifayət qədər hal müəyyən edildikdə, inzibati xətalar haqqında iş üzrə icraat açılması məsələsinin həll olunması üçün bu məlumatların aidiyyəti prokurorluq orqanlarına göndərilməsi, bu prokurorluqlarda müvafiq qaydada qeydiyyata alınması və təqib həyata keçirilməsi təmin olunsun.

**2.4.** Məlumatların (əmrin əvvəlki bəndində göstərilən) digər icraatlardan inzibati xətalar haqqında iş üzrə icraata müvafiq əsaslar yaranan kimi keçirilməsi və qeydiyyata götürülməsi, sonrakı prosessual hərəkətlərin bu icraatın qanunla müəyyən edilmiş əsas və qaydalarına uyğun yerinə yetirilməsi ciddi nəzarətdə saxlansın.

**2.5.** İnzibati xəta haqqında iş üzrə icraat materialları yuxarı prokurorluqlara yalnız Azərbaycan Respublikasının Baş prokurorunun, onun birinci müavini, müavini, öz səlahiyyətləri çərçivəsində Azərbaycan Respublikasının Hərbi, Naxçıvan Muxtar Respublikası, Bakı şəhər prokurorlarının tələbinə əsasən prosessual qaydada, qeyd edilən prokurorların "Prokurorluq haqqında" Qanunun 16, 21, 27, 28-ci maddələri ilə nəzərdə tutulmuş konkret səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar təqdim edilsin. Digər, xüsusən də icraat müddətinin əsassız uzanması ilə müşayiət edilə biləcək qeyri-prosessual səbəblərə görə icraat materiallarının tələb edilməsinə yol verilməsin.

**2.6.** Bir inzibati xətaya görə şəxsin iki dəfə inzibati məsuliyyətə cəlb olunmasının qarşısını almaq məqsədi ilə şübhəli hallarda müvafiq işlərə baxmaq səlahiyyəti olan məhkəmədən, orqandan və ya vəzifəli şəxsdən konkret xətaya görə şəxsin barəsində inzibati təqib həyata keçirilib-keçirilməməsi barədə məlumat alınsın (İXM-nin 9.2-ci maddəsi).

**2.7.** Vurğulansın ki, inzibati xətalar haqqında işlər üzrə icraatın aparılmasında Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının tətbiqinə və icrasına prokuror nəzarətini həyata keçirərkən prokurorluq orqanları digər dövlət orqanlarını əvəz etmirlər.

**2.8.** Prokurorluğa daxil olmuş inzibati xəta hadisəsinin mövcudluğunu göstərən müraciətlərə, o cümlədən dövlət orqanlarından və təşkilatlarından, bələdiyyələrdən daxil olmuş, fiziki və ya hüquqi şəxslər tərəfindən təqdim edilmiş, yaxud kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatlara baxaraq inzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərarlar və ya inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qərardadları on beş gün müddətində, inzibati araşdırma aparılması hallarında bu qərarları bir aydan artıq olmayan müddətlərdə qəbul etsinlər. Nəzərə alınsın ki, bu müddət yalnız inzibati araşdırma aparan prokurorun əsaslandırılmış vəsatəti olduqda yuxarı prokuror tərəfindən bir ayadək müddətə uzadıla bilər (İXM-nin 54.4, 102.5-ci maddələri, "Prokurorluq haqqında" Qanunun 16-cı maddəsi).

Qərardadın surəti məlumatları vermiş şəxslərə göndərilsin, rəsmi qaydada verildiyi vaxtdan on gün müddətində qərardaddan yuxarı prokurora və ya məhkəməyə şikayət vermək hüququ izah edilsin.

**2.9.** Digər icraatlar üzrə araşdırma aparılarkən inzibati xəta əlamətləri aşkar etdikdə sübutların götürülməsi və rəsmiləşdirilməsi üçün lazımi tədbirlər görülsün. İnzibati xəta üzrə icraata başlamaq haqqında qərar qəbul edilənə kimi xətanın aşkar edildiyi yerdə sübutların götürülməsi və rəsmiləşdirilməsi, habelə İXM-nin 86-cı maddəsində nəzərdə tutulmuş inzibati xəta haqqında iş üzrə icraatın təmin edilməsi tədbirləri görülsün və nəzərə alınsın ki, bu Məcəllənin 99.4.1-ci maddəsinə əsasən belə tədbirlərin görülməsi barədə ilk protokol tərtib edilən andan inzibati xəta haqqında iş üzrə icraat başlanılmış hesab edilir.

**2.10.** İnzibati xəta haqqında iş üzrə icraata başlama və inzibati araşdırma müddətinin uzadılması haqqında qərarlar İXM-nin 38-ci maddəsində müəyyən edilmiş inzibati məsuliyyətə cəlb etmə müddətləri nəzərə alınmaqla çıxarılsın.

**2.11.** İnzibati xəta haqqında iş üzrə icraat başlamaq məsələsi həll edilərkən araşdırma materiallarında olan hər bir sübut mənsubiyyəti, mümkünlüyü, mötəbərliyi üzrə qiymətləndirilsin.

**2.12.** Nəzərə alınsın ki, prokuror tərəfindən inzibati xəta haqqında iş üzrə icraat ən azı İXM-nin 99. 1.2 və 99.1.3-cü maddəsində göstərilən səbəblərin biri, həmçinin inzibati xətanın əlamətlərinin mövcudluğunu və inzibati xəta haqqında iş üzrə icraatı rədd edən halların yoxluğunu göstərən kifayət qədər məlumatın olması şərti ilə başlanır.

**2.13.** İnzibati məsuliyyətə cəlb olunan fiziki şəxslərə və ya hüquqi şəxslərin qanuni nümayəndələrinə hüquq və vəzifələri izah edilsin, bu inzibati xəta haqqında iş üzrə icraat başlanması barədə qərarda qeyd aparılsın və həmin hüquqların həyata keçirilməsi üçün şərait yaradılsın. Fiziki şəxs sorğu-sual edilərkən ona Azərbaycan Respublikası Konstitusiyasının 66-cı, İXM-nin 67.3-cü maddələrində təsbit edilmiş özünə və yaxın qohumlarına qarşı izahat verməmək, tərcüməçinin köməyindən pulsuz istifadə etmək, izahatının doğru yazılması barədə protokola müvafiq qeydlər etmək hüquqları izah olunsun.

**2.14.** İnzibati xətalar haqqında işlər üzrə icraatın başlanması haqqında qərarlarda inzibati xətanın törədilməsi haqqında protokolda göstərilməsi tələb edilən məlumatların qeyd olunması təmin edilsin (İXM-nin 100-cü maddəsi).

**2.15.** İnzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar baxılması üçün hakimə, səlahiyyətli orqana (vəzifəli şəxsə) tərtib edildiyi vaxtdan 48 saatadək müddətdə, inzibati həbs nəzərdə tutan inzibati xəta haqqında belə qərar isə hakimə tərtib edildikdən sonra dərhal göndərilsin. Nəzərə alınsın ki, bu müddətə məlumatlar üzrə onların inzibati xarakteri müəyyən edilənə qədər prokurorluqlarda aparılmış araşdırmaların müddətləri daxil edilmir.

**2.16.** Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar (kollegial orqan), müvafiq icra hakimiyyəti orqanları, Mərkəzi Bank, Maliyyə Bazarlarına Nəzarət Palatasının vəzifəli şəxsləri tərəfindən qəbul edilmiş inzibati xəta haqqında işin başlanmasının rədd edilməsi barədə qərardadlardan şikayətlərə

(İXM-nin 99.7-ci maddəsi) mümkün qədər qısa müddətdə baxılsın, bu zaman dövlət orqanlarından və təşkilatlarından, bələdiyyələrdən, fiziki və ya hüquqi şəxslər tərəfindən təqdim edilmiş, yaxud kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatların (İXM-nin 99.1.2 və 99.1.3-cü maddələri) inzibati iş başlanması üçün kifayət qədər əsaslara malik olması müəyyən edildikdə İXM-nin 54.2, 99.3-cü maddələrinə uyğun olaraq həmin xətaya görə prokurorların özləri inzibati xəta haqqında iş üzrə icraat başlamaq barədə qərar qəbul etsinlər. İnzibati xəta haqqında işin başlanmasının rədd edilməsi barədə qərardad prokuror tərəfindən qəbul olunduqda, onun ləğvi məsələsini qərardadı çıxarmış prokurorun özü və ya bu qərardaddan şikayətə baxan yuxarı prokuror əlavə olaraq "Prokurorluq haqqında" Qanunun 16-cı maddəsinə istinadən həll etsin.

**3.** Prokurorun öz təşəbbüsü ilə başladığı və yetkinlik yaşına çatmayanlar barəsində olan inzibati xətalar haqqında işlərin hakim, kollegial orqan və vəzifəli şəxs tərəfindən baxılmasında iştirakı məcburi sayılsın. Belə işlərin baxılmasının yeri və vaxtı barədə məlumatların prokurorluğa vaxtında təqdim edilməsi üçün tədbirlər görülsün.

**3.1.** İnzibati xətalar haqqında işlərin baxılmasında iştirak etmək bu işlərə baxan hakim, kollegial orqan və vəzifəli şəxslərin fəaliyyət göstərdikləri ərazi üzrə rayon (şəhər) və ərazi hərbi prokurorlarına həvalə edilsin. Bu səlahiyyətlər digər prokurorların (o cümlədən Baş Prokurorluğun, yuxarı prokurorluqların prokurorlarının) başladıqları icraatlar üzrə müvafiq tapşırıq və ya müraciət əsasında həyata keçirilsin, baxılmanın nəticələri barədə bu prokurorlara məlumat verilsin, nəzarət icraatları tabe prokurorluqlarda saxlansın.

**3.2.** Baş prokuror, onun müavinləri, yuxarı prokurorlar və onların müavinləri tərəfindən başlanmış inzibati xətalar haqqında işlərin hakimlər, kollegial orqanlar və vəzifəli şəxslər tərəfindən baxılmasında Baş Prokurorluğun və yuxarı prokurorluqların prokurorlarının iştirakı məqsədə uyğun sayıldıqda, bu, bir qayda olaraq müvafiq materialları hazırlamış struktur qurumun prokurorlarına tapşırılsın.

**3.3.** İşlərin baxılmasında iştirak edən prokurorlar:

**3.3.1.** İşlərin baxılmasına əvvəlcədən hazırlaşsınlar. Təqdim edilmiş sübutların tədqiqində fəal iştirak etsinlər. İşə baxan hakim, kollegial orqan və vəzifəli şəxs tərəfindən qanuni, əsaslı və ədalətli qərar qəbul olunmasına kömək etsinlər.

**3.3.2.** İnzibati xəta haqqında iş üzrə icraatın xitam olunmasına və ya inzibati məsuliyyətə cəlb edilən şəxsin əməllərinin İXM-nin başqa maddəsinə tövsif edilməsinə səbəb ola biləcək hallar barədə inzibati xəta haqqında iş üzrə icraat başlamış prokurora məlumat versinlər. İşin baxılmasında iştirak edən prokurorun mövqeyi ilə razılaşmadıqda, sonuncunun dəyişdirilməsi və ya prosesdə özünün iştirakı barədə məsələni vaxtında həll etsinlər.

**3.3.3.** İnzibati xətalar haqqında işlərin baxılması zamanı baş verən məsələlər üzrə əsaslandırılmış rəy və ya vəsatətlər versinlər (İXM-nin 54.3-cü maddəsi).

**3.3.4.** Fiziki və ya vəzifəli şəxslər barəsində inzibati tənbeh tətbiq edilməsi məsələsi müzakirə edilərkən qanunun tələb etdiyi inzibati xətanın xarakterini, xəta törədən şəxsin şəxsiyyətini xarakterizə edən halları, onun təqsirinin dərəcəsini, əmlak vəziyyətini, eyni məsələ hüquqi şəxslər barəsində müzakirə olunarkən isə, inzibati xətanın xarakteri ilə yanaşı inzibati xəta nəticəsində hüquqi şəxsin əldə etdiyi xeyrin həcmi və ya onun maraqlarının təmin edilməsinin xarakterini və dərəcəsini, hüquqi şəxsi xarakterizə edən halları, o cümlədən onun maliyyə və əmlak vəziyyətini, xeyriyyəçilik və ya digər ictimai faydalı fəaliyyətlə məşğul olmasını, habelə hər iki halda məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları rəhbər tutsunlar. Əsaslar olduqda əlavə tənbeh təyin olunmasını təklif etsinlər.

**3.3.5.** Kollegial orqanın və ya vəzifəli şəxsin icraatında olan İXM-nin 43.1-ci maddəsi ilə nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərin aidiyyəti üzrə müvafiq hakimə göndərilməsi barədə vaxtında əsaslandırılmış vəsatət qaldırsınlar.

**3.3.6.** İnzibati xəta haqqında işin baxılması zamanı inzibati xətanın törədilməsinə kömək edən səbəbləri və şəraiti aydınlaşdırsınlar. Zəruri olan bütün hallarda müvafiq müəssisə, idarə və təşkilatlara, vəzifəli şəxslərə onların aradan qaldırılması üçün tədbirlər görmək haqqında təqdimat verilməsi barədə vəsatət qaldırsınlar (İXM-nin 119.1-ci maddəsi).

**3.4.** İnzibati xəta haqqında işin baxılmasında iştirak edən prokuror nəzarət icraatı aparsın və bu icraata vacib prosessual sənədlərin - inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərarın, əsas materialların, qərar və qərardadların, protestlərin, şikayətlərin, qərarların icrası ilə bağlı sənədlərin və s. əlavə olunmasını təmin etsin.

**3.5.** İnzibati xəta haqqında işə baxılmasında iştirak edən prokuror iş üzrə qərarın qüvvəyə mindiyi gün tətbiq edilmiş inzibati tənbehin icrası barədə məlumatın alınmasını (İXM-nin 45.2.9-cu maddə) və onun mümkün qədər qısa müddətdə işi başlamış prokurora təqdim olunmasını təmin etsin.

**3.6.** İnzibati xətalar haqqında işlərin baxılmasında bilavasitə iştirak edən prokurorlar xidməti geyim qaydalarına əməl etsinlər.

**4.** Prokurorlar inzibati xətalar haqqında işlər üzrə qanunsuz və əsassız qərar və qərardadlardan qanunla müəyyən edilmiş müddətdə - qərarın surəti İXM-nin 57-ci maddəsində nəzərdə tutulmuş rəsmi qaydada verildiyi vaxtdan on gün ərzində protest versinlər. Bu üzrlü səbəblərdən mümkün olmadıqda müddətin bərpa edilməsi üçün hakim və ya səlahiyyətli orqan (vəzifəli şəxs) qarşısında vəsatət qaldırılsın.

**4.1.** İnzibati xəta haqqında iş üzrə hakimin qərarından apellyasiya instansiyası məhkəməsinə protest həmin qərarı qəbul etmiş hakim vasitəsilə və ya birbaşa apellyasiya instansiyası məhkəməsinə (İXM-nin 129.1.1-ci maddəsi), səlahiyyətli orqanın (vəzifəli şəxsin) qərarından məhkəməyə verilən protest birbaşa bu orqanın olduğu yer üzrə rayon (şəhər) məhkəməsinə (İXM-nin 129.1.4-cü maddəsi) göndərilsin.

**4.2.** Müəyyən edilsin ki:

**4.2.1.** İnzibati xətalar haqqında işlərə baxılarkən Dövlət qulluğu haqqında qanunvericilik şamil edilən mərkəzi icra hakimiyyəti orqanları adından dövlət orqanının rəhbəri, dövlət orqanı rəhbərinin müavini, dövlət orqanı aparatının rəhbəri, dövlət orqanı aparatının rəhbərinin müavini, dövlət orqanı aparatında şöbə müdiri, bölmə rəhbəri, dövlət orqanı aparatında şöbə müdirinin müavini, bölmə rəhbərinin müavini, dövlət orqanı aparatında sektor müdiri, baş məsləhətçi, böyük məsləhətçi, mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan dövlət agentliklərinin və dövlət xidmətlərinin rəhbərləri (rəhbərlərinin müavinləri), aparatının rəhbəri (rəhbərinin müavini), aparatının şöbə müdiri (müdir müavini) və sektor müdiri, o cümlədən, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından daxili işlər naziri, onun müavinləri, Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, onun müavinləri, Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, onun müavinləri, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi adından Komitənin sədri, sədrin birinci müavini və müavinləri, Komitənin aparatının Gömrük Sahəsində Hüquqpozmalara Qarşı Mübarizə Baş İdarəsinin rəisi, onun müavinləri, Komitənin sisteminə daxil olan: baş gömrük idarələri rəisləri və onların müavinləri, gömrük idarələrinin rəisləri və onların müavinləri, şöbələrin rəisləri, onların müavinləri, bölmə rəisləri, baş inspektorlar, böyük inspektorlar, inspektorlar, Komitənin aparatının şöbələrin rəisləri, onların müavinləri, bölmə rəisləri, baş inspektorlar, böyük inspektorlar, inspektorlar,

Azərbaycan Respublikasının Vergilər Nazirliyi adından vergilər naziri, onun müavinləri, nazirliyin aparatının rəhbəri, onun müavini, Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında İri Vergi Ödəyiciləri ilə İş üzrə Departamentin rəisi, onun müavinləri, Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti adından Xidmətin rəisi, onun müavini, Xidmətin müvafiq şöbələrinin rəisləri, Azərbaycan Respublikasının Mərkəzi Bankı adından Mərkəzi Bankın İdarə Heyətinin sədri, onun müavinləri, baş direktorlar, Kredit təşkilatlarının fəaliyyətinə nəzarət departamentinin direktoru və onun müavinləri, Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası adından Şuranın sədri, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi adından ədliyyə naziri, onun müavinləri, Nazirliyin aparatının Qeydiyyat və notariat baş idarəsinin rəisi, onun müavini, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti adından Xidmətin rəisi, onun müavini, Xidmətin müvafiq strukturlarının rəhbərləri (rəisləri), Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi adından xarici işlər naziri, onun müavini, konsulluq idarəsinin rəisi, Azərbaycan Respublikasının xarici ölkələrdəki səfirləri və Azərbaycan Respublikasının diplomatik nümayəndəlik və konsulluqlarının konsulluq məsələləri üzrə məsul əməkdaşları, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi adından fövqəladə hallar naziri, nazirin birinci müavini və nazirin müavinləri, Kiçik Həcmli Gəmilər üzrə Dövlət Müfəttişliyinin rəisi, onun müavinləri, Dövlət Yanğın Nəzarəti Xidmətinin rəisi, onun müavinləri, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-Mədən Nəzarəti Dövlət Agentliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyi adından bu agentliklərin rəhbərləri (rəhbərlərinin müavinləri), aparatının rəhbəri (rəhbərinin müavini), aparatının şöbə müdiri (müdir müavini) və sektor müdiri, Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti adından Xidmətin rəisi, onun müavinləri, Xidmətin Miqrasiya nəzarəti baş idarəsinin rəisi, onun müavini, həmin baş idarənin idarələrinin rəisləri, onların müavinləri, müvafiq şöbələrinin rəisləri, baş inspektorları, Dövlət Sərhəd Xidməti şöbəsinin müstəntiqləri və təhqiqatçıları, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası adından Palatanın Direktorlar Şurasının sədri tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini;

**4.2.2.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi adından müdafiə naziri, onun müavinləri, Silahlı Qüvvələrin Baş Qərargahının rəisi, Silahlı Qüvvələrin Baş Qərargahının Təşkilati-Səfərbərlik İdarəsinin rəisi, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti adından xidmətin rəisi, onun birinci müavini, xidmətin aparatının müvafiq idarəsinin rəisi, xidmətin aparatının müvafiq idarəsinin rəis müavini, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin adından Xidmətin rəisi, onun müavinləri tərəfindən hərbi qulluqçular və toplanışa çağırılmış hərbi vəzifəlilər barəsində çıxarılmış qərar və qərardadlardan protestləri Azərbaycan Respublikasının Hərbi prokuroru;

**4.2.3.** Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin rəisi, onun müavini, Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin İctimai Təhlükəsizlik şöbəsinin rəisi, Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsinin sədri, onun müavini, Naxçıvan Muxtar Respublikasının vergilər naziri, onun müavini, nazirliyin aparatının rəhbəri, onun müavini, Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin Naxçıvan Şəhər Vergilər İdarəsinin rəisi, onun müavini və rayon vergilər şöbələrinin rəisləri, onların müavinləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Nazirliyin aparatının Qeydiyyat və notariat idarəsinin rəisi, onun müavini tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri Naxçıvan Muxtar Respublikasının prokuroru;

**4.2.4.** Bakı Şəhər Vergilər Departamentinin rəisi, onun müavinləri tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri Bakı şəhər prokuroru;

Bakı Şəhər Vergilər Departamentinin filiallarının rəisi, onların müavinləri tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri Bakı şəhərinin rayon prokurorları;

**4.2.5.** Dövlət qulluğu haqqında qanunvericilik şamil edilən yerli icra hakimiyyəti orqanları adından mərkəzi icra hakimiyyəti orqanlarının yanında olan, tabeliyindəki orqanların, yerli bölmələrinin rəhbərləri və rəhbərlərinin müavinləri, o cümlədən Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi şəhər, rayon polis idarələrinin (şöbələrinin) və ərazi polis bölmələrinin rəisləri, onların müavinləri, ərazi polis orqanlarının dövlət yol polisi idarələrinin, şöbələrinin rəisləri, onların müavinləri, Dövlət Yol Polisi idarələrinin şöbə rəisləri və onların müavinləri, bölmə rəisləri, xüsusilə mühüm tapşırıqlar üzrə baş inspektorları və inspektorları, nəqliyyatda polis idarələrinin, şöbələrinin, xətt bölmələrinin, məntəqələrinin rəisləri, onların müavinləri, polis sahə rəisləri, Azərbaycan Respublikasının Vergilər Nazirliyinin ərazi vergi idarələrinin rəisləri, onların müavinləri, rayon vergilər şöbələrinin rəisləri, onların müavinləri, hərbi qulluqçu və toplanışa çağırılmış hərbi vəzifəli hesab edilməyən şəxslər barəsində Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarələrinin, şöbələrinin və bölmələrinin rəisləri, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin regional ədliyyə şöbələrinin rəisləri, Fövqəladə Hallar Nazirliyinin müvafiq ərazi və regional Dövlət Yanğın Nəzarəti İdarələrinin rəisləri regional miqrasiya idarələrinin rəisləri, onların müavinləri, həmin idarələrin müvafiq şöbələrinin rəisləri, baş inspektorları tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri rayon (şəhər, o cümlədən Bakı şəhəri rayonlarının) prokurorları;

**4.2.6.** sərhəd diviziyasının komandiri, sərhəd dəstələrinin rəisləri tərəfindən çıxarılmış qərar və qərardadlardan protestləri ərazi hərbi prokurorları verirlər.

**4.2.7.** Müvafiq materiallar, o cümlədən protest layihələri inzibati xəta haqqında iş üzrə icraat başlamış prokurorluqlarda hazırlansın, onların təhlil edilməsi və protest layihəsinin təsdiq olunub-olunmaması baxımından dəyərləndirilməsi Azərbaycan Respublikasının Baş prokurorunun birinci müavini, Azərbaycan Respublikasının Hərbi prokuroru, Naxçıvan Muxtar Respublikasının prokuroru, Bakı şəhər prokuroru, rayon (şəhər) və ərazi hərbi prokurorunun özlərinin müəyyən etdikləri qurum və ya prokuror tərəfindən icra olunsun.

**4.3.** İnzibati xəta haqqında iş üzrə qərardan səlahiyyətli prokurorun protest verməməsi belə protestin verilməsi üçün onun tərəfindən əsasların müəyyən edilməməsi kimi qiymətləndirilsin.

**4.4.** İnzibati xəta haqqında iş üzrə qərardan, o cümlədən orqanın və ya vəzifəli şəxsin qərarından verilmiş protestin məhkəmədə baxılmasında iştirak etmək müvafiq materialı hazırlamış Baş Prokurorluğun və ya yuxarı prokurorluğun qurumuna və ya rayon (şəhər) və ərazi hərbi prokurorunun müavininə, köməkçisinə tapşırılsın. Belə tapşırıqlar olduğu hallarda nəzarət icraatının həmin prokurorluqlara vaxtında göndərilməsi təmin edilsin.

**5.** İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılmasına İXM-nin 104.1-ci maddəsində müəyyən edilmiş əsaslar dəlillərlə təsdiq edildikdə yol verilsin, kifayət qədər əsas olmadan qəbul edilmiş müvafiq qərarlar ləğv edilsin, inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması üçün səbəb olmuş halların aradan qaldırılması üçün tədbirlər görülsün.

Bu məqsədlə prokurorlar tərəfindən icraatın dayandırılması barədə qərarların surətlərinin 48 saat ərzində prokurorluğa göndərilməsi üçün tədbirlər həyata keçirilsin. Müvafiq qərarı qəbul etmiş səlahiyyətli vəzifəli şəxsdən inzibati xəta haqqında iş üzrə icraatın materialları tələb olunsun, qanun normalarının tətbiqinin düzgünlüyünün yoxlanması mümkün qədər tez, lakin bir aydan çox olmayan müddətdə tamamlansın. Qanun normalarının pozulması ilə qəbul olunmuş qərar ləğv olunsun, onun surəti qərarı qəbul etmiş səlahiyyətli vəzifəli şəxsə göndərilsin, inzibati xəta haqqında iş üzrə icraatın təzələnməsini nəzarətdə saxlasın. Eyni zamanda səlahiyyətli vəzifəli şəxs barəsində bu Məcəllənin 596.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta haqqında icraatın başlanmasına dair qərar qəbul olunması məsələsi həll edilsin.

İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması barədə qərarın ləğvi və həmin qərarı bu Məcəllənin 104.1-ci maddəsinin müddəalarını pozmaqla qəbul etmiş şəxsin inzibati məsuliyyətə cəlb olunması məsələsi əmrin 4.2-ci maddəsində sadalanmış müvafiq prokurorlar tərəfindən həll edilsin.

**6.** Prokurorluq orqanlarının vəzifəli şəxsləri inzibati xətalar haqqında qanunvericiliyin tətbiqi ilə əlaqədar vətəndaşların, vəzifəli şəxslərin və hüquqi şəxslərin müraciətlərinə vaxtında, hərtərəfli, tam və obyektiv baxılmasını təmin etsinlər, şəxslərin hüquqlarının, azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi, inzibati xəta törətmiş şəxsi müəyyənləşdirib inzibati məsuliyyətə cəlb olunması üçün tədbirlər görsünlər.

**6-1.** Tabe və yuxarı prokurorlar inzibati xəta haqqında iş üzrə prokuror nəzarətini təkmilləşdirmək və onun səmərəliliyini yüksəltmək məqsədilə altı ayda bir dəfədən az olmayaraq bu sahədə görülmüş işləri təhlil edib prokuror nəzarətinin vəziyyətini ümumiləşdirsinlər.

**7.** İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarətinin həyata keçirilməsinin uçotunu təmin etmək məqsədi ilə prokurorluqlarda aşağıda göstərilən kitabların aparılması təmin olunsun:

– "İnzibati xətalar haqqında dövlət orqanlarından, təşkilatlarından, bələdiyyələrdən, fiziki və ya hüquqi şəxslər tərəfindən təqdim edilən, yaxud kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatların qeydiyyatı kitabı" *(Əlavə 1);*

– "İnzibati xətalar haqqında işlər üzrə başlanmış icraatların qeydiyyatı kitabı" *(Əlavə 2)";*

– "İnzibati xətalar haqqında işlər üzrə rədd edilən icraatların qeydiyyatı kitabı" *(Əlavə 3)";*

– “İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında qərarların qeydiyyat kitabı" *(Əlavə 4)”;*

– "İnzibati xətalar haqqında işlər üzrə icraatların maddi sübutların qeydiyyatı kitabı" *(Əlavə 5)".*

Bu kitabların nümunəvi formaları təsdiq edilsin.

**8.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 15.02.2016-cı il tarixli Fərmanının 3-cü bəndində nəzərdə tutulmuş tövsiyənin icrası məqsədi ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun Təşkilat-analitik idarəsi tərəfindən informasiya-kommunikasiya texnologiyaları tətbiq etməklə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 54.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə dair məlumatlar toplansın, Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi üçün hər ildə bir dəfə Azərbaycan Respublikasının Baş prokuroruna təqdim edilsin.

**9.** Baş Prokurorluğun Hüquqi təminat və informasiya idarəsi inzibati xətalar haqqında işlər üzrə prokuror nəzarətinin həyata keçirilməsi barədə məlumatlardan ibarət elektron informasiya sistemləri və ehtiyatları yaratsın.

**10.** İnzibati Xətalar Məcəlləsinin normalarının tətbiqi ilə bağlı qarşıya çıxan məsələlərlə bağlı tövsiyə almaq üçün prokurorlar Baş Prokurorluğun Elm-Tədris Mərkəzinə rəsmi müraciət etsinlər. Tövsiyələr müraciət müəlliflərinə mümkün qədər qısa müddətdə yazılı formada hazırlamaqla göndərilsin.

**11.** Azərbaycan Respublikasının Baş Prokurorluğu üzrə "İnzibati xətalar haqqında işlər üzrə icraata prokuror nəzarətinin gücləndirilməsi tədbirləri haqqında" 27.06.2001-ci il tarixli 02/100 nömrəli əmr (08.09.2004-cü il tarixli 08/58 №-li, 04.09.2008-ci il tarixli 10/40 №-li, 11.02.2010-cu il tarixli 10/14 №-li və 16.09.2011-ci il tarixli 10/82 №-li əmrlərlə edilmiş əlavə və dəyişikliklərlə) ləğv edilsin.

**12.** Baş Prokurorluğun Maddi-texniki təminat şöbəsi tərəfindən tabe prokurorluq orqanlarının əmrin 7-ci bəndində göstərilən kitablarla təchiz edilməsi təmin edilsin.

**13.** Əmrin icrasına nəzarəti öz üzərimə götürürəm.

**14.** Əmr bütün tabe prokurorluqlara elan edilsin və "Azərbaycan Prokurorluğu" jurnalında dərc olunsun.

**Zakir Qaralov,**
**Azərbaycan Respublikasının**
**Baş prokuroru,**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

***Əlavə № 1***
***(bənd 7)***

**İnzibati xətalar haqqında dövlət orqanlarından, təşkilatlarından, bələdiyyələrdən, fiziki və ya hüquqi şəxslər tərəfindən təqdim edilən, yaxud kütləvi informasiya vasitələrində dərc olunmuş məlumatların qeydiyyatı kitabı**

| Sıra №-si | Məlumatın daxil olduğu tarix, nömrə | Məlumatı göndərən (dərc edən) subyekt | Məlumatın xarakteri | Məlumatın göndərilmə nömrəsi və tarixi, vərəqləri sayı | Məlumatı araşdıran prokurorluq işçisi | Yekun prosessual qərarın tarixi | Yekun prosessual qərarın məzmunu | Əmrə 2 və 3 nömrəli əlavə kitabında qeydiyyat nömrəsi və tarixi | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

***Əlavə № 2***
***(bənd 7)***

## İnzibati xətalar haqqında işlər üzrə başlanmış icraatların qeydiyyatı kitabı

| Sıra №-si | Qeydiyyat üçün təqdim edildiyi tarix | Əmrə 1 nömrəli əlavədə nəzərdə tutulmuş kitabda məlumatın qeydiyyat nömrəsi | Barəsində inzibati xəta haqqında iş üzrə icraat başlanmış şəxsin S.A.A. | İnzibati xəta haqqında iş üzrə icraatın başlanma tarixi | İnzibati xəta haqqında iş üzrə icraat başlayan prokuror | İnzibati xətanın xarakteri (törədildiyi yer, vaxt, xətanın qısa mahiyyəti) | İnzibati xətaya görə məsuliyyət nəzərdə tutan İXM-nin maddəsi | İnzibati araşdırma aparılması barədə məlumat | İşə (icraat başlanması barədə qərara) baxan məhkəmə, orqan və ya vəzifəli şəxs | İşə (icraat başlanması barədə qərara) baxılmanın nəticəsi üzrə qərarın tarixi | İşə (icraat başlanması barədə qərara) baxılmanın nəticəsi üzrə qərarın məzmunu | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |
| | | | | | | | | | | | | |

***Əlavə № 3***
***(bənd 7)***

## İnzibati xətalar haqqında işlər üzrə rədd edilən icraatların qeydiyyatı kitabı

| Sıra №-si | Qeydiyyat üçün təqdim edildiyi tarix | Əmrə 1 nömrəli əlavədə nəzərdə tutulmuş kitabda məlumatın qeydiyyat nömrəsi | Barəsində inzibati xəta haqqında iş üzrə icraat aparılan şəxsin S.A.A. | İnzibati xətanın xarakteri (törədildiyi yer, vaxt, xətanın qısa mahiyyəti) | İnzibati araşdırma aparılması barədə məlumat | İnzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qərardadın tarixi | İnzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qərardadı qəbul etmiş prokuror | İnzibati xəta haqqında işin başlanmasının rədd edilməsi haqqında qərardadın prosessual əsası | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

***Əlavə № 4***
***(bənd 7)***

## İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında qərarların qeydiyyatı kitabı

| Sıra №-si | İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması barədə qərar qəbul etmiş orqan (vəzifəli şəxs) | İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması barədə qərarın tarixi | İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması barədə qərarın prokurorluğa daxil olduğu tarix | İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması barədə qərarın prosessual əsası (İXM-nin 104.1.1.,-104.1.3) | İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması barədə qərarın düzgünlüyünü yoxlamış prokuror | İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması barədə qərarın düzgünlüyünün yoxlanması üzrə qəbul edilmiş yekun qərarın tarixi və məzmunu | İnzibati xəta haqqında iş üzrə icraatın dayandırılması barədə qərarın ləğv edilməsi barədə qərarın səlahiyyətli vəzifəli şəxsə göndərilməsi tarixi | Barəsində İXM-nin 596.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta haqqında iş üzrə icraat başlanması barədə qərarın tarixi | İXM-nin 596.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xəta haqqında iş üzrə icraat başlanmış səlahiyyətli vəzifəli şəxs | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |
| | | | | | | | | | | |

***Əlavə № 5***
***(bənd 7)***

## İnzibati xətalar haqqında işlər üzrə icraatların maddi sübutların qeydiyyatı kitabı

| Sıra №-si | İnzibati işin №-si, İnzibati xətanı törətmiş şəxsin A.S.A | Götürülmüş əşyaların adları, fərqləndirici əlamətləri | Sayı (məbləği) | Əşyaların götürülmə vaxtı və yeri, götürmüş şəxsin vəzifəsi, A.S.A. | İcraat dövründə maddi sübutların saxlanıldığı yer, saxlanmağa məsul şəxsin vəzifəsi, A.S.A. | Maddi sübutlara dair qəbul edilən qərarın tarixi və nəticəsi | Maddi sübutlara dair qərar qəbul edən şəxsin vəzifəsi, A.S.A. | Maddi sübutların qaytarıldığı və ya təhvil verildiyi tarix, şəxsin, orqanın adı, ünvanı | Qeyd |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |
| | | | | | | | | | |

AZƏRBAYCAN RESPUBLİKASININ BAŞ PROKURORLUĞU

**SƏRƏNCAM**

**№ 10/65**

Bakı şəhəri 4 noyabr 2016-cı il

Baş Prokurorluq üzrə «Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrası sahəsində prokurorluq orqanlarının üzərinə düşən vəzifələrin daha səmərəli yerinə yetirilməsinin təmin edilməsi tədbirləri haqqında» 12 noyabr 2010-cu il tarixli, 10/102 nömrəli əmrin icrasının təmin edilməsi üçün 03.08.2012-ci il tarixli, 10/83 nömrəli Sərəncamla Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn və prokurorluğun fəaliyyətinə aid olan öhdəliklərin icrası ilə əlaqədar yaradılan ixtisaslaşdırılmış ekspert qruplarının tərkibi müəyyənləşdirilmişdir.

Son dövrlərdə prokurorluqda aparılan kadr dəyişikliklərini nəzərə alaraq, ixtisaslaşdırılmış ekspert qrupunun fəaliyyətinin daha da təkmilləşdirilməsi məqsədilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən,

**Q Ə R A R A  A L I R A M:**

**1.** Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn və prokurorluğun fəaliyyətinə aid olan öhdəliklərin icrası ilə əlaqədar yaradılan ixtisaslaşdırılmış ekspert qruplarının tərkibi aşağıdakı qaydada müəyyənləşdirilsin:

**1.1.** *İnsan hüquqları və azadlıqlarının müdafiəsi sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:*

**Rəhbər:**

**Nazir Bayramov** Elm-Tədris Mərkəzinin rəisi;

**Üzvlər:**

**Sahib İsmayılov** Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi;

**Günay Əyyubova** Elm-Tədris Mərkəzinin rəis müavini;

**Talıb Cəfərov** Elm-Tədris Mərkəzinin İnsan hüquq və azadlıqlarının müdafiəsi problemləri kafedrasının rəisi;

**Rəhman Əhmədov** Elm-Tədris Mərkəzinin Cinayət hüququ, cinayət prosesi və kriminologiya kafedrasının müəllim-prokuroru.

**1.2.** *Hərbi cinayətlər və insanlıq əleyhinə cinayətlərlə mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:*

**Rəhbər:**

**Rauf Məmmədov** Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin rəisi;

**Üzvlər:**

**Araz Hidayətov** Respublika Hərbi Prokurorluğunun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin böyük prokuror-metodisti;

**Mehman Poladov** Respublika Hərbi Prokurorluğunun Hərbi prokurorluqlarda istintaqa nəzarət şöbəsinin böyük prokuror-metodisti;

**Ağayar Məmmədov** Respublika Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin böyük prokuroru;

**Emin Musayev** — Respublika Hərbi Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin böyük prokuroru.

**1.3.** *Korrupsiya cinayətlərinə, habelə cinayət yolu ilə əldə edilmiş pulların və digər əmlakın leqallaşdırılmasına qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:*

**Rəhbər:**

**Anar Nəsibov** — Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat idarəsinin rəisi;

**Üzvlər:**

**Elnur Musayev** — Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru;
**Səbuhi Alıyev** — Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru;
**Əmir Ocaqverdiyev** — Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin böyük prokuroru;
**Pirayə Əliyeva-Səmədzadə** — Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru vəzifəsini icra edən.

**1.4.** *İşgəncələrə, habelə digər qəddar və qeyri-insani rəftara qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:*

**Rəhbər:**

**Qabil Qasımov** — Prokurorluqda istintaqa nəzarət idarəsinin rəis müavini;

**Üzvlər:**

**Ramiz Qafarov** — Prokurorluqda istintaqa nəzarət idarəsinin böyük prokuror-metodisti;
**Ramil Qurbanov** — Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru;
**Samir Nəcəfov** — Hüquqi Təminat və İnformasiya idarəsinin prokuroru;
**Mahir Abbasov** — Dövlət ittihamının müdafiəsi üzrə idarənin böyük prokuroru.

**1.5.** *Ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:*

**Rəhbər:**

**Rauf Zeynalov** — Təşkilat-analitik idarəsinin rəis müavini;

**Üzvlər:**

**Natiq Hacıyev** — Prokurorluqda istintaqa nəzarət idarəsinin böyük prokuroru;
**Anar Tağıyev** — Elm-Tədris Mərkəzinin Mütəşəkkil cinayətkarlıqla mübarizənin problemləri kafedrasının müəllim-prokuroru;
**Mahir Tağıyev** — Hüquqi təminat və informasiya idarəsinin böyük prokuroru;
**Ceyhun Budaqov** — Dövlət ittihamının müdafiəsi üzrə idarənin Apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru.

**1.6.** *Terrorçuluğa qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:*

**Rəhbər:**

**Novruz Hacıyev** — Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini;

**Üzvlər:**

**Ramiz Əliyev** Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru;

**Alim Cəbrayılov** Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru;

**Səttar Rzayev** Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin böyük prokuroru;

**Rahil İsmayılov** Dövlət ittihamının müdafiəsi üzrə idarənin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru.

**1.7.** *İnsan alverinə və insanın istismarına qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:*

**Rəhbər:**

**Nurəli Məmmədov** DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini;

**Üzvlər:**

**Tahir İsmayılov** DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru;

**Elmar Eyyubov** DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru;

**Cəfər Həsənov** DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru;

**Ergin Qafarov** Dövlət ittihamının müdafiəsi üzrə idarənin Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru.

**1.8.** *Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində qəbul olunmuş beynəlxalq müqavilələr üzrə ekspert qrupu:*

**Rəhbər:**

**Müşfiq Səfərov** DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini;

**Üzvlər:**

**Samir Abbasov** DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru;

**Fərrux Babayev** DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru;

**Azər Mustafayev** Ədliyyə və Vergilər nazirlikləri, Dövlət Gömrük Komitəsinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuroru;

**Nəriman Ələkbərov** Dövlət ittihamının müdafiəsi üzrə idarənin Birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbənin böyük prokuroru.

**1.9.** *Ekstradisiya və hüquqi yardım məsələlərini tənzimləyən beynəlxalq müqavilələr üzrə ekspert qrupu:*

**Rəhbər:**

**Anar Məmmədov** Beynəlxalq əlaqələr idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin rəisi – idarə rəisinin müavini;

**Üzvlər:**

| | |
|---|---|
| **Elnur Eyvazov** | Beynəlxalq əlaqələr idarəsinin Beynəlxalq hüquqi əməkdaşlıq və protokol xidmətinin prokuroru; |
| **Fərizə Mirzəyeva** | Beynəlxalq əlaqələr idarəsinin Ekstradisiya və hüquqi yardım şöbəsinin prokuroru; |
| **Ramiz Alverdiyev** | Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi; |
| **İlkin Yusifov** | Dövlət ittihamının müdafiəsi üzrə idarənin Apellyasiya və Kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru. |

**2.** *İxtisaslaşdırılmış ekspert qruplarının fəaliyyətinin əlaqələndirilməsi və səmərəliliyinin təmin edilməsi məqsədilə aşağıdakı tərkibdə Komissiya yaradılsın:*

**Sədr:**

**Rüstəm Usubov** Baş prokurorun birinci müavini;

**Üzvlər:**

| | |
|---|---|
| **Müqəddəs Sultanov** | Təşkilat-analitik idarəsinin rəisi; |
| **İlqar Cəfərov** | Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi; |
| **Nazim Abbasov** | Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi; |
| **Kamal Qılıcov** | DİO-nun istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi; |
| **Elşən Abbasov** | Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi; |
| **Şəfahət İmranov** | Respublika Hərbi prokurorunun müavini; |
| **Nazir Bayramov** | Elm-Tədris Mərkəzinin rəisi; |
| **Natiq Hüseynov** | Hüquqi təminat və informasiya idarəsinin rəisi; |
| **Erkin Əlixanov** | Beynəlxalq əlaqələr idarəsinin rəisi; |
| **Orxan İsayev** | Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin rəisi; |

**Məsul katib:**

| | |
|---|---|
| **İsmayıl Qayıbov** | Beynəlxalq əlaqələr idarəsinin Beynəlxalq -hüquqi əməkdaşlıq və protokol xidmətinin rəhbəri. |

**3.** Baş Prokurorluq üzrə 03.08.2012-ci il tarixli, 10/83 nömrəli Sərəncam ləğv edilsin.

**4.** Sərəncam elan olunması üçün Baş Prokurorluğun struktur qurumlarına və tabe prokurorluqlara göndərilsin, «Azərbaycan Prokurorluğu» jurnalında dərc edilsin.

**Zakir Qaralov,**
**Azərbaycan Respublikasının**
**Baş prokuroru,**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq, “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununu “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 12 fevral tarixli 127-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105, № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276) 33-cü maddəsinin II hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** 4-cü bəndə “19 yaşdan” sözlərindən sonra “(“B” kateqoriyasına daxil olan nəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübə bir ildən az olmamaq şərtilə)” sözləri əlavə edilsin.

**2.** 5-ci bənddən “, “CE” və “D” kateqoriyasına daxil olan nəqliyyat vasitələrini” sözləri çıxarılsın.

3. Aşağıdakı məzmunda 5-1-ci və 5-2-ci bəndlər əlavə edilsin:

**“5-1)** “CE” kateqoriyasına daxil olan nəqliyyat vasitələrini idarəetmə hüququ - 21 yaşdan (“C” kateqoriyasına daxil olan nəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübə üç ildən az olmamaq şərtilə);

**5-2)** “D” kateqoriyasına daxil olan nəqliyyat vasitələrini idarəetmə hüququ - 23 yaşdan (65 yaşadək və avtonəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübə beş ildən az olmamaq şərtilə);”.

**4.** 6-cı bənd aşağıdakı redaksiyada verilsin:

**“6)** “DE” kateqoriyasına daxil olan nəqliyyat vasitələrini idarəetmə hüququ - 26 yaşdan (65 yaşadək və “D” kateqoriyasına daxil olan nəqliyyat vasitələrini idarə etmək sahəsində təcrübə üç ildən az olmamaq şərtilə);”.

**5.** Səkkizinci abzas ləğv edilsin və doqquzuncu abzas səkkizinci abzas hesab edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2016-cı il
№ 326-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 17-ci bəndlərini rəhbər tutaraq, “Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununu “Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 1 fevral tarixli 120-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Əməliyyat-axtarış fəaliyyəti haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 11, maddə 612; 2002, № 5, maddə 250, № 6, maddə 328; 2004, № 3, maddə 133; 2005, № 12, maddə 1079; 2006, № 2, maddə 64,

№ 11, maddə 933, № 12, maddə 1005; 2007, № 6, maddə 560; 2008, № 4, maddə 252, № 6, maddə 462; 2010, № 3, maddə 172, № 6, maddə 487; 2011, № 4, maddələr 252, 268, № 11, maddə 989; 2014, № 2, maddə 88, № 7, maddə 764; 2016, № 2, II kitab, maddə 217) 10-cu maddəsinin IV hissəsinin 2-ci bəndində “cəzaçəkmə müəssisələrindən və ya həbsdən” sözləri “azadlıqdan məhrum etmə və ya həbs yerlərindən, yaxud mühafizə altından” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2016-cı il
№ 327-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 6-cı bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsini “Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 1 fevral tarixli 120-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, II kitab, maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2, II kitab, maddə 218) 17.1-ci maddəsində “mənzildə” sözü “yaşayış yerində” sözləri ilə, “mənzilə” sözü isə “yaşayış yerinə” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2016-cı il
№ 328-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836; Azərbaycan

Respublikasının 2016-cı il 14 iyun tarixli 293-VQD nömrəli Qanunu) aşağıdakı məzmunda 4.4-cü, 138.5-ci və 272.4-1-ci maddələr əlavə edilsin:

**"4.4.** İqtisadi mübahisələr ilə bağlı iddia ərizələri, ərizələr, şikayətlər və digər sənədlər məhkəməyə yazılı formada və ya "Elektron məhkəmə" informasiya sistemində yaradılmış elektron kabinet vasitəsilə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş elektron sənəd formasında verilə bilər.

**138.5.** İqtisadi mübahisələr üzrə işdə iştirak edən şəxslər "Elektron məhkəmə" informasiya sistemində qeydiyyatdan keçmişlərsə, məhkəmə bildirişləri bu şəxslərin həmin sistemdə yaradılmış elektron kabinetlərində yerləşdirilir və onlara bu barədə məlumat elektron qaydada (elektron poçt və ya SMS vasitəsilə) çatdırılır.

**272.4-1.** İqtisadi mübahisələr üzrə məhkəmə iclaslarının fasiləsiz video-audio yazısı aparılır. Məhkəmə iclasında sədrlik edən tərəfləri və işdə iştirak edən digər şəxsləri bu barədə xəbərdar edir. Məhkəmə iclasının video-audio yazısına dair məlumat məhkəmə iclasının protokolunda göstərilir və həmin yazı maddi daşıyıcıda protokola əlavə olunur. İşdə iştirak edən şəxslər məhkəmə iclasının video-audio yazısı ilə tanış olmaq hüququna malikdirlər.".

**Maddə 2.** Bu Qanun 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2016-cı il
№ 330-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 144-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010; Azərbaycan Respublikasının 2016-cı il 24 iyun tarixli 300-VQD və 303-VQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 462-ci maddənin dispozisiyasında "sığorta nəzarəti orqanına" sözləri "müvafiq icra hakimiyyəti orqanına və müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma" sözləri ilə əvəz edilsin.

**2.** 471-ci maddənin adı və dispozisiyası aşağıdakı redaksiyada verilsin:

**"Maddə 471. Sığorta nəzarətinin həyata keçirilməsinin maliyyələşdirilməsi üçün müəyyən edilmiş haqların ödənilməməsi**

Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun sığorta sektorunda tənzimləmə və nəzarət funksiyalarının həyata keçirilməsi üzrə fəaliyyətinin maliyyələşdirilməsi üçün sığorta bazarının peşəkar iştirakçıları tərəfindən həmin qurumun müəyyən etdiyi məbləğdə və qaydada haqların ödənilməməsinə görə –".

**3.** 472-ci maddənin dispozisiyasında "sığorta nəzarəti orqanından" sözləri "müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumdan" sözləri ilə əvəz edilsin.

**4.** 473.2-ci və 473.3-cü maddələrin dispozisiyasında "sığorta nəzarəti orqanına" sözləri "müvafiq icra hakimiyyəti orqanının yaratdığı quruma" sözləri ilə əvəz edilsin.

**5.** 478-ci maddənin adında və dispozisiyasında "Sığorta nəzarəti orqanının" sözləri "Müvafiq icra hakimiyyəti orqanının yaratdığı qurumun" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 sentyabr 2016-cı il
№ 331-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 3, maddə 125; 2005, № 4, maddə 285, № 10, maddə 876; 2007, № 10, maddə 934, № 12, maddə 1219; 2013, № 6, maddə 595) aşağıdakı məzmunda 11-1-ci və 11-2-ci maddələr əlavə edilsin:

**"Maddə 11-1. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatvermə**

**11-1.1.** Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat hər bir şəxs tərəfindən yazılı (o cümlədən elektron) və ya şifahi formada verilə bilər.

**11-1.2.** Dövlət və bələdiyyə orqanlarının, dövlət və ya bələdiyyə mülkiyyətində olan və ya paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə və ya bələdiyyəyə məxsus olan hüquqi şəxslərin və büdcə təşkilatlarının (bundan sonra – idarə, müəssisə və təşkilatların) rəhbəri həmin idarə, müəssisə və ya təşkilatlarda korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların verilməsi üçün müvafiq vəzifəli şəxs və ya struktur bölmə (bundan sonra – səlahiyyətli struktur bölmə) müəyyən edir.

**11-1.3.** İdarə, müəssisə və təşkilatlarda çalışan işçilər korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatları səlahiyyətli struktur bölməyə verə bilərlər.

**11-1.4.** Səlahiyyətli struktur bölmə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatı qəbul etdikdən sonra qeydə almalı və məlumatın qeydə alınmasını məlumatı verən şəxsə bildirməlidir.

**11-1.5.** Səlahiyyətli struktur bölmə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat qeydə alındığı gündən 20 iş günü müddətində məlumatı araşdırmalı və araşdırmanın nəticəsini məlumat verən şəxsə bildirməlidir. Araşdırma "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı müraciətlərə baxılması xüsusiyyətlərinə uyğun aparılır.

**11-1.6.** Barəsində məlumat verilən şəxsə, həmçinin araşdırmanın nəticəsində birbaşa və ya dolayısı ilə maraqlı olan şəxslərə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatın araşdırılması həvalə edilə bilməz.

**11-1.7.** Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat səlahiyyətli struktur bölmə ilə əlaqədar olduqda, məlumatı verən şəxs həmin məlumatı müvafiq idarə, müəssisə və ya təşkilatın rəhbərinə təqdim etmək hüququna malikdir. İdarə, müəssisə və ya təşkilatın rəhbəri belə məlumatların qəbul edilməsini, qeydə alınmasını və bu Qanunda nəzərdə tutulan müvafiq tədbirlərin həyata keçirilməsini təmin etməlidir.

**11-1.8.** Korrupsiya ilə əlaqədar hüquqpozmalar barədə məlumat idarə, müəssisə və ya təşkilatın rəhbəri ilə bağlı olduqda, məlumat verən şəxs həmin məlumatı idarə, müəssisə və ya təşkilatın rəhbərindən yuxarı vəzifəli şəxsə və ya korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlara təqdim etmək hüququna malikdir. Həmin orqanlar bu məlumatın qəbul edilməsini, qeydə alınmasını və bu Qanunda nəzərdə tutulan müvafiq tədbirlərin həyata keçirilməsini təmin etməlidirlər.

**Maddə 11-2. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin dövlət müdafiəsi**

**11-2.1.** Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs özü barədə məlumatın açıqlanmasını istəmədiyi halda, səlahiyyətli struktur bölmə, idarə, müəssisə və ya təşkilatın rəhbəri və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar onun konfidensiallığını təmin etməlidirlər. Bu məlumat korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin yazılı razılığı olduqda açıqlanır. Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin konfidensiallığının pozulmasında təqsiri olan şəxslər qanunla müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**11-2.2.** Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsə və ya onun yaxın qohumuna hədə-qorxu gəlmək, onları təzyiqlərə məruz qoymaq, maddi və ya mənəvi ziyan vurmaq, təhqir və təhdid etmək, şərəf və ya ləyaqətini alçaltmaq qanunla müəyyən edilmiş qaydada məsuliyyətə səbəb olur.

**11-2.3.** Korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs və ya onun yaxın qohumu barəsində öldürməklə hədənin icra ediləcəyi, zor tətbiq ediləcəyi, əmlakının məhv ediləcəyi və ya ona ziyan vurulacağı qorxusunun mövcudluğu barədə real əsaslar olduğu təqdirdə, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxsin prokurorluğa müraciəti əsasında "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada təhlükəsizlik tədbirləri tətbiq edilir.

**11-2.4.** İdarə, müəssisə və ya təşkilatın korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat vermiş işçisi barəsində məsuliyyət tədbirlərini tətbiq edən idarə,

müəssisə və ya təşkilat onların qanunla müəyyən edilmiş hallardan irəli gəlməsini və korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumata aidiyyəti olmadığını əsaslandırmalıdır. Həmin işçi attestasiyadan keçirildikdə, səlahiyyətli struktur bölmənin nümayəndəsi attestasiya komissiyasının iclasında iştirak etməlidir.

**11-2.5.** İdarə, müəssisə və ya təşkilatlar, səlahiyyətli struktur bölmə və korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar tərəfindən bu Qanunun 11-1-ci və 11-2-ci maddələrinin tələbləri pozulduqda, korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumat verən şəxs inzibati qaydada və (və ya) məhkəməyə şikayət verə bilər.

**11-2.6.** Bu Qanunun 11-2-ci maddəsində nəzərdə tutulmuş müdafiə korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı bilə-bilə yalan məlumatvermə, həmçinin özü və ya digər şəxslər üçün qanunsuz olaraq maddi və digər nemətlər, imtiyazlar və güzəştlər əldə etmək məqsədi ilə məlumatvermə hallarında tətbiq olunmur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 oktyabr 2016-cı il
№ 334-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17, № 5, maddə 323; 2002, № 5, maddə 236; 2003, № 1, maddələr 23, 24, № 6, maddə 279; 2004, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761; 2005, № 4, maddələr 277, 278; 2006, № 2, maddə 64, № 12, maddə 1006; 2007, № 1, maddələr 3, 4, № 2, maddə 68, № 5, maddə 439, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756; 2008, № 6, maddə 462, № 7, maddə 602, № 12, maddə 1046; 2009, № 6, maddə 402; 2010, № 2, maddə 75, № 4, maddə 276; 2011, № 6, maddələr 471, 476, № 7, maddələr 583, 619, № 12, maddələr 1096, 1105; 2012, № 5, maddə 411, № 6, maddə 511; 2013, № 5, maddə 472, № 6, maddə 625, № 11, maddələr 1266, 1307; 2015, № 6, maddə 677, № 12, maddə 1435; 2016, № 5, maddə 836, № 6, maddə 1016) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 233.1-ci maddədə "maddəsində" sözü "və 355-13.4-cü maddələrində" sözləri ilə əvəz edilsin.

**2.** 305.1.13-cü maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 305.1.14-cü maddə əlavə edilsin:

**"305.1.14.** terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında.".

**3.** 306.1-ci maddədə "40-3-cü" sözləri "40-4-cü" sözləri ilə əvəz edilsin.

**4.** Aşağıdakı məzmunda 40-4-cü fəsil əlavə edilsin:

**"Fəsil 40-4. Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında işlər üzrə icraat**

**Maddə 355-11. Ərizənin verilməsi**

**355-11.1.** Müvafiq icra hakimiyyəti orqanı apardığı ilkin yoxlama nəticəsində "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 19-1.4-cü maddəsində nəzərdə tutulmuş halları müəyyən etdikdə, fiziki və ya hüquqi şəxslərin aktivlərinin dondurulması üçün məhkəməyə müraciət edir.

**355-11.2.** Aktivlərin dondurulması barədə ərizə aktivlərin yerləşdiyi yer üzrə verilir.

**Maddə 355-12. Ərizənin məzmunu**

Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında ərizədə aktivlərin dondurulması üçün qanunda nəzərdə tutulmuş əsaslar, həmçinin aktivlər barədə məlumatlar və onlar haqqında məhkəməyə qədər görülmüş tədbirlər qeyd olunmalı və ərizəçinin xahişi göstərilməlidir.

**Maddə 355-13. Ərizəyə baxılması və qətnamənin qəbul edilməsi**

**355-13.1.** Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında ərizəyə məhkəməyə təqdim olunduqdan sonra 5 gün müddətində baxılır və müvafiq qərar qəbul edilir.

**355-13.2.** Məhkəmə ərizəyə baxılması barədə işdə maraqlı olan şəxslərə məlumat verir. İşdə maraqlı olan şəxslərin məhkəmə iclasına gəlməməsi işə baxılmasına mane olmur.

**355-13.3.** İşə mahiyyəti üzrə baxan hakim ərizənin rədd edilməsi və ya təmin edilməsi barədə qətnamə qəbul edir.

**355-13.4.** Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında qətnamə qəbul edildikdən dərhal sonra qüvvəyə minir və qətnamədən şikayətin verilməsi onun icrasını dayandırmır.

**355-13.5.** Qətnamənin surəti bu Məcəllənin 227.2-ci maddəsinə uyğun olaraq tərəflərə verilir.

**Maddə 355-14. Aktivlərin dondurulması ilə bağlı tədbirlərin ləğvi**

Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində aktivlərin dondurulması haqqında qətnamə qəbul edildikdən sonra aktivlərin dondurulması üçün əsaslar aradan qalxdıqda, aktivləri dondurulmuş şəxsin və ya müvafiq icra hakimiyyəti orqanının müraciətinə əsasən məhkəmə tərəfindən 5 gün müddətində aktivlərin dondurulması tədbirlərinin ləğv edilməsi barədə qətnamə qəbul edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 oktyabr 2016-cı il
№ 335-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 890; 2016, № 3, maddə 428) 20.3-cü maddəsinin birinci cümləsində "verməlidir" sözü "verməli, habelə təhrif olunmuş və ya yanlış məlumat verməməlidir" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 oktyabr 2016-cı il
№ 340-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4 maddələr 631, 647, 654, № 5 maddələr 835, 846, № 6 maddələr 997, 1010, № 7, maddələr 1247, 1249) 602.4-cü maddəsində "verilməməsinə və" sözləri "verilməməsinə, təhrif olunmuş, yanlış məlumatın verilməsinə və ya" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 oktyabr 2016-cı il
№ 341-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklikər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr

397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci maddəyə "388," rəqəmindən sonra "394-1," rəqəmləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 394-1-ci maddə əlavə edilsin:

**"Maddə 394-1. Tikintilərin Dövlət Reyestrinin aparılması qaydalarının pozulması**

**394-1.1.** Tikilən, istismar edilən və sökülən tikinti obyektləri, habelə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən tikinti obyektlərinə tətbiq edilən qadağalar və məhdudiyyətlər barədə məlumatların Tikintilərin Dövlət Reyestrinə qanunla müəyyən edilmiş müddətə göndərilməməsinə və təqdim edilməməsinə görə –

vəzifəli şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə edilir.

**394-1.2.** Bu Məcəllənin 394-1.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

vəzifəli şəxslər iki min manat məbləğində cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 oktyabr 2016-cı il
№ 346-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 319.1-ci maddədə "biletsiz" sözü "müvafiq qaydada ödəniş etmədən" sözləri ilə əvəz edilsin.

**2.** 320.1-ci maddədə "sərnişinin biletsiz" sözləri "müvafiq qaydada ödəniş edilmədən sərnişinin" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 oktyabr 2016-cı il
№ 355-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddə 647, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 221-ci maddə aşağıdakı redaksiyada verilsin:

**"Maddə 221. Dərman vasitələrinin qanunsuz dövriyyəsi**

**221.1.** Bilə-bilə keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməmiş dərman vasitələrinin satışı, satış məqsədi ilə saxlanması və ya idxalı, habelə saxta dərman vasitələrinin istehsalı, satışı, satış məqsədi ilə saxlanması və ya idxalı, bu əməllər az miqdarda törədildikdə –

inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

**221.2.** "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatından keçmiş dərman vasitələrinin qiymətləri mü-

vafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada tənzimlənmədən satışına görə –

vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

**221.3.** "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatından keçmiş dərman vasitələrinin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada tənzimlənən qiymətlərdən fərqli qiymətlərlə satışına görə –

vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min manatdan beş min manatadək məbləğdə cərimə edilir.

**221.4.** Bu Məcəllənin 221.1-ci maddəsində nəzərdə tutulmuş xətanın inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

inzibati xətanın bilavasitə obyekti olan dərman vasitələri müsadirə edilməklə vəzifəli şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər yeddi min manatdan doqquz min manatadək məbləğdə cərimə edilir.

**221.5.** Bu Məcəllənin 221.2-ci və 221.3-cü maddələrində nəzərdə tutulmuş xətaların inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə –

vəzifəli şəxslər iki min beş yüz manatdan üç min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər yeddi min manatdan doqquz min manatadək məbləğdə cərimə edilir.

**221.6.** Dövlət qeydiyyatından keçmiş dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi məqsədi ilə bəyannamələrin, hesabat sənədlərinin və məlumatların vaxtında və ya düzgün təqdim edilməməsinə görə -

vəzifəli şəxslər üç yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir.

**221.7.** Dərman vasitələrinin dövlət qeydiyyatına alınmasından və ya qiymətlərinin tənzimləməsindən əsassız imtina edilməsinə, qeydiyyata almaq və ya qiymətlərinin tənzimlənməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydalarda nəzərdə tutulmayan sənədlərin tələb edilməsinə, habelə qeydiyyata almaqda və ya qiymətlərinin tənzimlənməsində süründürməçiliyə yol verilməsinə görə –

vəzifəli şəxslər beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə cərimə edilir.

**Qeyd:** Bu Məcəllənin 221.1-ci maddəsində "az miqdar" dedikdə, min manatadək olan məbləğ başa düşülür.".

**2.** 428.4-cü maddədə "reabilitasiya metodlarının" sözlərindən sonra ", habelə bioloji fəallığa malik qida əlavələrinin dərman vasitəsi olmadığı barədə məlumat verilmədən" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 oktyabr 2016-cı il
№ 359-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsini "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1401-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddə 647, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249) 598.0.6-cı maddəsində "görə –" sözü nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 598.0.7-ci maddə əlavə edilsin:

**"598.0.7.** monitorinq iştirakçıları və monitorinqdə iştirak edən digər şəxslər tərəfindən terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin, habelə bu şəxslərin sahibliyində və ya nəzarətində olan hüquqi şəxslərin, o cümlədən bu şəxslərin adından və ya onların tapşırığı ilə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin aktivlərinin "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dondurulması üzrə tədbirlərin görülməməsinə və ya maliyyə monitorinqi orqanının aktivlərin dondurulması barədə qərarının icra edilməməsinə görə –".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 14 oktyabr 2016-cı il
№ 361-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Cinayət Məcəlləsini "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 27-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 1001) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 167-1-ci maddə üzrə:

**1.1.** maddənin adında "etmə" sözündən sonra "və ya bu əməllərin dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsini maliyyələşdirmə" sözləri əlavə edilsin;

**1.2.** aşağıdakı məzmunda 167-1.4-cü və 167-1.5-ci maddələr əlavə edilsin:

**"167-1.4.** Bu Məcəllənin 167-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllər dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədildikdə –

yeddi min manatdan doqquz min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

**167-1.5.** Bu Məcəllənin 167-1.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsini maliyyələşdirmə –

iki ildən beş ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.".

**2.** Aşağıdakı məzmunda 167-3-cü maddə əlavə edilsin:

**"167-3.** Dini ekstremist materialları hazırlama, saxlama, yayma və ya bu əməlləri maliyyələşdirmə

**167-3.1.** Dini ekstremist materialları, yəni dini ekstremist fəaliyyəti həyata keçirməyə çağıran və ya belə fəaliyyəti əsaslandıran, yaxud belə fəaliyyətin zəruriliyinə bəraət qazandıran materialları hazırlama, saxlama və ya yayma –

səkkiz min manatdan on min manatadək miqdarda cərimə və ya iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmək ilə cəzalandırılır.

**167-3.2.** Bu Məcəllənin 167-3.1-ci maddəsində nəzərdə tutulmuş əməlləri maliyyələşdirmə –

iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**3.** 214.2.5-ci maddədə tire işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 214.2.6-cı maddə əlavə edilsin:

**"214.2.6.** dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədildikdə –".

**4.** 278-ci maddə üzrə:

**4.1.** maddənin adında "saxlama" sözündən sonra ", dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə" sözləri əlavə edilsin;

**4.2.** maddənin mətni 278.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 278.2-ci maddə əlavə edilsin:

**"278.2.** Azərbaycan Respublikasının konstitusiya quruluşunun, o cümlədən onun dünyəvi xarakterinin zorla dəyişdirilməsinə və ya ərazi bütövlüyünün parçalanmasına, yaxud hakimiyyətin zorla ələ keçirilməsinə yönələn hərəkətlərin dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsi –

on beş ildən iyirmi ilədək müddətə azadlıqdan məhrum etmə və ya ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**5.** 279-cu maddə üzrə:

**5.1.** aşağıdakı məzmunda 279.1-1-ci maddə əlavə edilsin:

**"279.1-1.** Dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində bu Məcəllənin 279.1-ci maddəsində nəzərdə tutulan silahlı birləşmələr və ya qruplar yaratma, həmin birləşmə və ya qruplarda iştirak etmə –

altı ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**5.2.** 279.2-ci maddədə "maddəsində" sözü "və 279.1-1-ci maddələrində" sözləri ilə əvəz edilsin.

**6.** Aşağıdakı məzmunda 283.1-1-ci və 283.3-cü maddələr əlavə edilsin:

**"283.1-1.** Bu Məcəllənin 283.1-ci maddəsində nəzərdə tutulmuş əməllər dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədildikdə –

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**283.3.** Bu Məcəllənin 283.1-ci maddəsində nəzərdə tutulmuş əməllərin dini düşmənçilik, dini radikalizm və ya dini fanatizm zəminində törədilməsinin maliyyələşdirilməsi –

üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır."

**7.** 283-1.1-ci maddədə "dini düşmənçilik" sözlərindən sonra ", dini radikalizm və ya dini fanatizm" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2016-cı il
№ 365-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2, I kitab, maddə 202, № 3, maddələr 397, 403, 429; № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846; № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 43.1-ci maddədə "517," rəqəmlərindən sonra "517-1," rəqəmləri, "592," rəqəmlərindən sonra "592-1," rəqəmləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 88.1.5-1-ci və 89.3-1-ci maddələr əlavə edilsin:

**"88.1.5-1.** müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsləri – dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejiminin tələbləri pozulduqda, o cümlədən dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasında fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər olmadıqda, onların şəxsiyyətinin müəyyən edilməsi məqsədilə və ya dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan şəxslərin qanuni tələblərinə mane olmağa yönəlmiş hərəkətlər törədildikdə;

**89.3-1.** Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasında fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər olmadıqda – tutulanın şəxsiyyəti müəyyən edilənədək, dini ekstremizm əleyhinə xüsusi əməliyyat aparan şəxslərin qanuni tələblərinə mane olmağa yönəlmiş hərəkətlər törədən şəxslər isə 48 saatadək inzibati qaydada tutula bilər.".

**3.** 89.4-cü maddədə "513" rəqəmlərindən sonra ", 517-1" rəqəmləri, "çətinlik yaratdığı hallarda" sözlərindən sonra isə ", habelə şəxsin narkomaniyadan məcburi müalicəyə ehtiyacının olub-olmamasını müəyyənləşdirmək məqsədi ilə tibbi yoxlamaya göndərildiyi hallarda" sözləri əlavə edilsin.

**4.** Aşağıdakı məzmunda 517-1-ci və 592-1-ci maddələr əlavə edilsin:

**"Maddə 517-1. Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejiminin tələblərinin pozulması**

**517-1.1.** Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat zonasının hüquqi rejiminin tələblərinin pozulmasına, yəni:

**517-1.1.1.** dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında nəqliyyat vasitələrinin və piyadaların hərəkətini müvəqqəti məhdudlaşdıran və ya qadağan edən tədbirlərin tətbiqinə, ərazinin müəyyən sahələrinə və obyektlərə nəqliyyat vasitələrini və piyadaları buraxmamağa maneçilik törətməyə;

**517-1.1.2.** fiziki şəxslərin şəxsiyyətini təsdiq edən sənədlər olmadan, onların günün müəyyən edilmiş vaxtında küçələrdə və ya digər ictimai yerlərdə olmasına;

**517-1.1.3.** dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasına giriş və ya bu zonadan çıxış zamanı fiziki şəxslərə, onların əşyalarına, nəqliyyat vasitələrinə və nəqliyyat vasitələrində olan əşyalara texniki vasitələr tətbiq etməklə baxış keçirməyə maneçilik törədilməsinə;

**517-1.1.4.** dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması məqsədi ilə fiziki şəxslərin mənzilinə və digər yaşayış yerlərinə, onların torpaq sahələrinə, nəqliyyat vasitələrinə, habelə mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin ərazilərinə, binalarına,

nəqliyyat vasitələrinə daxil olmağa maneçilik törədilməsinə;

**517-1.1.5.** dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması ilə əlaqədar zərurət yarandıqda fiziki şəxslərin əməliyyatın aparılma zonasından köçürülməsinə, binaların, qurğuların və digər tikililərin sökülməsinə maneçilik törədilməsinə;

**517-1.1.6.** dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında sanitar-epidemioloji, baytarlıq və digər karantin tədbirlərinin pozulmasına;

**517-1.1.7.** dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılma zonasında tərkibində narkotik və ya psixotrop maddələr olan dərman vasitələrinin dövriyyəsinin məhdudlaşdırılmasının pozulmasına görə –

fiziki şəxslər əlli manatdan səksən manatadək miqdarda cərimə edilir və ya işin halları və pozuntu törədənin şəxsiyyəti nəzərə alınmaqla, bu tədbirlərin tətbiqi kifayət hesab edilmədikdə, on beş günədək müddətə inzibati həbs tətbiq olunur, vəzifəli şəxslər dörd yüz əlli manatdan altı yüz manatadək miqdarda, hüquqi şəxslər iki min manatdan üç min manatadək miqdarda cərimə edilir.

**Maddə 592-1. Məsafədən idarə edilən pilotsuz uçan aparatların əldə edilməsi və satılması qaydalarının pozulması**

Müvafiq icra hakimiyyəti orqanının xüsusi icazəsi olmadan məsafədən idarə edilən pilotsuz uçan aparatların əldə edilməsi və ya satılmasına görə –

məsafədən idarə edilən pilotsuz uçan aparatlar müsadirə edilməklə yüz əlli manatdan üç yüz manatadək məbləğdə cərimə edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2016-cı il
№ 366-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanununu "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 27-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, № 16, maddə 694; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 3, maddələr 171, 226, № 4, maddə 287; 1998, № 1, maddə 16; 2001, № 12, maddə 736; 2002, № 6, maddə 328, № 12, maddə 692; 2003, № 1, maddə 16; 2005, № 8, maddə 684; 2009, № 5, maddə 314, № 7, maddələr 512, 517; 2011, № 2, maddə 71, № 7, maddə 604; 2013, № 3, maddə 217, № 4, maddə 355; 2015, № 4, maddələr 364, 367, № 11, maddə 1257, № 12, maddə 1443) 12-1-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** İkinci hissəyə aşağıdakı məzmunda 3-1-ci bənd əlavə edilsin:

**"3-1)** dini ekstremist fəaliyyətlə məşğul olma;".

**2.** Aşağıdakı məzmunda dördüncü hissə əlavə edilsin:

"Dini ekstremist fəaliyyətlə məşğul olan dini qurumların fəaliyyəti qadağan edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2016-cı il
№ 367-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 20-ci bəndlərini rəhbər tutaraq, "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununu "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının 2015-ci il 4 dekabr tarixli 27-VQ nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının

Qanunvericilik Toplusu, 2000, № 2, maddə 82; 2001, № 12, maddə 736; 2002, № 3, maddə 116, № 5, maddə 245; 2004, № 2, maddələr 57, 58; 2005, № 4, maddə 278; 2007, № 8, maddə 752, № 11, maddə 1079; 2009, № 4, maddə 212, № 8, maddə 611; 2010, № 3, maddə 172; 2015, № 2, maddə 82, № 11, maddələr 1258, 1292; 2016, № 1, maddə 40, № 5, maddə 837) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 7-ci maddəyə aşağıdakı məzmunda üçüncü və dördüncü hissələr əlavə edilsin:

"Dini ekstremizm əleyhinə xüsusi əməliyyatın aparılması zonasında kütləvi informasiya vasitələri işçilərinin fəaliyyəti əməliyyat aparan orqan tərəfindən müəyyən edilir.

Dini ekstremizm əleyhinə aparılan xüsusi əməliyyat barədə ictimaiyyətə məlumatlar əməliyyat aparan orqanın müəyyən etdiyi formada və həcmdə verilir.".

**2.** 11-ci maddənin birinci hissəsinin 4-cü bəndində "yol verilmir." sözləri nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 5-ci bənd əlavə edilsin:

**"5)** "Dini ekstremizmə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 9.3-cü maddəsində nəzərdə tutulmuş məlumatların yayılmasına yol verilmir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2016-cı il
№ 368-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5-ci maddənin ikinci hissəsinin birinci cümləsindən "dərc edilir və" sözləri çıxarılsın, "daşıyıcılarda" sözü "qaydada" sözü ilə əvəz edilsin, ikinci cümləsində isə "dərc edilməlidir" sözləri "yayılmalıdır" sözü ilə əvəz edilsin.

**2.** 26-cı maddədə "təşkili, olduğu yer və ərazi yurisdiksiyası" sözləri "təşkili və olduğu yer" sözləri ilə əvəz edilsin və "uyğun olaraq" sözlərindən sonra "müəyyən olunur, ərazi yurisdiksiyası isə Məhkəmə-Hüquq Şurası tərəfindən" sözləri əlavə edilsin.

**3.** 32-ci maddə üzrə:

**3.1.** ikinci hissədə "təşkili, olduğu yer və ərazi yurisdiksiyası" sözləri "təşkili və olduğu yer" sözləri ilə əvəz edilsin və "uyğun olaraq" sözlərindən sonra "müəyyən olunur, ərazi yurisdiksiyası isə Məhkəmə-Hüquq Şurası tərəfindən" sözləri əlavə edilsin;

**3.2.** aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində təşkil edilir və onun yurisdiksiyası Naxçıvan Muxtar Respublikasının bütün ərazisinə şamil edilir.".

**4.** 43-cü maddə üzrə:

**4.1.** ikinci hissədə "təşkili, olduğu yer və ərazi yurisdiksiyası" sözləri "təşkili və olduğu yer" sözləri ilə əvəz edilsin və "uyğun olaraq" sözlərindən sonra "müəyyən olunur, ərazi yurisdiksiyası isə Məhkəmə-Hüquq Şurası tərəfindən" sözləri əlavə edilsin;

**4.2.** aşağıdakı məzmunda üçüncü hissə əlavə edilsin:

"Naxçıvan Muxtar Respublikasının İnzibati-iqtisadi Məhkəməsi Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərində təşkil edilir və onun yurisdiksiyası Naxçıvan Muxtar Respublikasının bütün ərazisinə şamil edilir.".

**5.** 61-ci maddənin ikinci hissəsində "təşkili, olduğu yer və ərazi yurisdiksiyası" sözləri "təşkili və olduğu yer" sözləri ilə əvəz edilsin və "uyğun olaraq" sözlərindən sonra "müəyyən olunur, ərazi yurisdiksiyası isə Məhkəmə-Hüquq Şurası tərəfindən" sözləri əlavə edilsin.

**6.** 90-cı maddənin altıncı hissəsinə "Birinci instansiya" sözlərindən sonra " və apellyasiya" sözləri əlavə edilsin.

**7.** 93-cü maddənin ikinci hissəsində "hakimin adı ilə bir araya sığmayan hərəkətlərə yol verdiyinə görə vəzifədən" sözləri "barəsində cinayət təqibinə bəraətverici əsaslar olmadan xitam verilmiş, hakim vəzifəsindən intizam qaydasında" sözləri ilə əvəz edilsin.

**8.** 93-3-cü maddəyə aşağıdakı məzmunda səkkizinci hissə əlavə edilsin:

"Bu Qanunun 96-cı maddəsinin birinci hissəsində nəzərdə tutulmuş qiymətləndirmə nəticəsində səlahiyyətləri uzadılmamış şəxslər 5 il müddətində hakim vəzifəsinə namizədlərin seçilməsi üçün imtahanda iştirak edə bilməzlər.".

**9.** Aşağıdakı məzmunda 112-1-ci maddə əlavə edilsin:

**"Maddə 112-1. İntizam məsuliyyəti məsələsinə baxılan hakimin öz arzusu ilə vəzifəsindən çıxmaq barədə yazılı ərizəsinə baxılması**

Barəsində intizam icraatı başlanılmış (bu maddənin ikinci hissəsində nəzərdə tutulmuş icraat istisna olmaqla) hakim tutduğu vəzifədən çıxmaq barədə ərizə verdikdə, hakim barəsindəki intizam icraatına və onun səlahiyyətlərinə xitam verilməsi barədə qərar qəbul edilir.

İntizam icraatı bu Qanunun 113-cü maddəsinin 10-cu və 11-ci bəndlərində nəzərdə tutulmuş əsaslara görə başlanılmışdırsa, hakimin tutduğu vəzifədən çıxmaq barədə ərizəsinə icraatının materialları ilə eyni vaxtda baxılır və qərar qəbul edilir.

Hakimin intizam icraatının başlanılmasına əsas olmuş hərəkətlərində cinayət əməlinin əlamətləri olduğu hallarda onun ərizəsi nəzərə alınmaqla səlahiyyətlərinə xitam verilir və toplanılmış sənədlər Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2016-cı il
№ 377-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 156-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, I kitab, maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12, I kitab, maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, № 11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2, I kitab, maddə 207, №3, maddələr 396, 402, №5, maddə 848, № 6, maddələr 973, 974, №7, maddə 1245) 102.1.13-cü maddəsində "müvafiq icra hakimiyyəti orqanında" sözləri "maliyyə bazarlarına nəzarət orqanında" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 28 oktyabr 2016-cı il
№ 381-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, №6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, №

11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 6, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4 maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6 maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6 maddələr 678, 690, 692; № 11, maddələr 1253, 1268, 1289,1298; № 12, maddə 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 99-4.6-cı maddəyə "242-244-1," rəqəmlərindən sonra "259-261," rəqəmləri əlavə edilsin.

**2.** 259-cu maddə üzrə:

**2.1.** 259.1-ci maddənin dispozisiyasında "qoruqlarda, milli və ya təbii parklarda ağacların və ya kolların" sözləri "xüsusi mühafizə olunan təbiət ərazilərində ağacların, kolların və ya digər yaşıllıqların" sözləri ilə, "aid olmayan ağacların və ya kolların qanunsuz kəsilməsi" sözləri "daxil olmayan ağacların, kolların və ya digər yaşıllıqların qanunsuz kəsilməsi (götürülməsi)" sözləri ilə əvəz edilsin və sanksiyası aşağıdakı redaksiyada verilsin:

"beş min manatdan yeddi min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.";

**2.2.** 259.2-ci maddənin sanksiyası aşağıdakı redaksiyada verilsin:

"yeddi min manatdan doqquz min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır."

**2.3.** 259.2.2-ci maddə ləğv edilsin;

**2.4.** aşağıdakı məzmunda 259.3-cü maddə əlavə edilsin:

**"259.3.** Bu Məcəllənin 259.1-ci və ya 259.2-ci maddəsində nəzərdə tutulmuş əməllər qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə –

doqquz min manatdan on bir min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə iki ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**2.5.** "Qeyd" hissəsi aşağıdakı redaksiyada verilsin:

**"Qeyd:**

**1.** Bu maddənin müddəaları xüsusi mülkiyyətdə olan həyətyanı və bağ sahələrindəki yaşıllıqların, habelə kənd təsərrüfatı məhsulları istehsalı üçün istifadə edilən bitkilərdən ibarət yaşıllıqların (əkinlərin) kəsilməsi (götürülməsi) hallarına şamil edilmir.

**2.** Bu Məcəllənin 259.1-ci maddəsində "xeyli miqdar" dedikdə, min manatdan yeddi min manatadək olan məbləğ, 259.2.4-cü, 260.1-1-ci və 260.3-cü maddələrində "külli miqdar" dedikdə, yeddi min manatdan artıq olan məbləğ başa düşülür.".

**3.** 260-cı maddə üzrə:

**3.1.** adında "Meşələri" sözündən sonra "və digər yaşıllıqları" sözləri əlavə edilsin, "korlama" sözü "zədələmə" sözü ilə əvəz edilsin;

**3.2.** 260.1-ci maddənin dispozisiyasında "meşələri və ya meşə fonduna aid olmayan ağac və ya kol əkililərini məhv etmə və ya korlama" sözləri "meşələri, meşə fonduna daxil olmayan ağac və ya kol əkililərini və digər yaşıllıqları məhv etmə və ya zədələmə" sözləri ilə, sanksiyasında "yüz manatdan beş yüz manatadək" sözləri "min manatdan iki min manatadək" sözləri ilə əvəz edilsin;

**3.3.** aşağıdakı məzmunda 260.1-1-ci maddə əlavə edilsin:

**"260.1-1.** Bu Məcəllənin 260.1-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə –

iki min manatdan dörd min manatadək miqdarda cərimə və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.";

**3.4.** 260.2-ci maddənin dispozisiyasında "tullantılarla" sözü "istehsalat və məişət tullantıları ilə" sözləri ilə, "aid olmayan ağac və ya kol əkililəri məhv etmə və ya korlama" sözləri "daxil olmayan ağac və ya kol əkililəri və digər yaşıllıqları məhv etmə və ya zədələmə" sözləri ilə, sanksiyasında "iki ildən yeddi ilədək" sözləri "iki min manatdan üç min manatadək miqdarda cərimə edilməklə və ya edilməməklə iki ildən beş ilədək" sözləri ilə əvəz edilsin;

**3.5.** aşağıdakı məzmunda 260.3-cü maddə əlavə edilsin:

**"260.3.** Bu Məcəllənin 260.2-ci maddəsində nəzərdə tutulmuş əməllər külli miqdarda ziyan vurmaqla törədildikdə –

üç min manatdan yeddi min manatadək miqdarda cərimə edilməklə və ya edilməməklə beş ildən yeddi ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 noyabr 2016-cı il
№ 395-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 12-ci bəndini rəhbər tutaraq, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 14 iyun tarixli 297 VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının Mülki Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250, № 5, maddə 323; 2002, № 12, maddə 709; 2003, № 8, maddə 420; 2004, № 3, maddə 123, № 5, maddə 318, № 6, maddə 415, № 10, maddə 761, № 11, maddə 901; 2005, № 2, maddə 61, № 6, maddə 466, № 8, maddələr 684, 692, 693, № 11, maddə 996, № 12, maddə 1085; 2006, № 2, maddə 68, № 3, maddə 225, № 5, maddə 387, № 6, maddə 478, № 8, maddə 657, № 12, maddə 1005; 2007, № 2, maddə 80, № 6, maddə 560, № 8, maddə 745, № 10, maddə 937, № 11, maddə 1053, № 12, maddələr 1215, 1219; 2008, № 3, maddə 145, № 6, maddə 456, № 7, maddə 602, № 12, maddə 1049; 2009, № 2, maddə 47, № 5, maddə 295, № 6, maddə 404, № 7, maddə 517; 2010, № 2, maddə 75, № 3, maddə 171, № 4, maddələr 265, 266, 276; 2011, № 2, maddə 71, № 7, maddə 586, № 8, maddə 750, № 12, maddələr 1073, 1102; 2012, № 1, maddə 5, № 5, maddə 403, № 6, maddə 498; 2013, № 1, maddə 15, № 6, maddə 620, № 11, maddə 1280, № 12, maddələr 1469, 1478; 2014, № 2, maddə 96, № 7, maddə 768; 2015, № 3, maddə 254, № 5, maddə 512, № 7, maddə 814, № 10, maddə 1093; 2016, № 1, maddə 26, № 2, I kitab, maddələr 186, 204, № 3, maddə 401, № 4, maddələr 640, 646; Azərbaycan Respublikasının 2016-cı il 24 iyun tarixli 301-VQD nömrəli Qanunu) 148.3-cü maddəsinə "notarius" sözündən sonra ", notariat hərəkətləri aparan digər vəzifəli şəxslər" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 noyabr 2016-cı il
№ 405-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 564; 2001, № 5, maddə 298, № 11, maddələr 676, 698; 2002, № 1, maddə 9, № 8, maddə 463; 2003, № 8, maddə 424; 2004, № 2, maddə 57, № 11, maddə 901; 2005, № 4, maddə 277, № 10, maddə 874, № 11, maddə 993; 2006, № 12, maddə 1027; 2007, № 6, maddə 560, № 11, maddələr 1053, 1091; 2008, № 2, maddə 49, № 6, maddələr 453, 463, № 7, maddə 602; 2009, № 2, maddə 47, № 4, maddə 210, № 12, maddə 948; 2010, № 7, maddə 598; 2011, № 2, maddə 71, № 4, maddə 255, № 6, maddə 469, № 12, maddə 1097; 2012, № 5, maddə 402, № 7, maddə 671; 2013, № 4, maddələr 362, 363, № 7, maddə 795, № 11, maddələr 1295, 1298; 2014, № 4, maddələr 343, 346, № 5, maddə 467, № 11, maddə 1352; 2015, № 1, maddə 2, № 2, maddələr 76, 79, 105; № 5, maddə 502, № 6, maddə 686, № 11, maddələr 1256, 1276) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 34-cü maddə üzrə:

**1.1.** III hissənin 11-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 12-ci bənd əlavə edilsin:

**"12)** bu Qanunun 35-ci maddəsinin IV-II hissəsinə müvafiq olaraq nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahan zamanı avtomatik transmissiyalı nəqliyyat vasitəsindən istifadə edilmişdirsə yalnız "B" kateqoriyasına aid avtomatik transmissiyalı nəqliyyat vasitələrini idarə etmək hüququnun verildiyinə dair qeyd.";

**1.2.** VIII hissə ləğv edilsin.

**2.** 35-ci maddə üzrə:

**2.1.** IV-I hissəsinin 5-ci bəndində "artıq olmayan" sözlərindən sonra ", imtahan prosesini qeydə alan videokameralarla təchiz edilmiş" sözləri əlavə edilsin;

**2.2.** aşağıdakı məzmunda IV-II hissə əlavə edilsin:

**"IV-II.** "B" kateqoriyasına aid nəqliyyat vasitələrini

idarə etmək hüququ verən sürücülük vəsiqəsini almaq istəyən şəxsin seçiminə əsasən nəqliyyat vasitələrini idarəetmə vərdişləri üzrə təcrübi imtahan mexaniki və ya avtomatik transmissiyalı nəqliyyat vasitəsində verilə bilər. Mexaniki transmissiyalı nəqliyyat vasitəsində idarəetmə vərdişləri üzrə təcrübi imtahanı müvəffəqiyyətlə vermiş şəxsə mexaniki və avtomatik transmissiyalı nəqliyyat vasitələrini idarə etmək hüququ verilir. Avtomatik transmissiyalı nəqliyyat vasitəsində idarəetmə vərdişləri üzrə təcrübi imtahanı müvəffəqiyyətlə vermiş şəxsə isə yalnız avtomatik transmissiyalı nəqliyyat vasitələrini idarə etmək hüququ verilir.";

**2.3.** VI hissənin 6-cı bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 7-ci və 8-ci bəndlər əlavə edilsin:

**"7)** yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş sürücülük vəsiqəsinə malik Azərbaycan Respublikasının vətəndaşının ölkə ərazisinə daxil olduğu vaxtdan bir aydan artıq müddətdə burada nəqliyyat vasitələrini idarə etmək niyyətində olması;

**8)** yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş sürücülük vəsiqəsinə malik olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə alması.";

**2.4.** Aşağıdakı məzmunda 35-1-ci maddə əlavə edilsin:

**"Maddə 35-1. Xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş sürücülük vəsiqəsi**

**I.** Azərbaycan Respublikasının vətəndaşı yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini ölkə ərazisinə daxil olduğu gündən bir ay ərzində idarə etmək hüququna malikdir. Azərbaycan Respublikasının vətəndaşı ölkə ərazisində nəqliyyat vasitələrini həmin müddətdən artıq idarə etmək üçün sürücülük vəsiqəsini bu Qanunun 35-ci maddəsinin VI-VIII hissələrində müəyyən edilmiş qaydada dəyişdirməlidir.

**II.** Azərbaycan Respublikasında müvəqqəti olan əcnəbi və ya vətəndaşlığı olmayan şəxs yol hərəkətinin tənzimlənməsi sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş və etibarlıq müddəti qurtarmamış sürücülük vəsiqəsi əsasında Azərbaycan Respublikası ərazisində nəqliyyat vasitələrini idarə etmək hüququna malikdir. Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs Azərbaycan Respublikasında müvəqqəti və ya daimi yaşamaq üçün icazə aldıqda, ölkə ərazisində nəqliyyat vasitələrini idarə etmək üçün sürücülük vəsiqəsini həmin icazəni aldığı gündən bir ay müddətində bu Qanunun 35-ci maddəsinin VI-VIII hissələrində müəyyən edilmiş qaydada dəyişdirməlidir.

**III.** Bu Qanunun 35-1-ci maddəsinin I və II hissələrində nəzərdə tutulmuş hallarda sürücülük vəsiqəsi dəyişdirildikdə, xarici dövlətin səlahiyyətli orqanı tərəfindən verilmiş sürücülük vəsiqəsi yeni sürücülük vəsiqəsi ilə birlikdə həmin şəxsə qaytarılır.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 noyabr 2016-cı il
№ 407-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, №4, II kitab, maddə 251, №5, maddə 323, №12, maddə 835; 2001, №1, maddə 24, №7, maddə 455; 2002, №1, maddə 9, №5, maddələr 236, 248, 258, №6, maddə 326, №8, maddə 465; 2003, №6, maddələr 276, 279, №8, maddələr 424, 425, №12, I kitab, maddə 676; 2004, №1, maddə 10, №4, maddə 200, №5, maddə 321, №8, maddə 598, №10, maddə 762, №11, maddə 900; 2005, №1, maddə 3, №6, maddə 462, №7, maddə 575, №10, maddə 904, №11, maddə 994; 2006, №2, maddələr 71, 72, 75, №5, maddə 390, №12, maddələr 1008, 1020, 1028; 2007, №2, maddə 68, №5, maddə 398, №6, maddələr 560, 562, 579, №8, maddə 757, №10, maddələr 937, 941, №11, maddələr 1049, 1080, 1090, №12, maddə 1221; 2008, №6, maddələr 454, 461, №7, maddə 602, №10, maddə 884, №12, maddələr 1047, 1049; 2009, №5, maddə 315, №7, maddə 517, №12, maddə 953; 2010, №2, maddə 70, №3, maddələr 171, 178, №4, maddələr 275, 276, №7, maddə 591; 2011, №4, maddə 253, №6, maddə 472, №7, maddələr 587, 601, 621, №11, maddə 980, №12, maddə 1093; 2012, №2, maddə 45, №3, maddələr 193, 196, №7, maddələr 666, 669, 673, №11, maddə 1068, №12, maddə 1223; 2013, №1, maddə 14, №2, maddə 102, №4, maddə 364, №5, maddələr 459, 479, 481, №6, maddələr 594, 600, №11, maddələr

1264, 1286, 1312, №12, maddə 1492; 2014, №2, maddələr 89, 95, №4, maddə 327, №6, maddələr 618, 622; 2015, №4, maddələr 339, 359, 368, №5, maddələr 504, 508, 510, №6, maddələr 678, 690, 692, №11, maddələr 1253, 1268, 1289, 1298, №12, maddələr 1437, 1445; 2016, №4, maddələr 634, 636, 638, 653, №5, maddə 845, №6, maddələr 993, 1001) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 99-4.6-cı maddəyə "170–171-1," rəqəmlərindən sonra "192-2," rəqəmləri əlavə edilsin.

**2.** Aşağıdakı məzmunda 192-2-ci maddə əlavə edilsin:

**"Maddə 192-2. İdman yarışlarının manipulyasiyası**

**192-2.1.** İdman yarışlarının manipulyasiyası məqsədi ilə idmançıya, idman hakiminə, məşqçiyə, sponsora və ya digər şəxsə onun özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemət, imtiyaz və ya güzəşt təklif olunması, vəd edilməsi və ya verilməsi –

üç min manatdan beş min manatadək miqdarda cərimə və ya üç ildən altı ilədək müddətə azadlıqdan mərhum etmə ilə cəzalandırılır.

**192-2.2.** İdman yarışlarının manipulyasiyası məqsədi ilə idmançı, idman hakimi, məşqçi, sponsor və ya digər şəxs tərəfindən hər hansı hərəkətə (hərəkətsizliyə) görə onların özü və ya üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə, maddi və ya sair nemətin, imtiyazın və ya güzəştin istənilməsi və ya alınması, yaxud bu barədə təklifin və ya vədin qəbul edilməsi -

üç min manatdan beş min manatadək miqdarda cərimə və ya üç ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə üç ildən altı ilədək müddətə azadlıqdan mərhum etmə ilə cəzalandırılır.

**192-2.3.** Bu Məcəllənin 192-2.1-ci və 192-2.2-ci maddələrində nəzərdə tutulmuş əməllər:

**192-2.3.1.** təkrar törədildikdə;

**192-2.3.2.** mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə –

altı ildən səkkiz ilədək müddətə azadlıqdan mərhum etmə ilə cəzalandırılır.

**192-2.4.** İdman yarışlarının manipulyasiyası məqsədi ilə idmançıya, idman hakiminə, məşqçiyə, sponsora və ya digər şəxsə, yaxud onların yaxın qohumlarına zor tətbiq etmə və ya zor tətbiq etmə hədəsi ilə hədələmə, yaxud onların özü və ya yaxın qohumları haqqında rüsvayedici məlumatlar yayma və ya onların özünün və ya yaxın qohumlarının əmlakını tələf etmə hədəsi ilə onların hər hansı hərəkətləri etməsini və ya etməməsini tələb etmə –

üç ilədək müddətə azadlıqdan mərhum etmə ilə cəzalandırılır.

**192-2.5.** Bu Məcəllənin 192-2.4-cü maddəsində nəzərdə tutulmuş əməllər həyat və ya sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə –

üç ildən altı ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:**

**1.** Bu Məcəllənin 192-2.1-ci, 192-2.2-ci və 192-2.4-cü maddələrində "idman yarışlarının manipulyasiyası" dedikdə şəxsin özünün və ya başqalarının xeyrinə qeyri-qanuni üstünlük əldə etməsi üçün idman yarışlarının gedişatını və ya nəticəsini qəsdən dəyişdirməyə yönəlmiş əməli (hərəkəti və ya hərəkətsizliyi) başa düşülür.

**2.** Bu Məcəllənin 192-2.1-ci maddəsində nəzərdə tutulmuş əməli törətmiş şəxs bu barədə müvafiq dövlət orqanına könüllü məlumat verdikdə və ya bu əməli ona qarşı tətbiq edilən hədə-qorxu nəticəsində etdikdə cinayət məsuliyyətindən azad edilir.

**3.** Bu Məcəllənin 192-2.2-ci maddəsində nəzərdə tutulmuş əməli öz xidməti vəzifəsinin (səlahiyyətlərinin) icrası ilə əlaqədar törətmiş vəzifəli şəxs bu Məcəllənin 311-ci maddəsinə əsasən cinayət məsuliyyətinə cəlb olunur.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 noyabr 2016-cı il
№ 408-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, II kitab, maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə

315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2, II kitab, maddə 218; Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 328-VQD nömrəli Qanunu) 215.3.1-ci maddəsinə "191," rəqəmlərindən sonra "192-2," rəqəmləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 11 noyabr 2016-cı il
№ 409-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 6-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2, (II kitab), maddə 218; Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 328-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.1-ci maddədə "müdafiəsinin" sözündən sonra ", hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinin" sözləri əlavə edilsin;

**2.** 7.0.18-ci maddəyə "müdafiəçi," sözündən sonra "barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi," sözləri əlavə edilsin;

**3.** 7.0.28-ci maddədə "müdafiəçisi və" sözləri "müdafiəçisi, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi, onun müdafiəçisi və" sözləri ilə əvəz edilsin;

**4.** aşağıdakı məzmunda 7.0.31-1-ci maddə əlavə edilsin:

**"7.0.31-1.** barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi – hüquqi şəxsin maraqlarını təmsil edən, səlahiyyətləri qanunla və ya hüquqi şəxsin təsis sənədləri ilə müəyyən edilən hüquqi şəxsin təsisçisi, rəhbəri və ya digər vəzifəli şəxsidir;";

**5.** 8.0.5-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.0.6-cı maddə əlavə edilsin:

**"8.0.6.** hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün fiziki şəxslər tərəfindən törədilən cinayətlərə görə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlər tətbiq etmək.";

**6.** 19.2-ci maddədə "nümayəndələrinin" sözündən sonra ", habelə barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin" sözləri əlavə edilsin;

**7.** 41.2-ci maddənin birinci cümləsinə "müdafiəçinin" sözündən sonra ", barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsinin" sözləri əlavə edilsin;

**8.** 92.7-ci maddəyə "təqsirləndirilən şəxsin" sözlərindən sonra ", habelə barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin" sözləri əlavə edilsin;

**9.** aşağıdakı məzmunda 227-1-ci maddə əlavə edilsin:

**"Maddə 227-1. Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsinin dindirilməsi**

Cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin hüquqi şəxsin xeyrinə və ya maraqlarının qorunması üçün törədilməsinə dəlalət edən hallar olduqda və bununla əlaqədar hüquqi şəxsin nümayəndəsi dindirildikdə, onun

dindirilməsi bu Məcəllənin 227, 229 və 230-cu maddələrində nəzərdə tutulmuş qaydalara müvafiq aparılır.";

**10.** 291.0.2-ci maddədə "qanuni nümayəndəsini," sözlərindən sonra "barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsini və onun müdafiəçisini," sözləri əlavə edilsin;

**11.** 328.5-ci maddənin birinci cümləsində "təqsirləndirilən" sözü "təqsirləndirilən şəxsə, barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsə və onun nümayəndəsinə" sözləri ilə əvəz edilsin;

**12.** 383.1.6-cı maddədə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 383.1.7-ci maddə əlavə edilsin:

**"383.1.7.** hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinə dair hissədə – hüquqi şəxsin nümayəndəsi və ya müdafiəçisi.

**13.** 384.1.10-cu maddədə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 384.1.11-ci maddə əlavə edilsin:

**"384.1.11.** hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinə dair icraat üzrə məhkəmənin yekun qərarı çıxarıldıqda.";

**14.** aşağıdakı məzmunda 390.8-ci maddə əlavə edilsin:

**"390.8.** Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi ona verilmiş etibarnamə ilə müəyyən edildiyi hallarda, müdafiəçisi isə nümayəndənin razılığı ilə apellyasiya şikayətini geri götürə bilər.";

**15.** 401.1.4-cü maddədə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 401.1.5-ci maddə əlavə edilsin:

**"401.1.5.** hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsinə.";

**16.** 405.2.2-ci maddədə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 405.2.3-cü maddə əlavə edilsin:

**"405.2.3.** hüquqi şəxs barəsində tətbiq edilən cinayət-hüquqi tədbirlərin yüngülləşdirilməsi və ya ağırlaşdırılması.";

**17.** 409-cu maddə üzrə:

**17.1.** 409.1.5-ci maddədə nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 409.1.6-cı maddə əlavə edilsin:

**"409.1.6.** barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsi və ya müdafiəçisi.";

**17.2.** aşağıdakı məzmunda 409.7-1-ci maddə əlavə edilsin:

**"409.7-1.** Barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsi və müdafiəçisi yalnız hüquqi şəxsin mənafeyinə aid hissədən şikayət vermək hüququna malikdirlər.";

**18.** aşağıdakı məzmunda 414.7-1-ci maddə əlavə edilsin:

**"414.7-1.** Barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsi ona verilmiş etibarnamə ilə müəyyən edildiyi hallarda, müdafiəçisi isə nümayəndənin razılığı ilə kassasiya şikayətini geri götürə bilər.";

**19.** 422.3-cü maddədə "nümayəndələri," sözündən sonra "barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsi," sözləri əlavə edilsin;

**20.** aşağıdakı məzmunda LVI-I fəsil əlavə edilsin:

"LVI-I fəsil

**HÜQUQİ ŞƏXS BARƏSİNDƏ CİNAYƏT-HÜQUQİ TƏDBİRLƏRİN TƏTBİQ EDİLMƏSİ ÜZRƏ İCRAAT**

**Maddə 487-1. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın xüsusiyyətləri**

Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat bu Məcəllənin 487-1-487-7-ci maddələri ilə nəzərdə tutulmuş xüsusiyyətlər nəzərə alınmaqla bu Məcəllənin ümumi qaydaları əsasında aparılır.

**Maddə 487-2. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraat**

**487-2.1.** Cinayət işi üzrə ibtidai istintaq zamanı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxslər tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsinə dəlalət edən sübutlar müəyyən edildikdə müstəntiq ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması barədə əsaslandırılmış vəsatət verir. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror vəsatətlə razılaşdıqda hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında qərar qəbul edir.

**487-2.2.** Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxsin şübhəli və ya təqsirləndirilən şəxs qismində tanındığı cinayət işi üzrə ibtidai istintaq, bu Məcəllənin 487-6.6-cı maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, bir icraatda aparılır.

**487-2.3.** İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında qərarın surətini 24 saat ərzində hüquqi şəxsə göndərir.

**487-2.4.** Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat hüquqi şəxsin nümayəndəsinin iştirakı ilə həyata keçirilir.

**487-2.5.** Hüquqi şəxs onun barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraatın başlanması haqqında qərarın surətini aldığı vaxtdan 24 saat ərzində nümayəndəsini təyin etməli və bu barədə cinayət təqibi orqanına məlumat verməlidir.

**487-2.6.** Bu Məcəllənin 487-2.5-ci maddəsində nəzərdə tutulmuş müddətdə hüquqi şəxsin nümayəndəsi təyin edilmədikdə müstəntiq hüquqi şəxsin təsisçisi, rəhbəri və ya digər vəzifəli şəxslərdən birinin hüquqi şəxsin nümayəndəsi kimi tanınması barədə qərar qəbul edir və onun surətini dərhal hüquqi şəxsə göndərir. Hüquqi şəxs həmin nümayəndəni icraatın istənilən mərhələsində dəyişmək hüququna malikdir.

**Maddə 487-3. Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi və müdafiəçisi**

**487-3.1.** Barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat aparılan hüquqi şəxsin nümayəndəsi (bundan sonra – hüquqi şəxsin nümayəndəsi) qismində onun qanuni maraqlarını təmsil etmək üçün notariat qaydasında təsdiq edilmiş etibarnaməsi olan (bu Məcəllənin 487-2.6-cı maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla) şəxs çıxış edir. Hüquqi şəxsin nümayəndəsi cinayət prosesini həyata keçirən orqana şəxsiyyətini və səlahiyyətlərini təsdiq edən sənədləri təqdim etməlidir. Həmin sənədlərin, habelə hüquqi şəxsin nizamnaməsinin, dövlət qeydiyyatına alınması barədə sənədin surətləri cinayət təqibi ilə bağlı materiallara əlavə olunur.

**487-3.2.** Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı hüquqi şəxsin maraqlarını yalnız bir nümayəndə təmsil edir. Hüquqi şəxsin maraqlarını nümayəndə statusuna malik olmayan bir və ya bir neçə müdafiəçi təmsil edə bilər.

**487-3.3.** Hüquqi şəxsin nümayəndəsi yalnız fiziki şəxsə aid edilə bilən hüquq və vəzifələr istisna olmaqla, bu Məcəllə ilə təqsirləndirilən şəxs (məhkum) üçün nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edir və vəzifələri yerinə yetirir. Bu Məcəllə ilə təqsirləndirilən şəxsin (məhkumun) məlumatlandırılması və qərarların surətinin verilməsi nəzərdə tutulmuş bütün hallarda hüquqi şəxsin nümayəndəsinin məlumatlandırılması və qərarların surətinin verilməsi cinayət prosesini həyata keçirən orqanın vəzifəsidir.

**487-3.4.** Cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı ibtidai istintaq orqanı hüquqi şəxsin nümayəndəsi barəsində bu Məcəllənin 178-ci maddəsində nəzərdə tutulmuş qaydada məcburi gətirilmə tətbiq etmək hüququna malikdir.

**Maddə 487-4. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı müəyyən edilməli olan hallar**

**487-4.0.** Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraat zamanı aşağıdakı hallar müəyyən edilməlidir:

**487-4.0.1.** cinayətin hüquqi şəxsi təmsil etmək, onun adından qərarlar qəbul etmək və ya onun fəaliyyətinə nəzarət etmək səlahiyyətinə malik olan vəzifəli şəxs, yaxud həmin vəzifəli şəxslər tərəfindən nəzarətin həyata keçirilməməsi nəticəsində hüquqi şəxsin işçisi tərəfindən törədilməsini təsdiq edən hallar;

**487-4.0.2.** cinayətin hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün törədilməsini təsdiq edən hallar;

**487-4.0.3.** hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsini zəruri edən hallar;

**487-4.0.4.** bu Məcəllənin və cinayət qanununun normalarına əsasən hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməməsini zəruri edən hallar;

**487-4.0.5.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-5.3-cü maddəsinə əsasən hüquqi şəxsə tətbiq olunacaq cinayət-hüquqi tədbirin növü və həddi seçilərkən nəzərə alınan hallar.

**Maddə 487-5. Hüquqi şəxslər barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi**

**487-5.1.** Hüquqi şəxslər barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədilə hüquqi şəxsin əmlakı üzərinə bu Məcəllənin 248-254-cü maddələrində nəzərdə tutulmuş qaydada həbs qoyula bilər.

**487-5.2.** Barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədilə hüquqi şəxsin yenidən təşkil olunması, yaxud təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə ləğv edilməsi müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında, habelə məhkəmənin öz təşəbbüsü ilə və yalnız məhkəmənin qərarına əsasən bu Məcəllənin 446-448-ci maddələrində nəzərdə tutulmuş qaydada qadağan oluna bilər.

**487-5.3.** Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verildikdə, bəraət hökmü çıxarıldıqda və ya hüquqi şəxs barəsində tətbiq olunan cinayət-hüquqi tədbir icraya yönəldildikdə bu Məcəllənin 487-5.2-ci maddəsində nəzərdə tutulmuş prosessual məcburiyyət tədbiri qüvvədən düşmüş sayılır.

**Maddə 487-6. Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəməyədək icraatın qurtarması**

**487-6.1.** Toplanmış sübutları hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi barədə iş üzrə icraatın qurtarması üçün kifayət hesab etdikdə müstəntiq bu Məcəllənin 284-290-cı maddələrində nəzərdə tutulmuş hərəkətləri yerinə yetirir.

**487-6.2.** Bu Məcəllənin 487-2.2-ci maddəsində nəzərdə tutulmuş cinayət işi üzrə tərtib edilən ittiham aktına bu Məcəllənin 487-4.0.1-487-4.0.5-ci maddələrində nəzərdə tutulmuş hallar barədə məlumatlar daxil edilir. İttiham aktında hüquqi şəxsin adı, olduğu yer, təşkilati-hüquqi forması, onun dövlət qeydiyyatını aparmış dövlət orqanının adı, qeydiyyat tarixi və nömrəsi qeyd edilir.

**487-6.3.** Aşağıdakı hallarda hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi haqqında qərar qəbul edilir:

**487-6.3.1.** Bu Məcəllənin 487-2.2-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxs barəsində cinayət işinə bu Məcəllənin 39.1.1-39.1.3-cü, 39.1.6-39.1.8-ci və ya 39.2-ci maddələrində nəzərdə tutulmuş hallarda xitam verildikdə;

**487-6.3.2.** bu Məcəllənin 487-4.0.1-487-4.0.3-cü maddələrində nəzərdə tutulmuş hallar təsdiq edilmədikdə;

**487-6.3.3.** bu Məcəllənin 487-4.0.4-cü maddəsində nəzərdə tutulmuş hallar müəyyən edildikdə.

**487-6.4.** Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi haqqında qərar bu Məcəllənin 280 və 281-ci maddələrində nəzərdə tutulmuş qaydada tərtib edilir, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora və cinayət prosesinin iştirakçılarına göndərilir və həmin qərardan şikayət etmə qaydası izah edilir.

**487-6.5.** İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror ittiham aktı ilə daxil olmuş cinayət işini öyrənir, ittiham aktını təsdiq etdikdə cinayət işini məhkəməyə göndərir və ya bu Məcəllənin 290-cı maddəsində nəzərdə tutulmuş digər qərar qəbul edir.

**487-6.6.** Bu Məcəllənin 487-2.2-ci maddəsində nəzərdə tutulmuş fiziki şəxs barəsində cinayət işinə bu Məcəllənin 39.1.5, 39.1.10-39.1.12-ci və 40.2-ci maddələrində nəzərdə tutulmuş hallarda xitam verildikdə, toplanmış sübutlar hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi və işin məhkəməyə göndərilməsi üçün kifayət hesab edilərsə müstəntiq hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə işin məhkəməyə göndərilməsi haqqında qərar qəbul edir. Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə işin məhkəməyə göndərilməsi haqqında qərar bu Məcəllənin 487-6.2-ci maddəsində nəzərdə tutulmuş qaydada tərtib edilir və bu Məcəllənin 487-6.1-ci və 487-6.5-ci maddələrində nəzərdə tutulmuş tədbirlər həyata keçirilir.

**Maddə 487-7. Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəmə baxışının xüsusiyyətləri**

**487-7.1.** Hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə məhkəmə baxışı bu Məcəllənin 298-358-ci maddələri ilə müəyyən edilmiş qaydada aparılır.

**487-7.2.** Hüquqi şəxsin nümayəndəsi hüquqi şəxsin hüquq və qanuni mənafelərinin müdafiəsi məqsədi ilə məhkəmə baxışı zamanı məhkəmə iclaslarında iştirak edir. Hüquqi şəxsin nümayəndəsi məhkəmə iclasına gəlmədikdə, məhkəmə baxışı təxirə salınır və məhkəmə iclası başqa vaxta keçirilir. Hüquqi şəxsin nümayəndəsinin məhkəmə iclasına üzrsüz səbəblərə görə təkrarən gəlməməsi məhkəmə baxışının davam etdirilməsinə mane olmur, bu halda müdafiəçinin məhkəmə iclasında iştirakı məcburidir.

**487-7.3.** Məhkəmə bu Məcəllənin 487-4.0.1-487-4.0.5-ci maddələrində nəzərdə tutulmuş halları müşavirə otağında müzakirə edərək bu barədə məlumatları, habelə bu Məcəllənin 487-6.2-ci maddəsində nəzərdə tutulmuş məlumatları məhkəmə baxışının nəticələrinə dair yekun qərarında əks etdirir.

**487-7.4.** Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 99-4.1.1–99-4.1.4-cü maddələrində nəzərdə tutulmuş fiziki şəxslər tərəfindən hüquqi şəxsin xeyrinə və ya onun maraqlarının qorunması üçün cinayətin əlamətlərini əks etdirən əməlin törədilməsini sübuta yetirilmiş hesab etdikdə, məhkəmə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi haqqında qərar qəbul edir.

**487-7.5.** Məhkəmə toplanmış sübutları tədqiq edərək bu Məcəllənin 487-6.3-cü maddəsində nəzərdə tutulmuş hallarda hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi haqqında qərar qəbul edir.

**487-7.6.** Hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi və ya hüquqi şəxs barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi üzrə icraata xitam verilməsi məhkəmə baxışının nəticələrinə dair yekun qərarda qeyd olunur.".

**21.** 518.0.1-ci maddədə "cəzanın həddini" sözlərindən sonra ", hüquqi şəxslərə təyin edilmiş cinayət-hüquqi tədbirlərin növlərini və həddini" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2016-cı il
№ 436-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 1, maddə 8, № 8, maddə 686; 2006, № 1, maddə 4; 2007, № 4, maddə 321; 2010, № 7, maddə 596; 2011, № 2, maddə 71, № 6, maddə 484; 2012, № 12, maddə 1228; 2013, № 12, maddə 1467; 2014, № 7, maddə 783; 2015, № 2, maddə 99, № 4, maddə 347, № 11, maddə 1287) 1-ci maddəsində "və hakimlərin" sözləri ", hakimlərin və məhkəmə sisteminin" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2016-cı il
№ 437-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alır:**

“Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 5, maddə 413; 1999, № 5, maddə 284, № 7, maddə 396, № 10, maddə 570; 2001, № 5, maddə 292, № 6, maddə 379, № 7, maddə 455; 2002, № 1, maddə 4, № 12, maddə 706; 2003, № 6, maddə 278; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 4, maddə 199, № 8, maddələr 597, 598, № 9, maddə 669; 2005, № 1, maddə 7, № 8, maddə 686; 2006, № 1, maddə 4, № 12, maddə 1005; 2007, № 5, maddələr 439, 446, № 7, maddə 712, № 11, maddə 1078, № 12, maddə 1222; 2008, № 3, maddə 163, № 7, maddə 609; 2009, № 2, maddə 46, № 11, maddə 878; 2010, № 7, maddə 596, № 10, maddə 842; 2011, № 4, maddə 265; 2013, № 1, maddə 21; 2014, № 2, maddə 85, № 7, maddələr 782, 784; 2015, № 2, maddə 98, № 4, maddə 346, № 5, maddə 483, № 11, maddə 1286; 2016, № 6, maddə 1004) 101-ci maddəsinin beşinci hissəsinin birinci cümləsində “on gün” sözləri “72 saat” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2016-cı il
№ 438-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2, (II kitab), maddə 218; Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 328-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 29.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“29.2.** İşin qanuni hakimin icraatından əsassız götürülməsi və ya bu Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla məhkəmə aidiyyətinin dəyişdirilməsi qadağandır.”.

**2.** 41.5-ci maddədə “halları” sözü “bəraətverici əsasları” sözləri ilə əvəz edilsin.

**3.** 53-cü maddə üzrə:

**3.1.** 53.1.7-ci maddədə “kassasiya instansiyası məhkəməsi” sözləri “məhkəmə” sözü ilə əvəz edilsin.

**3.2.** 53.3.1-ci maddədə “yalnız” sözü “böyük ictimai təhlükə törətməyən cinayətlərə dair işlər üzrə cinayət işinin başlanılmasından 1 (bir) ay, az ağır, ağır və xüsusilə ağır cinayətlərə dair işlər üzrə” sözləri ilə əvəz edilsin.

**3.3.** 53.3.5-ci maddədə “kassasiya instansiyası məhkəməsinin” sözləri “məhkəmənin” sözü ilə əvəz edilsin.

**4.** 65.4-cü maddədə “qərarı mülki işə” sözlərindən sonra “, inzibati və ya iqtisadi mübahisəyə” sözləri əlavə edilsin.

**5.** 65.7-ci maddədə “iş” sözündən sonra “, inzibati və ya iqtisadi mübahisə” sözləri əlavə edilsin.

**6.** Aşağıdakı məzmunda 123-1-ci maddə əlavə edilsin:

**“Maddə 123-1. İnsan alverinin qurbanına bərpa və fikirləşmə müddətinin verilməsi**

Törədilmiş və ya hazırlanan cinayət haqqında məlumatlara baxarkən təhqiqat orqanının əməkdaşı, müstəntiq və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror insan alverinin qurbanına öz vəziyyətini bərpa etmək, cinayətkarların təsirindən yayınmaq və cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etmək üçün 30 gün bərpa və fikirləşmə müddətinin verilməsi barədə qərar qəbul edir.”.

**7.** 142.2-ci maddədə “işlər” sözü “iş, inzibati və ya iqtisadi mübahisə” sözləri ilə əvəz edilsin.

**8.** Aşağıdakı məzmunda 159.10-cu maddə əlavə edilsin:

**“159.10.** Bu Məcəllənin 303 və ya 318.2-ci maddələrinə əsasən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılmış cinayət işləri üzrə təqsirləndirilən şəxsin bu Məcəllənin 159.7-159.9-cu maddələrində göstərilən həbsdə saxlanılma müddətləri başa çatdıqda, məhkəmə tərəfindən həbsdə saxlanılma müddəti bu Məcəllənin 159.2-ci maddəsinin tələblərinə riayət etməklə uzadıla bilər.”

**9.** 207.4-cü maddədə “hadisə yerinə baxış keçirə” sözləri “bu maddə ilə nəzərdə tutulmuş istintaq və digər prosessual hərəkətlərini apara” sözləri ilə əvəz edilsin və “edilməsi” sözündən sonra “, habelə cinayət törətməkdə şübhələnildiyinə görə tutulmuş şəxsə münasibətdə bu Məcəllənin 90.11.2-90.11.5-ci maddələrində müəyyən edilmiş vəzifələrin yerinə yetirməsi ilə bağlı həyata keçirilən prosessual hərəkətlər” sözləri əlavə edilsin.

**10.** 217.1-ci maddədə “(hadisə yerinə baxış keçirilməsindən və ekspertiza təyin edilməsindən başqa bütün istintaq hərəkətləri daxil olmaqla)” sözləri “(bu Məcəllənin 207.4-cü maddəsində nəzərdə tutulmuş prosessual hərəkətlər istisna olmaqla)” sözləri ilə əvəz edilsin.

**11.** Aşağıdakı məzmunda 218.12-ci maddə əlavə edilsin:

**“218.12.** Bu Məcəllənin 303 və ya 318.2-ci maddələrinə əsasən ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılmış cinayət işi üzrə bu Məcəllənin 218.10 və ya 218.11-ci maddələrində göstərilən ibtidai istintaq müddətləri qurtardıqda, Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən iş üzrə ibtidai istintaq müddətləri bu Məcəllənin 218.8 və 218.9-cu maddələrinin tələblərinə riayət etməklə bir dəfə uzadıla bilər.”

**12.** 236-cı maddə üzrə:

**12.1.** 236.3-cü maddədə “azı 2 (iki) hal şahidi iştirak edir” sözləri “hal şahidləri iştirak edə bilər” sözləri ilə əvəz edilsin.

**12.2.** 236.4-cü maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

“Hadisə yerinin baxışı zamanı azı 2 (iki) hal şahidi iştirak etmədikdə videoçəkilişdən istifadə məcburidir.”

**13.** 244.1-ci maddədə “azı 2 (iki) hal şahidinin iştirakı məcburidir” sözləri “hal şahidləri iştirak edə bilər” sözləri ilə əvəz edilsin.

**14.** 245.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Axtarış və ya götürmə zamanı azı 2 (iki) hal şahidi iştirak etmədikdə videoçəkilişdən istifadə məcburidir.”

**15.** 246-cı maddə üzrə:

**15.1.** 246.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

**“246.3.** Şəxsi axtarış və götürmə zamanı videoçəkilişdən istifadə edilmədikdə barəsində şəxsi axtarış və götürmə aparılan şəxslə eyni cinsdən olan azı 2 (iki) hal şahidinin iştirakı məcburidir.”

**15.2.** Aşağıdakı məzmunda 246.4-cü maddə əlavə edilsin:

**“246.4.** Şəxsi axtarış və götürmə zamanı şəxsin soyundurulması zərurəti yarandığı halda videoçəkilişdən istifadəyə yol verilmir. Bu halda şəxsi axtarış və götürmə müstəntiqin tapşırığı ilə barəsində həmin istintaq hərəkəti aparılan şəxslə eyni cinsdən olan şəxslərin iştirakı ilə aparılır.”

**16.** 247.1.5-ci maddədə “olduqları yer”, 247.1.6-cı maddədə “məlumat”, 247.1.7-ci maddədə “qeyd” sözlərindən sonra hər üç halda “(yalnız hal şahidlərinin iştirak etdiyi halda)” sözləri əlavə edilsin.

**17.** 318-ci maddə üzrə:

**17.1.** 318.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

**“318.2.** Məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətin əlamətlərinin mövcudluğu müəyyən edildikdə, dövlət ittihamçısının vəsatəti əsasında məhkəmə irəli sürülmüş ittiham üzrə cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının baxılmasına xitam verilməsi və təqsirləndirilən şəxsə başqa ittihamın irəli sürülməsi məsələsinə baxılması üçün işin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılması barədə əsaslandırılmış qərar çıxarır. Məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətin əlamətlərinin mövcudluğu barədə zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin vəsatəti əsasında məhkəmə bu maddədə nəzərdə tutulmuş qaydada qərar çıxara bilər.”

**17.2.** Aşağıdakı məzmunda 318.2-1 - 318.2-4-cü maddələr əlavə edilsin:

**“318.2-1.** Bu Məcəllənin 318.2-ci maddəsində nəzərdə tutulmuş qərar çıxarıldıqda, məhkəmə həbsdə saxlanılan təqsirləndirilən şəxs barəsində həbsdə sax-

lama müddətinin müəyyən edilməsi məsələsinə baxmalıdır.

**318.2-2.** Təqsirləndirilən şəxsə qarşı başqa ittihamın irəli sürülməsi məsələsinə baxılması üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora qaytarılmış cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraat materialı üzrə bu Məcəllə ilə müəyyən edilmiş qaydada ibtidai araşdırma aparıla bilər. Bu halda ibtidai araşdırma müddəti həmin iş prokurorluğa daxil olduğu vaxtdan əvvəllər aparılmış məhkəməyədək icraat zamanı hesablanmış müddətə əlavə olaraq hesablanır.

**318.2-3.** Cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraat materialı üzrə toplanmış sübutlar təqsirləndirilən şəxsə qarşı başqa ittihamın irəli sürülməsi və işin aidiyyəti məhkəməyə göndərilməsi üçün kifayət hesab edildikdə bu Məcəllənin 284-297-ci maddələrində nəzərdə tutulmuş tələblər yerinə yetirilməlidir. Bu halda cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraat materialı məhkəməyə daxil olduqda məhkəmə icraatı bu Məcəllənin 298-ci maddəsinin tələblərinə uyğun olaraq məhkəmənin ilkin hərəkətləri ilə başlayır.

**318.2-4.** Cinayət işi və ya məhkəməyədək sadələşdirilmiş icraat materialı üzrə təqsirləndirilən şəxsə qarşı başqa ittihamın irəli sürülmədiyi hallarda həmin iş müvafiq məhkəməyə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun əsaslandırılmış qərarı ilə göndərilir. Bu halda məhkəmə bu Məcəllənin 318.2-ci maddəsində nəzərdə tutulmuş qərarı ləğv etməklə məhkəmə baxışını təzələyir və baxışın davam etdirilməsi bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilir."

**18.** Aşağıdakı məzmunda 358.3-cü maddə əlavə edilsin:

**"358.3.** Məhkəmə baxışının nəticələrinə dair məhkəmənin yekun qərarı bir neçə təqsirləndirilən şəxs barəsində çıxarıldıqda, həmin yekun qərar barəsində apellyasiya qaydasında protest və ya şikayət verilməmiş şəxsə münasibətdə və yalnız ona aid hissədə bu Məcəllənin 384.1-ci maddəsində nəzərdə tutulmuş müddətin başa çatdığı vaxtdan sonrakı gün qanuni qüvvəyə minir."

**19.** 391.12-ci maddədə "qərarlarından" sözündən sonra "(bu Məcəllənin 391.3.4-cü maddəsində nəzərdə tutulmuş qərar istisna olmaqla)" sözləri əlavə edilsin.

**20.** 410.1.1-ci maddəsində "391.3" rəqəmindən sonra "(bu Məcəllənin 391.3.4-cü maddəsində nəzərdə tutulmuş qərar istisna olmaqla)" sözləri əlavə edilsin.

**21.** 520-ci maddə üzrə:

**21.1.** 520.6.6-cı maddədə "şəxslərə" sözündən sonra "dərhal" sözü əlavə edilsin.

**21.2.** Aşağıdakı məzmunda 520.6-1-ci maddə əlavə edilsin:

**"520.6-1.** Hökmün və ya məhkəmənin digər yekun qərarının icrası qaydasında məsələlərə dair məhkəmənin qərarı bu Məcəllənin 520.1-ci maddəsində göstərilən müddət daxilində çıxarılmalı və qərarın surəti elan edildiyi vaxtdan 3 (üç) gündən gec olmayaraq bu Məcəllənin 520.2-ci maddəsində göstərilən şəxslərə verilməlidir."

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2016-cı il
№ 439-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171,178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4,

maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298; № 12, maddələr 1437, 1445; 2016-cı il, № 4, maddələr 634, 636, 638, 653; № 5, maddə 845; № 6, maddələr 993, 1001) aşağıdakı dəyişikliklər edilsin:

**1.** aşağıdakı məzmunda 148-1-ci maddə əlavə edilsin:

**«Maddə 148-1. İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək böhtan atma və ya təhqir etmə**

İnternet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə böhtan atma və ya təhqir etmə –

min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya üç yüz altmış saatdan dörd yüz səksən saatadək müddətə ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya bir ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

**Qeyd:** Bu maddədə «saxta istifadəçi adlar, profil və ya hesablar» dedikdə internet informasiya ehtiyatlarında, o cümlədən sosial şəbəkələrdə istifadəçinin şəxsiyyətini eyniləşdirməyə imkan verməyən, yəni ad, soyad və ya ata adına dair yalan məlumat yerləşdirilmiş və ya belə məlumatlar gizlədilmiş, habelə digər şəxsə aid məlumatlardan onun razılığı olmadan istifadə edilməklə yaradılmış istifadəçi adlar, profil və ya hesablar başa düşülür.»;

**2.** 323.1-ci maddənin dispozisiyasında «və ya kütləvi informasiya vasitəsində» sözləri «, kütləvi informasiya vasitəsində və ya kütləvi nümayiş etdirildiyi halda internet informasiya ehtiyatında» sözləri ilə əvəz edilsin.

**3.** aşağıdakı məzmunda 323.1-1-ci maddə əlavə edilsin:

**«323.1-1.** Bu Məcəllənin 323.1-ci maddəsində nəzərdə tutulmuş əməllər internet informasiya ehtiyatında saxta istifadəçi adlar, profil və ya hesablardan istifadə edərək kütləvi nümayiş etdirməklə törədildikdə —

min manatdan min beş yüz manatadək miqdarda cərimə və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.»;

**4.** 323.2-ci maddədə «Eyni əməllər» sözləri «Bu Məcəllənin 323.1 və ya 323.1-1-ci maddələrində nəzərdə tutulmuş əməllər» sözləri ilə, «iki» sözü «üç» sözü ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**
**İlham ƏLİYEV**
Bakı şəhəri, 29 noyabr 2016-cı il
№ 444-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

## Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq qərara alır:

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2, (II kitab), maddə 218; Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 328-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 37.3-cü maddədə "142.1," rəqəmlərindən sonra "148-1," rəqəmləri əlavə edilsin.
2. 215.3.1-ci maddədə "146," rəqəmlərindən sonra "148-1," rəqəmləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 29 noyabr 2016-cı il
№ 445-VQD

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

**Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1**

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, II kitab, maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12, I kitab, maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4, maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264,1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289,1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 6, maddə 1001) 213-1.3-cü maddəsində «Pivənin və tütün məmulatlarının pərakəndə satışı» sözləri «Pərakəndə satış» sözləri ilə əvəz edilsin.

**Maddə 2**

Bu Qanun 2017-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 16 dekabr 2016-cı il
№ 456-VQD

AZƏRBAYCAN RESPUBLİKASI PRTZİDENTİNİN FƏRMANI

**“Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 331-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 331-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**1.1.** Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

**1.2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.3.** mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

**1.4.** həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 sentyabr tarixli 1031 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

**3.1.** 4.1-ci bənddə "463-cü" sözləri "462 (ikinci halda), 463, 471, 472, 473.2, 473.3, 478-ci" sözləri ilə, "548-ci maddəsinin adında" sözləri "478-ci və 548-ci maddələrinin adlarında" sözləri ilə əvəz edilsin;

**3.2.** 4.1-1-ci bənddə "463-cü" sözləri "462, 463, 471, 472, 473.2, 473.3, 478-ci" sözləri ilə, "548-ci maddəsinin adında" sözləri "478-ci və 548-ci maddələrinin adlarında" sözləri ilə əvəz edilsin;

**3.3.** 4.37-ci bənddə "465-ci maddəsində" sözləri "462 (birinci halda) və 465-ci maddələrində" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 20 oktyabr 2016-cı il
№ 1079

AZƏRBAYCAN RESPUBLİKASI PRTZİDENTİNİN FƏRMANI

## Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 12 iyul tarixli 985 nömrəli Fərmanının 4.5-ci bəndinə uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 22 aprel tarixli 744 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 258, № 12, maddə 1058; 2009, № 2, maddə 75, № 7, maddə 532, № 8, maddə 618, № 10, maddə 776; 2010, № 2, maddə 88, № 7, maddə 610, № 8, maddə 717, № 9, maddə 770; 2011, № 4, maddə 282, № 10, maddə 891; 2012, № 8, maddə 787; 2013, № 9, maddə 1046, № 11, maddələr 1321, 1339; 2014, № 2, maddə 122, № 9, maddələr 1027, 1062; 2015, № 2, maddə 121, № 5, maddələr 521, 543, № 9, maddə 989; 2016, № 2 (II kitab), maddə 228, № 3, maddə 470, № 5, maddələr 869, 879; Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 sentyabr tarixli 1027 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi haqqında Əsasnamə"nin 11.11-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 11.12-ci bənd əlavə edilsin:

**"11.12.** Azərbaycan Respublikasının Vergilər Nazirliyi – əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində müvəqqəti və ya daimi yaşamaq hüququnu təsdiq edən sənədlər üzrə, habelə ölkəyə gələn və ölkədən gedən şəxslərin sərhədkeçmə nəzarəti və qeydiyyatı haqqında məlumatlar.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 oktyabr 2016-cı il
№ 1084

AZƏRBAYCAN RESPUBLİKASI PRTZİDENTİNİN FƏRMANI

## "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Beşinci abzasdan "192-1," rəqəmləri çıxarılsın.

**2.** On beşinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda on altıncı abzas əlavə edilsin:

"Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 192-1-ci maddəsində nəzərdə tutulmuş cinayətlərə dair işlər üzrə – bu işi başlamış Azərbaycan Respublikasının Vergilər Nazirliyi və ya daxili işlər (polis) orqanları.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 25 oktyabr 2016-cı il
№ 1085

AZƏRBAYCAN RESPUBLİKASI PRTZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturu"nda dəyişikliklər edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 745 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 428; 2004, № 1, maddə 19, № 12, maddə 1061; 2006, № 9, maddə 809; 2008, № 3, maddə 200; 2009, № 10, maddə 791; 2010, № 1, maddə 42; 2014, № 3, maddə 247, № 7, maddə 892) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Baş Prokurorluğunun strukturu"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6-cı hissədə "Milli Təhlükəsizlik və Fövqəladə Hallar nazirlikləri, Dövlət Sərhəd Xidmətinin" sözləri "Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi və Dövlət Sərhəd xidmətlərinin" sözləri ilə əvəz edilsin.

**2.** 12-ci hissədən "və informasiya" sözləri çıxarılsın.

**3.** Aşağıdakı məzmunda 12-1-ci və 13-1-ci hissələr əlavə edilsin:

**"12-1.** İnformasiya-kommunikasiya texnologiyaları idarəsi

**13-1.** Mətbuat xidməti (şöbə səlahiyyətli)".

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 23 dekabr 2016-cı il
№ 2571